В силу сложившихся обстоятельств руководство Азербайджана поставило во главу угла своей газовой стратегии поиск, а в дальнейшем и строительство альтернативных маршрутов экспорта азербайджанского природного газа на европейские и мировые рынки [6, с.49].

Первым шагом на этом пути стало подписание осенью 2003 года соглашения между правительством Грузии и Грузинской международной нефтяной корпорацией (GIOC) с одной стороны и компанией «Azerbaijan Gas Pipeline Co» с другой, о продаже и покупке природного газа при его транзите через грузинскую территорию по газопроводу «Баку-Тбилиси-Эрзерум» [7]. В 2006 год был введён в строй газопровод Баку-Тбилиси-Эрзерум. Посредством этого газопровода природный газ в размере 7,7 млрд. куб.м, добытый на азербайджанском месторождении «Шахдениз» (Фаза-1), стал транспортироваться в турецкий город Эрзерум, а оттуда и на европейские рынки. С 2007 года азербайджанский природный газ стал транспортироваться из Турции в Грецию. Поставки азербайджанского газа обошлись Греции значительно дешевле. За 1 тыс. куб. м. азербайджанского газа Греция заплатила 149 долл., в то время, как российский газ, обходился

ей в 250-260 долл. за 1 тыс. куб. м. [5, с.62].

Не имевший прецедентов по продолжительности и политическим последствиям российско-украинский газовый кризис 2009 года стал одной из причин срыва поставок газа в Европу. Кризис ускорил реализацию планов Европейской Комиссии по повышению надёжности снабжения стран Европейского Союза природным газом.

В своём выступлении Председатель Европейской комиссии Жозе Мануэл Баррозу на заседании Европарламента в Страсбурге (2009 г.), заявил: "увеличение надёжности энергоснабжения будет одним из основных приоритетов в ближайшие годы. Нам нужно стремиться к лучшему, но быть готовыми к худшему. Европа должна извлечь урок из имевших место ранее кризисных ситуаций и гарантировать, чтобы граждане Евросоюза больше никогда не страдали от нехватки тепла не по своей вине» [3,с.68].

А тем временем объемы поставок азербайджанского природного газа с морского месторождения «Шах-Дениз» на внешние рынки непрерывно увеличивались и их объём в 2010 году, составил 4,9 миллиарда кубометров газа [15].

В 2010 главный оператор «Контракта века» британская компания «BP» приступила к освоению новой стадии газоконденсатного месторождения проекта «Шах-дениз - 2». В рамках проекта «Шах-дениз - 2» предполагалось увеличить добычу газа с 9 до 25 млрд. куб.м. [11].

Европейский Союз проявил особую заинтересованность в деле реализации проекта «Шах-дениз - 2». В январе 2011 года в Баку прибыл президент Европейской Комиссии Хосе Мануэлль Баррозу. Состоялись встречи президента Европейской Комиссии с руководством Азербайджанской Республики, а также с руководством BP и SOCAR. По итогам визита была подписана «Совместная декларация о Южном газовом коридоре». По случаю подписания отмеченной выше декларации президент Еврокомиссии Х.М.Баррозу заявил: "это прорыв, данное соглашение подтверждает прямой выход Европы к газу из Каспийского бассейна, что позволит реализовать проект "Южного коридора". Новый маршрут поставок газа повысит энергетическую безопасность европейских потребителей и предприятий..." [13].

Руководством Азербайджана также была дана высокая оценка положений подписанной декларации. Подводя итоги встречи с президентом Еврокомиссии Х. М. Баррозу, Президент Азербайджана Ильхам Алиев заявил, что «Азербайджан поддерживает реализацию проекта «Южный газовый коридор» и «это означает, что в предстоящие годы наша страна сможет получать выгоду от продажи природного газа» [17].

Таким образом, подписанием совместной декларации был сделан конкретный шаг в деле реализации проекта Южного газового коридора и диверсификации поставок энергоносителей из Азербайджана в Европу. Были достигнуты договорённости следующего порядка:

- Азербайджан предоставит достаточно газа для того, чтобы сделать возможным практическую реализацию "Южного коридора";
- Европа и Азербайджан должны приложить усилия для обеспечения инфраструктуры для долгосрочных и бесперебойных поставок газа в Европу.

И это обстоятельство по праву можно считать конкретным вкладом Азербайджана в процесс обеспечения энергетической безопасности Европы.

5 марта 2011 года Милли Меджлис Азербайджана ратифицировал «Совместную декларацию ЕС и Азербайджана по Южному газовому коридору». Помимо отмеченной декларации были также подписаны «Меморандум о взаимопонимании между Азербайджанской Республикой и Еврокомиссией о Национальной индикативной программе на 2011-2013 годы» и «Меморандум о взаимопонимании между Азербайджанской Республикой и Еврокомиссией по рамочному документу всесторонней институциональной созидательной программы» [19].

В декабре 2011 г. Азербайджан и Турция подписали меморандум по созданию консорциума для строительства газопровода, который обеспечивал бы поставки газа с месторождения «Шах-Дениз» в Европу через

территорию Турции.

Первым шаг в деятельности консорциума стало подписание 26 июня 2012 г. в Стамбуле президентом Азербайджана И. Алиевым и премьер-министром Турции Р.Т.Эрдоганом межправительственного соглашения о реализации проекта Трансанатолийского газопровода TANAP [2, с.130].

Протяженность газопровода TANAP составляла 1850 км. Он предназначен для транспортировки азербайджанского газа с месторождения «Шахдениз» в рамках Стадии-2 от грузино-турецкой границы до западных границ Турции. Соглашение предполагало транспортировку в Турцию 16 млрд. куб. м. природного газа, добываемого во второй фазе месторождения «Шахдениз». 6 млрд. куб. м. из этого объема предполагалось направить на обеспечение внутренних потребностей страны, 10 млрд. куб. м. должны были быть отправлены через турецкую территорию на европейские рынки [12].

Выступая на стамбульской конференции "Восток встречается с Западом": новые границы энергетической безопасности", Президент Азербайджана Ильхам Алиев заявил, что энергетическая безопасность Европы в значительной мере связана с перспективами сотрудничества с Азербайджаном [14].

17 декабря 2013 г. в Баку состоялась церемония подписания итогового инвестиционного решения по проекту второй стадии разработки газоконденсатного месторождения "Шах-Дениз". …. энергетической безопасности, энергетической диверсификации, широкого международного сотрудничества между вовлеченными в этот исторический проект странами и компаниями.

Благодаря своим богатейшим запасам углеводородных ресурсов, Азербайджан стал страной, от которой во многом зависит экономическое развитие, уровень обеспечения энергоресурсами и нефтепродуктами, а так же система энергетической безопасности стран входящих в Европейский Союз.

Созданная система энергетической безопасности стала важной составляющей национальной безопасности как самой республики, так и Европейского сообщества в целом. Это стало возможным за счет масштабных иностранных инвестиций и международной поддержки в процессе транспортировки на европейские энергетические рынки углеводородных ресурсов Каспийского моря на европейские и мировые энергетические рынки.

Представленный материал, данные статистики в отношении динамики добычи мировой природного газа и его продаж на мировых рынках позволят нам говорить о том, что природный газ может претендовать на статус топлива, обеспечивающего стабильное и устойчивое развитие системы энергетической безопасности, как отдельных государств, европейского региона и мирового сообщество в целом.

## СПИСОК ЛИТЕРАТУРЫ

*1. Головина Н.С. Особенности современного этапа формирования газового рынка Европейского Союза. // Газовая промышленность, 2014, №5(704), с.78*

*2. Гусейнова С. А. Газопровод TANAP как один из альтернативных маршрутов обеспечения энергетической безопасности Европы. Вестник Российского университета дружбы народов. Серия: Международные отношения, 2014, №4, с.130*

*3. Европейский Союз: Факты и Комментарии Вып. 55: январь–март 2009 г. М.2009 с.68*

*4. Кавешников Н.Ю. Стратегия ЕС в области климата и энергетики // Современная Европа. 2015. № 1.С. 98.*

*5. Махмудов Р. Растущая роль природного газа в евразийских энергетических «играх» // ЦЕНТРАЛЬНАЯ АЗИЯ И КАВКАЗ", 2007, №6, с. 62*

*6.Мехдиев Е.Т. Энергетический фактор во внешней политике Азербайджана //Проблемы постсоветского пространства. 2016,№1, с.49.*

***Интернет ресурсы***

*7. Азербайджан играет важную роль в обеспечении будущего энергетической безопасности Европы. 13 Августа, 2011 www.1news.az/news/azerbaydzhan-igraet-vazhnuyu-rol-v-obespechenii-buduschego-en...*

*8.В Азербайджане запущен Южный газовый коридор https://www.dw.com › в-азербайджане-*

*запущен-южный-газовый-коридор 29 мая 2018 г.*

*9. В рамках Консультативного совета Южного газового коридора подписана Совместная декларация по итогам пятого заседания министров 20.02.2019 https://azertag.az/../V_ramkah_Konsultativnogosoveta_YUzhnogo_gazovogo_koridora.*

*10. В рамках Мюнхенской конференции по безопасности президент Азербайджана Ильхам Алиев принял участие в «круглом столе» на тему « Стратегии диверсификации» 06 февраля 2015 года https://ru.president.az/articles/14264/print*

*11.Вторая стадия месторождения Шах Дениз: Инфографика - Trend.Az https://www.trend.az › Инфографика*

*12. Гасанов А. Энергетические ресурсы Каспийского бассейна и Южного Кавказа и участие в энергетической безопасности Европы. URL: http://strategiya.az/old/index.php?m=xeber&id=5114.*

*13. Еврокомиссия и Азербайджан дали зеленый свет "Южному коридору" 15.01.2011 / https://inosmi.ru/caucasus/20110115/165662197.html*

*14. Запасы газа в Азербайджане оцениваются в 2,6 трлн. кубометров. Выступление президента Азербайджана И.Алиева в Баку на пятой встрече министров в рамках консультативного совета проекта Южный газовый коридор (ЮГК). interfax.az/view/758125*

*14. Каспийский партнер не подведет. Энергетическая политика Азербайджана заслужила доверие Запада. https://rg.ru/2012/02/28/baku.html*

**XÜLASƏ**

Bu məqalədə müasir dövrümüzdə ən vacib karbohidrogen ehtiyatlarından birinin - təbii qaz ehtiyatlarının geosiyasi əhəmiyyəti, ayrı-ayrı dövlətlərin və bölgələrin, o cümlədən, Azərbaycan Respublikası və Avropa Birliyi ölkələrinin enerji təhlükəsizliyinin təmin edilməsindəki rolu müzakirə olunur. Məqalədə təbii qazın qlobal miqyasda qeyri-bərabər paylanması, Avropa Birliyi ölkələrində bunun kiçik olması Azərbaycanın təbii qazının dünya enerji bazarlarına çıxmasına şəraitin yaradılması faktı qeyd olunur. Respublikamızın bu ehtiyatları əhalinin münasib qiymətlərlə öz ehtiyaclarını ödəməyə imkan verir və eyni zamanda AB-nin enerji təhlükəsizliyini təmin edən bir amil kimi çıxış edir.

**Açar sözlər:** *təbii qaz, karbohidrogen ehtiyatları, qaz ixracatı, TANAP və TAP qaz kəmərləri, enerji sektoru, enerji təhlükəsizliyi.*

**Aliev Abbas**
**Azerbaijan University of Languages.**
**PhD student of the Institute of Law and Human Rights**
**National Academy of Sciences of Azerbaijan**
**E-mail: Abbas.aliev.2016@mail.ru**

## PLACE AND ROLE OF THE GAS VECTOR IN ENSURING THE ENERGY SECURITY OF THE AZERBAIJAN REPUBLIC AND THE EUROPEAN UNION

**SUMMARY**

This article discusses the geopolitical significance of the reserves of one of the most important hydrocarbon resources - natural gas, its role in ensuring the energy security of individual states and regions, in our case, the Republic of Azerbaijan and the European Union. The article notes the fact that the uneven occurrence of natural gas on a global scale, its small reserves in the countries of the European Union created a condition for Azerbaijan's natural gas to enter the world energy markets. Its reserves allow our republic to meet the population's need for it at affordable prices, and also become a determining factor in ensuring the EU's energy security.

**Key words:** *natural gas, hydrocarbon resources, gas exports, TANAR and TAP gas pipelines, energy sector, energy security.*

UOT 327; 930.22

# AZƏRBAYCAN-YUNANISTAN SİYASİ MÜNASİBƏTLƏRİ

**MEHDİ İSMAYILOV**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının dissertantı*
***Azərbaycan***
*E-mail: mehdi.ismayilov75@gmail.com*

**Giriş**

Azərbaycanın xarici siyasətinin mürəkkəb istiqamətlərindən birini Yunanıstanla əlaqələr təşkil edir. Qarşılıqlı münasibətlərə mürəkkəblik gətirən amil bu ölkənin Azərbaycanın strateji müttəfqi olan və qardaş ölkə sayılan Türkiyə ilə ziddiyyətli və münaqişə elementlərinə malik əlaqələrinin olmasıdır. Baxmayaraq ki, hər iki ölkə NATO daxilində müttəfiq hesab olunurlar onların münasibətləri zaman-zaman gərginlik və qarşıdurma həddinə çatır. Belə şəraitdə Azərbaycan Yunanıstanla siyasi əlaqələrini qurarkən və inkişaf etdirərkən həm Türkiyə ilə əlaqələrini mənfi təsirdən qorumalı idi, həm də mümkün olduğu qədər Yunanıstanın işğalçı Ermənistana dəstək verməsini önləməli idi.

**Siyasi əlaqələrin qurulması və inkişafı**

Azərbaycanla Yunanıstan arasında diplomatik münasibətlər 1992-ci ilin aprelində yaradılıb. Yunanıstanın Azərbaycandakı səfirliyi 1993-cü il mayın 27-də, Azərbaycanın Yunanıstandakı səfirliyi isə 2004-cü il aprelin 16-da fəaliyyətə başlayıb.

1994-2004-cü illərdə iki ölkə arasında iqtisadi, sənaye, texnologiya, enerji, elm, təhsil, mədəniyyət, nəqliyyat, investisiyaların qorunması, gömrük sahələrində sazişlər imzalanıb. Yalnız 1997-ci ildə iki ölkə arasında üç mühüm sənəd imzalanmışdır ki bunlardan ikisi – Xarici işlər nazirlikləri arasında əməkdaşlıq haqqında protokol, səfirliklərin konsulluq şöbələrinin funksiyaları haqqında saziş, bilavasitə siyasi əlaqələrin inkişaf etdirilməsinə yönəlmişdir.

Müxtəlif dövrlərdə Azərbaycanda səfərdə olmuş Yunanıstan nazirləri Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsində BMT qətnamələrinin yerinə yetirilməsini, istənilən ölkə ərazisinin işğal olunmasına qarşı çıxdıqlarını bildiriblər.

18 iyun 2003-cü ildə Azərbaycan Prezidenti Heydər Əliyev Yunanıstanın xarici işlər nazirinin müavini İoannis Maqriotisi qəbul edib. Söhbət zamanı Heydər Əliyev qeyd edib ki, Yunanıstanın Avropa Birliyinə sədrlik etdiyi dövrdə Qafqaz ölkələri, o cümlədən Azərbaycanla çox səmərəli əlaqələr yaradıb. Qafqaz ölkələrində, o cümlədən Azərbaycanda geniş fəaliyyət göstərməyi yüksək qiymətləndirən Heydər Əliyev bütün sahələrdə bundan sonra da əməkdaşlıq etməyə hazır olduğunu bildirib. İoannis Maqriotis isə çıxışında bildirib ki: "Cənab Prezident, Sizin bildiyiniz kimi, Yunanıstan Avropa Birliyinə sədrlik etdiyi dövrdə, ilk dəfə olaraq, Qafqaz ölkələri məsələsini Avropa Birliyinin gündəliyinə çıxarıb..... Sizin nəzərinizə çatdırmaq istəyirəm ki, Cənubi Qafqaz ölkələrinə Avropa Birliyinin xüsusi nümayəndəsi təyin olunması bizim sədrliyimiz dövründə baş verib". [3]

İlham Əliyev Prezident seçildikdən sonra Azərbaycan-Yunanıstan əlaqələrinin inkişafı daha da sürətləndi. Yunanıstan prezidenti Konstantinos Stefanopulos 2004-cü il iyunun 20-22-də Azərbaycana rəsmi səfəri qarşılıqlı siyasi əlaqələrin inkişafında yeni mərhələnin əsasın qoydu. Səfər zamanı keçirilən təkbətək görüşdə Prezident İlham Əliyev bildirdi ki, onun ölkəmizə səfəri ikitərəfli əlaqələrin daha da dərinləşməsində yeni mərhələ olacaq. İlham Əliyev bildirib ki, o, Azərbaycan-Yunanıstan münasibətlərinin inkişafı sahəsində ümummilli liderimiz Heydər Əliyevin siyasətini davam etdirəcəkdir.

Azərbaycana rəsmi səfərə dəvətə və yüksək qonaqpərvərliyə görə dövlətimizin başçısına

təşəkkür edən Yunanıstan Prezidenti Konstantinos Stefanopulos ikitərəfli əlaqələrin möhkəmləndirilməsi və ölkələrimiz arasında daha geniş əməkdaşlığa nail olmaq üçün imkanlar olduğunu söyləyib.

Həmin gün Yunanıstan prezidentinə Bakı Slavyan Universitetinin fəxri doktoru adı verilib, həmçinin, prezident müasir yunan dili və mədəniyyəti mərkəzinin açılışında iştirak edib. Yunanıstan prezidentinin səfəri zamanı Azərbaycan Respublikası hökuməti və Yunanıstan Respublikası hökuməti arasında sərmayələrin qarşılıqlı təşviqi və qorunması, beynəlxalq avtomobil daşınmaları və gömrük işi sahəsində qarşılıqlı yardım haqqında sazişlər imzalanıb.(3)

2004-cü il avqustun 12-19-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Afinada keçirilən XXVIII Yay Olimpiya oyunlarının açılış mərasimində iştirak etmək üçün Yunanıstana səfər edib.

Avqustun 15-də XXVIII Yay Olimpiya oyunları çərçivəsində "Azərbaycan günü" keçirilib. İlham Əliyev avqustun 16-da Yunanıstanın Baş naziri K. Karamanlislə görüşdü. Görüşdə Azərbaycan - Yunanıstan münasibətlərinin hazırkı vəziyyətinə toxunan İlham Əliyev iqtisadi əlaqələrin, o cümlədən enerji və digər sahələrdə əməkdaşlığın uğurlu inkişaf etməsindən məmnunluğunu bildirdi.

16-18 fevral 2009-cu il tarixində Azərbaycan Prezidenti İlham Əliyev Yunanıstanda ilk dövlət səfərində olmuşdur. Səfərin birinci günü Azərbaycan Prezidenti İlham Əliyevin və Yunanıstan Prezidenti Karolos Papulyasla görüşüb. Görüşdə ölkələrimiz arasında siyasi, iqtisadi, enerji sahələrində əlaqələrin inkişafından məmnunluq ifadə olunub və bu səfərin qarşılıqlı əlaqələrin genişlənməsi baxımından əhəmiyyəti vurğulanıb.

Bu səfər gedişində iki ölkə arasında energetika və iqtisadi sahədə əməkdaşlıq məsələləri daha da geniş müzakirə və təhlil edilmiş və əməkdaşlığın yeni istiqamətləri müəyyən edilmişdir. Səfər gedişində Azərbaycan Respublikası Hökuməti və Yunanıstan Respublikası Hökuməti arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması haqqında konvensiya, hava əlaqələri haqqında saziş, informasiya və kommunikasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında saziş, Azərbaycan Respublikası Sənaye və Energetika Nazirliyi və Yunanıstan Respublikasının İnkişaf Nazirliyi arasında bərpa olunan enerji ehtiyatları və enerji səmərəliliyi sahəsində anlaşma memorandumu imzalandı.

Prezidentlərin nümayəndə heyyətlərinin iştirakı ilə geniş tərkibdə keçirilən görüşündə cənab İlham Əliyev qeyd etdi ki, səfər zamanı imzalanacaq sənədlər siyasi, iqtisadi, enerji və digər sahələrdə əlaqələrin daha da genişlənməsi üçün yaxşı hüquqi əsas yaradacaqdır. Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında Azərbaycanın fəal iştirakını xatırladan dövlətimizin başçısı bu baxımdan Yunanıstan ilə də enerji sahəsində əməkdaşlığın əhəmiyyətini vurğuladı.

Türkiyə–Yunanıstan qaz kəmərinin açılış mərasimində iştirakını və həmin tədbiri məmnunluqla xatırladan prezident İlham Əliyev qeyd etdi ki, həmin qaz xəttinin açılması Azərbaycan–Yunanıstan əlaqələri, eyni zamanda, regional enerji əməkdaşlığı üçün yeni bir mərhələnin başlanğıcı olmuşdur(5, XXXV kitab s.40). Səfər gedişində keçirilən müxtəlif görüşlərdə prezident İlham Əliyev vurğulamışdır ki, "Mən Yunanıstanla Azərbaycan arasında münasibətlərin inkişafına xüsusi əhəmiyyət verirəm. Yunanıstan Azərbaycanın müstəqilliyini tanıyan ilk dövlətlərdən biridir. Ölkələrimiz həm ikitərəfli əsasda, həm də beynəlxalq aləmdə uğurlu əməkdaşlıq edir. Beynəlxalq və regional təşkilatlarda, o cümlədən Avropa İttifaqının "Yeni qonşuluq siyasəti" proqramı və NATO-nun fərdi tərəfdaşlığın fəaliyyət planı çərçivəsində sıx əlaqələrimiz məmnunluq doğurur. Son illərdə irimiqyaslı beynəlxalq layihələrin həyata keçirilməsi, xüsusən Böyük İpək Yolunun bərpası, Avropa–Qafqaz–Asiya nəqliyyat dəhlizinin yaradılması, eləcə də, Avropanın enerji təhlükəsizliyinin təmin olunması istiqamətində səylərimiz bəhrəsini verməkdədir"(5,XXXV kitab,səh.48).

17 fevral 2009-cu ildə Prezident İlham Əliyev Afinada Azərbaycan-Yunanıstan biznes forumunda iştirak etdi. Afinada "İşgüzar əməkdaşlığın imkanları" mövzusunda keçirilən biznes forumda Azərbaycan prezidenti çıxış etmiş, hər iki ölkədə

biznes imkanlarına və sərmayə mühitinə dair təqdimatlar, şirkətlərin nümayəndələri arasında ikitərəfli görüşlər keçirilmişdir. Biznes-forumda Yunanıstanın 100-dək, Azərbaycanın isə 20-yə yaxın şirkəti təmsil olunmuşdur.

Həmin gün Prezident İlham Əliyev Afinada Yunanıstan Baş naziri Kostas Karamanlis ilə görüşüb. Görüşdə iki ölkə arasında əlaqələrin genişlənməsindən məmnunluq ifadə olunub, iqtisadi sahədə, xüsusilə də, enerji sahəsində əməkdaşlığın əhəmiyyəti vurğulanıb.

Səfər zamanı prezident İlham Əliyev, həmçinin, fevralın 17-si Yunanıstan parlamentində də olmuşdur. Parlamentin sədri Dmitris Siufas Azərbaycan prezidentinə müraciətində imzalanmış dördtətrəfli sazişin vacibliyini vurğulamış və bildirmişdir ki, Xəzər dənizində hasil olunan təbii qaz ilk dəfə olaraq Avropaya daxil olur. Sədr prezidentin səfərinin Azərbaycan-Yunanıstan arasında nəinki enerji sahəsində, həm də tədqiqatlar, texnologiyalar, sərmayələr, ticarət sahələrində münasibətlərdə yeni mərhələni açacağını bildirmişdir. Prezident İlham Əliyevə yunan parlamentinin qızıl medalı – “Şərəf” – və digər rəmzi hədiyyələr təqdim edilmişdir. İlham Əliyev öz çıxışında təşəkkürünü bildirərək, ikitərəfli münasibətlərin uğurla inkiş etdiyini və ikitərəfli münasibətlərin tarixində Azərbaycan Respublikası Prezidentinin Yunanıstana ilk dövlət səfəri olduğunu və bundan sonra da əlaqələrin daha uğurla yeni pilləyə qədəm qoyacağına ümidvar olduğunu qeyd etmişdir. Prezident, Yunanıstanın Avropa İttifaqı ölkəsi kimi Azərbaycan qazını qəbul edən ilk ölkə olduğunu və bunun hələ ki, məhdud çərçivədə olmasına baxmayaraq, yaxın zamanlarda həcm baxımından daha da böyük müqavilə imzalanmasına ümid etdiyini nəzərə çatdırmışdır.

2009-cu ildə prezident İlham Əliyevin Afinaya rəsmi səfəri zamanı Yunanıstan və Azərbaycan arasında enerji sahəsində əməkdaşlığa dair mühüm razılaşma əldə edildi. Bu razılaşmaya əsasən Yunanıstan artıq Azərbaycan qazını Türkiyənin BOTAŞ şirkətindən deyil, birbaşa alacaq, Türkiyə isə bu qazın nəqlindən yalnız traznzit haqqı alacaqdır. Yunanıstanın baş naziri Kostas Karamanlis və Azərbaycan prezidenti İlham Əliyev danışıqlar zamanı Azərbaycan qazını Avropaya çatdırmaq üçün daha yaxından əməkdaşlıq etmək qərarına gəldilər. Karamanlis danışıqlardan sonra bildirdi ki, Avropa İttifaqı Rusiya qazından olan asılılıqdan qurtarmaq baxımından Azərbaycanı strateji partnyor hesab edir. Bildirilirdi ki, Yunanıstanla Azərbaycan arasında əldə edilmiş razılaşma sayəsində Xəzər dənizindən İtaliya və Qərbi Avropaya qazın nəqli reallaşa bilər.

Qeyd edək ki, Azərbaycan 2007-ci ildən etibarən Yunanıstana qaz ixrac etməyə başlayıb. Mavi yanacaq Gürcüstan ərazisindən keçməklə Türkiyəyə, oradan isə yeni istifadəyə verilən kəmərlə Yunanıstana nəql edilir. Bu kəmərin açılışında Türkiyə, Yunanıstan və Azərbaycan rəhbərləri birgə iştirak etmişdi. Hazırda Yunanıstana nəql edilən Azərbaycan qazının həcmi elə də böyük deyil, lakin gələcəkdə TGİ kəməri vasitəsilə daha çox miqdarda Azərbaycan qazının nəql edilməsi planlaşdırılır. Bu qaz tranzitində Türkiyə əsas oyunçu olmaq niyyətindədir. Yəni Türkiyə çalışır ki, Azərbaycan qazının birinci alıcısı olsun, daha sonra qazı daha baha qiymətə Yunanıstan və İtaliyaya satsın. Bu zaman Türkiyə həm də tranzit ölkə kimi gəlir götürmək imkanları əldə edir.

6 aprel 2011-ci ildə Bakıda keçirilən Azərbaycan Yunanısatn Biznes Forumu inkişaf edən siyasi əlaqələrin təzahürü oldu. Forumda Yunanıstanın prezidenti Karolos Papulyas da iştirak edirdi. Biznes forumda hər iki ölkədən kənd təsərrüfatı və qida sənayesi, səhiyyə və əczaçılıq, enerji, informasiya-kommunikasiya texnologiyaları, maliyyə, logistika, tikinti və digər sahələrdə fəaliyyət göstərən 250-dək iş adamı iştirak etmişdir. Forumda çıxışında Azərbycan Respublikasının Prezidenti İlham Əliyev Yunanıstan və Azərbaycan arasında əlaqələrin yüksək səviyyədə olduğunu, bu əlaqələrin danışıqlar və qarşılıqlı imzalanmış sənədlər sayəsində gələcəkdə daha da inkişaf edəcəyini və dərinləşəcəyini bildirmişdir: “İqtisadi sahədə əməkdaşlığın dərinləşməsi üçün Hökumətlərarası birgə komissiya fəaliyyət göstərir. Bu komissiya vaxtaşırı iclaslar, toplantılar keçirir və iqtisadi sahədə əməkdaşlığın istiqamətlərinin müəyyən edilməsi məsələləri öz həllini tapır. Biz istəyirik ki, ölkələrimiz arasındakı iqtisadi əlaqələr

çoxşaxəli olsun. Prezidentin səfəri çərçivəsində bu məsələlər müzakirə olundu və əminəm ki, iş adamları da iqtisadi əlaqələrimizin inkişafına öz töhfələrini verəcəklər", - deyə prezident öz sözlərində bildirmişdir. [4]

Bundan başqa Azərbaycan və Yunanıstan arasında əlaqələrin kənd təssərrüfatı, informasiya-kommunikasiya texnologiyaları, turizm nəqliyyat, inşaat sahələrində də qarşılıqlı əlaqələrin qurulmasının mümkün olduğu vurğulanmışdır. Prezidetnt, xüsusilə, energetika, neft-qaz sahələrində əməkdaşlığı vurğulamış, və Azərbaycanla Yunanıstan arasında bu sahədə əməkdaşlığın artıq bir neçə ildir ki, mövcud olduğunu bildirmişdir. 5 aprel 2011-ci ildə imzalanmış memoranduma əsasən bu əlaqələrin gələcəkdə daha da genişlənəcəyinə ümidvar olduğunu demişdir. [4]

Yunanıstanın prezidenti Karlos Papulyas isə öz çıxışında Azərbaycanın Qafqazda mühüm coğrafi məkanda yerləşdiyini və xüsusilə bu regionda mühüm rol oynadığını vurğulamışdır. Qarılıqlı biznes forumlarının keçirilməsinin iki ölkə arasında ticari münasibətlərinə böyük təkan verdiyini nəzərə çatdırmışdır. Prezident ikitərəfli iqtisadi və ticari münasibətlər baxımndan bir çox ortaq nöqtələrin olduğunu, xüsusən Yunanıstan iqtisadiyyatının məhsullarının, tikinti materiallarının, kosmetika və əczaçılıq məhsullarının ixracını daha da təşviq etməklə əməkdaşlığın qurulmasının tərəfdarı olduğunu bildirmişdir.[4]

O, həmçinin, bildirmişdir ki, forumda 21 yunan şirkəti təmsil olunmuşdur, bu isə onu göstəriri ki, ikitərəfli əlaqələrimizdə, əməkdaşlığımızda böyük potensial mövcuddur. O da ikitərəfli əlaqələrdə neft-qaz sektorunun mühüm rol oynadığını nəzərə çatdıraraq, bunun ikitərfli münasibətlərin daha da gücləndirəcəyinə və bu əməkdaşlıqdan irəli gələrək, digər sahələrdə də iqtisadiyyatlarını möhkəmləndirəcək birgə layihələri həyata keçirə biləcəyinə inandığını söyləmişdir.

Müsahibələrinin birində Yunanınstanın Azərbaycandakı səfiri bildirmişdir ki, maliyyə böhranı Azərbaycan-yunaıstan əlaqələrinə heç bir neqativ təsir göstərməyib. İkitərəfli əlaqələrin hər iki dövlət üçün mühüm əhəmiyyət kəsb etdiyini vurğulayan səfir heç bir amilə bu gün əldə olunan nailiyyətlərin üzərinə kölgə salmağa imkan verilməməsinin vacibliyini söyləyib. [6]

Qarşılıqlı siyasi əlaqələrin inkişafı baxımından prezident İ.Əliyevin Yunanıstana 2014-ci ilin iyun ayında gerçəkləşən səfəri mühüm rol oynamışdır. Bu səfərə iki aspektdən yanaşmaq lazımdır. Birincisi, Azərbaycanla Yunanıstan ikitərəfli əlaqələri inkişaf etdirilir.

İkincisi, iki ölkə arasındakı əməkdaşlıq Avropa İttifaqının proqramları kontekstində yeni məzmun kəsb edir. Səfər gedişində imzalanan mühüm sənədlərdən birinin "Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi və Yunanıstan Respublikası Xarici İşlər Nazirliyi arasında Avropa İttifaqı məsələləri üzrə əməkdaşlıq haqqında Memorandum" (İnkişaf) olması yuxarıdakı fikri sübut edir. Bu sənəd Azərbaycanın Aİ ilə strateji tərəfdaşlıq proqramının artıq konkret məzmun aldığını ifadə edir. Afina ilə Bakı Avropa İttifaqı kontekstində əməkdaşlığın yeni müddəalarını müəyyənləşdiriblər. Onlar iqtisadi, enerji, siyasi, elm, təhsil, kənd təsərrüfatı, gənclərlə iş sahələrini əhatə edirlər.(2)

Səfər zamanı keçirilən görüşlərdə Yunanıstan prezidenti Karlos Papulyas siyasi münasibətlərin səviyyəsinin çox yüksək olduğunu vurğuladı. Qafqaz ərazisi Avropa İttifaqı üçün xüsusi əhəmiyyət kəsb edir. Buna görə də Yunanıstanın Avropa İttifaqı Şurasına sədrliyi İttifaqla Azərbaycan arasında münasibətlərin daha sürətli inkişafına yardım edir. (5, LXIII kitab s.223-224)

Öz növbəsində Azərbaycan prezidenti qeyd edib ki, "Biz Prezident Papulyas ilə regional təhlükəsizlik məsələlərini də geniş şəkildə müzakirə etdik. Regional təhlükəsizlik üçün ən böyük təhdid Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həll olunmamasıdır. İyirmi ildən çoxdur ki, Ermənistan Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınmış ərazilərinin 20 faizini işğal altında saxlayır. Münaqişənin tezliklə həlli bölgəyə sülh, əməkdaşlıq gətirəcəkdir"(5, LXIII kitab s.205).

Beləliklə, iki ölkə arasında siyasi əlaqələr pozitiv dinamikaya malik olmuşdur. Qarşılıqlı siyasi əaqələrin inkişafı rengional məslələri də əhatə etmişdir. Yunanıstanla siyasi münasibətlərimizin inkişafı üçüncü ölkələrin maraqlarına toxunmamış

və bütövlükdə regional proseslərə müsbət dinamika gətirmişdir. 2016-cı ilin mayında Salonikdə TAP qaz boru kəmərinin inşası ilə bağlı açılış mərasimində iştirak edən Yunanıstanın Baş naziri A.Tsipras bu layihənin Yunanıstanın və bütövlükdə Aİ-nin enerji təhslükəsizliyində mühüm rol oynayacağını bildirmişdir.(1, səh. 518)

**Ermənistanın Azərbaycana hərbi təcavüzü və Yunanıstanın mövqeyi**

Azərbaycanın Yunanıstanla qarşılıqı siyasi münasibətlərinin əsas məsələlərindən biri hər zaman Ermənistanın hərbi təcavüzünün aradan qaldırılmasında Yunan dövlətinin dəstəyinin qazanılması olmuşdur. Münasibətlərin başlanğıcında çox ehtiyatla davranan yunan tərəfi tədricən münaqişənin həllində öz mövqeyini daha aydın və konkret ifadə etməyə başladı. Belə ki, Azərbaycan prezidentinin Yunanıstana ilk səfərində 2009-cu ilin fevral ayında, Yunanıstanın baş naziri və prezidentinin bəyanatlarında problemin həllinə ümumi yanaşma ifadə olunurdu. Yunanıstan prezidenti Karlos Papulyas bildirirdi ki, Yunanıstan "ATƏT-də sədrlik edir və təşkilatın fundamental tələblərinə cavab vermək məqsədi ilə bütün səyləri göstərir. Sədrlik edən tərəf kimi, Yunanıstan Dağlıq Qarabağ münaqişəsinin həllinə çalışır, münaqişənin həllində münasib format sayılan Minsk qrupunun yardımı ilə məsələnin dinc yolla çözülməsinə yönəlmiş qərarların qəbul olunmasını məqbul hesab edir. Problemin həlli Qafqaz regionunda, habelə dünyada sülh və sabitlik üçün həlledici əhəmiyyətə malikdir"(5, XXXV kitab səh.47). Göründüyü kimi bu fikirlərdə münaqişənin həlli prinsiplərinə dair hər hansı konkret fikir ifadə edilməmişdir.

2014-cü ildə Azərbaycana səfər edən Yunanıstan prezidenti münaqişənin həllinə dair daha konkret münasibəti özündə əks etdirən bəyanat vermişdir. Yunanıstan prezidenti bəyan edirdi: "Biz bölgədə təhlükəsizliyi və sabitliyi həmişə dəstəkləyir və inanırıq ki, bu, regional əməkdaşlığa və rifaha səbəb olacaqdır. Yunanıstan xarici siyasətində Dağlıq Qarabağ da daxil olmaqla, münaqişələrin sülh yolu ilə həllinə həmişə tərəfdar olub. Biz münaqişənin tezliklə milli suverenlik və ərazi bütövlüyü prinsiplərinə əsaslanan beynəlxalq hüquq çərçivəsində qaneedici həllinin tapılmasını arzu edirik" (5, LXIII kitab səh.224). Yunanıstan tərəfinin münaqişəyə yanaşmasındakı siyasi fərq özünü aydın şəkildə göstərir. Artıq yunan tərəfi münaqişənin ərazi bütövlüyü və milli suverenlik prinsipləri əsasında həll edilməsini ölkənin rəsmi mövqeyi kimi ifadə edirdi. Yunanıstanın, bu prinsipial mövqeyini Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə münasibətdə qətiyyətlə bildirməsi Azərbaycan üçün əhəmiyyətlidir.

Bununla yanaşı, Yunanıstanın mövqeyi hər zaman belə aydın və dürüst olmamışdır. Yunanıstan 2008-ci ilin 14 mart tarixində BMT-nin Baş Assambleyasının 62-ci sessiyası çərçivəsində qəbul olunmuş "Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət" başlıqlı qətnaməyə səsvermə zamanı bitərəf mövqe tutmuşdur(7). Müxtəlif vaxtlarda qondarma Dağlıq Qarabağ rejiminin nümayəndələrinin Yunanıstana səfər etməsi və Yunanıstandan olan bəzi şəxslərin Azərbaycanın işğal altında olan razilərinə qanunsuz səfərlərinin baş tutması, habelə qondarma rejimlə müxtəlif sahələrdə əməkdaşlıq eməyə çalışan yunan şirkətlərinin olmasına dair məlimatlar müxtəlif vaxtlarda mətbuatda öz əksini tapmışdır. Bütün bu faktlara baxmayaraq, ikitərəfli siyasi əlaəqələrimizdə müsbət inkişaf dinamikası saxlanmışdır. Mürəkkəb geosiyasi şəraitdə inkişaf edən bu əlaqlər neqativ təsirlərdən qorunmuş və Azərbaycanın dövlət maraqları çərçivəsində inkişaf etdirilmişdir.

**Nəticə**

Beləlikə, Azərbaycanın xarici siyasətində ən mürəkkəb siyasi əlaqələrə malik olduğu ölkələrdən biri Yunanıstandır. Siyasi əlaəqələrimiz qarşılıqlı iqtisadi maraqlar üzrəində qurulmiş və inkişaf etdirilmişdir. Yunanıstanın Cənub Qafqaz regionunda olan iqtisadi maraqları regionun başlıca iqtisadi güc mərkəzi kimi Azərbaycanla siyasi əlaəqələrini inkişaf etdirməsinə güclü təkan vermişdir. Eyni zamanda, Yunanıstanın Cənub Şərqi Avropa regionunda uğurlu coğrafi mövqeyi və Avropa strukturlarında oynadığı rol Azərbaycanın bu ölkə ilə əlaqələrini inkişaf etdirməsi üçün mühüm stimul rolunu oynamışdır. Siyasi əlaqələrimizin inkişafının ən mühüm

nəticələrindən biri Yunanıstanın Dağlıq Qarabağ münaqişəsinin həllində Azərbaycanın ədalətli və obyektiv mövqeyini dəstəkləməsi və işğalçı Ermənistana dəstək verməkdən çəkinməsidir.

***Açar sözlər:*** *siyasi əlaqələr, Dağlıq Qarabağ münaqişəsi, enerji amili, beynəlxalq əməkdaşlıq.*

## ƏDƏBİYYAT SİYAHISI

*1. Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətləri. 1991-2016.B.,2017, 899 səh.*

*2. Azərbaycan-Yunanıstan: strateji tərəfdaşlığın iki aspekti// http://newtimes.az/az/organisations/2875*

*3. Azərbaycan-Yunanıstan münasibətlərinə dair ümumi tarixi arayış https://lib.aliyevheritage.org/az/3954050.html*

*4. Bakıda IV Azərbaycan-Yunanıstan biznes forumu keçirilmişdir http://www.president.az/articles/1838*

*5. Əliyev İlham. İnkişaf məqsədimizdir: XXXV kitab.B.,2016,396 s.; LXIII kitab.B.,2018, 408 s.*

*6. Yunanıstan səfiri: "Maliyyə böhranı Yunanıstan-Azərbaycan münasibətlərinə neqativ təsir göstərməyib" http://apa.az/az/news/258618*

*7. Yunanıstan Respublikası/ XİN Arxivi*

## РЕЗЮМЕ

В статье рассматриваются одно из самых сложных направлений нашей внешней политики - политические отношения с Грецией. Автор рассматривает становление, развитие и основные проблемы двусторонних политических отношений, и приходит к выводу, что в целом положительная динамика доминирует во взаимних политических отношениях. Экономические интересы Греции в регионе Южного Кавказа дали сильный толчок развитию политических отношений с Азербайджаном как основным центром экономической мощи региона. В то же время успешное географическое положение Греции в регионе Юго-Восточной Европы и ее роль в европейских структурах сыграли важную роль в развитии отношений Азербайджана с этой страной. Одним из важнейших результатов развития наших политических отношений является поддержка Грецией справедливой и объективной позиции Азербайджана в урегулировании нагорно-карабахского конфликта и сдерживание его от поддержки агрессивной Армении.

***Ключовые слова:*** *политические отношения, конфликт Нагорного Карабаха, энергетический фактор, международного сотрудничество.*

## SUMMARY

The article discusses one of the most difficult areas of our foreign policy - political relations with Greece. The author considers the formation, development and the main problems of bilateral political relations, and comes to the conclusion that overall positive dynamics dominates in mutual political relations. The economic interests of Greece in the South Caucasus region gave a strong impetus to the development of political relations with Azerbaijan as the main center of the region's economic power. At the same time, the successful geographical position of Greece in the region of Southeastern Europe and its role in European structures played an important role in the development of relations between Azerbaijan and this country. One of the most important results of the development of our political relations is the support by Greece of a fair and objective position of Azerbaijan in the settlement of the Nagorno-Karabakh conflict and its containment from supporting aggressive Armenia.

***Key words:*** *Political relations, Nagorno Karabakh conflict, energy factor, international cooperation.*

UOT 327:005.591.45

# AZƏRBAYCANIN BEYNƏLXALQ ALƏMDƏ TANINMASI VƏ BEYNƏLXALQ STRUKTURLARA İNTEQRASİYASI

**GÜNEL MƏLİKLİ**
*BDU-nun Politologiya və sosiologiya kafedrasının müəllimi,*
*Heydər Əliyev irsi və Azərbaycançılıq fəlsəfəsi şöbəsinin böyük elmi işçisi,*
*siyasi elmlər üzrə fəlsəfə doktoru*
***Azərbaycan***
*E-mail: gunelmelikli188@gmail.com*

Azərbaycan Respublikasının milli inkişaf sistemində beynəlxalq strukturlara inteqrasiya mühüm rola malikdir.

Məlumdur ki, Azərbaycan mühüm geosiyasi məkanda yeləşir. 1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikasının öz müstəqilliyini bəyan etməsi yeni xarici siyasət kursunun formalaşmasdırılmasını və həyata keçirilməsini əhəmiyyətli dərəcədə aktuallaşdırdı. Bu siyasət milli dövlətçilik prinsiplərinə uyğun olmalı və ölkəmizin beynəlxalq aləmdə tanınmasına, beynəlxalq strukturlara inteqrasiyasına mümkün qədər əlverişli şərait yaratmalı idi. Bunu həm də ötən əsrdə 80-ci illərin sonu-90-cı illərin əvvəllərində beynəlxalq aləmdə baş verən dəyişikliklər diktə edirdi. Nisbətən qısa müddət ərzində dünyanın bir sıra dövlətləri rəsmi surətdə Azərbaycan Respublikasını tanıdılar. Ölkəmizin 1992-ci il martın 2-də Birləşmiş Millətlər Təşkilatının üzvlüyünə qəbul olunması çox mühüm siyasi nailiyyət kimi dəyərləndirilə bilər. Ötən müddətdə qurumla əməkdaşlıq Azərbaycanın dünya birliyinə sıx inteqrasiyasına nail olmaqla və ölkəmizin beynəlxalq mövqeyini möhkəmləndirməklə yanaşı, həm də Ermənistanın təcavüzkar siyasətini ifşa etməyə geniş imkan yaratmışdır.

Erməni separatizmi və hərbi təcavüzü çox fəal, çevik işləyirdi, 90-cı illərin əvvəllərində respublikamıza rəhbərlik etmiş şəxslərin səriştəsizliyindən, real durumundan məharətlə istifadə edir, yeni-yeni əraziləri öz əllərinə keçirirdilər. Sosial-siyasi və iqtisadi problemlərin getdikcə kəskinləşdiyi və dərinləşdiyi bir şəraitdə xalqın tələbi ilə ali hakimiyyətə qayıdan Ümummilli Lider Heydər Əliyev reallıqları hərtərəfli təhlil edərək dövrün çağırışlarına adekvat cavab verməyə qadir olan fəaliyyət yolu seçdi. Bu yol təcavüzün və millətçi separatizmin qarşısını almağı, onların ağır nəticələrini aradan qaldırmağı, dövlətin ərazi bütövlüyünü və təhlükəsizliyini təmin etməyi, beynəlxalq strukturlarla inteqrasiyaya girməyi və onu genişləndirməyi, öz milli maraqlarını dünya dövlətlərinin kəsişən və toqquşan maraqları ilə uzlaşdırmağı, ölkənin müstəqilliyinə, təhlükəsizliyinə və normal inkişafına beynəlxalq təminatı möhkəmləndirməyi nəzərdə tuturdu. Başqa sözlə, məqsədyönlü, ardıcıl, fəal siyasi kursun işlənib hazırlanmasına və reallaşdırılmasına ehtiyac var idi.

Xalqımızın tarixi, siyasi uğurlarının zəfər trayektoriyası artıq davamlı, kəsilməz xarakter aldı. XX əsrin ikinci yarısında qlobal transformasiya və sarsıntılarla paralel müşayiət olunan zamanda, bəzi ölkələrin süqut, bəzilərinin isə yenidən doğulduğu bir ərəfədə dünya siyasi xəritəsində xalqımız şanlı Azərbaycan tarixi adlı portretin cizgilərində özünü tanıdı, milli özünüdərk və mənlik mərhələlərini qət etdi. Milli ideal – Ümummilli Lider nümunəsində ideyanın missiyası bu dövr üçün qələbələrlə başa çatdırıldı. Azərbaycanda tarixdə ilk dəfə müstəqil milli dövlət yaradıldı. İlk dəfə milli ideya nəzəri sxem kimi qalmayıb dövlətçiliyin varlığını təmin etdi, onu "əbədi, sarsılmaz, və dönməz" (Heydər Əliyev) fenomeni kimi dünya tarixinə həkk etdi. [5. s. 24] Azərbaycan Heydər Əliyevin zamanında bütün dünyaya açıldı. Birləşmiş Millətlər Təşkilatından sonra Avropa Şurası, Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı və digər nüfuzlu beynəlxalq təşkilatların üzvü kimi səmərəli fəaliyyətə başladı, NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramına qoşuldu. 1996-cı ilin dekabrında ATƏT-in Lissabon sammitində 54

üzv dövlətin 53-ü Qarabağın Azərbaycan torpağı olduğunu təsbit etdi. Avropa Şurası Parlament Assambleyasında Ermənistanın təcavüzkar dövlət olduğu tanındı. [6. s. 21]

Heydər Əliyev Azərbaycanın dövlətçilik maraqlarının qorunmasına, müstəqilliyinin möhkəmləndirilməsinə, erməni separatizminin və təcavüzünün nəticələrini aradan qaldırmağa istiqamətlənmiş siyasi strategiyanı həyata keçirərkən ən mühüm amilləri diqqətlə nəzərə alırdı. Bu halda ölkəmizin zəngin iqtisadi potensialı və əlverişli geosiyasi mövqeyi yaratdığı imkanlarla yanaşı beynəlxalq aləmdə cərəyan edən prosesləri ciddi surətdə araşdırır və nəzərə alır, eyni zamanda Azərbaycanın maraqlarına uyğun, bütün incəlikləri nəzərə alan addımlar atırdı. Məhz bu səylərin, konkret addımların nəticəsi idi ki, Azərbaycan ictimai-siyasi, sosial və mədəni-mənəvi həyatın bütün sahələrində həm özünəməxsus cəhətləri yaşada bildi, həm də Şərq və Qərb dəyərlərinin sintezindən yaranmış xüsusiyyətləri əxz edərək, dünya birliyinə inteqrasiya olunmaq xəttinin reallaşmasında uğurlarını artırmağa müvəffəq oldu. Bu yolun seçilməsi mahiyyət etibarilə bir tərəfdən dünya təcrübəsini öyrənmək və özünün iqtisadi-siyasi inkişaf modelini müəyyənləşdirmək, digər tərəfdən isə öz milli maraqlarına uyğun şəkildə dövlətlərarası əməkdaşlığın imkanlarından yararlanmaq üçün əlverişli zəmin yaradırdı. Ümummilli Liderimiz Heydər Əliyev 1993-cü il oktyabr ayının 10-da Prezident seçilməsi ilə bağlı keçirilən rəsmi andiçmə mərasimindəki çıxışında ölkənin xarici siyasətinin ən mühüm istiqamətləri barədə belə demişdir: "Bizim xarici siyasətimiz birinci növbədə Azərbaycanın dövlət müstəqilliyini təmin etməyə yönəldilməlidir. Vəzifə dünyanın bütün dövlətləri ilə bərabərhüquqlu, qarşılıqlı-faydalı əlaqələr yaratmaq və inkişaf etdirməkdən, bu əlaqələrdən həm Azərbaycan Respublikasının beynəlxalq mövqelərini möhkəmlətmək üçün, həm də respublikanın iqtisadiyyatını, elmini, mədəniyyətini inkişaf etdirmək üçün səmərəli istifadə etməkdən ibarətdir".

Dövlətimizin xarici siyasətinin konseptual əsasları, məqsədi, prinsipləri və əsas xüsusiyyətləri Heydər Əliyevin çıxışlarında, Azərbaycan Respublikasının 1995-ci il noyabrın 12-də qəbul edilmiş Konstitusiyasında öz əksini tapmışdır. Respublikamızın xarici siyasəti xalqın, dövlətin strateji maraqlarına əsaslanır, eyni zamanda beynəlxalq hüquq normalarına, beynəlxalq təşkilatların ən mühüm prinsiplərinə, qərarlaşmış bəşəri birgəyaşayış qaydalarına uyğunluğu ilə diqqəti cəlb edir.

BMT, ATƏT və digər beynəlxalq təşkilatların üzvü olan bütün dövlətlər üçün beynəlxalq prinsiplər məcburi xarakter daşıyır. Bu prinsiplərin beynəlxalq münasibətlər sisteminin, habelə sivil birgəyaşayışın əsas hüquq normalarına çevrilməsi çox mürəkkəb tarixi təkamül prosesində reallaşa bilmişdir. Ona görə də dünya dövlətləri, beynəlxalq və məhəlli təşkilatlar BMT-nin Nizamnaməsində, Beynəlxalq Konvensiyalarda, ATƏT-in "Helsinki Aktı"nda (1975-ci il), "Paris Xartiyası"nda (1990-cı il), "İstanbul Xartiyası"da (1999-cu il) öz əksini tapmış prinsip və normalara daha ciddi əməl olunmasına səy göstərməlidirlər. Qərarlaşmış reallıqlar həmin prinsiplərin, normaların daha da zənginləşməsi üçün mühüm mənbə olaraq qalır. Respublikamız özünün hüquqi fəaliyyət və öhdəlik dairəsini getdikcə genişləndirir, təsiri getdikcə güclənən fəal xarici siyasət yeridir.

Müstəqil Azərbaycanın xarici siyasətinin tarixi göstərir ki, 1993-cü ilin yayına qədər ki dövrdə ciddi səhvlərə yol verilmişdir. Bu dövrdə şərti olaraq iki mərhələni ayırd etmək olar: birinci mərhələ 1991-ci ili və 1992-ci ilin birinci yarısını əhatə edir. Bu mərhələdə Azərbaycan dövlətinin xarici siyasətinin əsasını Rusiya-Azərbaycan münasibətləri, bütövlükdə Rusiyaya meyillilik strategiyası təşkil edirdi. SSRİ-nin iflası ilə əlaqədar baş verən hadisələr, habelə regional və beynəlxalq proseslərin real meyilləri nəzərə alınmırdı, Sovetlər sistemini mümkün olan bütün vasitələrlə qoruyub saxlamağa səy göstərirdi. Qeyd olunan mərhələdə Moskvanın təşkil etdiyi referendumun 1991-ci ilin martında Azərbaycanda da keçirilməsi və əhalinin guya mütləq əksəriyyətinin (93,3 faizinin) Sovetlər İttifaqının saxlanılmasına tərəfdar olması barədə məlumatın yayılması reallıqdan uzaq idi, xalqın müstəqillik istəklərini əslində inkar edirdi. Xalqın təkidli təzyiqi, o zamankı sosial-siyasi proseslərin təsiri ilə "Müstəqillik haqqında Bəyannamə"nin (30 avqust 1991-ci il), "Müstəqillik haqqında Konstitusiya Aktı"nın (18 oktyabr 1991-ci il) qəbul edilməsi, lakin faktiki olaraq hüquqi sənəd qüvvəsi kəsb etməməsi real vəziyyəti yaxşı əks etdirirdi. Belovejsk

sazişi (8 dekabr 1991-ci il) əslində SSRİ-nin tam dağılmasını təsdiqləyən addım kimi qiymətləndirilə bilər. Yalnız 1991-ci ilin sonunda, daha dəqiq desək, 1991-ci il dekabr ayının 29-da "Müstəqillik haqqında" referendum keçirildi və beləliklə, 1991-ci il mart referendumunun nəticələri öz hüquqi qüvvəsini itirdi. İlk mərhələdəki hadisə və prosesləri nəzərdən keçirərək belə qənaətə gəlmək olar ki, məlum dövrdə Azərbaycan hökuməti müstəqil siyasət yeridə bilmirdi, real vəziyyətin çağırışlarına uyğun fəaliyyət göstərməyi bacarmırdı.

İkinci mərhələ 1992-ci ilin mart ayından 1993-cü ilin iyun ayına qədərki dövrü əhatə edir; bu mərhələ siyasi hakimiyyətdəki dəyişikliklə bağlı idi. Etiraf edilməlidir ki, yeni hakimiyyət xarici siyasət sahəsində dövlətin qarşısında duran strateji məqsədləri reallaşdırmaq baxımından əvvəlki hakimiyyətdən uzağa gedə bilmirdi. Professor Əli Həsənovun təhlili bu cəhətdən diqqəti cəlb edir: "Əgər birinci mərhələdə məqsəd və məramı bilinməyən xarici siyasət birbaşa Moskvadan diqtə olunurdusa və hər şey Rusiyaya, onun rəhbərlərinin mövqeyinə bağlı idisə, ikinci mərhələdə bunun əksinə, lakin yenə də birtərəfli qaydada, beynəlxalq siyasətin obyektiv gerçəkliyi, dövrün real vəziyyəti və mənafeləri nəzərə alınmadan yalnız Türkiyə ilə münasibətlərə üstünlük verilməsi, başqa dövlətlərlə əsassız gərginliyin yaradılmasına səbəb olan addımların atılması və s. kimi ziyanlı hallar açıq müşahidə olunan ənənə halını alırdı. Bunu isə Azərbaycanın dövlətçilik mənafeyinə cavab verməyən, düşünülməmiş, təhlükəli, ağır və gözlənilməz nəticələr doğuran xarici siyasət xətti kimi qiymətləndirmək olar".

Azərbaycan Respublikası çalışır ki, Avrasiya məkanında özünün əhəmiyyətli geosiyasi vəziyyətinin imkanlarından, zəngin enerji resurslarını dünya bazarlarına çıxarmasının nəticələrindən elə yararlansın ki, o, Cənubi Qafqazın lider dövləti kimi tam etiraf olunsun. Bu status Qərbin köməyi və davamlı dəstəyi üçün çox mühüm amillərdən biri olub, ölkənin dinamik inkişafına geniş yol açır. Münasib şəraitdə qərarlaşan sivil birgəyaşayış qaydaları və normaları, demokratikləşmə prinsipləri həm inkişaf etmiş ölkələrlə əlaqələri dərinləşdirməyə imkan verir, həm də əlaqə və münasibətlərin qurulmasında, zənginləşdirilməsində ölkənin nümunə gücünü artırır, təsir imkanlarının daha əhatəli olmasına kömək edir.

Azərbaycan Respublikasının beynəlxalq münasibətlər sistemində Cənubi Qafqazda, Xəzər regionunda, Azərbaycanda kəsb etdiyi maraq dairələri müəyyənləşdirildi, dünyanın, regionun aparıcı dövlətlərinin, beynəlxalq təşkilatların ölkəmizə münasibətdə yeritdikləri siyasət hərtərəfli təhlil olundu. Heydər Əliyevdən əvvəlki dövrdə Azərbaycan xeyli dərəcədə beynəlxalq təcrid olunmaya məruz qalmışdı.

1993-cü ilin ikinci yarısından etibarən Azərbaycanın geosiyasi vəziyyəti, beynəlxalq siyasətə təsiretmə imkanları nəzərə alınmaqla xarici siyasət kursunda əməli dəyişikliklər aparıldı. Bu halda Avropa ölkələri və ABŞ-la, keçmiş sovet respublikaları ilə, müsəlman dünyası və türkdilli dövlətlər ilə, Cənubi Asiya dövlətləri və digər ölkələr ilə əlaqələrin prioritetləri, istiqamətləri, strategiyası müəyyənləşdirildi, həmin ölkələrlə əlaqə və münasibətlərin düşünülmüş sistemi formalaşdırıldı. Azərbaycan çalışırdı ki, tarixən formalaşmış sosial-iqtisadi, siyasi və mədəni əlaqələrdən müstəqilliyini möhkəmləndirmək istiqamətində səmərəli istifadə etsin, region dövlətlərinin ümdə mənafelərini nəzərə alınmaqla çoxşaxəli, tarazlaşdırılmış siyasət yeritsin. Bu baxımdan ölkəmizin regionda böyük təsir gücünə malik olan Rusiya Federasiyası ilə qarşılıqlı əməkdaşlıq prinsiplərinə əsaslanan ikitərəfli münasibətləri nizamlamaq istiqamətində fəaliyyəti xüsusi qeyd edilməlidir. İki ölkə arasında münasibətləri normallaşdırmaq üçün ən müxtəlif amillər, vasitələr diqqətlə araşdırıldı, tərəflərin maraqlarını nəzərə alan, onların inkişafına yol açan təsirli addımlar atıldı. 1993-cü ilin sentyabrında Heydər Əliyev Moskvada Rusiya Prezidenti B. Yeltsinlə, Rusiyanın başqa rəhbər şəxsləri ilə görüşüb iki ölkə arasında münasibətlərin, əlaqələrin yaxşılaşdırılması məsələlərini müzakirə etdi. Həmin ilin 24 sentyabrında Azərbaycanın MDB-yə daxil olması da əhəmiyyətli addımlardan biri sayıla bilər.

Qərarlaşmaqda olan Yeni beynəlxalq münasibətlər müstəqil dövlətçilik problemlərinin həllinə, qarşıya çıxan təzyiqlərə birlikdə təsir göstərmək imkanlarının artmasına kömək göstərirdi. Müstəqil Dövlətlər Birliyi dövlətləri ilə qarşılıqlı maraqları nəzərə alan, münasibətləri optimallaşdırmaq üçün münasib şərait yaradan əməkdaşlıq imkanları getdikcə güclənirdi. Bu baxımdan Ukrayna, Be-

lorusiya, Gürcüstan və Moldova ilə, həmçinin Orta Asiya respublikaları ilə münasibətlərin yenidən qurulması və inkişaf etdirilməsi xarici siyasətimizin mühüm nailiyyəti qismində nəzərdən keçirilməlidir. Məlumdur ki, 1993-cü ilin sonuna qədər Orta Asiya respublikalarının Azərbaycanla kəskin münasibətləri formalaşmışdı. Münasibətlərin yenidən qurulmasında və əlaqələrin möhkəmləndirilməsində özünü yetərincə doğruldan yeni formalardan, vasitələrdən istifadə olunması tərəflərin ümdə maraqlarına xüsusi diqqət yetirilməsi ilə sıx əlaqələndirilirdi.

Azərbaycanın xarici siyasət fəaliyyətində Qafqaz bölgəsi dövlətlərinin, xalqlarının mehriban qonşuluq münasibətlərinin təmin edilməsi mühüm əhəmiyyətə malik olan istiqamətlərdən biri idi. Tarix boyu bu regionda baş verən ictimai-siyasi proseslərdə qarşıdurma məqamlardan məharətlə istifadə olunmuş, gərginlik əhəmiyyətli dərəcədə gücləndirilmiş, Qafqazda ümumi təhlükəsizlik sisteminin qərarlaşması istiqamətində səylərin qarşısı alınmışdır. Yeni şərait elə xarici siyasət yeridilməsini tələb edirdi ki, Qafqazda strateji dövlətçilik maraqları qorunsun, bölgə dövlətlərinin qarşı-qarşıya qoyulmasına yol verilməsin, onların hərtərəfli əməkdaşlığı həyata keçirilsin. Heydər Əliyevin ciddi səyləri 1993-cü ilin sonundan etibarən respublikamızın xarici siyasətində qeyd edilən istiqamətin daha konkret parametrləri aydın surətdə özünü göstərməyə başladı. 1994-cü ildə Ermənistan-Azərbaycan cəbhəsində atəşkəsin əldə edilməsi məlum istiqamətdə ciddi uğur hesab oluna bilər. 1996-cı il martın 8-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Gürcüstana rəsmi səfəri zamanı "Qafqaz bölgəsində sülh, sabitlik və təhlükəsizlik haqqında" Azərbaycan-Gürcüstan Bəyannaməsinin imzalanması respublikamızın Qafqazda həyata keçirdiyi xarici siyasətin mühüm uğuru idi. Tbilisidə iki dövlət başçısının imzaladığı birgə bəyannamə "Ümumi Qafqaz evi" ideyasının əməli olaraq həyata keçirilməsinin başlanğıcını qoydu... Azərbaycan dövlətinin "Ümumi Qafqaz evi" təşəbbüsü bu gün də aktual təşəbbüs kimi gündəlikdə durur və öz həllini gözləyir." [7. s. 230-231]

Bu sülhsevər ideyanın gerçəkləşməsinə mane olan əsas amil Ermənistanın təcavüzkar siyasəti və həmin siyasətin nəticəsi olaraq regiondakı münaqişələrin hələ də həll edilməməsidir. Məhz Ermənistanın tutduğu destruktiv mövqeyin nəticəsidir ki, Qafqaz bölgəsini sülh, sabitlik və təhlükəsizlik məkanına çevirmək mümkün olmamışdır. Azərbaycan dövlətinin tarixi təkamülünə dair faktlar inandırıcı surətdə sübut edir ki, o, həmişə Yaxın və Orta Şərqin nüfuzlu, aparıcı ölkələri olan Türkiyə və İran ilə əlaqə və münasibətlərinə xüsusi önəm vermişdir. Həmin ölkələrin yeritdiyi siyasət Azərbaycanın həm daxili həyatında, həm də beynəlxalq münasibətlərində özünəməxsus iz buraxmışdır. Müstəqillik şəraitində Azərbaycanın siyasəti elə qurulmalı idi ki, həm bu dövlətlərin imkanlarından dövlətçiliyimizin mühüm problemlərinin həlli üçün səmərəli istifadə olunsun, həm də həmin dövlətlər arasındakı münasibətlərin vəziyyəti respublikamızın inkişafına, real maraqlarının gerçəkləşməsinə mənfi təsir göstərməsin. 1993-cü ilin ortalarına qədərki müddətdə qeyd etdiyimiz məqamlara lazımınca diqqət yetirilmədiyinə görə cənub qonşumuz İranla münasibətlərdə kəskin siyasi-ideoloji qarşıdurma vəziyyəti aydın surətdə nəzərə çarpırdı. Real vəziyyəti dəqiqliklə qiymətləndirən Heydər Əliyev İran-Azərbaycan münasibətlərindəki siyasi-ideoloji qarşıdurmanı aradan qaldırmaq, münasibətləri mehriban qonşuluq və əməkdaşlıq prinsipləri üzərində qurmaq istiqamətində fəal iş aparmağa başladı. Təsadüfü deyildir ki, artıq 1993-cü ilin sonu-1994-cü ilin əvvəllərində İranla əlaqələrdə dönüş yaratmaq mümkün oldu. Azərbaycan dövlətinin məqsədyönlü, ciddi səyləri sayəsində Türkiyə ilə münasibətlər də normal, sivil, qarşılıqlı surətdə faydalı sosial-siyasi, iqtisadi və mədəni əməkdaşlıq məcrasında inkişaf etmək, təkmilləşmək imkanlarıəldə etdi. Region dövlətləri,beynəlxalq qurumlar və strukturlar gördülər ki, iki müstəqil dövlət arasındakı münasibətlər sırf etnik amillərə deyil, ümumən etiraf edilən və bəyənilən beynəlxalq birgəyaşayış normalarına istinad edir. Azərbaycan əsaslı və gərgin səylər nəticəsində Ermənistan Respublikası istisna olmaqla, bütün qonşu dövlətlərlə normal və perspektivli münasibətlər yarada bilmiş, həmin münasibətlərin daha da yaxşılaşdırılması və zənginləşdirilməsi baxımından öz fəaliyyətini əhəmiyyətli dərəcədə gücləndirmişdir. Bu, uğurlu dövlət quruculuğu və fəal, təsirli xarici siyasət kontekstində çox vacib məsələdir. Azərbaycan 1993-cü ilin sonlarından başlayaraq həm region, həm də Şərq və Qərb ölkələri ilə münasibətlərin səviyyəsini yüksəldərək sistemli xarici siyasət kursunu daha da

təkmilləşdirir.

Heydər Əliyev müstəqil Azərbaycanın prezidenti kimi Fransaya ilk rəsmi səfərindən dərhal sonra, 1994-cü ilin fevralında qardaş Türkiyə Respublikasına səfər etdi. Türkiyə Prezidentinin iqamətgahı – Çankaya köşkündə Azərbaycan Prezidentinin yaylım atəşilə müşayiət olunan rəsmi qarşılanma mərasimindən start götürən görüşlər və danışıqlar dörd gün davam etdi. Görüşləri yaxından izləyən türk jurnalisti, “Sabah” qəzetinin əməkdaşı Məhəmmədəli Viron azərbaycanlı həmkarına verdiyi müsahibədə bidirir: “Heydər Əliyevin burada keçirdiyi görüşlərdən heyrətə gəldim. Türkiyə indiyə qədər kimsəyə bu qədər hörmət və iltifat göstərməmişdir. Bu, Əliyevə verilən dəstəyin ən parlaq nişanəsi idi. Məncə, Heydər Əliyev Ankaradakı görüşlərində istədiyi köməyi əldə etdi. Ankara bu görüşlərdən son dərəcə məmnundur”. [1. s. 418]

Respublikamızın xarici siyasətinin mühüm prioritetlərinindən biri 1994-cü ildən başlayaraq həyata keçirilən yeni neft strategiyasının reallaşdırılması üçün mümkün qədər əlverişli, təhlükəsiz şəraitin yaradılmasıdır. Xəzər dənizinin Azərbaycan sektorunda mövcud olan karbohidrogen ehtiyatlarının Qərbin müvafiq texnologiyasından və investisiya imkanlarından istifadə etməklə təhlükəsiz yollarla Azərbaycanın xarici siyasət fəaliyyətində balanslı regional siyasət yeridilməsi xüsusi bir prioritet kimi çıxış edir. Burada qərarlaşan əlaqələr və münasibətlər sistemi kifayət qədər mürəkkəb və ziddiyyətlidir. Müstəqil Dövlətlər Birliyi, İslam Əməkdaşlıq Təşkilatı, Türkdilli Dövlətlər Birliyi, Avropa İttifaqı, Çin, ABŞ və s. ölkələrin və təşkilatların özünəməxsus maraqlarından bəhs etmək olar. Azərbaycan strateji maraqları üst-üstə düşən ölkələrlə müttəfiqlik əlaqələrini daha da inkişaf etdirmək, kəsişən və toqquşan maraqları olan dövlətlərə münasibətdə orta nöqtə tapmaq və əlaqələri yaxşılaşdırmaq, TRASEKA, Şərq-Qərb enerji –nəqliyyat-kommunikasiya layihələrinin reallaşdırılmasına birlikdə səy göstərmək istiqamətlərində fəallığını artırır. Xəzər dənizinin statusunun həlli regional siyasətdə əməkdaşlıq və qarşılıqlı surətdə faydalı birgə fəaliyyət üçün yaxşı imkanlar yaradır. Ermənistanın regional layihələrdən kənarda qalması isə onun işğalçılıq, təcavüzkarlıq siyasətinin real nəticəsi kimi dəyərləndirilməlidir.

Beynəlxalq münasibətlər sistemində hər bir dövlətin yeri və rolu müxtəlif amillərlə, xüsusəndə onun xarici siyasət resursları ilə müəyyən olunur. Xarici siyasət resursları anlayışına dövlətin maddi və mənəvi həyatının bütöv varlığı (güc faktorlarının cəmi) daxildir. Dövlət bu resurslara arxalanaraq beynəlxalq münasibətlər sistemində öz siyasətini məqsədyönlü fəaliyyətini həyata keçirir.

Adətən xarici siyasət resurslarını iki qrupa ayırırlar: maddi və qeyri-maddi resurslar. Maddi resurslara coğrafi, demoqrafik, iqtisadi və hərbi sahədəki resursları, qeyri-maddi resurslar sırasına isə siyasi, sosial, mədəni-ideoloji, informasiya, elmi, elmi-texniki və təhsil resurslarını aid etmək edirlər. Bu resurslar qarşıya qoyulmuş məqsəd və vəzifələri reallaşdırmaq baxımından həm pozitiv, həm də neqativ rol oynaya bilər.[7. s. 254-255]

Tarixi prosesin ayrı-ayrı dövlətlərində, mərhələlərində müxtəlif ölkələrin xarici siyasət resurslarının rolu, bu resurslara müvafiq olaraq formalaşan dövlətlərarası ierarxik nizam dəyişilir, yeni xüsusiyyətlər kəsb edir. Müasir şəraitdə qloballaşmanın və transmilli siyasətin təsiri nəticəsində rəqabət mübarizəsi daha çox transmilli maliyyə, intellektual, informasiya, nəqliyyat-kommunikasiya, enerji resursları və şəbəkələri sahələrini əhatə edir. Lakin bu, digər xarici siyasət resurslarının əhəmiyyətini azaltmır.

Belə demək olar ki, Azərbaycan hələ SSRİ-nin tərkibində olarkən onun xarici siyasət resursları əsasən formalaşmışdı. Lakin həmin resurslardan müstəqil dövlət maraqlarının reallaşması istiqamətində istifadə olunması 1992-ci ildən başlanmışdır. Coğrafi-ərazi resurslarına görə Azərbaycan Cənubi Qafqazın ən böyük, əlverişli dövləti hesab olunur. Ölkəni əhatə edən geosiyasi mühit müəyyən problemlərə, münaqişələrə yol açsa da, ümumilikdə Azərbaycanın əlverişli mövqeyinin əhəmiyyəti etiraf edilir. Qeyd edilir ki, Azərbaycan Avrasiyanın nadir məkanı, Şərq-Qərb nəqliyyat-kommunikasiya və enerji dəhlizinin mərkəzi dövlətidir. Ölkəmiz qədim “İpək yolu” (bu yol Çindən Avropaya və bütün dünyaya açılan ən münasib və əlverişli dəhlizdir) adlanan TRASEKA nəqliyyat-kommunikasiya Layihəsinin, Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərlərinin əsas təşəbbüsçüsüdür, təminatçılarından biridir. Azərbaycan Cənubi Asiya, Rusiya, İran, Avropa nəqliyyat dəhlizində də fəal iştirak edir, tranzit

ölkə olaraq Şərq-Qərb əmtəə, enerji-yanacaq və s. əlaqələrin əsas mərkəzləri sırasında mühüm yer tutur. Bu mövqe getdikcə güclənir, öz imkanlarını artırır.

Ölkəmizin iqtisadi resursları da yüksək qiymətləndirilir. Azərbaycan zəngin təbii ehtiyyatlara, əlverişli iqlim və münbit torpağa, kənd təsərrüfatı və sənaye infrastrukturuna, turizm üçün münasib resurslara malik olması onun iqtisadi perspektivlərini xüsusən cəlbedici edir. İqtisadiyyatda yerli kapitalın və qeyri-neft sektorunun payının artması, dövlətin xarici borclarının aşağı həddə olması və inkişaf üçün heç bir təhlükə yaratması da ciddi göstəricilər sırasına daxildir. Müxtəlif iqtisadi göstəricilərin getdikcə yaxşılaşması ölkəmizin dünyanın iqtisadi sisteminə inteqrasiyası üçün daha fəal stimul yaradır. Təsadüfü deyildir ki, ABŞ və bir çox Qərb ölkəsi Azərbaycanı özlərinin kifayət qədər sabit və etibarlı partnyorlarından biri kimi dəyərləndirirlər. Azərbaycan investisiyaların qoyuluşu həcminə görə qabaqcıl ölkələr sırasında özünə layiqli yer tuta bilmişdir.

Respublikamızın hərbi resurslarına görə də Cənubi Qafqazın Lider dövlətidir. Hazırda ordu quruculuğu uğurla davam etdirilir, onun təchizatı əhəmiyyətli dərəcədə yaxşılaşır, peşəkarlığı müasir tələblərə və standartlara cavab verir.

Azərbaycanın siyasi resursları getdikcə güclənir, hakimiyyət qollarının fəaliyyəti daha rasional xarakter kəsb edir, onlar arasında konstruktiv əməkdaşlıq və anlaşma mühiti hökm sürür, daxili və xarici siyasətin vahid strateji xətdə daha optimal tərzdə birləşməsi təmin olunur. Heydər Əliyevin rəhbərliyi altında ölkəmizin siyasi hakimiyyəti dəqiq müəyyənləşdirilmiş xarici siyasət prioritetləri istiqamətləri və vəzifələri çərçivəsində səmərəli fəaliyyət göstərmək sayəsində ciddi nailiyyətlər qazana bilmiş, beynəlxalq münasibətlərin fəal aktoruna çevrilmişdir. Milli maraqlarımıza tam uyğun olaraq: Azərbaycanın xarici dövlətlərlə, beynəlxalq milli və regional təşkilatlarla əlaqələri güclənmiş, məzmunca dolğunlaşmışdır. Bütün bu uğurlu səylərin nəticəsidir ki, ölkəmizin beynəlxalq aləmdəki rolu, təsir gücü xeyli yüksəlmişdir. Bir cəhətə də ciddi diqqət yetirilməlidir: qazanılan nailiyyətlər həm də, qeyri-konstruktiv fəaliyyət göstərən, antimilli mənbələrlə bağlı olan milli maraqların təmin olunmasına əngəl törədən qüvvələrə qarşı mübarizə şəraitində mümkün olmuşdur.

Azərbaycan dövlətinin yeritdiyi siyasət nəticəsində ölkəmizin xarici siyasət sahəsində mövcud olan sosial resurslar daha da güclənmiş və beynəlxalq aləmdə mühüm amil olduğunu sübut etmişdir. Belə resurslar sırasına vətəndaş birliyi, milli maraqların, ölkədaxili sabitliyin daha əzmlə qorunması, dövlət siyasətinə dəstəyin getdikcə güclənməsi və s. aid edilə bilər. Lakin nəzərə almalıyıq, istər ölkə daxilində, istərsə də xaricdə elə qüvvələr vardır ki, onlar sosial resursların təsir imkanlarını azaltmağa məhdudlaşdırmağa cəhd edirlər. Ona görə də belə cəhdlərin qarşısını almaq istiqamətində səylər gücləndirilməli, daha konkret səciyyə daşımalıdır. Ölkədə sosial-siyasi və institusional resursların daha fəal, daha səmərəli istifadə olunması, müvafiq qurumların, strukturların işinin daha optimal tərzdə əlaqələndirilməsi təmin olunmalıdır.

Respublikamızda gedən dünyəvi, hüquqi, demokratik, sosialyönümlü dövıət quruculuğu prosesləri və qazanılan nailiyyətlər onun beynəlxalq aləmdə imicini daha da yüksəldir, dünyanın qlobal informasiya məkanına təsir dairəsini genişləndirir. Azərbaycanın beynəlxalq aləmlə ikitərəfli və çoxtərəfli münasibətləri genişlənir və dərinləşir - bu, həm daxili siyasətin reallıqlara uyğun qurulması və həyata keçirilməsinin, həm də xarici siyasət mexanizmlərinin təkmilləşdirilməsi və mövcud resursların səfərbər edilməsi və onlardan səmərəli istifadə olunmasının nəticəsidir.

Azərbaycanın beynəlxalq və məhəlli təşkilatlarla sıx əlaqələr yaratması və bu əlaqələri daim diqqətdə saxlaması onun böyük dünya siyasətinə qatılması və inteqrasiyası üçün əlverişli zəmin yaradırdı. BMT, Avropa Birliyi, Avropa Şurası, ATƏT, MDB, İKT, EKO, QDİƏT və digər təşkilatlarla hərtərəfli münasibətlərin qurulması bu baxımdan xüsusi qeyd olunmalıdır. Ölkəmizdə müstəqil dövlət quruculuğu prosesində Ermənistanın təcavüzünün dəf edilməsi, respublikamızın ərazi bütövlüyünün bərpa olunması, beynəlxalq aləmin dəstəyi ilə Dağlıq Qarabağ probleminin həlli üçün ciddi səylər göstərilməsi daim ən mühüm istiqamətlərdən biri olmuşdur. Dağlıq Qarabağ münaqişəsinin tarixi inandırıcı surətdə göstərir ki, münaqişənin tənzimlənməsində beynəlxalq rəy, nüfuzlu dövlətlərin və beynəlxalq təşkilatların dəstəyi, fəal diplomatik iş aparılması çox əhəmiyyətli amillərdir. Bu, əlbəttə, güclü

ordu formalaşdırılmasının və onun qüdrətinin artırılmasının əhəmiyyətini qətiyyən azaltmır. Təsadüfü deyildir ki, Azərbaycan diplomatiyası müstəqillik yolu ilə inamla irəliləyən ölkəmizin bütün dünyada tanınması, nüfuzunun artması, ictimai həyatın ən müxtəlif sahələrində əməkdaşlığın genişlənməsi istiqamətində səylərini daha da artırmışdır. Bu səylər Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üçün çox vacib olan beynəlxalq dəstəyin əldə edilməsi üçün təminatları gücləndirmişdir. Qeyd edilən məsələlər kompleksini əhatə edən və mühüm vəzifələri konkretləşdirən xüsusi konsepsiyanın işlənib hazırlanması və tətbiqi özünü tamamilə doğrultmuşdur. Əli Həsənov bu konsepsiyanın ən vacib elementləri qismində aşağıdakıları qeyd etmişdir:

Birincisi, Ermənistanı dəstəkləyən ölkələrin bir qismi bitərəfləşdirilmiş, münaqişəyə münasibətdə əvvəlcədən bitərəf qalan dövlətlər Azərbaycanın ədalətli mövqelərinin müdafiəsinə cəlb edilmiş, müstəqil dövlətçiliyimizi müdafiə edən dövlətlərin, beynəlxalq təşkilatların bu işə qoşulması üçün fəal siyasi-diplomatik iş aparılmışdır.

İkincisi, Dağlıq Qarabağ ətrafında yaranmış problemlərin tarixi, mahiyyəti, kökləri hərtərəfli açıqlanmış, Azərbaycanın haqq səsi bütün dünya ictimaiyyətinə çatdırılmış, mövcud informasiya boşluğu doldurulmuş, dünyada ictimai rəyin Azərbaycanın xeyrinə dəyişilməsi təmin edilmişdir. İnandırıcı surətdə sübut olunmuşdur ki, münaqişə Azərbaycanın müstəqilliyi, istiqlaliyyəti yolunda süni surətdə yaradılmış maneədir, ayrı-ayrı dövlətlər tərəfindən düşünülmüş siyasi məsələdir və Ermənistanın Azərbaycana qarşı ərazi iddiasının nəticəsidir.

Üçüncüsü, sübut edilmişdir ki, Dağlıq Qarabağda yaşayan ermənilərin Azərbaycan dövlətinə qarşı çıxışları beynəlxalq separatizmin tərkib hissəsi olub, qorxulu və ağır nəticələr törədən problemdir, digər ölkələrdə oxşar halların meydana çıxmasına təkan verən çox təhlükəli prosesdir. Ona görə də belə halların qarşısını almaq olduqca vacibdir.

Dördüncüsü, sübut olunmuşdur ki, bu problem Azərbaycanın Qərbə inteqrasiyasının qarşısını almaq, ayrı-ayrı region dövlətlərinin təsir və nüfuz dairəsində saxlamaq üçün xüsusi məqsədlə ortaya atılmış bir məsələdir. [7. s. 234.]

Azərbaycanın yeritdiyi siyasətdə terrorizmə qarşı mübarizə prioritet istiqamətlərdən birini təşkil edir. Hələ Sovet İttifaq tərkibində olduğu zaman erməni terrorizminə məruz qalmış, onun təhlükələrinə ciddi diqqət yetirilməsini vacib saymışdır. Lakin uzun müddət Azərbaycanın bu məsələ ilə əlaqədar çağırışlarına yetərincə reaksiya verilməmişdir. Lakin 2001-ci ilin sentyabrında ABŞ-da törədilmiş terror aktından sonra beynəlxalq aləmdə bu təhlükəyə münasibət dəyişilmiş və antiterror koalisiyası formalaşmağa başlamışdır. Azərbaycan terrorizmin bütün təzahürlərini pisləyən və ona qarşı fəal mübarizəyə qoşulan ilk ölkələrdən biri olması dövlətimizin sülməramlı missiyasını yaxşı nümayiş etdirir. Azərbaycanın hərbi kontingentinin hazırda Əfqanıstanda beynəlxalq sülməramlı qüvvələrin tərkibində iştirakı dediklərimizə konkret nümunədir.

Azərbaycanın beynəlxalq məhəlli təşkilatların yaratdıqları imkanlardan istifadə edərək, müxtəlif səviyyəli tədbirlərdə dövlətimizin terrorizmin istənilən təzahürlərinə qarşı mübarizədə beynəlxalq əməkdaşlığa hazır olduğunu bəyan etmişdir. Respublikamızın terrorizmə qarşı mübarizəsi ardıcıl, prinsipial xarakterə malikdir. Təsadüfi deyildir ki, Azərbaycan regionun və beynəlxalq aləmin ən mühüm problemlərinin həllində ümumilikdə etiraf olunan daha təsirli və nüfuzlu mövqe qazana bilmişdir. Bu gün Azərbaycan çox mötəbər beynəlxalq tədbirlərə ev sahibliyi edir, demokratik, sosial yönümlü islahatlar keçirir, iqtisadi və sosial mədəni inkişafın başlıca göstəriciləri üzrə öz nailiyyətlərini artırır, fəal xarici siyasət yeridir. Hazırda dünyanın ən qüdrətli dövlətlərinin, mötəbər təşkilat və qurumlarının diqqətinin Azərbaycana yönəlməsi təsadüfi olmayıb, real irəliləyişlərlə, inkişafla əlaqədardır.

Heydər Əliyevin ali hakimiyyətə qayıdışı, respublikaya rəhbərlik etməsi, real və praqmatik siyasət yeritməsi sayəsində bütün vətəndaşların, bütün qrupların və təbəqələrin həmrəyliyini təmin etmək, Azərbaycanın müstəqil dövlətçiliyini və ərazi bütövlüyünü qorumaq istiqamətində, səfərbər olunması həyata keçirildi. Silahlı dəstələrin, qruplaşmaların ləğvi, fəal surətdə dövlət quruculuğu proseslərinin davam etməsi ölkəmizin təhlükəsizliyinin təmin olunmasında əhəmiyyətli rol oynadı. Azərbaycanın milli, regional və qlobal səviyyədə maraqlarının qorunması üçün həm böyük dövlətlərlə, həm də

müxtəlif səviyyəli təşkilatlarla, o cümlədən diaspora mərkəzləri ilə aparılan işin səviyyəsi əhəmiyyətli dərəcə yüksəldi, nəticələr daha dolğun məzmun kəsb etdi. Çevik və operativ fəaliyyət proqramının hazırlanması və reallaşdırılması insanların dövlətə, hakimiyyət orqanlarına və strukturlarına inamını xeyli artırdı, bütövlükdə cəmiyyətdə təşəbbüskarlıq, işgüzarlıq, fəallıq əhval-ruhiyyəsi, perspektiv inkişafı, təkamülü daha obyektiv, daha konkret proqnozlaşdırmaq imkanları əhəmiyyətli dərəcədə yüksəldi.

Azərbaycanın AŞPA-dakı nümayəndə heyətinin fəaliyyəti "kreativ diplomatiya"nın bariz nümunəsi idi. Azərbaycan bu quruma üzv olmaq üçün ciddi addımlar atdı. Əvvəlcə ölkəmizə "xüsusi dəvət olunmuş qonaq" statusu verildi. 1996-cı ilin sentyabrında Azərbaycanın AŞ-yə qəbul olunmasını nəzərdə tutan qətnamə qəbul edildi. Artıq 1997-ci ilin yazında AŞPA Cənub Qafqazdakı münaqişələrin həlli imkanlarını müzakirə etdi. Həmin ilin oktyabrında isə Prezident Heydər Əliyev Strasburqda AŞ –yə tamhüquqlu üzv kimi qəbul edilməsi ilə bağlı müsbət rəy verdi. Nəhayət, Azərbaycan Ulu öndərin böyük səyləri hesabına 2001-ci ilin yanvarında AŞ-nin tamhüquqlu üzvü oldu. [10. s. 82] Azərbaycan prezidentinin məruzəsində xüsusi diqqət çəkən məqamlardan biri çox israrlı şəkildə öncədən də bəyan etdiyi fikrə söykənirdi: "Avropa Şurası Azərbaycana nə qədər lazımdırsa, Azərbaycan da Avropa Şurasına bir o qədər lazımdır". Tarixi yolların qovuşuğunda yerləşən ölkəmizin Avropa Şurasına qəbul olunması həm Azərbaycan üçün, həm də bu bu təşkilat üçün çox mühüm hadisədir. [8. s. 347, 348] Tarixin axarını dəyişən ideya və prinsiplərin daşıyıcısı olan Heydər Əliyevin milli mənafelərin təmininə hesablanmış məqsədyönlü siyasəti coğrafi siyasəti coğrafi ölçüləri baxımından kiçik Azərbaycanın dünyanın siyasi xəritəsində ən güclü dövlətlərlə müqayisəsinə şərait yaratdı. Akademik Ramiz Mehdiyevin söylədiyi fikirlər xüsusi maraq doğurur: "Heydər Əliyev iki əsrin ayrıcında öz ölkəsinin dövlət adlı gəmisini qlobal sarsıntılar dövrünün fırtınalarından sağ-salamat və uğurla keçirərək, ölkənin milli dəyərlərinin, insanların mənəvi sağlamlığının, özlərinə inamının qorunub saxlanılmasına müvəffəq olmuşdur. Siyasətin ön səhnəsində olduğu otuz dörd il ərzində, o, XX-XXI əsrlərin görkəmli siyasətçilərindən biri, müasir dövrün böyük siyasi lideri kimi bütün dünyada tanınmışdır". Gördüyü bütün təqdirəlayiq işlər ilə xalqın rəğbətini qazanan, Azərbaycanın milli maraqlarını qoruyan, ölkəmizin təhlükəsizliyinə nail olan cənab İlham Əliyev Ulu Öndərin layiqli davamçısı kimi alternativsiz lider olaraq qəbul edilir. [9. s. 3]

Azərbaycan xalqının dahi öndəri Heydər Əliyev 2003-cü il prezident seçkiləri dövründə cənab İlham Əliyevi şəxsiyyət və dövlət xadimi kimi xarakterizə edərkən deyirdi: "İlham Əliyev yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir siyasətçdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirəcək, Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri, İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə ümidlər bəsləyirəm". "Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm" – ifadəsi İlham Əliyevin bütövlükdə xarakter cizgilərini, onun imkan və potensialını, böyük qabiliyyət və bacarığını ifadə edirdi. Yeni dövrün görkəmli siyasətçisi və dövlət xadimi kimi möhtərəm Prezident İlham Əliyev üçün böyük siyasətdə, beynəlxalq münasibətlərdə, ölkədaxili məsələlərin həllində, dövlət idarəçiliyində Heydər Əliyevin siyasi təlimi möhkəm təməl, ən etibarlı bünövrədir. Bu gün İlham Əlyevin hakimiyyəti həmin qranit dövlətçilik pyedestalı üzərində ucalır. Hadisələrə və proseslərə tarixi baxışla bir sırada dünyanın hazırki reallıqlarının və yeni dövlətçilik təfəkkürünün işığında yanaşmaq, qiymət vermək və bütün bunlara uyğun olaraq əsaslı qərarlar qəbul etmək İlham Əliyevin dövləti idarəetməsinin əsasını təşkil edir. [11. s. 2] Təsadüfi deyil ki, 2003-cü ildə Azərbaycan Respublikasının Prezidenti seçilən İlham Əliyev Heydər Əliyevin müəyyənləşdirdiyi 1993-2003-cü illərdə həyata keçirdiyi milli inkişaf siyasətinin heç bir alternativi olmadığını, bu strateji inkişaf kursunun bundan sonra da dönmədən davam etdiriləcəyini birmənalı şəkildə bəyan etmişdir. [2] Qeyri-neft sektorunun inkişafının təmin edilməsi təxirəsalınmaz vəzifələrdəndir. Bu vəzifənin yerinə yetirilməsi müəyyən çətinliklərlə bağlı olan məsələdir: neft kəmərinin çəkilişi, təhlükəsizliyi,

investisiya təminatı, dünya neft-qaz bazarında münasib yer tutması və s. bu qəbildəndir. Bu sahədə görülən işlər, problemlərin həlli istiqamətində atılan addımlar Azərbaycanın "əlverişli dövlət imici"ni yüksəldir, beynəlxalq münasibətlər sistemində onun yerini möhkəmləndirir, daha fəal xarici siyasət yeritməsi üçün zəmin yaradır. Neft gəlirlərinin vahid fonda yığılması və ondan səmərəli istifadə olunması imkan verir ki, ölkə daxilində proseslər yetərincə idarə olunsun, yeni iş yerləri açılsın, manatın kursu sabitləşdirilsin, xarici borcların səviyyəsinə nəzarət edilsin, eyni zamanda ölkə həyatının müxtəlif sahələrində uğurlu islahatlar aparılsın, beynəlxalq maliyyə qurumları ilə əlaqələr dərinləşdirilsin, məzmunca zənginləşdirilsin. 20 sentyabr 2014-cü il Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakıda "Əsrin müqaviləsi"nin 20 illiyinə və "Cənub" qaz dəhlizinin təməlinin qoyulmasına həsr olunmuş təntənəli mərasimdə iştirak etmişdir: "Bu gün ulu öndər Heydər Əliyevin adını daşıyan bu Mərkəzdə Prezident Heydər Əliyevin bu Mərkəzdə Prezident Heydər Əliyevin fəaliyyətini bir daha yüksək qiymətləndiririk. Məhz onun uzaqgörənliyi, cəsarəti, müdrikliyi sayəsində "Əsrin kontraktı" imzalanmışdır. Beləliklə, Azərbaycanın inkişafı üçün yeni imkanlar yaranmışdır. Azərbaycana böyük həcmdə investisiyalar qoyulmağa başlanmışdır. Xəzər dənizində tarixdə ilk dəfə olaraq beynəlxalq əməkdaşlıq prosesi başlamışdır. Azərbaycan öz zəngin neft resurslarını dünya bazarlarına çıxarmaq üçün imkan əldə etmişdir. Ölkəmizin ümumi iqtisadi və siyasi inkişafı məhz "Əsrin kontraktı"ndan başlamışdır. Yeni neft strategiyamız 20 ildir ki, icra edilir. Ölkəmiz üçün böyük fayda gətiribdir. Bu illər ərzində Azərbaycan öz imkanlarını ardıcıl şəkildə genişləndirmişdir. İlk dəfə olaraq o illərdə Xəzər dənizini Qara dənizlə və Aralıq dənizi dənizi ilə neft kəmərləri birləşdirdi." [3. s. 353]

Belə söyləmək olar ki, 2003-cü il milli tansformasiyanın yeni mərhələsinin başlanğıcı oldu, səlis qurulmuş sabit siyasi sistemi tərəqqi etməkdə olan iqtisadi strukturun intensiv formalaşması məkanına yönəltdi. İlham əliyevin prezidentliyinin əsas konsepsiyası güclü iqtisadi bazanın formalaşdırılmasından ibarət idi. Bu konsepsiya kütləvi şüurun və cəmiyyətin sosiomədəni bazisinin mərhələlərlə postindustrial dəyərlər və demokratik ənənələr məcrasna transformasiyasına imkan yaratmalıdır. Bununla bərabər, geostrateji və geoiqtisadi məsələlər kompleksini həlll etmək, milli tərəqqinin sabitliyini və davamlılığını təmin etmək, ölkəni beynəlxalq münasibətlərin obyektinə deyil, bu münasibətlərin subyektinə çevirmək lazım idi, çünki Yeni dünya nizamını formalaşdıran ümumdünya transformasiyaları dövründə Azərbaycanın qlobal proseslərdə iştirakının təmin edilməsi son dərəcə zəruridir. Bu həqiqəti başa düşmək baxımından ölkənin siyasi elitası inteqrasiya təşəbbüslərində Azərbaycanın iştirakının təmin edilməsi üçün mühüm amilə çevrilmiş bir sıra taleyüklü layihələri həyata keçirmişdir. [13. s. 9, 10]

2003-cü ildə Prezident İlham Heydər oğlu Əliyev andiçmə mərasimində nitqində vurğulamışdır: "Beynəlxalq təşkilatlarda Azərbaycan çox uğurlu fəaliyyət göstərir, onun nüfuzu artır. Avropa Şurası kimi mötəbər beynəlxalq təşkilat Azərbaycanın təkidi ilə Ermənistanı işğalçı dövlət kimi tanıyıbdır. Bu proses davam edəcəkdir. Azərbaycan beynəlxalq aləmdə, dünya miqyasında daha da möhkəm mövqelərə sahib olacaqdır". [3. s. 97]

**Açar sözlər:** *demoktatik mühit, xarici siyasət, strateji əməkdaşlıq, inteqrasiya.*

## ƏDƏBİYYAT SİYAHISI

*1. Andriyanov V., Mirələmov H. Heydər Əliyev. Nurlan , Bakı-2008, 561 s.*

*2. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqləri, çıxışları, müsahibələri və bəyanatları.http: //files. preslib. az/site/ ialiyev/2003-cü il.*

*3. "Dövlətçiliyin, milli maraqların və təhlükəsizliyin Qarantı", Bakı, "Şərq-Qərb" Nəşriyyat evi, 2015, 380 s.*

*4. 2003-2013 Prezident İlham Əliyevin Seçilmiş Nitqləri. SAM center for strategic studies, 2013, 191 s*

*5. Heydər Əliyev mənim həyatımda, I cild. Məsləhətçi və ön sözün müəllifi: Ramiz Mehdiyev. Bakı, 2013, 396 s.*

*6. Heydər Əliyev mənim həyatımda, II cild. Məsləhətçi və ön sözün müəllifi: Ramiz Mehdiyev, Tərtibçi: İxtiyar Hüseynli. Bakı, 2013, 396 s.*

*7. Həsənov Ə. M. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Dərslik. Bakı:*

*“Azərbaycan” nəşriyyatı, 2005, s.234.*

*8. Qocatürk N. İlham Əliyev: İpək yolu sivilizasiyası və Azərbaycan diplomatiyası. Bakı, “Nurlan”, 2008. – 472 s.*

*9. Məlikli G. Heydər Əliyev – müstəqil Azərbaycanın qurucusu. “Səs” qəzeti, 3 oktyabr 2012-ci il.*

*10. Məmmədov N. Xarici siyasət: Reallıqlar və gələcəyə baxış.*

*11. Paşayev H. Xalqa və dövlətə şərəfli xidmət missiyası. Azərbaycan qəzeti 2 may 2010-cu il*

*12. Rəcəbli H. Prezident İlham Əliyevin uğurlu siyasəti nəticəsində Azərbaycan beynəlxalq məkanda artıq real güc kimi qəbul olunur. “Azərbaycan” qəzeti, 17 may 2012-ci il.*

*13. Yeni Siyasət: inkişafa doğru II cild Ramiz Mehdiyev. “Azərbaycan” qəzetinin “Azərbaycanın özü qədər əbədi” silsiləsindən IV kitabı, “Oskar” NPM mətbəəsi, 2008, 343s.*

**Гюнель Меликли, доктор философии по политическим наукам, докторант института Философии НАНА, преподаватель кафедры «Политология и социология» Бакинского государственного университета**

**РЕЗЮМЕ**

Азербайджанская Республика обрела независимость в 1991 году, и начала уделять особое значение международному сотрудничеству в области социальной политики. В первые годы независимости напряженность в регионе, наличие проблем в области социального развития в соседних странах способствовало появлению негативных последствий здесь. Это было особенно отчетливо видно в отношениях с Исламской Республикой Иран и Россией. Тем не менее, когда общенациональный лидер Гейдар Алиев пришел к власти, эти проблем стали медленно устраняться. Гейдар Алиев, который имел богатый опыт в области государственного управления, устранил серьезные ошибки во внешней политике своих предшественников и предпринял серьезные шаги в направлении сотрудничества со странами мира и рядом международных организаций. Все это показывает, что как внутренняя, так и внешняя политика адекватно обеспечивает будущее страны. Азербайджан в списке стран мира занимает одно из ведущих мест.

**Ключевые слова:** *демократическая среда, внешняя политика, стратегическое сотрудничество, интеграция.*

**Gunel Melikli, Ph.D. in Political Sciences, Doctoral Student of Institute of Philosophy of the National Academy of Sciences of Azerbaijan, Teacher at “Political and Social Sciences” Department of Baku State University**

**SUMMARY**

The Republic of Azerbaijan achieved independence in 1991, and began to give special importance to international cooperation in the field of social policy. In the first years of tension in the region, problems in social development in the neighboring countries contributed to the emergence of negative consequences here. This was especially evident in the relations with the Islamic Republic of Iran and Russia. However, when the national leader Heydar Aliyev came to power, these problems are slowly eliminated. Heydar Aliyev, who has had extensive experience in the field of public administration, to eliminate the serious foreign policy mistakes of his predecessors and has taken serious steps towards cooperation with other countries and several international organizations. All this shows that both internal and external policies to adequately secure the future of the country. Azerbaijan is in the list of the world is one of the leading places.

**Key words:** *democratic environment, foreign policy, strategic co-operation, integration.*

UOT327;339.9

# MÜASİR DÖVRDƏ TƏHSİL VƏ ELM SAHƏSİNDƏ AZƏRBAYCAN-QIRĞIZISTAN ƏMƏKDAŞLIĞI

**GÜLŞƏN HÜSEYNOVA**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının doktorantı*
***Azərbaycan***
*E-mail: gulya_dia@list.ru*

Bu gün ölkəmiz dünyanın əksər ölkələri ilə sıx əməkdaşlıq münasibətlərinə malikdir. Bu ölkələr arasında etnik, dini, tarixi baxımdan bizə yaxın olan türk dövlətləri, o cümlədən Qırğızıstan Respublikası xüsusi yer tutur. Bu əlaqələr qarşılıqlı və çoxtərəfli əməkdaşlığın geniş diapazonunu, o cümlədən mədəni-humanitar, elm və təhsil sahələrini əhatə etməkdədir.

Müstəqillik qazandıqdan sonra Azərbaycan Respublikasının Qırğızıstan Respublikası ilə münasibətləri hansısa münaqişəli aspektləri ilə seçilməsə də, yetərincə dinamiklik də nümayiş etdirməmişdir. Ölkələrimiz arasında investisiyaların təşviqi və qarşılıqlı qorunması haqqında, ticarət-iqtisadi əməkdaşlığı haqqında sazişlərin imzalanmasına, tərəflərin iqtisadi sahədə münasibətləri genişləndirmək niyyətlərinə baxmayaraq, iqtisadi münasibətlər yüksək səviyyədə deyildi (7). 2012-ci ilin məlumatlarına əsasən, iki dövlət arasında ticarət dövriyyəsinin həcmi cəmi 7,4 milyon ABŞ dolları təşkil etməklə, 2011-ci ilin analoji dövrü ilə müqayisədə 39,4% azalma göstərmişdir (35). Aydındır ki, Azərbaycanın digər Orta Asiya respublikalarından fərqli olaraq, Qırğızıstanla tarixən iqtisadi kooperasiyasının o qədər də güclü inkişaf etməməsi, qırğız iqtisadiyyatının öz strukturunun Azərbaycan üçün cazibədarlığının aşağı olması, əməkdaşlıq üçün ortaq sahələrin yoxluğu və s. amillər müstəqillik illərində iqtisadi əlaqələrin dinamik artımına mənfi təsir göstərmiş və göstərməkdədir. Yalnız son illərdə, ələlxüsus da 29-31 mart 2012-ci il tarixlərində Qırğızıstan Respublikasının Prezidenti A.Atambayevin Azərbaycana rəsmi səfərindən sonra ümumi iqtisadi layihələrin həyata keçirilməsi gündəmə gəlmişdir.

Dövlətlərarası siyasi əlaqələrə gəlincə, istər dövlət və hökumət başçılarının mütəmadi qarşılıqlı səfərlərinə, istərsə də MDB və Türkdilli Ölkələrin Dövlət Başçılarının zirvə toplantıları zamanı ən yüksək səviyyədə görüşlər keçirməsinə, müxtəlif önəmli sazişlərin və sənədlərin imzalanmasına baxmayaraq, hələ də qənaətbəxş səviyyədə sayıla bilməz. Qırğızıstan Özbəkistan və Qazaxıstandan fərqli olaraq, başlanğıcdan Azərbaycanla sıx və hərtərəfli münasibətlər yaratmaqda o qədər də maraqlı görünmürdü. Böyük ehtimalla, Mərkəzi Asiyanın bu dövləti ilə Azərbaycanın sovetlər dönəmində də geniş əlaqələrinin olmaması, müstəqillik dövründə isə ölkələrimizin həm siyasi, həm iqtisadi sferada maraqlarının az kəsişməsi münasibətlərin məzmununa təsir göstərməyə bilməzdi. Baxmayaraq ki, 1997-ci ildən etibarən münasibətlər intensivləşmiş və müsbət dinamika əldə etmişdir, yenə də bu münasibətlərin keyfiyyət xarakteristikası onların arzuolunan səviyyədə olduğunu söyləməyə yetərli sayıla bilməz. Qırğızıstanın Azərbaycanın ağrılı problemlərinə zaman-zaman etinasızlığı, ölkəmizin haqlı mövqeyini və tələblərini beynəlxalq müstəvidə fəal surətdə dəstəkləməkdən faktiki imtina etməsi, bu azmış kimi, hətta 2017-ci ilin martında olduğu kimi, kifayət qədər diplomatik ruhda tərtib olunmuş sənədlərdə belə Azərbaycanın Qarabağ münaqişəsinə dair ədalətli tələblərini dəstəkləyən müddəaları qəbul etməkdən boyun qaçırması söylənilənləri təsdiqləyir. Təbii ki, belə münasibət qardaş qırğız xalqı və onun dövləti ilə ən xoş və dost münasibətlər qurmağa çalışan Azərbaycan hökuməti tərəfindən də narazılıqla qarşılanmaqdadır.

Qırğızıstan Respublikası və Azərbaycan Respublikası arasındakı diplomatik əlaqələr 1993-cü il yanvarın 19-da verbal nota yolu ilə yaradılmışdır. 1996-cı ilin noyabrın 11-də hər iki dövlətin xarici işlər nazirliyi əməkdaşlıq haqqında protokol imzaladılar. Azərbaycan Respublikasının Qırğızıstan Respublikasındakı səfirliyi 2007-ci il dekabrın 28-də açılmışdır. 2012-ci il avqustun 10-da Bakıda açılan Qırğızıstan Respublikasının diplomatik missiyası Qırğızıstan Respublikası Prezidentinin Fərmanına uyğun olaraq 2014-cü il oktyabrın 24-də Azərbaycan

Respublikasında Qırğızıstan Respublikasının səfirliyi adını almışdır (24, s. 173-174).

1990-cı illərin əvvəllərində Azərbaycanla Qırğızıstan arasında əməkdaşlıqdan danışarkən onun ilk növbədə beynəlxalq və regional təşkilatlar çərçivəsində cərəyan etdiyini qeyd etməliyik. 1993-cü ilin dekabrın 23-də Aşqabadda MDB üzvü olan dövlətlərin başçılarının toplantısı zamanı Azərbaycan prezidenti Heydər Əliyevin Qırğızıstan prezidenti Əsgər Akayevlə ikitərəfli görüşü baş tutdu. Görüş zamanı ikitərəfli münasibətlərin möhkəmləndirilməsi üçün vacib olan məsələlərdən danışıldı. Qeyd edildi ki, ikitərəfli münasibətlərin möhkəmləndirilməsi üçün ənənələrin, mədəniyyətlərin, dinin ümumiliyi, dil yaxınlığı kimi möhkəm bünövrə vardır və bu bünövrəyə söykənərək, iki türkdilli dövlət arasında əməkdaşlığı daha da intensivləşdirərək, inkişafını təmin etmək vacibdir (26, s. 93).

1998-ci ilin avqustun 28-də Azərbaycan prezidenti Heydər Əliyev türkdilli dövlətlərin başçılarının 3-cü zirvə toplantısında, habelə "Manas" dastanının 1000 illiyinə həsr olunmuş təntənələrdə iştirak etmək üçün Qırğızıstan Respublikasının paytaxtı Bişkek şəhərinə gəldi. H.Əliyevin "Manas" dastanının 1000 illiyinə həsr olunmuş təntənəli yığıncaqda çıxışı bir tərəfdən Azərbaycan və qırğız xalqları arasında tarixin ən ulu çağlarına varan və ortaq soykökündən doğan mədəni-mənəvi doğmalığının təsdiqlənməsi, digər tərəfdən isə xalqlarımızın müasir dövrdə münasibətlərinin mədəni-humanitar istiqamətlərinin aydın şəkildə müəyyənləşdirilməsi idi. Ulu öndər bəyan edirdi: "Əziz dostlar, burada olmağımdan istifadə edərək sizi əmin etmək istəyirəm ki, biz Azərbaycan və qırğız xalqları arasında dostluğu möhkəmləndirəcək, iqtisadiyyat, mədəniyyət, elm sahələrində, humanitar sahədə, bütün başqa sahələrdə əlaqələrimizi inkişaf etdirəcəyik. Bir-birimizə kömək edəcək, böyük Manasın qoyduğu yolla birlikdə irəliləyəcəyik" (16, Dördüncü kitab, s.233).

1997-ci il aprel ayının 23-də Azərbaycan prezidenti Heydər Əliyevin dəvəti ilə Qırğızıstan Respublikasının prezidenti Əsgər Akayev rəsmi səfərlə Bakıya gəldi. Bu səfər iki dövlət arasında münasibətlərin daha dolğun hüquqi bazaya söykənməsi baxımından əhəmiyyətli oldu. Onun gedişində 13 sənəd, o cümlədən Azərbaycan Respublikası ilə Qırğızıstan Respublikası arasında dostluq və əməkdaşlıq haqqında Müqavilə, habelə Yüksək ixtisaslı elmi və elmi-pedaqoji kadrların attestasiyası sahəsində Azərbaycan Respublikası Hökuməti ilə Qırğızıstan Respublikası Hökuməti arasında əməkdaşlıq haqqında Saziş imzalandı (8, s.2).

İmzalanmış sənədlər arasında "Yüksək ixtisaslı elmi və elmi-pedaqoji kadrların attestasiyası sahəsində Azərbaycan Respublikası Hökuməti ilə Qırğızıstan Respublikası Hökuməti arasında əməkdaşlıq haqqında Saziş" (28, s. 38-39) xüsusi yer tutur. Bu sazişlə tərəflər vahid elmi sahədə əlaqələrin saxlanılması və inkişafına çalışaraq, habelə yüksək ixtisaslı elmi və elmi-pedaqoji kadrların attestasiyası sahəsində əməkdaşlığın davam etdirilməsi üçün səylərini vurğulayaraq, elmi dərəcələr haqqında sənədlərin nostrifikasiyası, elmi dərəcələrin uyğunlaşdırılması və tanınması haqqında razılaşmaları bir daha təsdiqləyirdi.

1997-ci ilin aprelin 23-də Qırğızıstan prezidenti Əsgər Akayevə M.Ə.Rəsulzadə adına Bakı Dövlət Universitetinin fəxri doktoru diplomu da təqdim olunmuşdur. BDU-da təşkil olunmuş mərasimdə Prezident Heydər Əliyev məzmunlu nitq ilə çıxış etmişdi (22, s.1-2). Bakı Dövlət Universitetini XX əsrdə Şərqdə, müsəlman dünyasında ilk universitet kimi səciyyələndirən Azərbaycanın dövlət başçısı, bu ali məktəbin Azərbaycanda ali təhsilin, elm və mədəniyyətin inkişaf etdirilməsində çox böyük xidmətlərini vurğulamışdır.

Sonrakı illərdə Azərbaycan – Qırğızıstan siyasi münasibətləri ölkə rəhbərlərinin görüşləri ilə əlamətdar olsa da, bu cür təmaslar bir qayda olaraq çoxtərəfli əməkdaşlıq formatında, beynəlxalq və regional təşkilatlarda iştirak şəklində baş verirdi. Məsələn, 7-8 sentyabr 1998-ci ildə Bakıda keçirilmiş Tarixi İpək yolunun bərpası üzrə Beynəlxalq Konfransın işinə Qırğız Respublikasının Prezidenti Ə.Akayev də qatılmışdı. Qırğız dövlət başçısı həmçinin 2000-ci il aprelin 8-9-da Bakıda keçirilmiş Türkdilli Ölkələrin Dövlət Başçılarının VI Zirvə görüşündə və "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubiley tədbirlərində iştirak etmişdi. Bundan əlavə, Azərbaycan və Qırğızıstan prezidentləri 2000-ci il yanvarın 25-də Moskvada keçirilmiş MDB iştirakçı dövlətlərinin başçılarının iclasında, yanvarın 28-də Davos iqtisadi forumunda, 2001-ci il aprelin 26-27-də İstanbulda keçirilmiş Türkdilli Dövlət Başçılarının Zirvə Toplantısında, 1-3 avqust 2001-ci il tarixlərində Rusiyanın Soçi şəhərində MDB iştirakçı ölkələrinin Dövlət Başçılarının qeyri-rəsmi sammitində görüşmüşdülər. Sözügedən illərdə həmçinin hər iki ölkənin müxtəlif nazirliklərinin rəhbərlərinin qarşılıqlı səfərləri də baş tutmuşdur (7). 16 yanvar 2001-ci ildə TURKSOY-

un Daimi Şurasının XV iclasında iştirak etmək ucun Qırğızıstanın Təhsil, Elm və Mədəniyyət Nazirliyinin komitə sədri E.Abdukarimov Bakıda olmuşdu. Tədbir iştirakçılarını Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev qəbul etmişdi. Bu görüşlər, sözsüz ki, ikitərəfli münasibətlərin inkişafına öz töhfəsini vermişdi.

Ölkələrimiz arasında ən yüksək dövlət səviyyəsində diplomatik təmaslar Azərbaycan Respublikası prezidenti İlham Əliyev cənablarının da rəhbərlik dönəmində davam etmiş, daha çox iqtisadi səciyyəli məsələlər üzərində cəmləşmişdir.

2003-cü il dekabrın 10-da Azərbaycan Respublikasının prezidenti İlham Əliyev Cenevrədə keçirilən İnformasiya Cəmiyyəti üzrə Dünya Sammitinin işi zamanı Qırğızıstan prezidenti Əsgər Akayevlə görüşmüşdür (17, İkinci kitab, s. 166-167).

2004-cu ilin iyun ayının 1-də Qırğız Respublikasının Müdafiə naziri E.Topoyevin Bakıya rəsmi səfəri gedişində "Azərbaycan Respublikası və Qırğızıstan Respublikası arasında hərbi sahədə əməkdaşlıq haqqında Saziş" imzalanmışdır. Saziş tərəflər arasında hərbi-siyasi və hərbi-texniki, həmçinin hərbi təhsil, hərbi-elmi fəaliyyət və hərbi tarix, kadr hazırlığı sahələrində əməkdaşlığı nəzərdə tutur (6, s. 1729-1732).

Azərbaycan Respublikasının Prezidenti İ.Əliyev 2006-cı ilin martın 15-də Qırğızıstanın Dövlət katibi Dastan Sarıqulovu (17, On beşinci kitab, s. 320), mayın 4-də IX Zirvə görüşu çərçivəsində Bakıda səfərdə olan Qırğızıstan Baş nazirinin birinci müavini A. Mattubraimovu (17, On altıncı kitab, s.310-311) qəbul etməsi yeni qırğız hakimiyyəti ilə əlaqələrin qurulması anlamına gəlirdi. Sonrakı illərdə ölkəmizə müxtəlif toplantı və tədbirlərdə iştirak etmək üçün Qırğızıstanın müdafiə, xarici işlər nazirliklərinin, xüsusi xidmət orqanlarının nümayəndə heyətlərinin səfərləri baş tutmuşdu.

17 noyabr 2006-cı il tarixində Antalyada keçirilən türkdilli ölkələrin dövlət başçılarının VIII zirvə görüşü çərçivəsində Prezident İ. Əliyev Prezident K. Bakiyev ilə görüşmüşdür. Görüşdə siyasi sahədə əlaqələrin yaxşı səviyyədə olduğu, iqtisadi əməkdaşlıq potensialının araşdırılmasının vacibliyi vurğulanaraq, xalqlarımız arasında yaxınlığın, yaxşı siyasi əlaqələrin ikitərəfli münasibətlərin daha da genişlənməsi işində təkanverici rol oynaya biləcəyi qeyd edilmişdir (17, İyirmi birinci kitab, s.75).

17-19 noyabr 2007-ci il tarixində Bakı şəhərində keçirilmiş Türkdilli Dövlət və cəmiyyətlərinin dostluq, qardaşlıq və əməkdaşlığının XI Qurultayında Qırğız Respublikasının Elm və Təhsil naziri K.Osmanalıyevin rəhbərliyi ilə nümayəndə heyəti iştirak etmişdir (30, s.4).

2 oktyabr 2009-cu il tarixində Naxçıvan şəhərində Türkdilli ölkələrin dövlət başçılarının IX zirvə toplantısı keçirilmişdir. Zirvə toplantısında Qırğızıstan Prezidenti K. Bakiyev iştirak etmişdir. Zirvə toplantısının sonunda Türkdilli Ölkələrin Əməkdaşlıq Şurasının yaradılması haqqında Naxçıvan Sazişi imzalanmış və prezidentlər Türkdilli ölkələrin dövlət başçıları tərəfindən Naxçıvan bəyannaməsini qəbul etmişlər.

Səfər çərçivəsində Azərbaycan Respublikasının prezidenti İ.Əliyev ilə Qırğız Respublikası prezidenti K.Bakiyev arasında keçirilmiş ikitərəfli görüş (17, Otuz səkkizinci kitab, s.23) zamanı Qırğız Respublikasının Müdafiə Nazirliyi və Sərhəd Xidmətinin hərbi qulluqçularının Azərbaycan Respublikasının hərbi təhsil müəssisələrində hazırlanması məqsədilə razılaşma əldə olunmuşdur. Bu razılaşmaya əsasən, 14-17 oktyabr 2009-cu il tarixlərində Qırğız Respublikası Silahlı Qüvvələrinin Bişkek Ali Hərbi Məktəbinin rəisi general-mayor A. Kudayberdiyev hərbi təhsil sahəsində təcrübə mübadiləsi və Qırğızıstan hərbi qulluqçularının Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində hazırlıq prosesi ilə tanışlıq məqsədilə Azərbaycanda səfərdə olmuşdur.

2011-ci ilin oktyabrın 30-da baş nazir Almazbek Atambayev Qırğızıstanda prezident seçkilərində qalib gələrək, növbəti 6 il müddətinə dövlət başçısı seçildi.

2012-ci ilin 30-31 martında Qırğızıstan Respublikası prezidenti Almazbek Atambayev Azərbaycana rəsmi səfərə gəldi. Onun gedişində həm prezidentlərin, həm də hər iki ölkənin rəsmi nümayəndə heyətlərinin görüşləri oldu. Nümayəndə heyətlərinin görüşü başa çatdıqdan sonra martın 30-da Azərbaycan-Qırğızıstan sənədlərinin imzalanması mərasimi keçirildi. İki dövlətin siyasi, iqtisadi və humanitar sahələrdə əməkdaşlığını nəzərdə tutan ümumən 6 sənəd imzalanmışdır ki, onların arasında "Azərbaycan Respublikasının Prezidenti İ.Əliyevin və Qırğız Respublikasının Prezidenti A.Atambayevin Birgə Bəyanatı", habelə "Azərbaycan Respublikası Hökuməti və Qırğız Respublikası Hökuməti arasında mədəniyyət sahəsində əməkdaşlıq haqqında Saziş" mövzumuz baxımından önəm daşıyır. "Birgə Bəyanat"da (3, s. 1274-1276) tərəflər mütəmadi olaraq sıx və konstruktiv siyasi dialoqun davam etdirilməsində, Azərbaycan-Qırğız tərəfdaşlıq münasibətlərinin

inkişaf etdirilməsində qəti niyyətlərini ifadə edir, iqtisadi, ticarət, nəqliyyat, kommunikasiya, turizm, elm, təhsil, mədəniyyət sahələrində, həmçinin səhiyyə, ətraf mühitin mühafizəsi və digər sahələrdə ikitərəfli münasibətlərin dərinləşdirilməsinə hazır olduqlarını ifadə edərək dövlətlərarası qarşılıqlı əlaqələrin müvafiq müqavilə-hüquq əsasının təkmilləşdirilməsinin zəruriliyini vurğulayırdılar. Hərtərəfli əməkdaşlığın inkişafı üzrə effektiv mexanizm kimi Azərbaycan Respublikası və Qırğız Respublikası arasında ticarət-iqtisadi, elmi-texniki və humanitar əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın təşkili nəzərdə tutulurdu.

"Azərbaycan Respublikası Hökuməti və Qırğız Respublikası Hökuməti arasında mədəniyyət sahəsində əməkdaşlıq haqqında Saziş" (4, s. 1092-1095) iki ölkə arasında mədəni-humanitar sferanın müxtəlif aspektləri, o cümlədən elm və təhsil sahələrində əməkdaşlığa dair zəruri hüquqi əsası təqdim edir.

Son illərdə ölkələrimizin təhsil əlaqələri intensivləşməkdədir. Qırğızıstan Respublikasının Təhsil və Elm Nazirliyinin məlumatına əsasən, 2016-cı ildə Qırğızıstanın ali təhsil müəssisələrində 42 Azərbaycan vətəndaşı təhsil alır (24, s.178). Halbuki 1990-cı illərdə qırğız ali məktəblərində 1 və ya 2 azərbaycanlı tələbə oxuyurdu. Öz növbəsində, əgər 2000/2001-ci təhsil ilində Azərbaycanda 4 qırğız tələbə təhsil alırdısa, 2013/2014-cü təhsil ilində bu rəqəm 25-ə çatmışdır (9, s. 171).

2009-cu ilin sentyabrın 14-də Qırğızıstanın Çuy vilayətinin Kant şəhərinin 4 saylı gimnaziya məktəbində Azərbaycan dili sinfi fəaliyyətə başlamışdır. Sinif Azərbaycan səfirliyinin vəsaiti hesabına təmir olunmuş, kompüter, televiziya texnikası, azərbaycanca kitablar, yeni partalarla təchiz edilmiş və peyk rabitəsinə qoşulmuşdur.

2014-cü ilin iyunun 25-dən iyulun 2-dək İssık-Kul gölünün sahilindəki kurort-sağlamlıq kompleksində MDB ölkələrinin "Birliyin uşaqları" beynəlxalq illik mədəni - təhsil forumu keçirilmişdi. Tədbirin keçirilməsində əsas məqsəd mənəvi, mədəni ənənələri, məktəbli və gənclərin nailiyyətlərini qoruyub saxlamaq və artırmaqla MDB-nin iştirakçı dövlətlərinin təmsilçiləri üçün yeni ünsiyyət mühiti formalaşdırmaq idi. Beynəlxalq tədbirdə ölkəmizi Bakıdakı 160 nömrəli klassik gimnaziyanın ingilis dili və musiqi müəllimi L. M. Doroşenko (nümayəndə heyətinin rəhbəri) və 6 şagirdi təmsil etmişdilər (2).

Ölkələrimizin ayrı-ayrı tədris müəssisələrinin qarşılıqlı faydalı əməkdaşlığı da təhsil əlaqələrinin inkişafına töhfəsini verməkdədir.

Bişkek şəhərində fəaliyyət göstərən Beynəlxalq Atatürk-Alatoo Universitetində 2010-cu ilin əvvəlində ilk dəfə olaraq Azərbaycan ədəbiyyatı fakültəsi açılmışdır. Burada çağdaş Azərbaycan ədəbiyyatı tədris edilməsi nəzərdə tutulmuşdu (23, s.6).

Qırğızıstanın Azərbaycanla elmi-təhsil əlaqələri yaratmaqda xüsusi fəallığı ilə seçilən ali məktəblərindən ilk növbədə Türkiyə Respublikasının dəstəyi ilə 1995-ci ildə əsası qoyulmuş, 1997-ci ildən Bişkekdə fəaliyyət göstərən Qırğızıstan-Türkiyə Manas Universitetinin adını çəkmək lazımdır. Bu ali təhsil qurumu Bakı Dövlət Universiteti arasında 2012-ci ilin oktyabrın 18-də anlaşma memorandumu imzalamışdır. Azərbaycanın bəzi universitetlərinin də daxil olduğu Türk Universitetlər Birliyinə də rəhbərlik edən Səbahəttin Balcının sözlərinə görə, Manas Universitetində 14 ölkənin tələbələri arasında 10 nəfər azərbaycanlı da vardır (10). Yeri gəlmişkən, son zamanlar sözügedən universitet hər il Azərbaycan vətəndaşlarının qəbulu üçün 10 yer ayırmaqdadır.

2013-cü ilin mayın 22-də Qırğızıstan-Türkiyə Manas Universiteti Azərbaycanın daha bir elmi qurumu – İqtisadi İnkişaf Nazirliyinin İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutu ilə əməkdaşlıq haqqında memorandum imzalamışdır. Memorandumda kadr potensialının artırılması, birgə elmi və elmi-texniki tədbirlərin təşkili və tədqiqatların aparılması sahəsində əməkdaşlıq nəzərdə tutulmuşdur (18). Yeri gəlmişkən, sözügedən İnstitut 2012-ci ilin sentyabrın 6-da Qırğızıstan Respublikasının Milli Strateji Araşdırmalar İnstitutu ilə də əməkdaşlıq haqqında analoji anlaşma memorandumu imzalamışdır.

2015-ci ilin martın 18-də ATU-da "Qan və qan komponentlərinin hazırlanmasında müasir texnologiyalar" mövzusunda elmi-praktik konfrans keçirilmişdir. Tədbirdə Azərbaycan və Türkiyənin tanınmış hematoloqları ilə yanaşı Özbəkistan, Qırğızıstan və Tacikistandan olan mütəxəssislər də iştirak etmişdilər (5).

2016-cı ilin mayın əvvəllərində Azərbaycan Dövlət İqtisad Universiteti (ADİU) Qırğızıstan-Türkiyə Manas Universitetinin təşəbbüsü ilə yaradılan Mərkəzi Asiya Universitetlər Birliyinə (MAUB) üzv seçilmişdir. Mərkəzi Asiya Universitetləri Birliyinin məqsədi ali təhsil müəssisələri və onlarla əməkdaşlıq edən qurumlar arasında əlaqələri gücləndirmək, inteqrasiyanı dəstəkləmək, müəllim-tələbə mübadiləsini təşkil

etmək, ikili diplom proqramlarını tətbiq etmək və s. ibarətdir (33). Yeri gəlmişkən, ADİU özünün zəngin beynəlxalq əlaqələri ilə seçilən ali təhsil ocağıdır. Bu tədris müəssisəsi dünyanın 32 ölkəsinin 92 universiteti ilə ikitərəfli əməkdaşlıq müqaviləsi imzalamışdır.

2013-cü ildən ADİU Avropa İttifaqının "Beynəlxalq əlaqələr sahəsində universitet idarəçiliyinin inkişaf etdirilməsi və təkmilləşdirilməsi" adlı TEMPUS Layihəsində koordinator qismində iştirak edir. Yeri gəlmişkən, bu layihədə Bakı, Gəncə, Sumqayıt və Naxçıvan Dövlət universitetləri də yer almışdır. Layihənin regional tərəfdaşları sırasında Qırğızıstan İqtisad Universiteti və Qırğızıstan Beynəlxalq Universiteti də var. Əsas məqsədi ali təhsil sahəsində Avropa İttifaqının aparıcı ölkələrinin müsbət təcrübəsinin tərəfdaş ölkələrə gətirilməsi və həmin ölkələrin ali təhsil müəssisələrinin inkişaf etdirilməsi olan bu layihə çərçivəsində 2015-ci ilin aprelin 23-24-də ADİU-nun əməkdaşı B.Nəbiyeva və Layihənin Avropa tərəfdaşı olan İspaniyanın Santyaqo de Kompostela Universitetinin Beynəlxalq əlaqələr şöbəsinin əməkdaşı Beqona Soneyra Beloso Qırğızıstan İqtisad Universiteti və Qırğızıstan Beynəlxalq Universitetində olmuşdular (27). Yenə həmin layihə çərçivəsində dekabrın 10-da Qırğızıstan İqtisad Universitetində (QİU) "Layihə Məlumat Günü" keçirilmişdi (32). Bu layihə 2017-ci fevralında başa çatmışdır: həmin ayın 27-də Bakıda final konfrans baş tutmuşdu. Konfransda Qırğızıstanın da Elm və Təhsil nazirliyinin nümayəndəsi çıxış edərək, bu tipli layihələrdə iştirakın həm universitetlərin beynəlxalq əlaqələrinin inkişaf etdirilməsi, həm də milli təhsil sistemlərinin təkmilləşdirilməsi baxımından əhəmiyyətini vurğulamışdı (31).

2012-ci ilin mayın 3-də Y. Balasagun adına Qırğız Milli Universitetində (QMU) bu tədris müəssisəsinin Beynəlxalq təhsil proqramlarının inteqrasiya institutu tərəfindən təşkil edilmiş Tərəfdaş-ölkələrdə təhsil proqramlarının keyfiyyət standartları üzrə seminar keçirildi. Onun işində Avropa və Mərkəzi Asiyanın 9 ölkəsindən 20-dən çox tərəfdaş-universitet iştirak etmişdi. Bu tədbirdə Azərbaycanı BDU-nun müəlliməsi Lalə Bayramova, Qafqaz universitetinin baş müəllimi Səbuhi Yusifov və Təhsil nazirliyinin akkreditasiya şöbəsinin əməkdaşı Aysel Ağayeva təmsil edirdi. Azərbaycanla elm və təhsil əlaqələrinə verilən önəm özünü onda göstərirdi ki, nümayəndə heyətini QMU-nun rektoru İsgəndər İsamidinov şəxsən özü qəbul etmiş, Azərbaycanın ali məktəbləri ilə əməkdaşlığın formaları barədə müzakirələr aparmışdı (37). Yeri gəlmişkən, Y. Balasagun adına Qırğız Milli Universiteti Azərbaycanla yetərincə sıx münasibətlər qurmağa müvəffəq olmuşdur. 2013-cü ilin mayın 30-da QMU-nun 80 illiyi ilə bağlı təntənəli mərasimə Azərbaycandan gəlmiş elm və təhsil xadimləri də qatılmışdı (36). QMU yaxın zamanlarda Azərbaycandan olan investorların yatırımları hesabına özünün elmi mərkəzini tikməyi planlaşdırır. Bu Mərkəz universitetin sonrakı texniki inkişafının rəhni kimi düşünülməkdədir (34).

2015-ci ilin oktyabr ayının 28-30-da Azərbaycan Dövlət İqtisad Universitetində XIII Beynəlxalq Türk Dünyası İctimai Elmlər Konqresi keçirilmişdi. Onun işində dünyanın 12 ölkəsindən 250-ə yaxın elm adamı, həmçinin 10-a yaxın xarici universitet rektoru, o cümlədən Qırğızıstanın İqtisadiyyat və Biznes Universitetinin təmsilçiləri iştirak etmişdilər (29).

Yeri gəlmişkən, bir başqa Azərbaycan ali məktəbi – Dillər Universiteti də TEMPUS proqramının FLEPP layihəsində iştirak etmişdi. Həmin layihənin 2016-cı ilin oktyabrın 21-də olmuş yekun konfransında Qırğızıstanın Elm və Təhsil Nazirliyinin nümayəndəsi S. Andreşeva çıxış edərək, layihənin təhsil sahəsi üçün önəmli olduğunu bildirmişdi (1).

TEMPUS proqramı çərçivəsində Qırğızıstanın elm və təhsil müəssisələri ilə əməkdaşlıq edən bir başqa Azərbaycan tədris ocağı Odlar Yurdu Universitetidir. Bu universitet 2011-2014-cü illərdə əsas məqsədi tərəfdaş ölkələrdə təhsil proqramlarının keyfiyyət təminatı üçün Avropa standartlarına və təlimatlarına uyğun gələn sənədləşmə sistemi yaratmaqdan ibarət olan II TEMPUS proqramına qatılmışdır. Layihə çərçivəsində Odlar Yurdu Universiteti digər ölkələrin müvafiq qurumları ilə yanaşı, Bişkek Maliyyə və İqtisad Akademiyası, Qırğızıstanın Təhsil Şəbəkə Assosiasiyası, Narın Dövlət Universiteti, Qırğızıstan Təhsil və Elm Nazirliyi, Y.Balasagun adına Qırğız Milli Universiteti ilə əməkdaşlıq etmişdir (25).

Ölkəmizin bir başqa ali məktəbi – Avrasiya Universiteti də xarici əlaqələrini genişləndirməkdədir. 2013-cü ilin oktyabrın 30-da o Qırğızıstan respublikasının İssık-Kul Dövlət Universitetinin rektorunun 3 günlük səfəri çərçivəsində bu təhsil ocağı ilə elm, təhsil və əməkdaşlığa dair müqavilələrə imza atmışdır (11).

Daha öncə haqqında danışdığımız İqtisadi İslahatlar Elmi-Tədqiqat İnstitutu Qırğızıstanın müvafiq elmi qurumları ilə müxtəlif birgə layihələr

çərçivəsində əlaqələrini inkişaf etdirməkdədir. 2016-cı ilin fevralın 22-dən 26-dək İqtisadi İslahatlar Elmi-Tədqiqat İnstitutu Bişkekdə Qırğızıstanın Maliyyə Nazirliyi, İqtisadi Əməkdaşlıq Təşkilatı, İslam İnkişaf Bankı, "AEEC Təlim və Tədqiqat Mərkəzi" MMC ilə birgə "İqtisadi siyasət üçün təsir analizləri" mövzusunda ikinci regional təlim keçirmişdir. Təlimin məqsədi iqtisadi siyasətin analitik təhlili üçün metodoloji yanaşmaların tətbiqinə dair müvafiq məlumat bazasının formalaşdırılması və sahə üzrə mütəxəssislərin hazırlanmasıdır (19).

Təhsillə yanaşı, iki ölkə arasında elmi əlaqələr də son dövrdə artan xətt üzrə inkişaf etməkdədir. Həm AMEA strukturuna daxil qurumlar, həm də digər elmi müəssisələr müvafiq qırğız qurumları ilə əməkdaşlığını gücləndirir. Həm ölkəmizdə təşkil olunan müxtəlif tədbirlərə Qırğızıstan alimlərinin qatılması, həm də Qırğızıstanda keçirilən konfrans və forumlarda azərbaycanlı elm mütəxəssislərinin iştirakı deyilənlərə sübutdur.

Qırğızıstan Elmlər Akademiyası Manasşünaslıq Milli Mərkəzinin "Ədəbiyyat və İncəsənət məsələləri" jurnalının 2009-cu ildə çıxmış birinci nömrəsi Azərbaycan-Qırğızıstan dostluğuna həsr edilmişdi. Jurnalın sözügedən sayında əməkdar elm xadimi, AMEA-nın A.A. Bakıxanov adına Tarix İnstitutunun direktoru Yaqub Mahmudovun "Ümummilli lider Heydər Əliyev və XX əsrin ikinci yarısında Azərbaycan" və "Azərbaycanlılar" adlı məqalələri, həmçinin qırğız akademiki Turar Koyçuyevin ulu öndərə həsr olunmuş "Heydər Əliyevin beş zirvəsi" materialı dərc olunmuşdur. Nəşrdə BDU-nun professoru Aqil Hacıyevin "Mir Cəlalın yaradıcılığında Qərb və rus ədəbiyyatı", filologiya elmləri namizədləri Ş.İskəndərova və S.Eqimbayevanın "Mir Cəlalın "Bir gəncin manifesti" romanı haqqında", Bəxtiyar Vahabzadənin qırğız yazıçısı Çingiz Aytmatov haqqında məqalələri də yer almışdır (21, s.2).

2011-ci ilin mayında Bişkek şəhərində fəaliyyət göstərən Manas universitetində "Müasir şəraitdə türk ədəbi dillərinin qarşılıqlı əlaqələri və qarşıda duran vəzifələr" mövzusunda keçirilən beynəlxalq konfransa AMEA Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü, professor Əbülfəz Quliyev də qatılmışdı. Onun "Müasir şəraitdə Azərbaycan dilinin türk dilləri içərisində yeri və qarşıda duran vəzifələr" mövzusundakı çıxışı iştirakçılar tərəfindən maraqla qarşılanmışdı (14).

2011-ci ilin iyulun əvvəllərində Bakıda keçirilən Türk Dünyası Riyaziyyat Cəmiyyətinin (TDRC) IV konqresində dünyanın 20 ölkəsindən, o cümlədən Qırğızıstandan gəlmiş alimlər iştirak etmişdilər (12, s. 6). Konqresin bölmə iclaslarında riyaziyyatın nəzəri və tətbiqi problemlərinə, bu elmin tədrisi metodikası məsələlərinə həsr edilmiş 314 məruzə dinlənildi və geniş müzakirə olundu. Azərbaycanın təhsil naziri Misir Mərdanov növbəti üç il müddətinə TDRC-nin prezidenti, akademik Fikrət Əliyev (Azərbaycan), professor Etibar Pənahov (Türkiyə), akademik Amanbek Jaynakov (Qırğızıstan), professor Narqozu Danayev (Qazaxıstan) vitse-prezident seçildilər. Yeri gəlmişkən, qeyd edərdik ki, 1999-cu ildə təsis olunmuş TDRC öz sıralarında Azərbaycan, Türkiyə, Rusiya, Qırğızıstan, Qazaxıstan, Özbəkistan, Çin, ABŞ, Monqolustan və Avropa ölkələrindən olan riyaziyyatçıları birləşdirir.

6-9 iyul 2011-ci ildə İssık-Kul gölünün sahilində 12 ölkənin nümayəndələrinin qatıldığı travmatoloq və ortopedlərin 2-ci Avrasiya konqresi keçirilmişdir. Konqresdə Azərbaycan Səhiyyə Nazirliyi Elmi-Tədqiqat Travmatologiya və Ortopediya İnstitutunun direktoru, professor Vaqif Verdiyev konqres prezidentinin müavini qismində iştirak etmişdir. Onun ortopediyanın ən mürəkkəb sahələrinə aid 3 maraqlı məruzəsi iştirakçıların böyük marağına səbəb olmuş, konqresin prezidenti, Qırğızıstanın səhiyyə naziri, professor S.A.Cumabekov və digər iştirakçılar Azərbaycanla ortopediya və travmatologiya sahəsində birgə çalışmaların qurulmasında və toplantıların aparılmasında maraqlı olduqlarını bildirmişdilər (15).

2013-cü ilin noyabrında Bişkekdə "Qırğız xaqanlığı türkdilli xalqların orta əsrlər dövlətçiliyi və mədəniyyəti kontekstində" adlı ikinci beynəlxalq elmi konfrans keçirilmişdi. Konfransda Azərbaycanı AMEA-nın Tarix İnstitutunun elmi mütəxəssisləri professor Nərgiz Axundova və tarix elmləri doktoru Xeyirbəy Qasımov təmsil etmişdilər (20).

2014-cü ilin dekabrın 9-da M.F. Axundov adına Azərbaycan Milli Kitabxanasında Mədəniyyət və Turizm Nazirliyinin və TÜRKSOY-un birgə təşkilatçılığı ilə görkəmli qırğız şairi, ozanı və bəstəkarı Toktoqulun anadan olmasının 150 illiyinə həsr edilmiş Beynəlxalq elmi konfrans keçirilmişdi. Tədbirdə qırğızıstanlı sənətçinin ifası dinlənilmiş və Toktoqula həsr edilmiş film nümayiş olunmuşdu (13, s.6).

Azərbaycan-Qırğızıstan münasibətlərinin son 25 ilinin icmalı göstərir ki, bu münasibətlər ümumən hamar olmuşdur. Ölkələrimiz istər Türkdilli dövlət başçıları görüşləri, daha sonra Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası Zirvə Toplantıları, istər İslam

Əməkdaşlıq Təşkilatı, istərsə də MDB Dövlət Başçıları Şurası çərçivəsində dialoq aparmaqdadır. Ümumən ölkələrimiz arasında ikitərəfli və çoxtərəfli əməkdaşlığın müxtəlif sahələrini əhatə edən 50-dən artıq müqavilə və saziş imzalanmışdır. Humanitar, o cümlədən elm və təhsil sahəsində əlaqələr son illərdə artmaqda olan əməkdaşlığın müxtəlif formalarında təzahür etməkdədir.

Azərbaycanın Qırğızıstanla elm və təhsil əlaqələrinin araşdırılması bizə söyləməyə əsas verir ki, onlar yüksələn dinamika nümayiş etdirməkdədir. Həm ikitərəfli müqavilələr, həm beynəlxalq layihələr, həm də ayrı-ayrı elm və təhsil müəssisələrinin təşkil etdikləri tədbirlər – konfranslar, simpoziumlar, seminarlar çərçivəsində əməkdaşlıq inkişaf etməkdədir.

**Açar sözlər:** *Azərbaycan, Qırğızıstan, elmi əməkdaşlıq, təhsil əlaqələri*

## ƏDƏBİYYAT SİYAHISI

*1. ADU-da TEMPUS proqramının FLEPP layihəsinin yekun konfransı keçirildi // http://www.adalet.az/w111153/details/#.WgruI5TEfIU*

*2. Azərbaycan məktəbliləri beynəlxalq mədəni-təhsil forumundan qayıdıblar. "Azərbaycan müəllimi" qəz., 2014, 18 iyul*

*3. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Qırğız Respublikasının Prezidenti A. Atambayevin Birgə Bəyanatı, 30 mart 2012-ci il // Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, №7, s. 1274-1276*

*4. Azərbaycan Respublikası Hökuməti və Qırğız Respublikası Hökuməti arasında mədəniyyət sahəsində əməkdaşlıq haqqında Saziş, 30 mart 2012-ci il // Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, №6, s. 1092-1095*

*5. ATU-da beynəlxalq konfrans keçirilir // http://www.amu.edu.az/az/news/471*

*6. Azərbaycan Respublikası və Qırğızıstan Respublikası arasında hərbi sahədə əməkdaşlıq haqqında Saziş, 1 iyun 2004-cü il // Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, №6, s. 1729-1732*

*7. Azərbaycan - Qırğızıstan münasibətləri // http://lib.aliyevheritage.org/az/9093787.html*

*8. Azərbaycan – Qırğızıstan sənədlərinin imzalanması. "Azərbaycan" qəzeti, 1997, 24 aprel, №79, s.2*

*9. Azərbaycanda təhsil, elm və mədəniyyət. Statistik məcmuə. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Bakı, 2014, 498 s.*

*10. Bakı Dövlət Universiteti ilə Qırğızıstan-Türkiyə Manas Universiteti arasında anlaşma memorandumu imzalanmışdır. "Azərbaycan" qəzeti, 2012, 19 oktyabr*

*11. Bakı və Qırğızıstan universitetləri əməkdaşlıq edəcək // http://simsar.az/news/a-40978.html*

*12. Bakıda keçirilən Türk Dünyası Riyaziyyat Cəmiyyətinin IV konqresi başa çatdı. "Azərbaycan" qəzeti, 2011, 6 iyul, №144*

*13. Bakıda qırğız şairi Toktoqulun 150 illiyinə həsr olunmuş Beynəlxalq elmi konfrans. "Azərbaycan" qəzeti, 2014, 10 dekabr*

*14. Bişkek şəhərində təşkil olunan beynəlxalq konfransa həmyerlimiz də qatılıb // http://ameanb.nakhchivan.az/?p=650*

*15. Elmi əməkdaşlıq üçün yeni üfüqlər açılır. "Xalq qəzeti", 2012, 15 mart*

*16. Əliyev H. Müstəqilliyimiz əbədidir: Çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar [Mətn], Çoxcildlik.*

*17. Əliyev İ. İnkişaf – məqsədimizdir. Çoxcilidlik, Bakı: Azərnəşr, Müxtəlif illər*

*18. İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutu ilə Qırğızıstan-Türkiyə Manas Universiteti arasında əməkdaşlıq haqqında memorandum imzalanmışdır. "Azərbaycan" qəzeti, 2013, 23 may*

*19. "İqtisadi siyasət üçün təsir analizləri" mövzusunda təlim başa çatmışdır // http://www.ier.az/az/snews.php?id=13*

*20. Kəngərli Q. Bişkekdə Böyük Qırğız Xaqanlığının 1170 illiyinə həsr edilmiş elmi konfrans keçirilir. "Azərbaycan" qəzeti, 2013, 16 noyabr*

*21. Qırğızıstan Elmlər Akademiyası Manasşünaslıq Milli Mərkəzinin "Ədəbiyyat və incəsənət məsələləri" jurnalının birinci nömrəsi Azərbaycan-Qırğızıstan dostluğuna həsr edilmişdir. "Azərbaycan" qəzeti, 2009, 1 mart, № 48*

*22. Qırğızıstan prezidenti Əsgər Akayevə Bakı Dövlət Universitetinin fəxri doktoru diplomu təqdim edilmişdir. "Azərbaycan" qəzeti, 1997, 25 aprel, №80*

*23. Qırğızıstanda fəaliyyət göstərən beynəlxalq Atatürk-Alatoo Universitetində Azərbaycan ədəbiyyatı fakültəsi açılmışdır. "Azərbaycan" qəzeti, 2010, 29 yanvar, № 22*

*24. Müstəqil Azərbaycanın 25 ili səfirlərin gözü ilə (məqalələr toplusu). Bakı: "BEST-TMS" MMC, 2016, 645 s.*

*25. Odlar Yurdu Universiteti. Beynəlxalq əlaqələr şöbəsi // http://www.oyu.edu.az/index.php?newsid=35*

*26. Ruintən S. Azərbaycan türk dövlətləri ilə siyasi əlaqələr sistemində (XX əsrin 90-cı illəri). Bakı, "Adiloğlu", 2005, 236 s.*

*27. TEMPUS layihəsi çərçivəsində tərəfdaş universitetlərə monitorinq səfərləri həyata keçirilib //http://unec.edu.az/tempus-layihesi-cercivesinde-terefdas-universitetlere-monitorinq-seferleri-heyata-kecirilib/*

*28. Təhsil sahəsində imzalanmış saziş və protokollar// http://edu.gov.az/upload/file/Beynelxaql-emekdashliq/beyn-elaqeler azishler.pdf*

*29. Türk dünyasının alimləri UNEC-də // http://unec.edu.az/turk-dunyasinin-alimleri-unec-de/*

*30. Türkdilli Dövlət və cəmiyyətlərinin dostluq, qardaşlıq və əməkdaşlığının XI Qurultayının açılış mərasimi. "Azərbaycan" qəzeti, 18 noyabr, №260*

*31. UNEC-in koordinatorluğu ilə Qırğızıstanda "Layihə Məlumat Günü" keçirilib // http://unec.edu.az/unec-in-koordinatorlugu-ile-qirgizistanda-layihe-melumat-gunu-kecirilib/*

*32. UNEC Mərkəzi Asiya Universitetlər Birliyinə üzv seçilib // http://unec.edu.az/unec-merkezi-asiya-universitetler-birliyine-uzv-secilib/*

*33. Vəliyev İ., Muxtarov K. Heydər Əliyev və türk dünyası. Bakı, AzAtaM, 2003, 89 s.*

*34. Азербайджан-Киргизия. Двусторонние отношения. Посольство Азербайджанской Республики в Кыргызстане // http://bishkek.mfa.gov.az/content/3*

*35. Буранов А.Б. Развитие Кыргызско - Азербайджанского межгосударственного, экономического и культурного сотрудничества на современном этапе // Вестник КРСУ, 2016, т. 16, № 10, с. 132-136*

*36. Культурно-гуманитарное сотрудничество // http://mfa.gov.kz/ru/baku/content-view/kulturno-gumanitarnoe-sotrudnicestvo*

*37. http://islamworld.preslib.az/page/rKm9OLltie;http://www.diaspora.gov.az/?options=content&id=197*

**Гульшан Гусейнова**
**Аспирант Академия Государственного Управления при Президенте Азербайджанской Республики**
**gulya_dia@list.ru**

**Сотрудничество между Азербайджаном и Киргизстаном в сфере науки и образования в современных условиях**

**РЕЗЮМЕ**

В представленной статье прослеживается развитие взаимосвязей между Азербайджаном и Киргизстаном в сфере образования и науки. Отношения между двумя братскими народами прошли специфический путь развития. Исследования показывают, что азербайджано-киргизское сотрудничество в первую очередь происходило в рамках международных и региональных организаций (СНГ, Совет Сотрудничество Тюркоязычных Государств, Организация Исламского Сотрудничество и т.д.). В целом, между странами было подписано более 50 договоров и соглашений, охватывающих различные сферы двухстороннего сотрудничества. Хотя в первые годы после обретения независимости культурно-гуманитарное сотрудничество, включая научные и образовательные связи, находилось в застывшем состоянии, в последние годы они динамично развиваются.

**Ключевые слова:** *Азербайджан, Киргизстан, научное сотрудничество, связи в образовательной сфере*

**Gulshan Huseynova**
**PhD student of Academy of Public Administration under the President of the Republic of Azerbaijan**
**gulya_dia@list.ru**

**Cooperation between Azerbaijan and Kyrgyzstan in the field of science and education in modern conditions**

**SUMMARY**

The presented article traces the development of the relationship between Azerbaijan and Kyrgyzstan in the field of education and science. Relations between the two fraternal peoples have passed a specific path of development. Studies show that the Azerbaijani-Kyrgyz cooperation primarily occurred within the framework of international and regional organizations (CIS, Cooperation Council of Turkic-speaking States, Organization of Islamic Cooperation, etc.). In general, more than 50 treaties and agreements were signed between the countries, covering various areas of bilateral cooperation. Although in the first years after independence, cultural and humanitarian cooperation, including scientific and educational ties, was in a frozen state, in recent years they have been developing dynamically.

**Keywords:** *Azerbaijan, Kyrgyzstan, scientific cooperation, relations in the educational sphere.*

УДК 327; 339.9

# ПОЛИТИЧЕСКИЕ АСПЕКТЫ АЗЕРБАЙДЖАНО-УКРАИНСКИХ ГУМАНИТАРНЫХ СВЯЗЕЙ

**АЙГЮЛЬ ЭФЕНДИЕВА**
*Бакинский славянский университет, докторант кафедры Дипломатии и внешней политики*
***Азербайджан***
*E-mail: aygul185@gmail.com*

В отличии от 90-х годов прошлого столетия, XXI век предъявил новые критерии подхода к системе международных отношений. Причиной этого стал развал мировой системы социализма и создание современной системы межгосударственных отношений, основанной на новых принципах и общности интересов. В тот период в Восточной Европе и на всем постсоветском пространстве шел процесс формирования новой политико-экономической системы. Глобальные перемены, происходящие в странах данного региона, с необходимостью требовали определения иных подходов не только в политико-экономической, но и в гуманитарной сфере межгосударственных отношений. Наконец, в XXI веке эти государства вступили в качественно обновленную стадию развития, требующую всесторонней модернизации системы международных отношений. В целом, для этого периода характерна тенденция всеобщей глобализации, которая, являясь политическим процессом, заняла прочное место во внешней политике стран мирового сообщества. Эти особенности наиболее отчетливо проявились в гуманитарной политике, как одной из составляющих внешнеполитического курса государства. Как правило, основное содержание гуманитарных связей во внешнеполитическом курсе государства не ограничивается их донорской ролью. Вместе с тем связи - один из важнейших компонентов межкультурной коммуникации. В действительности гуманитарная политика любого государства является; фактором, налаживающим «мосты» между странами и народами, что не только полностью оправдано на современном этапе, но и с необходимостью требует своего дальнейшего развития.

Осуществление политики гуманитарной безопасности в процессе общественно-политической реорганизации независимых республик, появившихся на мировой арене после развала советского государства, проявилось, прежде всего, в новых критериях. Установка этих критериев, соответствующих новым общественно-политическим отношениям на фоне обращение проверенной практике государств мира, направляет гуманитарную трансформацию и проясняет ее содержание. Сущность понятия «гуманитарная трансформация» сводилась к замене идеи «дружбы народов» (составлявшей; основу советской политики) новой гуманитарной концепцией. В то время да первый план выдвигались принципы формирования гуманитарной политики в передовых, развитых странах, а также определения ее места в мировой системе гуманитарной политики. Например, в России - самом большом государстве на постсоветском пространстве - гуманитарная политика выступала с позиций единой государственной идеологии, в то время как в странах Европейского сообщества главным являлся миграционно-демографический принцип (11). В данном контексте гуманитарная политика азербайджанского государства выступает как составная часть государственной политики. Что касается Украины, то здесь следует отметить, что она при определении своей гуманитарной политики воспользовалась практикой России, т.е. установила направления данной политики в качестве составной части единой государственной идеологии.

При определении направлений внутренней

и внешней политики государства в процессе трансформации следует учитывать и анализировать такие серьезные факторы, как гражданская солидарность и недопустимость противостояния - нюансы, требующие взвешенного подхода с точки зрения гуманитарной стратегии. Во время перехода к новым общественно-политическим отношениям в сфере гуманитарной политики Азербайджанского государства были учтены как внутренние, так и внешние стратегические факторы. Эта и удачная политика в данном направлении, обладающая важной дипломатической ценностью, является в то же время одним из факторов, обеспечивающих успех Азербайджанской Республики на мировой политической арене. Следовательно, исходя из системы новых отношений, выход на новую политическую арену с необходимостью требует формирования внутри государства соответствующих общественно-политических взглядов, создания собственной политической концепции в международном аспекте.

В современной политической литературе часто можно встретить термины «гуманитарная политика», «гуманитарная безопасность», «мягкая сила» - понятия, которые охватывают разные стороны гуманитарных отношений и, вместе с тем, пересекаются в сфере гуманитарной безопасности. Данный вопрос сближается по своему содержанию с проблемой гуманитарной безопасности всего человечества. Поэтому заместитель Генерального секретаря Организации Объединенных Наций Гейв своем выступлении особо отметил, что в XXI веке гуманитарная безопасность не ограничивается защитой государства от внешних захватчиков и угроз, но также требует борьбы против движений внутри страны, применяющих силу и ведущих народ к деградации (13).

Понятие «международная гуманитарная связь» охватывает очень широкий круг вопросов. Исходя их мировой практики, политологи определили следующие его спектры: 1.Межэтническое и межконфессиональное взаимодействие. 2.Культурная интеграция. 3.Внешняя культурная политика. 4. Культурное сотрудничество. 5.Международное право и гуманитарная сфера. 6. Международные образовательные связи. 7. Международная общественная деятельность. 8.Международное сотрудничество в области физкультуры и спорта. 9.Международные аспекты общественного здравоохранения. 10.Международное научно-техническое сотрудничество.

Ряд аспектов международного информационного обмена (5). Критерии для гуманитарных отношений в политике ведущих мировых лидеров имеют относительные различия. Например, в России, как мы уже упоминали, за основу берется единая государственная идеология, в Великобритании и Америке гуманитарные связи принимаются в контексте «культурной дипломатии», тот же нюанс более четко проявляется ив китайской дипломатии, а немецкие дипломаты склонны считать «культурную политику» прежде всего направлением пропаганды. Внешняя (в том числе гуманитарная) политика азербайджанского государства опирается на такие важные политические принципы, как построение демократического, правового государства, обеспечение территориальной целостности страны и создание мощной экономики. В настоящее время суверенитет страны и обеспечение ее территориальной целостности лежат в основе гуманитарной концепции нашего государства. В этом отношении азербайджано-украинские гуманитарные связи в принципе совпадают. Государственная гуманитарная политика - это системная политика; в любых обществах она охватывает все структуры, от отдельных лиц до крупных коллективов и стран. Эта черта ярко проявляется в украинско-азербайджанских отношениях. Дипломатические отношения между двумя странами были установлены 5 февраля 1999 года, и гуманитарная политика систематически осуществляется в рамках последовательной внешней политики. Дружественные отношения между Азербайджаном и Украиной имеют прочную основу. В связи с этим Ариф Джамиль оглу Гулиев пишет: «Теплые дружеские отношения между Азербайджаном и Украиной сложились гораздо раньше официального установления дипломатических отношений между Киевом

и Баку. Между двумя народами издавна существовала глубокая и традиционная дружба. Общенациональный лидер азербайджанского народа Гейдар Алиев всегда с особой теплотой и вниманием относился к украинскому народу. Будучи первым зампредом Совета Министров СССР, он немало сделал для Украины. Многие знают, что именно благодаря Гейдару Алиеву были выделены средства на реставрацию Киевской национальной филармонии. При его непосредственном содействии был построен и сдан в эксплуатацию завод «Оболонь». По его инициативе была построена фабрика детского питания. Можно вспомнить и помощь в строительстве Киевского метрополитена» (6). История азербайджано-украинских отношений имеет глубокие корни, и она успешно выдержала испытания в сложнейшие периоды истории (2). XXI век является периодом дальнейшего развития этих отношений. Договор о развитии экономических, политических и гуманитарных отношений между Украиной и Азербайджаном в контексте стран СНГ был принят главами этих государств в 2000 году, и в Киеве был открыт Институт политических и социальных наук имени Гейдара Алиева. В Украине прошло мероприятие, посвященное 100-летию великого поэта нашего народа Самеда Вургуна. 15 апреля 2003 года в Киевском государственном уни-верситете имени Т.Шевченко состоялся форум под названием «Азербай- джан-Украина: перспективы развития стратегического партнерства». «В 2003 году в Баку министры культуры двух стран подписали соглашения о развитии культурных связей, а на встречах 2004-2005 годов прошли обсуждения и были приняты решения по ряду гуманитарных вопросов. В 2005- 2006 годах на встречах между двумя странами были проведены мероприятия с участием видных деятелей науки и искусства. 30 июня 2008 года президент Украины Виктор Ющенко, находясь с визитом в Азербайджане, принял участие в церемонии открытия памятника выдающемуся украинскому поэту Тарасу Шевченко во время его визита в Азербайджан (10). В 2013 году между двумя странами были заключены договоры в области культуры и туризма; мероприятия, проведенные в 2011-2015 годах, были выполнены в соответствии с планом сотрудничества между двумя странами. План был подписан 28 апреля 2011 года в рамках официального визита президента Украины

Виктора Януковича в Азербайджан. Как продолжение этого мероприятия, в Украине в 2014 году прошли Дни азербайджанской культуры. 1-4 марта 2012 года в Азербайджане состоялись дни новой украинской музыки. Этот музыкальный праздник, организованный Союзом композиторов Азербай-джана, Министерством культуры и туризма Азербайджанской Республики и Посольством Республики Украина в Азербайджане, имеет уникальное значение. Фестиваль был посвящен демонстрации достижений украинской композиторской школы за 20 лет независимости, что еще раз подтвердило важность исторически нерушимых азербайджано-украинских связей в области музыкальной культуры и в современный период (15)/ В ходе официального визита президента Азербайджана Ильхама Алиева в Киев 20 ноября 2013 года президент Украины Виктор Янукович сказал: «Мы вместе с Ильхамом Гейдаровичем с большим удовлетворением отмечаем совпадение подходов Киева и Баку по большинству актуальных вопросов, стоящих на глобальной и региональной повестке дня. Наши страны конструктивно взаимодействуют в рамках международных организаций - ООН, а также в рамках ОБСЕ, где в этом году председательствовала Украина. Кроме того, по итогам визита президента Азербайджана, были подписаны двусторонние соглашения по внешней политике, сельскому хозяйству, культурной и гуманитарной сферах. Несомненно, решения, принятые на сегодняшних высокоуровневых двусторонних переговорах, создадут благоприятные условия для углубления украинско-азербайджанского стратегического партнерства». Другим важным со-бытием, демонстрирующим тесную дружбу и солидарность между двумя странами, является награждение президента Азербайджана Ильхама Алиева украинским орденом «Свобода», а также Президента Украины Виктора Януковича орденом «Гейдар

Алиев» Азербайджанской Республики. Это стало оплотом для дальнейших искренних взаимоотношений народов, которые связаны неразрывными узами. После церемонии награждения было подписано пять важных соглашений (12). Министры культуры двух стран подписали программу двустороннего культурного сотрудничества на 2016-2020 гг. Президент Азербайджанской Республики Ильхам Алиев в своем поздравительном письме от 22 августа 2015 года президенту Украины П.Порошенко по случаю Дня независимости Украины, затрагивая вопросы отношений между Баку и Киевом, отметил: «Азербайджан и Украину объединяют тра-диционные отношения дружбы и сотрудничества. Я верю, что наши межгосударственные отношения и в дальнейшем будут развиваться и расширяться в соответствии с волей наших народов» (8). В целом активизация гуманитарных отношений между двумя странами дает свои результаты: «За последние 25 лет независимости нашей страны были установлены памятники выдающимся государственным и культурным деятелям Азербайджана в Украине и Украины в Азербайджане. В связи с этим был установлен бюст Леси Украинки в Гарадагском районе Баку и воздвигнут памятник великому украинскому поэту Тарасу Шевченко в центре нашей столицы. Наряду с этим, в городе Киеве воздвигнут памятник общенациональному лидеру азербайджанского народа Гейдару Алиеву, а в городе Ирпень - установлен бюст выдающегося офтальмолога, академика Зарифы Алиевой; здесь же - парк, носящий ее имя. Одна из центральных улиц города Ирпень и средняя школа №12 также названы в честь академика Зарифы Алиевой. Бюст нашего поэта Самеда Вургуна был установлен перед киевской библиотекой, носящей его имя. Приведенные факты еще раз позволяют с уверенностью говорить о том, что Азербайджан и Украина смогли наладить дружеские отношения не только в экономической, политической, культурной и гуманитарной сферах. На достаточно высоком уровне продолжается основанная на взаимной поддержке деятельность двух стран в международных организациях. Украина демонстрирует свою приверженность в деле решения Нагорно-Карабахского конфликта, являющегося самой болезненной проблемой Азербайджана в контексте территориальной целостности нашей страны, а Азербайджан, в свою очередь, оказывает моральную поддержку территориальной целостности Украины на международной арене в сложный для нее современный период. Сегодня азербайджано-украинские связи развиваются по возрастающей линии во всех сферах. Обе страны наиболее активно участвуют в политических диалогах. Документы, подписанные во время взаимных визитов глав государств и других должностных лиц, а также реализация других проектов указывают на высокий уровень взаимной политической активнос-ти между нашими странами» (9).

А.Аббасбейли и Э.Наджафов, говоря о сущности внешней политики государства и при этом, ссылаясь на К.Модельского, пишут: «По мнению К.Модельского, одного из экспертов-политологов в области внешней политики, целью внешней политики является регулирование деятельности государств в целях получения собственной выгоды. По его мнению, внешняя политика - это такая система деятельности, посредством которой то или иное государство стремится оказать влияние на деятельность другого государства или государств, в то же время пытаясь адаптировать свою деятельность к международным нормам. Главная задача внешней политики - определить способы внесения необходимых изменений путем влияния на деятельность других государств (1,154). В такой трудной и сложной области, как внешняя политика, политика гуманитарная играет важную роль в смягчении отношений, создании благоприятной политической атмосферы между государствами. В этом смысле азербайджано-украинские гуманитарные отношения выполняют свою важную миссию.

В международных отношениях и дипломатии используется понятие «мягкая сила». Сущность этого понятия сводится к достижению желаемых результатов во внешнеполитической стратегии на добровольной основе без применения силы; здесь большую роль играют

такие факторы, как симпатия, антипатия, привлекательность, интересы. Джозеф Най, привнесший этот термин в политологию, назвал «мягкой силой» язык и культуру страны, - факторы, играющие важную роль на международной арене. Во внешней политике данный фактор обладает сильным воздействием в качестве формы гуманитарных связей, а его основная характеристика появляется в сравнении с силовыми воздействиями (10). На самом деле это понятие было применено еще в VII веке древними китайскими философами как альтернатива «мощной силе». В современном мире «мягкая сила» предполагает достижение определенных успехов в контексте распространения демократических и культурных ценностей; в данном случае это понятие также является инструментом влияния. Б.Бабыло, один из известных исследователей этой области, цитируя К.Ноя, отмечает: «По его мнению, сила государства заключается в возможности добиваться от других желаемых результатов. Эта возможность зависит от наличия у политического режима тех или иных ресурсов осуществления власти и умения их эффективно использовать. Желаемых результатов во многих случаях можно добиться при помощи таких факторов, как ду-ховная и материальная культура, общественные и политические принципы, качество проводимой внешней и внутренней политики и т.д. Эти дополни-тельные факторы в идеальном исполнении безотказно работают на повышение привлекательности имиджа страны, формируют особый ресурс, определяемый Дж. Наем как «мягкая сила» (4).Страны Запада расходуют на эту политику крупные средства: «Франция стоит на первом месте, расходуя 17 долл. США в год на душу населения, что в четыре раза больше, чем у занимающей второе место Канады, за которой идут Великобритания и Швеция. Для сравнения: расходы государственного департамента США на финансирование международных культурных программ составляют лишь 65 центов на душу населения в год»(4).Применение «мягкой силы» зависит от цели внешней политики каждого государства и включает весь спектр гуманитарных отношений. В частности, в Америке «мягкая сила» нацелена на возвращение лидирующих позиций в американском образе жизни, в сфере высшего образования, на «глобальной фабрике» в Китае и утраченное региональ-ное лидерство над Россией, Фактически, этот термин, по сути, основан на факторе воздействия, которое, однако, преследует гуманитарные цели. Например, в азербайджано-украинских отношениях «мягкая сила» применяется в соответствии с принципами внешней политики Азербайджана: взаимное уважение, мультикультурализм, невмешательство во внутренние дела других стран, соблюдение норм международных гуманитарных организаций. Такой подход к проблеме стимулирует сохранение национальных и культурных ценностей различных народов мира и, прежде всего, способствует сближению государств и народов, содействуя миру и безопасности. В результате этого усиливаются дружественные отношения между двумя странами, гар-монично развиваются международные отношения, идет взаимное усвоение ценного культурного наследия друг друга и, в конечном счете, создается общая гармония мира.

Гуманитарные связи занимают особое место в системе отношений з современном мире. По своему масштабу они охватывают обширную сферу человеческой жизни: от отношений между конкретными индивидами до очень важной части системы межгосударственных отношений, даже объе-диняющей в себе объединения государств - блоки. Хотя гуманитарные свя-зи, сближающие и примиряющие людей, исторически являются основных актом человеческого развития, тем не менее, в разных исторических усло-виях появляются новые оттенки в их содержании. Поэтому мы рассмотри? : два аспекта из широкого спектра гуманитарных связей (16).

**Ключевые слова:** *международное, культурное сотрудничество, гуманитарный, права, культура.*

**СПИСОК ЛИТЕРАТУРЫ**

*1.Abbasov A., Nəcəfov E.. Beynəlxalq münasibətlər nəzəriyyəsi. Bakı, 2007*

*2.Гасымлы М.Дж., Купчик О.Р., Дамиров А.У. Украинско-азербайджанские политические отношения: история и современность. Киев: дом Дмитрия Бураго, 2012*

*3.Filip Brayar, Mohammad-Reza Cəlili. Beynəlxalq münasibətlər. Bakı: "Azərbaycan" nəşriyyatı, 2010 (Tərcüməsi)*

*4.Бабыло А.М. «Мягкая сила»в международной политике: особенности национальных стратегий. М., 2014*

*5.CBolshedvorova. - Большедворова Л.С. Гуманитарное сотрудни-чество в современных международныхотношениях.*

*6.Ариф Джамиль оглу Гулиев,www.versii.eom/news/360084*

*7.https://az.wikipedia.org/..,/Azərbaycan-Ukrayna_münasibətlər-info.com*

*8.moskov-baku.ru\...\prezident_ilkam_aliev_ver-it_ v_ budushshee_ azerbayd- zano_uk...)*

*9.www.respublica-news.az/.../13128-azaerbay-dzanla-ukrayna*

*10.https://ru.wikipedia.o^Лvікі/Мягкая_сила*

*11.st-hum.ru \...\ zubchenko - sa - realizaciyu - politiki - gumanitamoy-bezo- pasnosti-v-usloviya. politike.ru\termin\qumanitamaya-bezopasnost. html.*

*12.www.xalqqazeti.com/az/news/analytics/3 9780)*

*13.politike.ru\termin\ qumanitamaya-bezopas-nost.html.*

*14.www.centis.bsu.by/%5Cnew_ ssem25.04%5CBolshedvorova.doc.*

*15.zeynj-info.com/?b=content&cat=4&id=43*

*16 .https://cyberleninka.ru/.. ./mezhdunarodnoe-kultumoe-sotrudnichestvo-as-pekty-sotsialno*



**Əfəndiyeva Aygül**


**AZƏRBAYCAN İLƏ UKRAYNA ARASINDA HUMANİTAR ƏLAQƏLƏRİN SİYASİ ASPEKTİ**


**XÜLASƏ**

Məqalə Ukrayna ilə Azərbaycan arasında humanitar əlaqələrin siyasi aspektinə həsr olunub. Qarşılıqlı anlaşmanın və etimadın mühüm amili kimi son on ildə Azərbaycanla MDB-nin slavyan ölkələri və Şərqi Avropa ölkələri ilə arasında müşahidə olunan humanitar əlaqələrin genişləndirilməsini və gücləndirilməsini qeyd etmək olar. Bu, əsasən, təhsil, elm, səhiyyə, mədəniyyət, turizm və digər humanitar sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi üçün lazımi hüquqi bazanın yaradılması ilə bağlıdır. Məqalədə xarici siyasət sistemində humanitar əlaqələrin rolu geniş təhlil olunur və mövcud siyasi vəziyyətdə onun böyük rolu təsdiqlənir.



**Açar sözlər:** *beynəlxalq, mədəni əməkdaşlıq, humanitar, hüquqlar, mədəniyyət.*



**Efendiyeva Aygul**


**HUMANITARIAN BETWEEN AZERBAIJAN AND UKRAINE RELATIONSHIP POLICY ASPECT**


**SUMMARY**

The article is devoted to the political aspect of humanitarian relations between Ukraine and Azerbaijan. An important factor of mutual understanding and confidence is the expansion and strengthening of humanitarian ties with Azerbaijan over the past decade with the Slavic countries of the CIS and Eastern Europe. This is mainly due to the establishment of a proper legal framework for the development of cooperation in education, science, health, culture, tourism and other areas. The article analyzes the role of humanitarian relations in the foreign policy system and confirms its large role in the current political situation.



**Key word:** *international, cultural cooperation, humanitarian, laws, culture.*

UOT 327

# YUNESKO VƏ AZƏRBAYCAN HUMANİTAR SİYASƏTİ

**NƏRMİN QƏDİROVA**
*Bakı Slavyan Universiteti, beynəlxalq münasibətlər kafedrasının müəllimi*
***Azərbaycan***
*E-mail: matlabm@yandex.ru*

## Giriş

Müasir dünyada dövlətin humanitar siyasəti getdikcə daha funksionallıq kəsb etməyə başlamışdır. Qloballaşmanın dönməzliyi fonunda humanitar siyasətin istiqamətlərinin dəqiqliklə müəyyənləşdirilməsi olduqca əhəmiyyətlidir. Belə ki, qloballaşma dünya xalqlarının mədəniyyətlərini "unifikasiya" etməkdədir. Bu da təbii ki, milli mədəni dəyərlərin qorunması məsələsini ön plana çıxarır. Sözsüz dövlətlər və ya xalqlar milli mədəni dəyərlərinin qorunması istiqamətində təkbaşna səmərəli fəaliyyət göstərə bilməzlər. Artıq qeyd olunduğu kimi, qloballaşmanın harkı mərhələsində bunu etmək olduqca çətindir. Bu baxımdan, müvafiq təşkilatlar çərçivəsində humanitar siyasətin prioritetlərinin həyata keçirilməsi daha real nəticələrin əldə olunmasını şərtləndirir.

## Mədəni qloballaşma və YUNESKO-nun rolu

Mədəni qloballaşma müəyyən müsbət tərəflərə malik olsa da, milli mədəniyyətlərin onun neqativ təsirlərindən qorunmasına ehtiyac vardır. Eyni zamanda dünya mədəni dəyərlərinin qorunması, təbliğ edilməsi, ümumi humanitar əlaqələrin inkişaf etdirilməsi istənilən dövlətin qarşısında duran çox mühüm məsələlərdəndir. Azərbaycan Respublikası beynəlxalq və regional təşkilatlarla yaxından əməkdaşlıq etməklə, müxtəlif istiqamətlərdə milli maraqlarının təmin olunmasına nail olur. Qloballaşma mədəni eyniliyi gücləndirsə də, sabit mədəni sistemlərin monolitliyinin artmasını da şərtləndirir. Çünki, müxtəlif mədəni sistemlər özlərinin ilkin vəziyyətlərini qoruyub saxlamaq üçün daha da ciddi səfərbər olurlar. Müxtəlif mədəniyyətlərin qorunub saxlanılmasının ən optimal yollarından biri onlar arasında dialoqdan ibarətdir. Azərbaycan Respublikası mədəniyyətlər arası dialoqun inkişaf etdirilməsində xüsusi rolu ilə seçilir. Bunu ölkəmizin müvafiq təşkilatlar çərçivəsində fəaliyyətindən aydın müşahidə etmək mümkündür. Nəzərə almaq lazımdır ki, hazırkı mərhələdə müxtəlif fəaliyyət profillərinə malik olan beynəlxalq və regional təşkilatların rolu əhəmiyyətli dərəcədə artmaqdadır. Həmçinin, mədəniyyətlərarası dialoq sahəsində də ən səmərəli fəaliyyəti məhz aidiyyatı üzrə təşkilatlar çərçivəsində həyata keçirmək mümkündür. Belə ki, belə təşkilatlar çərçivəsində müvafiq istiqamətdə fəaliyyətin koordinasiya edilməsi imkanları geniş olur. Nəzərə almaq lazımdır ki, qloballaşma həm də dövlətin müxtəlif sahələrdə tənzimləmə imkanlarını məhdudlaşdırır. Müvafiq olaraq, həmçinin, mədəniyyət sahəsində və digər humanitar sahələrdə əlaqələrin inkişaf etdirilməsində beynəlxalq təşkilatların rolu əhəmiyyətli dərəcədə artır. Həqiqətən də, səthi olsa belə nəzər salsaq, görərik ki, BMT, AŞ, ATƏT, YUNESKO, İSESKO kimi təşkilatların mədəniyyətlərarası dialqoun inkişaf etdirilməsində kifayət qədər ciddi rolu vardır və bu rolun artması müşahidə olunmaqdadır. Müasir mərhələdə dünya miqyasında münaqişələrin, ziddiyyətlərin aradan qaldırılmasının ən optimal yollarından biri kimi mədəniyyətlərarası dialoq çıxış etməkdədir. Bu baxımdan, BMT ixtisaslaşmış strukturu olmaqla, mədəniyyətlərarası dialoq məsələləri YUNESKO həll etməkdədir. Qeyd etmək lazımdır ki, YUNESKO öz fəaliyyətində başlıca olaraq, mədəniyyətlərin bərabərliyi prinsipindən çıxış edir. 2001-ci ildə "Mədəni müxtəliflik haqqında" ümumi bəyannamə qəbul olunmuşdur. Bu bəyannamədə mədəniyyətlərarası dialoqun inkişaf etdirilməsindən tutmuşmədəni müxtəlifliyin qorunması prinsipləri ifadəsini tapmışdır. Təbii ki, mədəni dialoqun inkişaf etdirilməsi istiqamətində həyata keçirdiyi fəaliyyət zamanı YUNESKO başlıca olaraq, beynəlxalq humanitar hüquq normalarına istinad edir. Təşkilatlar çərçivəsində fəaliyyət göstərən istənilən subyekt

məhz YUNESKO-nu n müvafiq sənədlərində yer almış prinsiplərə və beynəlxalq humanitar hüquq normalarına uyğun davranırlar. Həmçinin, Azərbaycan Respublikasının humanitar siyasətində xüsusi istiqaməti təşkil edən YUNESKO ilə əlaqələr bəşəri mədəni dəyərlərin qorunması, təbliğ olunması xüsusi konseptual əsaslara söykənir. Aparılmış məqsədyönlü siyasətin nəticəsidir ki, bu gün mədəniyyət ümumilikdə bəşəriyyət üçün taleyüklü bir amili çevrilmişdir.

Nəzərə almaq lazımdır ki, beynəlxalq hüququn mühüm elementlərindən birini məhz mədəni hüquq təşkil edir. Azərbaycanm Respublikası müstəqilliyin ilk illərindən başlayaraq, beynəlxalq təşkilatlarla sıx əlaqələrin qurulması fonunda özünün milli maraqlarının, həmçinin, bəşərəi maraqların qorunması istiqamətində ciddi fəallıq nümayiş etdirmişdir. Müvafiq olaraq, beynəlxalq müstəvidə mədəni əlaqələrin qurulması da xarici siyasətin vacib istiqaməti kimi müəyyənləşdirmişdir. Beynəlxalq mədəni hüquqa həssaslıqla yanaşılması Azərbaycan Respublikasının xarici humanitar siyasətinin mərkəzi prinsipinə çevrilmişdir. Təbii ki, mədəni hüquq digər hüquq və azadlıqlarla sıx bağlıdır. Lakin bununla yanaşı, mədəni hüququn bir sıra səciyyəvi cəhətləri də vardır. Belə ki, mədəni hüquqlar əksər hallarda kollektiv formada ifadə olunur və təmin edilir. Sözsüz, bu zaman mədəni hüquqların fərdi ifadə formasını tamam inkar etmək doğru olmaz. Mədəni hüquqlar bu və ya digər səviyyədə insan hüquqlarına dair beynəlxalq sənədlərdə ifadəsini tapmışdır. Belə sənədlərdən əsasən aşağıdakıları xüsusi qeyd etmək mümkündür [1]:

-1948-ci ildə qəbul olunmuş Ümumdünya İnsan Hüquqları Bəyannaməsi;

-1966-cı ildə qəbul olunmuş Mülki və Siyasi, Hüquqlar Haqqında Beynəlxalq Pakt;

-1966-cı ildə qəbul olunmuş İqtisadi, Sosial, Mədəni Hüquqlar Haqqında Beynəlxalq Pakt və s.

Mədəni hüquqlar fərdi çərçivədə özünün ən aydın təsbitini Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 22-ci maddəsində tapmışdır. Burada mədəni hüquqlar iqtisadi və sosial hüquqlar-la bərabər hər bir kəsin öz ləyaqətini qorumaq, inkişaf etdirmək üçün vacib komponentlərdən biri kimi nəzərdən keçirilir. Əlavə olaraq, vurğulamaq lazımdır ki, Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 27-ci maddəsində mədəni həyatda insanların sərbəst iştirak etmək hüququ dəqiqliklə təsbit olunmuşdur. Belə ki, bu maddədə göstərilmişdir: "Hər bir şəxsin cəmiyyətin mədəni həyatında azad iştirak etmək, incəsənətdən zövq almaq, elmi tərəqqidə iştirak etmək, onun nəticələrindən istifadə etmək hüququ vardır. Hər bir insan müəllifi olduğu elmi, ədəbi və bədii əsərlərin nəticəsi olan və onun mənəvi, maddi maraqlarının müdafiəsi hüququna malikdir. Üzv dövlətlər elmi və mədəni nailiyyətlərin qorunmasını, inkişafını və yayılmasını nəzərdə tutan hüquqların tam həyata keçirilməsi, eləcə də elmi tədqiqatlar və yaradıcı fəaliyyət üçün zəruri olan azadlıqlara hörmət etməyi öhdəliklərinə götürürlər" [2]. Həmçinin, İqtisadi, Sosial və Mədəni Hüquqlar Haqqında Paktın 15-ci maddəsində beynəlxalq səviyyədə elmi və mədəni əməkdaşlıqla bağlı məsələlər yer almışdır. Bu Paktın 15-ci maddəsində ifadə olunmuşdur ki, onda iştirak edən dövlətlər hər bir kəsin aşağıdakı hüquqlarını tanıyır [3]:

-mədəni həyatda iştirak;

-elmi tərəqqinin və onun praktiki tətbiqinin nəticələrindən istifadə;

-özünün müəllifi istənilən elmi, ədəbi və ya bədii əməyin nəticəsində meydana çıxan mənəvi və maddi maraqların qorunması imkanından faydalanmaq.

Ümumiyyətlə, çoxsaylı nümunələr əsasında qeyd etmək olar ki, mədəni hüquq ayrıca bir fenomen insan hüquqları sırasında mühüm yerə malikdir. Bununla yanaşı, tədqiqatlarımız müəyyənləşdirməyə imkan vermişdir ki, normativ hüquqi sənədlərdə mədəniyyət məhfumu dar çərçivədə ifadə olunmuşdur. Bu da təbii ki, mədəni hüquqların daha etibarlı qorunması imkanlarını müəyyən səviyyədə məhdudlaşdırır. Bunu müvafiq sahədə ciddi ekspertlərdən biri kimi tanınmış M. Beykin də dəqiq mövqeyi formalaşmışdır. Belə ki, M. Beyk də əsaslandırmışdır ki, ümumi insan hüquqlarına aid olan maddələrdə "mədəniyyət" məhfumu xeyli məhdud ifadə olunmuşdur [4, s.31]. Bununla bağlı bizim də qənaətimiz var. Hesab edirik ki, mədəni hüquqların insan hüquqların kontekstində ifadə olunması sahəsində bir boşluq var. Belə ki, "İnsan hüquqları nəsli" kimi təqdim olunan konseptual yanaşmaya görə mədəni hüquqlar

ikinsi nəsil hüquqlar kimi təsnif olunmuşdur [5, s.67]. Mədəni hüquqların da birinci nəsil insan hüquqları kateqoriyasına aid edilməsi daha məqsədə uyğun olardı. Çünki, sözün həqiqi mənasında mədəni hüquqların qorunması müasir mərhələdə münaqişəli vəziyyətlərin aradan qaldırılmasının optimal yollarından biri kimi nəzərdən keçirilməlidir. Müvafiq olaraq, birinci nəsil hüquqlar kimi, mədəni hüquqların da dərhal təmin olunma xüsusiyyəti olmalıdır. YUNESKO çərçivəsində dövlətlərin əməkdaşlığı həm mədəni hüquqların daha etibarlı təmin olunmasının vacibliyi önə çəkir.

### YUNESKO ilə Azərbaycan arasında əlaqələrin inkişaf dinamikası

Azərbaycan Respublikası YUNESKO ilə əlaqələrin qurulmasını və inkişaf etdirilməsini həm də mədəni hüquqların qorunması sahəsində daha səmərəli addımların atılmasının mühüm yollarından biri kimi baxır. Müvafiq olaraq, humanitar xarici siyasətin prioritetlərinə daha effektiv çatılması üçün YUNESKO ən uğurlu platformadır. YUNESKO çərçivəsində Azərbaycanın səmərəli əməkdaşlıq etməsini təmin edən mühüm amillərdən biri də ölkənin qanunvericilik bazasında bununla bağlı ciddi məqamların yer almasıdır. Belə ki, Azərbaycan Respublikasının Konstitusiyasında mədəni xarakterli hüquqlar aydın təsbit olunmuşdur. Konstitusiyanın 40-cı maddəsinin I və II maddələrində qeyd olunur: "Hər kəsin mədəni həyatda iştirak etmək, mədəniyyət təsisatlarından və mədəni sərvətlərdən istifadə etmək hüququ vardır. Hər kəs tarixi, mədəni və mənəvi irsə hörmətlə yanaşmalı, ona qayğı göstərməli, tarix və mədəniyyət abidələrini qorumalıdır" [6]. Bundan başqa, Azərbaycan Respublikasının Konstitusiyasının 51-ci maddəsini də ayrıca vurğulamaq lazımdır. Belə ki, bu maddədə də insanların mədəni fəaliyyət hüquqları dəqiqliklə təsbit olunmuşdur. Azərbaycan Respublikasının Konstitusiyasının 51-ci maddəsində göstərilmişdir: "Hər kəsin yaradıcılıq azadlığı vardır. Dövlət ədəbi-bədii, elmi-texniki və başqa yaradıcılıq növlərinin azad həyata keçirilməsinə təminat verir" [7]. Həmçinin, xüsusi vurğulamaq lazımdır ki, 2013-cü il 15 fevral tarixində Azərbaycan Respublikasının "Mədəniyyət haqqında" Qanunu qəbul olunmuşdur. Hesab edirik ki, Azərbaycan Respublikasının "Mədəniyyət haqqında" Qanunu YUNESKO çərçivəsində əməkdaşlıq üçün mükəmməl normativ-hüquqi baza rolunda çıxış edir. Çünki qanunda yer alan ayrı-ayrı məqamlar mədəni müxtəlifliyin təbliği və qorunması hüquqlarını təsbit edir ki, bu YUNESKO-nun müvafiq prinsipləri ilə uyğunluq təşkil edir. Bu mənada, Qanunun 8-ci və 9-cu maddələrini xüsusi qeyd etmək lazımdır. Belə ki, Azərbaycan Respublikasının "Mədəniyyət haqqında" Qanunun 8-ci maddəsində göstərilmişdir: "Hər kəsin özünün milli mədəni özünəməxsusluğunu qoruyub saxlamaq, mənəvi, estetik və digər dəyərləri sərbəst seçmək hüququ vardır. Dövlət şəxsin mədəni özünəməxsusluq hüququna təminat verir" [5]. Göründüyü kimi, Qanunun 8-ci maddəsi birbaşa mədəni müxtəlifliyin qorunmasına həsr olunmuşdur. Azərbaycan Respublikası YUNESKO ilə əməkdaşlığı çərçivəsində həm milli mədəni dəyərlərin qorunması, həm də başqa xalqların mədəni dəyərlərinin qorunması istiqamətində səmərəli fəaliyyət göstərir. Bu baxımdan, Azərbaycan Respublikasının "Mədəniyyət haqqında" Qanunun 48-ci maddəsini ayrıca qeyd etmək lazımdır. Qanunun 48-ci maddəsində göstərilmişdir: "Mədəniyyət sahəsində beynəlxalq əməkdaşlıq Müvafiq icra hakimiyyəti orqanları, mədəniyyət təsisatları, mədəniyyət işçilərinin həmkarlar ittifaqları, yaradıcılıq ittifaqları Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada başqa dövlətlərin hüquqi və fiziki şəxsləri ilə, beynəlxalq təşkilatlarla mədəniyyət sahəsində əməkdaşlığı həyata keçirə bilərlər" [8]. Bu məqam bir daha sübut edir ki, Azərbaycan Respublikası ümumi humanbitar sahədə beynəlxalq əməkdaşlığını qurmaq və inkişaf etdirmək üçün ciddi normativ hüquqi bazaya malikdir. Artıq əvvəlki hissələrdə də əsaslandırıldığı kimi, YUNESKO elmi, təhsil və mədəniyyət sahələrində birgə fəaliyyətlərin koordinasiya olunması üçün unikal bir platformadır. Bu baxımdan, humanitar sahədə beynəlxalq əməkdaşlığın genişləndirilməsini prioritet istiqamətlərdən biri kimi müəyyənləşdirmiş Azərbaycan Respublikası YUNESKO platformasında kifayət uğurlu fəaliyyət göstərməkdədir. Göründüyü kimi, Azərbaycan qanunvericiliyi humanitar-mədəni əlaqələrin qurulması və inkişaf etdirilməsi üçün bütün vacib məqamları

özündə ifadə edir. Bu fikri bir daha əsaslandırmaq üçün Azərbaycan Respublikasının "Mədəniyyət haqqında" Qanunun 48-ci maddəsinin sonunucu bəndini ayrıca qeyd etmək məqsədəuyğundur. Qanunun 48-ci mnaddəsinin sonuncu (üçüncü) bəndində qeyd edilir: "Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş hallar istisna olunmaqla mədəniyyət sahəsində beynəlxalq əlaqələrin hər hansı şəkildə məhdudlaşdırılmasına yol verilmir" [9]. YUNESKO ilə əlaqələrin qurulmasının Azərbaycanın xarici humanitar siyasətinin əsas istiqamətini təşkil etməsi bir sıra vacib amillərlə şərtləndirir. Hər şeydən öncə qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının rəhbərliyi dərk edir ki, sürətlə qloballaşan müasir dövrdə YUNESKO-nun rolunun və missiyasının vacibliyinin əhəmiyyətli dərəcədə artmışdır. Mədəni müxtəlifliyin təşfiq olunması və beynəlxalq müstəvidə bu müxtəlifliyin qəbul olunması təşkilatın müəyyənləşdirdiyi əsas hədəflərdəndir. Təbii ki, elm və təhsil sahəsində də beynəlxalq qarşılıqlı əlaqələr sisteminin qurulması da təşkilatın qarşısında duran əsas vəzifələrdən biridir. Bu baxımdan, Azərbaycan Respublikası müvafiq istiqamətdə daha səmərəli fəaliyyət göstərmək, dünya elm və təhsil mühitinə interqasiya etmək, özünün və digər xalqların mədəniyyətlərinin etibarlı qorunmasına töhfə verə bilmək üçün YUNESKO ilə əməkdaşlığın qurulmasını və inkişaf etdirilməsini özünün humanitar siyasətinin vacib istiqamətinə çevirmişdir.

Azərbaycan Respublikasında multikulturalizm dövlət siyasətinin mühüm istiqamətlərindən biri kimi müəyyənləşdirilmişdir. Azərbaycanda multikulturalizm və tolerantlıq mühitinin saxlanılması dövlətin nəzarətində olan vacib məsələlərdəndir. Artıq qeyd edildiyi kimi, Azərbaycan təkcə daxildə deyil, həm də qlobal müstəvidə sivilizasiyalar və mədəniyyətlərarası dialoqun inkişaf etdirilməsində yaxından iştirak etməkdə maraqlıdır. Bu baxımdan, Azərbaycan-YUNESKO əlaqələrinin inkişaf etdirilməsini zəruri edən obyektiv məqamlar mövcuddur. Qeyd edilən istiqamətlərdə YUNESKO çərçivəsində səmərəli fəaliyyət göstərmək üçün bütün zəruri mexanizmlər və hüquqi çərçivələr mövcuddur.  Bu baxımdan müvafiq sahələrdə çoxistiqamətli fəaliyyətlərin koordinasiya olunması üçün YUNESKO analoqu olmayan bir beynəlxalq təşkilatdır. Yəni, beynəlxalq humanitar sahədəki vəziyyətə görə əsas məsuliyyətin daşıyıcısı məhz YUNESKO-dur. YUNESKO-nun müəyyənləşdirilmiş strukturu humanitar sahədə müxtəlif fəaliyyət növlərini koordinasiya etmək üçün tam yararlıdır [10, s.50].

**Nəticə**

Beləliklə, göründüyü kimi, Azərbaycan Respublikası YUNESKO ilə elm, təhsil və mədəniyyət sahələrində sıx əməkdaşlıq sisteminin qurulmasında maraqlıdır. Çünki, əsaslandırıldığı kimi, Azərbaycan Respublikası beynəlxalq mədəni müxtəliyi dəstəkləyən, eyni zamanda mədəniyyətlərarası dialoqun inkişaf etdirilməsində yaxından iştirak edən bir ölkədir. Bu istiqamətdə ən səmərəli fəaliyyət göstərilməsi üçün isə, YUNESKO olduqca uğurlu bir platformadır. Müasir dünya dövlətləri arasında özünün aktiv humanitar xarici siyasəti ilə seçilən Azərbaycan Respublikası dəstəklədiyi beynəlxalq prinsiplərə uyğun olaraq, YUNESKO ilə əməkdaşlığın qurulmasını və inkişaf etdirilməsini özünün humanitar xarici siyasətinin vacib istiqamətlərindən biri kimi müəyyənləşdirmişdir. Bu isə, həm beynəlxalq, həm də milli prioritetlərin yerinə yetirilməsi üçün olduqca əlverişli imkanlar açır.

**Açar sözlər:** *YUNESKO, Azərbaycan, əməkdaşlıq, humanitar siyasət, elm, mədəni əlaqələr.*

**ƏDƏBİYYAT SİYAHISI**

*1. BMT BM 57-ci sessiyası. A/57/249 saylı qətnamə. 20 dekabr 2002-ci il.*

*2. "Всеобщая декларация прав человека" (принята Генеральной Ассамблеей ООН 10.12.1948)// http://www.consultant.ru/document/cons_doc_LAW_120805/(müraciət tarixi:02.10.19)*

*3. Международный пакт об экономических, социальных и культурных правах(Принят резолюцией 2200 A (XXI) Генеральной Ассамблеи от 16 декабря 1966 года)// https://www.un.org/ru/documents/decl_conv/conventions/pactecon.shtml (müraciət tarixi: 02.10.19)*

*4. Beyke M. The International (Law) Dimension of Culture and Cultural Rights: Relevance for and*

*Application in the "New" South Africa" South African Year Book of International Law, No 20, 1995, P.31*

*5. Исаков В. Б.. Основы права.— М. : Норма : ИНФРА-М, 2015, 480 с.(s.67)*

*6. Azərbaycan Respublikasının Konstitusiyası. Əsas Qanun. Bakı, 2009, maddə 40*

*7. Конституция Азербайджанской Республики: принята референдумом Азербайджанской Республики 12 ноября 1995 г.: вступила в силу с 27 ноября 1995 г.- Баку: PG, 2014.- 55 с.(maddə 51)*

*8.Mədəniyyət haqqında Azərbaycan Respublikasının Qanunu// https://www.azlibnet.az/pdf/medenqanun.pdf (maddə 48)*

*9.Mədəniyyət haqqında Azərbaycan Respublikasının Qanunu// https://www.azlibnet.az/pdf/medenqanun.pdf (maddə 8)*

*10. Əhədova S.A. Mədəniyyətlərin qarşılıqlı əlaqələrində YUNESKO-nun rolu. Bakı: "Beynəlxalqkitab", 2014, 80 s.(50)*

*Mədəniyyət haqqında Azərbaycan Respublikasının Qanunu// https://www.azlibnet.az/pdf/medenqanun.pdf (maddə 48, 3-cü bənd)*

**Гадирова Н.**
**ЮНЕСКО и гуманитарная политика Азербайджана**

**РЕЗЮМЕ**

В научной статье, речь идет об отношениях между ЮНЕСКО Азербайджаном и роли организации. Отмечается, что в современном мире гуманитарная политика государства становится все более функциональной. На фоне необратимости глобализации важно четко определить направления гуманитарной политики. Таким образом, глобализация «объединяет» культуры народов мира. Это, конечно, выдвигает на первый план проблему сохранения национальных культурных ценностей. Несомненно, государства или нации не могут эффективно действовать в направлении защиты национальных культурных ценностей в одиночке. Это очень трудно сделать особенно в период глобализации. В этой связи реализация приоритетов гуманитарной политики в рамках соответствующих организациий позволит добиться более реальных результатов.

**Ключевые слова:** *ЮНЕСКО, Азербайджан, сотрудничество, гуманитарная политика, наука, культурные связи.*

**Gadirova N.**
**UNESCO and humanitarian policy of Azerbaijan**

**SUMMARY**

In a scientific article, it is about the relationship between UNESCO Azerbaijan and the role of the organization. It is noted that in the modern world the humanitarian policy of the state is becoming more and more functional. Against the background of the irreversibility of globalization, it is important to clearly define the direction of humanitarian policy. Thus, globalization "unites" the cultures of the peoples of the world. This, of course, highlights the problem of preserving national cultural values. Undoubtedly, states or nations cannot act effectively in the direction of protecting national cultural property alone. This is very difficult to do especially during the period of globalization. In this regard, the implementation of humanitarian policy priorities within the framework of the relevant organizations will achieve more real results.

**Keywords:** *UNESCO, Azerbaijan, cooperation, humanitarian policy, science, cultural relations.*

UOT 41.25.09 327(091)

# TRACECA LAYİHƏSİNİN REGİONAL VƏ BEYNƏLXALQ ƏHƏMİYYƏTİ VƏ AZƏRBAYCAN RESPUBLİKASININ FƏALLIĞI

**ŞAİQ ƏLİYEV**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının dissertantı*
***Azərbaycan***
*E-mail: aliyev-ays@mail.ru*

Müasir dövrdə reallaşmaqda olan bir sıra beynəlxalq nəqliyyat və logistik layihələr Şərq və Qərb ölkələri arasında əməkdaşlıq və həmin dövlətlərin iqtisadi inkişafı baxımından əhəmiyyətlidir. Belə ki, Böyük İpək Yolunun bərpası, Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin – TRASECA proqramının həyata keçirilməsi, Xəzərin enerji ehtiyatlarından birgə istifadəyə dair —Əsrin müqaviləsi (24 sentyabr 1994) neft kontraktlarının —Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri, —Bakı-Tbilisi-Ərzurum qaz kəməri layihələrinin həyata keçirilməsi ilə Cənubi Qafqazın, o cümlədən Azərbaycanın milli təhlükəsizliyinin qorunması və regionda sülhün, sabitliyin möhkəmlənməsinə nail olmaq və iqtisadi inteqrasiya prosesləri baxımından. XX əsrin 90-cı illərində müstəqillik qazandıqdan sonra Azərbaycan Respublikası Böyük İpək yolunun bərpa olunması və TRACECA-nın yaranması üçün təşəbbüs göstərən postsovet ölkəsi olmuşdur.

1993-cü ilin may ayında Brüsseldə Konfransda regionun nəqliyyat problemləri müzakirə olunmuşdur. Müzakrələrin nəticəsində Brüssel müraciəti qəbul olunmuşdur. [3] Məhz bu Brusel müraciətini TRACECA-nın yaranması kimi qiymətləndirmək olar.

Avropa İttifaqı TRASECA proqramına üzv ölkələrin siyasi və iqtisadi müstəqilliyini onların Avropa və dünya bazarlarına alternativ nəqliyyat marşrutları vasitəsilə çıxmaq imkanlarını genişləndirmək yolu ilə dəstəkləyirdi. Bu proqram regional əməkdaşlığın genişlənməsinə kömək etməli, beynəlxalq maliyyə qurumlarının və özəl sərmayədarların yardımını təşviq etməli idi. Qeyd etmək lazımdır ki, təklif olunan Brussel müraciəti nəticəsində yaranan TRASECA poqramının əsas məqsədi müasir nəqliyyat sistemi, infrastrukturlar və daşınma sistemləri yaradılmasından, bu sistemlərin Transavropa şəbəkələri ilə birləşdirməkdən ibarət olmalı idi. Müasir dövrdə layihə çərçivəsində görülən işlər və logistika baxımdan üzv dövlətələrin inkişafı baxımından qarşıya qoyulan məqsədə nail olunduğunun şahidi oluruq.

TRASECA proqrami və ya bir sıra mənbələrdə verildiyi kimi, Avropa - Qafqaz –Asiya nəqliyyat koridorunun açılması 1993-cü ildə Avropa İttfaqının təşəbbüsü nəticəsində həyata keçirilmişdi və çoxtərəfli əməkdaşlıq haqqında proqram kimi nəzərdə tutulur. Lakin proqramın hüquqi statusu 1998-ci ildə regionun 12 dövləti “Avropa-Qafqaz-Asiya beynəlxalq nəqliyyat koridorunun inkişafı” haqqında Əsasnaməni imzaladıqdan sonra təsdiqlənmişdir. [8,s.36]

Layihə çərçivəsində Dövlətlərarası Komissiya isə 2000-ci ildə yaranmışdı. Bir il sonra isə Komissiyanın İcraedici orqanı – Daimi Katiblik yaradılmışdır. Daimi katibliyin əsas Şöbəsi Bakıda yerləşir. Baş katib Qırğızıstan nümayəndəsi olan, Qırğızıstanın keçmiş Nəqliyyat və Rabitə naziri Jantaro Satıbaldiev olmuşdu. O, 2009-cu ildən bu vəzifədə çalışırdı.[12] Hal hazırda isə Baş Katiblik vəzifəsi ümumiyyətlə dayandırılmışdır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 21 dekabr tarixli 250 nömrəli fərmanı ilə Baş Katibliyin hüquqi faəliyyətinin Azərbaycan tərəfdə keçirilməsi və hər il üzv dövlətlərin Xarici İşlər Nazir müavinlərinin görüşü keçirilməsi də nəzərdə tutulur. Hər il keçirilən görüşlərdə hesabatla yanaşı, fəaliyyət planı verilir. Hal hazırda TRASECA-nın daimi Katiliyi İdarələrarası Daimi Komissiya hesab olunur.

TRASECA-nın İDK (Daimi Şura) vəzifələri əsasən aşağıdakılardır.

- Baş Katibliyə rəhbərlik edir.
- İDK və onun strukturlarına inzibati dəstək

göstərir, işçi qrupa rəhbərlik edir, iclasları təşkil edir.

- TRASEKA-nın arxivini təşkil edir və nəzarət edir.
- Layihələrin və yükdaşımaların hesabatın aparır və məlumatları toplayır.
- Texniki dəstək göstərir, məlumatların yığılmasına və yayılmasına vasitəçilik edir.
- İclasların protokollaşması ilə məşğul olur.
- TRASEKA-nın müvafiq layihələrinin koordinatlaşdırılmasını. planlaşdırılmasını və idarəolunmasını həyata keçirir.
- Layihə çərçivəsində olan bütün daimi nümayəndəliklərin fəaliyyəti ilə maraqlanır və münasibətləri inkişaf elətdirir.

Daimi Komissiya Avrasiyada iqtisadiyyatın inkişafına təsir göstərə biləcək regionlararası və beynəlxalq transport və logistik dialoqlarla bağlı bütün yeni təşəbbüslərə açıq olduğunu dəfələrlə göstərməkdədir. TRASECA koridoru iqtisadi-ticari tendensiyaların tədricən cəlb olunmasında maraqlıdır. Əsas yükdaşımaları bir tərəfdən Qərb və Mərkəzi Avropa, digər tərəfdən Mərkəzi və Cənubi-Şərqi Asiya istiqamətindən formalaşdırılır. Bu nəqliyyat dəhlizinin əhəmiyyəti ölkələrin regional əməkdaşlığın daha da genişlənməsidir.

2005-ci ildə TRASECA Hökumətlərarası Komissiyanın Daimi Katibliyinin Kiyevdə keçirilən iki günlük iclasında prioritet proqramların təsdiqi diqqət mərkəzində olmuşdur. TRASECA-ya üzv ölkələr öz regional layihələrini təqdim etmişlər. Azərbaycan, Gürcüstan, Ermənistan, Moldova, Qazaxıstan, Qırğızıstan, Tacikistan, Özbəkistan, Ukrayna, Rumıniya və Türkiyədən 58 layihə təqdim olunmuşdur. İclas iştirakçıları ekspertlər səviyyəsində və Avropa Komissiyasının köməkliyi ilə hazırlanmış 2015-ci il müddətinədək ―TRACECA -nın İnkişaf Strategiyası layihəsini müzakirə edərək razılaşdırmışlar. Qeyd etmək lazımdır ki, bu proqramın çərçivəsində artıq 100 mln. avrodan çox dəyəri olan 13 investisiya və 33 texniki layihə həyata keçirilib.[5, s.181]

2015-ci ildə TRASECA Daimi komisiyasının reallaşdırma Strategiyasının başa çatdığı dövrə qədər Avropa İttifaqının texniki dəstəyi ilə TRASEKA dövlətləri Avropa-Qafqaz-Asiya dəhlizinin yeni inkişaf mərhələsinə keçilmişdir. Qeyd etmək lazımdır ki, bu strategiya 2006-cı ilin mayında Bolqarıstan Respublikasının paytaxtı Sofiyada TRASECA-nın Daimi Komisiyasının V iclasında qəbul olunmuşdur. Bu gündə TRASECA layihəsinin iştirakçi dövlətləri 2016-2026 –cı illər üçün TRASEKA daimi Komisiyasının Strategiyası mərhələli şəkildə həyata keçirirlər. Bu strategiya TRASECA-nın əsas planı və iştirakçı dövlətlərin təklifləri əsasında hazırlanmışdır. Yeni strategiyada Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin əsas inkişaf məqsədləri ilə yanaşı institusial-hüquqi məsləhətlər, qanuni mühitin yaxşılaşdırılması, dəmiryol sektoru, dəniz nəqliyyatı sektoru, TRASEKA ölkələrin yol sektorunun vəzifələri, daxili suların yollarının inkişafı, logistika, multimodel daşınma və əlaqə məsələləri ilə bağlı tədbirlər planı nəzərdə tutulmuşdur.

TRASECA beynəlxalq nəqliyyat dəhlizinin fəaliyyəti və inkişaf etdirilməsi üçün investisiyaların cəlb olunması mühüm bir məsələ idi. Avropa İttifaqı demək olar ki, bu mjissiyanı öz üzərinə götürmüşdü. 1995-2009-cu illər ərzində Avropa Komissiyasının birbaşa maliyələşdirilməsi ilə 50900000 yevro dəyərində başa çatdırılmış investisiyalar qoyulmuşdur. Qeyd etmək lazımdır ki, bu investisiyaların 80 faizi dəmiryolların bərpası və dəniz yollarının inkişaf etdirilməsi və yeni avadanlıqların alınmasına xərclənmişdir. Ən çox vəsait 2000-2002-ci illərdə , 15 milyon yevro, Azərbaycan Gürcüstanda və Ermənistan rabitə sisteminin yaxşılaşdırılması və dəmir yollarının siqnallaşdırılması üçün fiber-optik kabel sisteminin satın alınmasına investisiya ayrılmışdır. [13]

Azərbaycanın coğrafi yerləşməsi bütün nəqliyyat vasitələrinin (hava, dəmiryol, dəniz və atomobil) regionda inkişafını nəzərə alsaq Böyük İpək Yolunda əsas aparıcı rol oynadığını qeyd etmək lazımdır. Son 10 il ərzində ölkəmizdə TRASEKA çərçivəsində nəqliyyat sahəsində bir sıra iqtisadi layihələr həyata keçirilmişdir. Bu layihələrin həyata keçirilməsi üçün beynəlxalq təşkilatlar vasitəsilə (Avropa Bərpa və İnkişaf Bankı, Küveyt İqtisadi İnkişaf fondu, İslam İnkişaf fondu, İslam İnkişaf Bankı, Dünya Bankı və s. ) 255 milyon dollar kredit götürülmüşdür. [11] Hazırda bu proqram çərçivəsində 20-dən artıq layihə həyata keçirilir. Bunlara kadrların təlimi, nəqliyyat qanunvericiliyin hazırlanması, avtomobil yollarının yaxşılaşdırılması, regional hərəkətin proqnozlaşdırılması, multimodal nəqliyyat sistemləri və s. aiddir. Eyni zamanda

yolların ifrastrukturunun inkişafı, yükdaşımanın yüksək səviyyədə təmin olunması üçün yeni yolların tikilişi, körpülərin bərpası, texniki təchizatn yaxşılaşdırılması, regional hərəkətlərin proqnozlaşdırılması, nəqliyyatın təhlükəsizliyi və s. məsələlər daim stabil və dayanıqlı inkişaf etdirilir.

Azərbaycan Respublikası üçün TRASEKA layihə çərçivəsində iqtisadi səmərəliliyin yüksəldilməsində şübhəsiz ki, yükdaşımaların həcminin artırılması ciddi əhəmiyyət kəsb edir. Belə ki, Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizi üzrə yükdaşımaların həcmi 1996-cı ildə 650 min tondan, 1999-cu illərdə müvafiq olaraq 24 mln tona, 2001-ci ildə 32 mln tona, 2003-cü ildə isə 40 mln tona, 2005-ci ildə 46 mln tona qədər artmışdır. 1999-cu ildə yükdaşımalardan əldə olunan gəlir 87,7 mln manat, 2002-ci ildə149 mln manat, 2005-ci ildə 191 mln manat təşkil etmişdir.[6, s.28] Bu dövrdə Bolqarıstan, Rumıniya, Polşa, Moldova, Monqolustan və Türkiyə proqramın üzvü olmuşlar, bundan əlavə Çin, Cənubi Koreya və Avropanın 25 ölkəsi bu proqrama xüsusi maraq göstərmişlər. Avropa Komissiyası 2006-cı ildə Avropa- Qafqaz-Asiya nəqliyyat dəhlizinin inkişafı üzrə TRASECA layihələrinin icrası üçün 13,5 mln. avro ayrılması haqda qərar qəbul etmişdir.[1,s.3]

Bundan əlavə, 2011-ci ildən başlayaraq Azərbaycan Respublikasında TRASECA proqramı çərçivəsində bir sıra iqtisadi layihələr həyata keçirilmişdir. Layihələr daha çox dəniz və hava xətti ilə xidmətlərin inkişaf etdirilməsi nəzərdə tutulurdu. Layihələrin həyata keçirilməsi üçün Avropa Komissiyası üçün 15 mln yevro ayrılmışdı. Azərbaycan Respublikasının milli nəqliyat sektorunun inkişaf etdirilməsi üçün investisiyalar 2000-ci ildə 43,9 milyon dollar olduğu halda , 2009-cu ildə bu rəqəm 1,7 mlrd dollar təşkil etmişdir.

TRASECA proqram çərçivəsində Azərbaycan Respublikasının fəallığını qeyd edərkən Avropa-Qafqaz-Asiya beynəlxalq dəhlizi çərçivəsində region dövlətləri ilə iqtisadi əlaqələrinin genişləndirilməsini qeyd etmək lazımdır. Azərbaycan Dövlət Statistika Komitəsinin Avropa-Qafqaz-Asiya beynəlxalq dəhlizindən Azərbaycanın payına düşən yük daşımaları haqqında verdiyi məumatda 2000-2009-cu illər ərzində ciddi dinamik dəyişiklər nəzərə çarpmışdır. Bu rəqəmlər yükdaşıma dövriyyəsi və tranzit yükdaşıma dövriyyəsindən əldə olunan gəlirlərin göstəriciləridir. Belə ki, 2009-cu ildə Avropa-Qafqaz-Asiya yükdaşıma (Azərbaycanın payına düşən hissədə) dövriyyəsi 47,4 mln. yük təşkil etmişdir ki, bu da əvvəlki ildən 7,7% daha artıq idi. 2009-cu il üçün yük daşımanın həcmi 11,8% artaraq, 13,2 mlnn? təşkil etmişdir.[11]

Qeyd olunan tranzit nəqliyyat xətti üzrə sərnişinlərin daşınması 2009-cu ildə isə 2008-ci ilə nisbətən 7,5% artaraq 206,7 mln sərnişin təşkil etmişdir. Ümumilikdə Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizi üzrə yükdaşıma üzrə 244 mln., sərnişin daşıma üzrə 34 mln. təşkil edir. 2010-2017–ci illər ərzində Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizi üzrə Azərbaycanın payına düşən hissəsində yük daşımalarının həcmi 1–ci cədvəldə verilmişdir. Cədvəldən də göründüyü kimi ən çox yük dövriyyə fəaliyyəti dəmir yolu vasitəsilə 5-6 min ton aparılmış və ən yüksək göstərici 2013-2014-cü illərdə qeydə alınmışdır.[2] Belə ki, 2010-cu ildə dəmir yolu vasitəsilə 51688 min ton olduğu halda 2013-cü ildə 59041 min ton, 2017-ci ildə 52733 min ton yük daşınmışdır. Analoju dəyişiklik Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizində dəniz və avtomobil yollarına da aiddir. (Cədvəl 1)

**Cədvə 1. Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizində nəqliyyatın fəaliyyəti (Azərbaycan hissəsində)**

| **Yük daşınmışdır, min ton** | **2010** | **2011** | **2012** | **2013** | **2014** | **2015** | **2016** | **2017** |
|---|---|---|---|---|---|---|---|---|
| Dəmir yolu | **51 688** | **53 913** | **56 869** | **59 041** | **58 191** | **52 240** | **50 302** | **52 733** |
| Dəniz | 20 578 | 20 139 | 21 332 | 21 370 | 19 890 | 15 521 | 13 830 | 13 074 |
| Avtomobil | 9 370 | 10 317 | 10 367 | 10 236 | 9 302 | 6 067 | 4 992 | 7 423 |
| **Tranzit yük daşınmışdır, min ton** | 21 740 | 23 457 | 25 170 | 27 435 | 28 999 | 30 652 | 31 480 | 32 236 |
| Dəmir yolu | **15 971** | **16 234** | **15 719** | **14 757** | **12 798** | **9 494** | **7 997** | **10 186** |
| Dəniz | 8 253 | 7 870 | 7 393 | 6 632 | 4 502 | 3 927 | 3 789 | 3 346 |
| Avtomobil | 7 718 | 8 364 | 8 326 | 8 125 | 8 296 | 5 567 | 4 208 | 6 840 |
| **Yük dövriyyəsi, milyon ton-km** | … | … | … | … | … | … | … | … |
| Dəmir yolu | **13 222** | **13 594** | **13 883** | **13 987** | **13 216** | **10 956** | **9 917** | **11 427** |
| Dəniz | 6 874 | 6 640 | 6 719 | 6 361 | 5 676 | 4 557 | 3 773 | 4 158 |
| Avtomobil | 3 672 | 4 061 | 4 057 | 4 013 | 3 717 | 2 354 | 1 990 | 3 020 |
| **Tranzit yüklərin dövriyyəsi, milyon ton-km** | 2 676 | 2 893 | 3 107 | 3 613 | 3 823 | 4 045 | 4 154 | 4 249 |
| Dəmir yolu | **7 120** | **7 850** | **6 938** | **6 511** | **5 647** | **4 360** | **3 588** | **4 566** |
| Dəniz | 4 040 | 3 807 | 3 633 | 3 297 | 2 330 | 2 190 | 1 975 | 1 758 |
| Avtomobil | 3 080 | 4 043 | 3 305 | 3 214 | 3 317 | 2 170 | 1 613 | 2 808 |

*Mənbə: Statistika Komitesi, http://www.stat.gov.az/source/transport/*

Bütün bunlarla yanaşı əlavə etmək vacibdir ki, TRASECA layihəsi çərçivəsində yükdaşımaların səviyyəsi hələ lazım olduğundan xeyli aşağıdır. Bunun həm obyektiv, həm də subyektiv səbəbləri vardır ki, bunlar arasında da ən mühümü TRASECA layihəsinin Şimal-Cənub nəqliyyat dəhlizinin (Şimali Avropa – Rusiya – İran – İran körfəzi – Cənubi Asiya) əsas rəqibi kimi çixiş etməsidir. TRASECA layihəsindən kənarda qalan Rusiya və İran bu layihəyə alternativ olan yeni nəqliyyat dəhlizinin yaradılması üzərində işləmiş və artıq 2000-ci ilin avqustunda Sankt-Peterburqda Rusiya, Hindistan və İran Cənubi Asiya və İran körfəzi ölkələrini Avropa ölkələri ilə birləşdirəcək Şimal-Cənub nəqliyyat dəhlizinin yaradılması haqqında müqavilə imzalamışdır. Maraqlıdır ki, ilkin olaraq Şimal-Cənub nəqliyyat dəhlizinin ancaq Xəzərin Şərq hissəsi, yəni Qazaxıstan və Turkmənistan ərazisi vasitəsilə və həmçinin Xəzər dənizi üzərindən keçirilməsi nəzərdə tutulurdu. Azərbaycanın quru ərazisindən və ümumiyyətlə, respublikamızın bu layihədə iştirakından söhbət getməmişdi. Bunun isə yeganə səbəbi siyasi amillər, Rusiya və İranın Azərbaycana qarşı yeritdiyi geosiyasi və iqtisadi iddialarla izah oluna bilərdi. Lakin 2001-ci ildən etibarən bu ölkələr arasında siyasi münasibətlərdə müşahidə edilən yaxınlaşmalar həmin məsələyə də öz müsbət təsirini göstərdi. Belə ki, hazırda Şimal-Cənub dəhlizinin genişləndirilməsi üçün məqsədəuyğun istiqamətlərdən biri də Rusiya-Azərbaycan-İran dəmir yolu marşrutunun inkişaf etdirilməsidir. Qeyd edək ki, bu 3 ölkənin dəmir yolu xətlərinin birləşdirilməsi üçün Astara-Rəşt dəmir yolu xəttinin çəkilməsi zəruridir. Keçən dövrlərdə də Respublikamızda TRASECA Proqramı çərçivəsində Əsas Çoxtərəfli Sazişin şərtlərinin həyata keçirilməsi məqsədilə nəqliyyat infrastrukturunun inkişafı istiqamətində əhəmiyyətli işlər həyata keçirilmişdir.[10, s.2]

Son illər ərzində TRASECA nəqliyyat dəhlizi üzrə yük axınının artırılması nəqliyyat sektorunun texniki təchizatının yaxşılaşdırılması sahəsində bir sıra tədbirlər həyata keçirilmiş, avtomobil magistrallarının, dəmir yolu xətlərinin və körpülərin bərpası və yenidən tikintisi, dəmir yolu nəqliyyatı vasitələrinin, gəmilərin, bərələrin, liman qurğularının təmiri üzrə işlərin icrası baş tutmuşdur. Bakı şəhərində ildə 10 milyon ton neft məhsullarının boşaldılıb yüklənməsinə imkan verən neft boşaltmaq üçün limanının istifadəyə verilməsi həyata keçirilmişdir. Bundan başqa Bakı Beynəlxalq Dəniz Ticarət Limanı da artıq istifadəyə vermişdir.

Avropa İttiqfaqının da TRASECA-ya üzv dövlətləri ilə bağlı qlobal strateji məqsədləri və layihələri mövcuddur. Bunlar əsasən aşağıdakılardır:

- Transavropa xətinin Avropa-Qafqaz-Asiya beynəlxalq dəhlizinə inteqrasiyasını artırmaq;
- Mövcud layihənin beynəlxalq maliyyə təşkilatlarının və investorların cəlb olunnması üçün effektiv istifadəsi;
- Layihəyə daxil olan dövlətlərin regional əməkdaşlığının perspektivlərinin artırılması.
- Üzv dövlətlərinin Avropa və dünya alternativ yollarına çıxışının təmin olunması və həmin dövlətlərinin iqtisadi stabitliyinin təmin oluması. [5,s190]

Avropa İttifaqının beynəlxalq nəqliyyat dəhlizinə üzv dövlətləri ilə əlaqələri genişləndirməklə yanaşı, iqtisadiyyatının inkişaf etdirmək üçün apardığı siyasət, proqramın qüvvəyə mindiyi gündən 21 il ərzində strateji əhəmiyyət daşıyır. Yuxarıda da qeyd olunduğu kimi Avropa İttifaqının maliyələşdirməsi və maddi yardımı ilə həyata keçirilən bu layihə son illərdə həyata keçirilən mühüm beynəlxalq bir proqramdı. TRASECA layihəsi Şimal və Cənubda olan beynəlxlalq dəhlizlərlə alternativ layihələrlə rəqabəti stimullaşdırır, sərhədlərin rəsmi keçid prosedurlarını razılaşdırır.[8, s. 25]Son illər ərzində TRACECA proqramı çərçivəsində "TRACECA nəqliyyat dəhlizində vahid tarif siyasətinin" tətbiqi "Sadələşdirilmiş sərhəd keçidi proseduru", "Qafqaz dəmiryolunun bərpası", "Nəqliyyat çərçivəsinin hüquqi tənzimlənməsi " kimi prosedurlar həyata keçirilmişdir.[7, s.5]

TRASECA nəqliyyat dəhlizində dəniz nəqliyyatının böyük rolu var. Azərbaycan Respublikası Xəzər Dəniz Gəmiçiliyinin TRASECA layihəsi çərçivəsində 8,28 mln ton yük daşınmışdır ki, bu əvvəlki ilə nisbətən 18% daha çoxdur. 2003-2010-cu illər ərzində Azərbaycan Respublikası Xəzər Dəniz Gəmiçiliyi xarici ölkələrdə istehsal olunan, 202,395 mln dollarlıq 14 yeni gəmi əldə etmişdir.[7, s.6] Həmin vəsaitin

107,830 mln dolları həmin təşkilatın maliyyə vəsaitindən, 94, 565 mln dolları isə dövlət büdcəsindən ödənilmişdir.

Dünyanın ən böyük dəniz limanlarından başqa Mərkəzi Avrasiyanın mühüm kommersiya şəhərləri tarixən quru mərkəzlər olmuşlar. Qədim İpək Yolundan istifadə edən tacirlərin Avropa ilə Asiya arasında səyahəti aylar və bəzən illər boyu davam edirdi və Mərkəzi Avrasiya mərkəzləri kritik regional logistika və paylama mərkəzləri rolunu oynayırdı. Bunların hər birində tacirlərin mal və fikir mübadiləsi etdikləri, müxtəlif mədəniyyətdən olan insanların görüşmək imkanı qazandıqları bir neçə karvansaray olurdu. Bu cür ticarət mərkəzləri Avrasiya və Yaxın Şərqdən keçən geniş ticarət dəhlizləri şəbəkəsi vasitəsilə digər regional qovşaq və böyük şəhərlərlə əlaqəli idi. İpək Yolu dəhlizləri əsrlər boyu Mərkəzi Avrasiyanın bir çox xalqlarının rifahına xidmət etmişdir.[7, s.7] TRASECA –ya bir üzv dövləti kimi fəallığın artırılması üçün şərtlərdən biri beynəlxalq dəniz limanının açılması idi. Qeyd olunan nəqliyyat seqmenti üzrə infrastrukturların daha da inkişafı məqsədilə 2010-cu ildə Bakı Beynəlxalq Ticarət Limanın tikintisinə başlanmışdır. Həmin limanın tikintisi Ələt qəsəbəsində həyata keçirilmişdir. Əsas planı və iş layihəsi Hollandiyalı kompaniya “Royal Haskoning” kompaniyası və bir sıra Cənubi Koreya şirkətləri tərəfindən həyata keçirilmiş və ümumi 400 milyon dollara başa gəlmişdir. İlkin olaraq tikintinin 2014-cü ildə başa çatdırılması nəzərdə tutulurdu.

2015-ci il 18 mart tarixində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə Bakı Limanı yenidən qurulmuş və Qapalı Səhmdar Cəmiyyəti (QSC) yaradılmışdır. Hal-hazırda Bakı Limanı Avrasiyada regionun əsas nəqliyyat və logistika qovşağı olmaq istiqamətində irəliləyir. Ələtdə Yeni Bakı Limanının tikintisi işləri davam etməkdədir. Birinci mərhələnin tamamlanması ilə Yeni Ələt Limanının ümumi yükaşırma imkanı artaraq 10-11.5 milyon tona qədər yük və 40,000–50,000 TEU-ya qədər konteyner olacaq. İkinci və üçüncü mərhələ üzrə tikinti işlərinə başlanılması barədə qərarın verilməsi mövcud yük həcmlərindən asılıdır. Ümumilikdə, bu növbəti mərhələlər genişləndirmə işlərinə özəl şirkətin investisiya qoyduğu, tikdiyi və istismar etdiyi İÖƏ (ictimai-özəl əməkdaşlıq) və ya (Tikİşlət-Ötür) əməkdaşlıq modelinə uyğundur. Tikintinin üçüncü mərhələsi tamamlandıqdan sonra yeni limanın 25 milyon ton yük və 1 milyon TEU konteyneri aşıracağı planlaşdırılır.

Üç mərhələ üçün proqnozlar aşağıdakı kimidir:

Birinci mərhələ: 10-11.5 milyon ton yük + 40,000-50,000 TEU konteyner;

İkinci mərhələ: 17 milyon ton yük + 150,000 TEU konteyner;

Üçüncü mərhələ: 21-25 milyon ton yük + 1 milyon TEU-ya qədər konteyner.[4]

17 mart 2016-cı ildə cənab Prezident İlham Əliyev Bakı şəhəri Qaradağ rayonunun Ələt qəsəbəsində yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanının ərazisi daxil olmaqla azad ticarət zonası tipli xüsusi iqtisadi zonanın yaradılması ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb. Bu sərəncamdan irəli gələn xidmətlər əsasən aşağıdakı kimi nəzərdə tutulmuşdur.

- Rəqabətli anbar qiymət dərəcələri və işləmə xidmətləri təklif edərək malların saxlanması və paylanması üçün liman əməliyyatlarının tranzit imkanlarının genişləndirilməsi;
- Nəzərdə tutulan yük ilə iş bacarıqlarının inkişaf etdirilməsi;
- Kommersiya, işləmə xidmətləri, yük avtomobilləri ilə daşıma və saxlama kimi, yük əməliyyatlarının bütün aspektlərini əhatə edəcək “bir pəncərə” xidməti.[4]

Qeyd etmək lazımdır ki, Bakı Beynəlxalq Dəniz Limanı Avropa-Qafqaz-Asiya beynəlxalq nəqliyyat dəhlizi üzrə yükdaşımaların dövriyəsini artırmaqla yanaşı, alternativ, beynəlxalq dəhlizlərə ciddi şəkildə rəqib olunacağı da nəzərdə tutulur.

Azərbaycanın TRASEKA nəqliyyat dəhlisizində aktivləşməsi

Bakı-Tiflis-Qars yükdaşıma və yüklərin hesab-faktura və tariflərlə bağlı məsələlər həll olunduğu zaman gözənilirdi. Çinin “Bir qatar bir yol prinsipi” təşəbbüsü bütün dünyada müzakrə olunan məsələlərdən biridir. Belə ki, Çindən gələn yüklər Azərbaycandan keçərək Avropa dövlətlərinə gedəcəkdir. TRASEKA-nın daimi katibliyinin Azərbaycandakı nümayəndəsi Akif Mustafayev 2017-ci ildə artıq bu haqda məlumat verərək bildirmişdi ki, Çinlə bu məsələ ilə bağlı artıq razılaşma əldə olunmuş və ilk yük Çin-Qazaxıstan-Rusiya-Belorusiyadan keçərək Londona çatdirilməsı nəzərdə tutulmuşdur. Bu qəbildən

yük daşımaların həftədə bir dəfə həyata keçirilməsi nəzərdə tutulurdu. Qeyd etmək lazımdır ki, Bakı Ələt dəniz limanının istifadəyə verilməsi Azərbaycanın TRASECA nəqliyyat dəhlizində aktivləşməsi üçün həyata keçirilən mühüm tədbirlərdən biridir.

İpək Yolu ilə ticarət üçün bir zamanların əsas gəliş - gediş marşrutu olan Mərkəzi Avrasiya şərqlə qərb, şimalla cənub arasında tarixi kommersiya körpüsü rolunu yenidən özünə qaytarmaq niyyətindədir. Azərbaycan Avrasiyanın mühüm torpaq və hava nəqliyyat dəhlizlərinin kəsişmə nöqtəsində yerləşir. Bu, düzgün istifadə edildiyi təqdirdə, onun uzunmüddətli uğurunda vacib rol oynayacaq bir amildir, çünki, potensial olaraq, ölkə Avropa ilə Asiya arasında yalnız kommersiya körpüsü rolunu oynamayıb, həm də Avrasiyada böyük paylama qovşağına çevrilə bilər. Azərbaycan regionda vacib kommersiya və nəqliyyat mərkəzlərindən birinə çevrilmək və regional inkişafa təkan verən ölkə olmaq imkanına malikdir. Onun yeri, təbii sərvətlərin zənginliyi və dinamik yeni nəsil bu perspektiv məqsədi gerçəkləşdirməyə kömək edə bilər.[9]

9 yanvar 2018-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ələt şəhərində Bakı limanın Ro-RO terminalının açılışını etmişdi.14 may 2018-ci ildə Ələtdə yeni Bakı Limanının açılış mərasimi keçirilmişdi.[4]

2019-cu il 25 sentyabr tarixində rəsmi Bakıda TRASECA-nın Baş katibi M.Çiopraqa Baş katibliyin qərargahında “İpək Yolunun yeni maşrutları: vaxt, məkan və reallıqlar” adlı yeni layihənin müzkirəsi ilıə bağlı qlobal forum zamanı TRASECA nəqliyyat dəhlizinin regional və beynəlxalq əhəmiyətini vurğulamaqla yanaşı, onun regionun həm iqtisadi, həm də siyasi əhəmiyyətini qeyd etmişdir. TRASECA-nın beynəlxalq əhəmiyyətini göstərmək üçün nəqliyyat dəhlizinə daxil olan dövlətləri qeyd etmək kifayət edər. Çin, Özbəkistan, Qazaxıstan, Azərbaycan, Rusiya, Belarusiya, və Hamburq vasitəsilə Avropaya şatdırılmalı idi. Qeyd etmək lazımdır ki, 22 oktyabr və 22 dekabr 2019-cu ildə Heydər Əliyev Mərkəzində keçiriləcək sərgidə Parisdən olan rəssam və fotoqrafın gəzərək TRASEKA nəqliyyat dəhlizinin iştirak etdiyi dövlətlərin yollarının və layihələrinin şəkillərini çəkmişdir.[11] Bu TRASECA proqramına üzv dövlətlərində layihədə fəalliğları haqqında aydın təsəvvür yaradırdı.

Görülən işlərin nəticəsində Avropa-Qafqaz–Asiya nəqliyyat koridoru vasitəsilə yük daşıma prosesi bir neçə dəfə artmışdır. TRASECA-nın digər təşkilatlarla da əməkdaşlıq razılaşmaları və memorandumları imzalamışdır.

Əvvəldə TRASECA Proqramının “Avropa İttifaqının yeni İpək Yolu Layihəsi” olduğu söylənmişdi. Əlbəttə ki, bu yeni istiqamət bölgənin iqtisadiyyatına müsbət şəkildə təsir göstərəcəkdi. Avropa İttifaqı bu regiona öz iqtisadiyyatının inteqrasiyasını təmin etmək üçün yeni strategiyalar hazırlayır və bəzi infrastruktur sərmayə layihələri həyata keçirir. Avropa İttifaqının yüksək iqtisadiyyata, istehsal və istehlak profilinə və standartlara, siyasi və iqtisadi, eyni zamanda ictimai əlaqələrə sahib olmaq üçün bu siyasəti həyata keçirməsi başa düşüləndir. Beləliklə, regionun istehsal və istehlak gücü artacaq. Bu, regional iqtisadiyyatlara, xüsusilə də Şərqi Avropa, Cənubi Qafqaz və Mərkəzi Asiya iqtisadiyyatının inkişafdan dayanmağına kömək edəcəkdir. Lakin, köhnə “İpək Yolu” şərq istehsalı və qərbin istehlakı əsasında qurulmuşdu.. TRASECA isə Qərbin istehsalçı Şərqin istehlakçı olmasını demək mümkündü. Bir sıra mütəxəsisilər bu layihənin təbii şəkildə həyata keçirilməyən, süni və zorakı fikir və təkliflər əsasında qurulmuş bir təşkilat olmasını iddia edirlər. Layihə həmçinin Avropa və Asiyanı birləşdirən növbəti əhəmiyyətli bir layihə olması ilə yanaşı regionların, xüsusən də Cənubi Qafqazın iqtisadiyyatının inkişafına əhəmiyyətli təsir göstərməkdədir.

Azərbaycanın TRACECA-da iştirakının əhəmiyyəti ilə yanaşı, dövlətimizin Avropa ilə iqtisadi münasibətlərin daha da genişləndirir və dünya iqtisadi məkanına inteqrasiyası üçün geniş şərait yaranır və beynəlxalq nəqliyyat düyününə çevrilməsinə imkan verir.

**Açar sözlər:** *layihə, nəqliyyat dəhlizi, iqtisadi inkişaf, tranzit, dəmir yolu, beynəlxalq dəniz llimanı*

## ƏDƏBİYYAT SİYAHISI

*1. Azərbaycanın regional liderliyi: geosiyasi, nəqliyyat və logistika aspektləri //Azərbaycan .-2018.- 22 avqust .- S.3*

*2. Azərbaycan Nəqliyyatı, Azərbaycan*

*Respublikasının Dövlət Statistika Komitəsi, Bakı 2010, №9 – c.48-51*

*3. Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin – TRACECA proramı"Xalq qəzeti", 09-12 sentyabr 1998-ci il*

*4. Bakı Beynəlxalq Dəniz Ticarət Limanın açılışı http://www.mincom.gov.az/az/view/organization/19/(14 aprel , 2019)*

*5. Əli Həsənov Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazın geoiqtisadiyyatı: Azərbaycanın enerji siyasəti, Bakı 2016, s.181*

*6. Qloballaşma prosesində Qafqaz və Mərkəzi Asiya,iqtisadi və beynəlxalq münasibətlər ,II Beynəlxalq Konqres materialları,Qafqaz Universiteti,Baki,2007, 28*

*7. Səmədzadə Z. Beynəlxalq nəqliyyat layihələri ölkələr və xalqlar arasında əməkdaşlığın möhkəmləndirilməsinə xidmət edir /müsahibəni apardı: //İqtisadiyyat.-2019.- 23 may-3 iyun.- S.5*

*8. Bağırov F. "Ölkənin sosial-iqtisadi inkişafında nəqliyyatın rolunun yüksəldilməsi istiqamətləri" Bakı, 2009,*

*9. Азербайджан движется в правильном направлении и ожидает от транзита больших поступлений. http://www.traceca-org.org/fileadmin/fm-azerbaijan/Azerbaidzhan_dvizhetsja_v_pravilnom_napravlenii_i_ozhidaet_ot_tranzita_bolshikh_postuplenii.pdf*

*10. Ахундов, Агасаф. Грядет большая перевалка: За последние годы Каспар задействовал в транспортном коридоре TRACECA четыре новых парома // Азербайджанские известия.-2012.- 29 февраля.- С. 2.*

***İnternet resursları***

*11. Transport dialogue and networks interoperability (TRACECA) https://www.eu-neighbours.eu/en/east/stay-informed/projects/transport-dialogue-and-networks-interoperability-traceca(götürülüb\27may, 2019)*

*12. Welcome to TRACECAhttp://www.traceca-org.org/en/traceca/ (götürülüb/23 may, 2019)*

*13. Инвестиционные проекты http://www.traceca-org.org/ru/investicii/*

*14. Statistika Komitesi, http://www.stat.gov.az/source/transport/ (götürülüb, 15 may, 2019)*

**Шаиг Алиев**
**Диссертант Академии Государственного Управления при Президенте Азербайджанской Республики**

**Региональное и международное значение проекта TRACECA и деятельность Азербайджанской Республики**

**РЕЗЮМЕ**

В статье рассматривается история ТРАСЕКА, являющийся одним из первых международных транспортных коридоров, которые сформируют новые транзитные маршруты после распада СССР, Европа-Кавказ-Азия. Подчеркивается региональное и международное значение международного транспортного коридора. Автор приводит факты и анализирует экономическую и политическую деятельность Азербайджанской Республики в TRASECA.

**Ключевые слова:** *проект, транспортный коридор, экономическое развитие, транзит, железная дорога, международный морской порт*

**Shaig Aliev**
**PhD student of the Academy of Public Administration under the President of the Republic of Azerbaijan**

**Regional and international significance of the TRACECA project and activity of Azerbaijan Republic**

**SUMMARY**

One of the first international transport corridors to form new transit routes after the collapse of the USSR is the TRACECA - Europe-Caucasus-Asia Transport Corridor. This article takes a look the history of TRASECA and highlights the regional and international importance of the international transport corridor. The author cites facts and analyzes the economic and political activity of the Republic of Azerbaijan in TRASECA.

**Key words:** *project, transport corridor, economic development, transit, railway, international seaport.*

**UOT 327**
**41.25.91**

# ВЛИЯНИЕ КОНСТИТУЦИОННОЙ РЕФОРМЫ 2017 ГОДА В ТУРЦИИ НА ПРОЦЕСС ПРИНЯТИЯ ВНЕШНЕПОЛИТИЧЕСКИХ РЕШЕНИЙ

**НАФИЛЯ РАГИМОВА**
*Доцент кафедры «Международные отношения и внешняя политика» Академии государственного управления при Президенте Азербайджанской Республики, доктор философии по политическим наукам*
***Азербайджан***
*E-mail: rnafile@gmail.com*

Конституционная реформа в Турецкой Республике, состоявшаяся 16 апреля 2017 года, без преувеличения, стала одним из наиболее крупных политических событий страны. На референдум был вынесен вопрос об одобрении 18-ти поправок к Конституции Турции, которые предусматривали переход от парламентской формы правления к президентской республике. В результате полномочия Президента существенно расширились, он получил право распускать парламент, объявлять чрезвычайное положение, назначать и увольнять министров и судей, а также издавать указы в целом ряде сфер. Должность премьер-министра была упразднена, а глава государства стал одновременно выполнять и функции главы правительства. Изменения в турецкой конституции существенным образом изменили политическую систему в стране. Безусловно, изменения в соотношении исполнительной и законодательной власти коренным образом затронули и внешнеполитический механизм Турции. В этой связи существует необходимость в исследовании влияния последствий конституционной реформы 2017 года на процесс формирования и реализации внешней политики государства.

До конституционных изменений 2017 года внешнеполитические полномочия Верховного Национального Собрания Турции были достаточно широки. Так, кандидатуры членов правительства, в том числе и министра иностранных дел Турции должны были получить поддержку большинства голосов парламентариев. Правительство было подотчетно законодательному органу и могло быть им распущено. Непосредственно внешнеполитические полномочия Парламента Турции фиксируются в статье 92 Конституции, согласно которой Верховное Национальное Собрание Турции обладает правом объявления войны, решает вопрос об отправке турецких вооруженных сил за пределы государства, а также о присутствии иностранных вооруженных сил в Турции (8). Следует сделать оговорку о том, что Президент Турции также мог принять решение об использовании турецких вооруженных сил за рубежом в период между сессиями Парламента Турции в условиях, когда совершается внезапное вооруженное нападение на страну и требуется немедленное решение о применении Вооруженных сил. Парламент Турции, также как и законодательные органы других стран, занимается ратификацией и денонсацией международных соглашений, утверждением бюджета внешнеполитических органов. Внешнеполитические функции Парламента также регламентируются Законом «О регулировании внешних сношений Великого Национального Собрания Турции» № 3620, принятым 28 марта 1990 года, в котором отражаются формы внешнеполитической деятельности и межпарламентского сотрудничества Парламента в рамках групп дружбы и межпарламентских организаций (9).

До конституционных изменений роль Президента Турции во внешнеполитическом механизме государства не отличалась заметной активностью. В его полномочия входили осуществление представительных функций, принятие верительных и отзывных грамот аккредитуемых при нем дипломатических представителей, подписание международных

договоров и соглашений. Президент являлся Главнокомандующим Вооруженных Сил Турции, созывал совещания Совета национальной безопасности, председательствовал на них.

Что касается Совета Национальной Безопасности Турции, то данный орган был одним из основных структур, задействованных в процессе принятия внешнеполитических решений. Совет национальной безопасности был учрежден в 1983 году согласно закону № 2945, принятому в соответствии со статьей 118 Конституции 1982 года (6). Данный орган состоял из президента, премьер-министра, начальника Генерального штаба, министра национальной обороны, министра внутренних дел, министра иностранных дел, командиров сухопутных, морских и воздушных сил и генерал-майора жандармерии. В зависимости от специфики обсуждаемых вопросов на заседания Совета помимо перечисленных членов, могли быть приглашены соответствующие министры и представители других заинтересованных структур. При этом они не обладали правом голоса в процессе голосования. Генеральный секретарь Совета национальной безопасности участвовал в заседаниях, но не мог участвовать в голосовании. Статья 118 Конституции 1982 года обязала Совет национальной безопасности информировать Совет Министров о решениях, принятых относительно политики национальной безопасности государства. Заседания Совета проводятся под председательством Президента. В случае его отсутствия Совет возглавляет премьер-министр.

Основной текущей внешнеполитической деятельностью занималось Министерство иностранных дел, в полномочия которого входили разработка общей стратегии внешней политики государства и представление соответствующих предложений Президенту, осуществление и координация внешней политики в соответствии с установленными президентом целями и принципами, осуществление контактов и переговоров с иностранными государствами и международными организациями, информирование Президента о событиях, происходящих в сфере международных отношений, защита прав и интересов граждан, проживающих за рубежом, обеспечение дипломатических и консульских отношений Турции с иностранными государствами (7).

При парламентском типе правления в Турции процесс принятия внешнеполитических решений был максимально децентрализован и являлся достаточно сложным, многоуровневым процессом, предусматривающим необходимость согласования позиции всех задействованных участников, каждый из которых обладал большой степенью самостоятельности.

Одним из показательных примеров для анализа процесса принятия внешнеполитических решений при парламентском типе правления в Турции является процесс обсуждений относительно обращения США в 2003 году с просьбой к турецкому правительству о предоставлении территории Турции для осуществления военной операции в Ираке.

В предшествовавший данному обращению период официальные лица США неоднократно совершали визит в Турцию с целью начала переговоров по данному вопросу. Так, Анкару посетили вице-президент США Дик Чейни, официальный представитель Госдепартамента США Марк Гроссман, командующий ВВС США Джозеф Ралстон, заместитель министра обороны США Пол Вулфовиц. По итогам встречи с Полом Вулфовицем были заложены основы для начала переговорного процесса относительно данной проблемы, в результате чего премьер-министр Б.Эджевит согласился сформировать каналы консультаций для обсуждения политических и военных вопросов между двумя странами в данном контексте.

Существовавшая в то время политическая и экономическая нестабильность в Турции, проблемы со здоровьем Булент Эджевита и заявления лидера Коалиции, представителя Партии Националистического Движения Девлета Бахчели о необходимости проведения досрочных выборов помешали правительству принять решение на тот момент, в результате чего проблема была отложена на период после выборов в Великое Национальное Собрание. 3 ноября 2002 года на выборах в парламент внушительную победу одержала партия Справедливости и развития.

Перед новым правительством Турции встал сложный выбор - поддержать политику США в Ираке, либо изменить отношение к ней. С процессуальной точки зрения решение по данному вопросу в соответствии со Статьей 92-

ой Конституции Турции должно было по запросу Совета Министров вынесено на утверждение Парламента.

24 февраля 2003 года, состоялось заседание Совета министров, созванное под председательством премьер-министра Абдуллы Гюля, посвященное обсуждению вопроса о введении иностранных войск на территорию Турции и отправке турецких войск за границу (4). В Совете министров прошли шестичасовые дебаты по данному вопросу. Мнения членов Правительства разделились. Группа министров, присутствовавших на данном заседании Совета Министров, выступала против этого решения. Среди наиболее жестких противников принятия документа в Кабинете были вице-премьер Эртугрул Ялчинбайыр, министр культуры Хусейн Челик и министр Общественных работ и жилищного строительства Зеки Эргезен. В свою очередь, министр национальной обороны Вечди Конуль, министр внутренних дел Абдулкадир Аксу, министр юстиции Джемиль Гюль, министр образования Эркан Мумджу и министр промышленности Али Джошгун возглавили группу сторонников данного решения. По итогам бурных обсуждений соответствующий документ все же был подписан и передан на обсуждение Парламента.

1 марта 2003 года Парламент Турции провел обсуждения по данному вопросу. В процессе голосования 264 из 533 депутатов, принимающих участие в голосовании, проголосовали за, а 250 против. 19 человек воздержались. Для принятия решения требовалось простое большинство голосов. Для этого необходимо было заручиться поддержкой 268 депутатов. 99 депутатов, проголосовавших против данного решения были представителями правящей партии - Партии справедливости и развития. Таким образом, обращение Правительства было отклонено Парламентом.

Спикер парламента Бюлент Ариндж также был среди тех, кто проголосовал против этого решения. Наиболее оппозиционной партией в этом отношении была Народно-Республиканская Партия во главе с Денизом Байкалом (3). В целом результаты голосования были неожиданными как для самого правительства Турции, так и для США.

Однако в результате неизбежности операции в регионе и растущего давления со стороны США Парламент Турции вынужден был пойти на определенные уступки, в результате которых США получили право использования в военных целях воздушного пространства Турции.

Данный случай наглядно демонстрирует тот факт, что процесс принятия внешнеполитических решений в Турции являлся весьма сложным процессом, предполагавшим длительные консультации и согласование позиции различных акторов, каждый из которых обладал самостоятельностью и реальным влиянием на данный процесс.

Каким же образом конституционные изменения 2017 года повлияли на внешнеполитический механизм Турции?

Обзор академической литературы выявил, что о формировании и реализации внешней политики при президентском типе правления в Турции мало что известно. Основное внимание исследователей фокусируется на процессе установления нового типа правления, а не на его функционировании. Безусловно, изменения в соотношении исполнительной и законодательной власти Турции самым непосредственным образом затронули и внешнеполитический механизм. В контексте выявления изменений во внешнеполитическом механизме Турции интерес представляют соответствующие указы Президента и законодательные акты.

Так, Указ Президента № 1, принятый 10 июля 2018 года регламентирует деятельность, полномочия и задачи отдельных органов и институтов, находящихся в ведении президента (1). Среди органов, действующих во внешнеполитической сфере, особое внимание уделяется учреждаемому Комитету по вопросам безопасности и внешней политике. Данный нормативный акт описывает общие задачи создаваемой структуры, но не содержит положений о полномочиях или юрисдикции. В статье 26-ой Указа фиксируется, что Комитет несет ответственность за выработку предложений в сфере внешней политики Турции в целом, а также за разработку рекомендаций по повышению регионального влияния Турции, по обеспечению ее участия в разрешении региональных конфликтов. В задачи Комитета также входит подготовка докладов о международных событиях и анализ меняющейся глобальной обстановки в области безопасности для выработки превентивных мер в отношении

потенциальных угроз. Согласно данному Указу Президента в Министерстве иностранных дел Турции также учреждался Директорат Внешнеполитического Консультативного совета (статья 144), в состав которого входят недавно вышедшие на пенсию и близкие к отставке дипломаты. Комитет по безопасности и внешней политике и официальные советники президента предоставляют Президенту анализ и оценку процессов и событий в сфере международных отношений. МИД снабжает Президента практической информацией. Президент становится ключевой фигурой по принятию внешнеполитических решений.

Мандат Комитета по безопасности и внешней политике был описан в президентском указе № 1 как " ответственный за разработку внешней политики, контроль за ее осуществлением и принятие макро-решений". В состав Комитета входят ученые, профессиональные консультанты, советники и журналисты. Президент является официальным председателем Комитета по безопасности и внешней политике. В Комитете нет постоянного секретаря. Эксперты считают, что отсутствие данного поста означает отсутствие регулирующего механизма, который бы передавал рекомендации Комитета президенту на институциональной основе (5).

Комитет по безопасности и внешней политике обычно собирается раз в две недели, иногда каждую неделю. Члены получают рабочие досье в соответствии с их опытом и специализацией и назначаются для подготовки отчетов. При этом основной целью является создание сценариев развития событий в области внешней политики. Члены Комитета имеют право доступа ко всей необходимой информации из таких учреждений, как МИД и Национальное разведывательное управление. На практике, однако, они должны запрашивать информацию и отчеты у этих учреждений через Администрацию Президента и полагаться на любой отчет и информацию, предоставленную им (5). Предполагается, что данная структура в будущем может быть задействована в формировании новой внешнеполитической доктрины Турции. На практике обязанности и полномочия Комитета по безопасности и внешней политике в определенной степени пересекаются с обязанностями и полномочиями МИД. Специалисты также считают, что существует необходимость в регламентации и разграничении полномочий обоих структур. Помимо этого при Президенте Турции функционируют несколько назначаемых советников по вопросам внешней политики.

Таким образом, после принятия поправок 2017 года к Конституции Турции существует необходимость прояснения определенных вопросов относительно формирования и реализации внешней политики на практике. На сегодняшний день единственным нормативным актом, затрагивающим процесс принятия внешнеполитических решений после конституционных изменений, является Указ Президента № 21. Ожидается также принятие законов со стороны Парламента относительно структуры новой системы и функционирования механизма формирования и реализации внешней политики. Парламент должен принимать активное участие в процессе регламентации функционирования внешнеполитических институтов и органов и разграничении полномочий и юрисдикции между различными государственными институтами.

Ожидается, что при президентской форме правления ускорится процесс принятия внешнеполитических решений и будет создана скоординированная и оперативно функционирующая государственная система.

**Ключевые слова:** *Турция, внешняя политика, внешнеполитические решения, конституционные реформы, Комитет по внешней политике и безопасности*

## СПИСОК ЛИТЕРАТУРЫ

*1. "Ankara'da patlayan Irak Savaşı kızışıyor", Hürriyet, 07.02.2003*

*2. Cumhurbaşkanlığı Teşkilatı Hakkında Cumhurbaşkanlığı Kararnamesi (Kararname Numarası:1) Yürütme ve İdare Bölümü.Cumhurbaşkanlığı Kararnameleri. 10 Temmuz 2018 Tarihli ve 30474 Sayılı Resmî Gazete http://www.resmigazete.gov.tr/eskiler/2018/07/20180710-1.pdf*

*3. Fatma Anil Öztop. Karar Birimi Kuramı Çerçevesinde Türk Dış Politikasının Analizi: 1 Mart 2003 Tezkeresi Örneği. Uluslararası Politik Araşdırmalar Dergisi. 2015, Sayı 2. https://dergipark.org.tr/en/download/article-*

*file/172350*

*4. Radikal, "Irak Krizinin Perde Arkası", (23.01.2004)*

*5. Siri Neset, Mustafa Aydın, Hasret Dikici Bilgin, Metin Gürcan, Arne Strand. Turkish foreign policy: structures and decision-making processes. ResearceGate 2019. https://www.researchgate.net/publication/333881559_Turkish_foreign_policy_structures_and_decision-making_processes*

*6. Türkiye Cumhuriyeti Milli Qüvenlik Kurulu Genel Sekreterliği. https://www.mgk.gov.tr/index.php/kurumsal/hakkimizda*

*7. Türkiye Cumhuriyeti Dış İşleri Bakanlığı http://www.mfa.gov.tr/turkiye-cumhuriyeti-dis-isleri-bakanligi-tarihcesi.tr.mfa*

*8. Конституция Турецкой Республики от 7 ноября 1982 г. Legal NZ. Юридическое агентство. https://legalns.com/download/books/cons/turkey.pdf*

*9. «О регулировании внешних связей Великого Национального Собрания Турции." Закон No:28/3/1990-3620, Великое Национальное Собрание Турции, Анкара, 2013, Типография ВНСТ. https://www.tbmm.gov.tr/yayinlar/yabanci_diller/TBMM_Rusca.pdf*

**Nafilə Rəhimova,**
**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Beynəlxalq münasibətlər və xarici siyasət kafedrasının dosenti, siyasi elmlər üzrə fəlsəfə doktoru**

**2017-ci ildə Türkiyədə Konstitusiya islahatlarının ölkənin xarici siyasət qərarlarının qəbulu prosesinə təsiri**

**XÜLASƏ**

Məqalədə 2017-ci ildə Türkiyədə konstitusiya islahatlarının nəticələrinin xarici siyasətin formalaşdırılması və reallaşdırılması prosesinə təsiri təhlil olunur. İlk növbədə Türkiyənin parlament idarəetmə üsulu şəraitində mövcud olan xarici siyasət mexanizmi nəzərdən keçirilir, xarici siyasət sahəsində qərarların qəbulu prosesində iştirak edən müxtəlif orqan və institutların səlahiyyətləri araşdırılır. Əsas diqqət 2017-ci il konstitusiya islahatlarından sonra qanunverici və icraedici hakimiyyət arasında mövcud münasibətlərin Türkiyənin xarici siyasət mexanizminə təsirinin müəyyən olunmasına yönəldilir. Bu kontekstdə Prezidentin müvafiq fərmanı və digər hüquqi normativ aktlar maraq doğurur. Belə ki, məqalədə Prezidentin 10 iyul 2018-ci il tarixli 1 nömrəli Fərmanının, Prezidentin nəzdində fəaliyyət göstərən ayrı-ayrı orqan və institutların səlahiyyət və vəzifələrini tənzimləyən müddəaları araşdırılır. Türkiyədə prezident idarəetmə üsulu şəraitində fəaliyyət göstərən orqanlar sırasında yeni təsis edilmiş Təhlükəsizlik və xarici siyasət komitəsinə xüsusi diqqət yetirilir.

**Acar sözlər:** *Türkiyə, xarici siyasət, qərarların qəbulu, konstitusiya dəyişiklikləri, Təhlükəsizlik və xarici siyasət komitəsi*

**Nafile Rahimova,**
**Associate Professor, Department of International Relations and Foreign Policy, Academy of Public Administration under the President of the Republic of Azerbaijan, PhD in Political Science**

**Influence of the 2017 constitutional reform in Turkey on foreign policy decision-making process**

**SUMMARY**

The article is devoted to the analysis of the influence of the consequences of the constitutional reform of 2017 in Turkey on the process of formation and realization of the state's foreign policy. The article considers the foreign policy mechanism of Turkey, which existed in the conditions of the parliamentary type of government, examines the powers of various bodies and institutions involved in the process of foreign policy decisions making. The main attention is paid to the analysis of changes in the process of correlations between executive and legislative power after the constitutional reform of 2017 and their impact on the foreign policy mechanism of Turkey. In this context, the relevant decrees of the President and other normative acts are examined. Thus, the provisions of Presidential Decree No. 1, adopted on July 10, 2018, regulating the activities, powers and tasks of individual bodies and institutions under the authority of the President, are studied. Among the bodies operating in the foreign policy sphere under the presidential type of government, special attention is paid to the newly established Committee on security and foreign policy.

**Key words:** *Turkey, foreign policy, decision making, constitutional amendments, security and foreign policy committee.*

UOT 342.9.07

# AZƏRBAYCANDA DÖVLƏT XİDMƏTLƏRİ SEKTORUNDA İSLAHATLAR

**VÜSAL QULİYEV**
*Şərqi İngiltərə Universitetinin magistrantı*
***Azərbaycan***
*E-mail: vusal3006@gmail.com*

**Giriş**

Azərbaycanda dövlət xidmətlərinin müasir tələblər səviyyəsində qurulması dövlət idarəçilik sistemidə həyata keçirilən islahatların mühüm tərkib hissəsidir. Xidmət sektorunda reallaşdırılan islahatlar idarəetmə sisteminin innovativliyini təmin etmək, o cümlədən dövlət xidmətlərinin təşkilati və hüquqi əsaslarını müəyyən etməklə yanaşı, xidmətlərin qiymətləndirmə meyarlarının konkretləşdirilməsi proseslərini də əhatə edir. Xidmət həyata keçirən dövlət strukturlarının fəaliyyətinin funksionallığının təmin edilməsi, qanunvericilik bazasının gücləndirilməsi, yeni qurumların yaradılması və onlara yeni səlahiyyətlərin verilməsi və s. dövlət xidmətləri sahəsində həyata keçirilən siyasətin başlıca istiqamətləridir.

Bu gün Azərbaycanda elektron hökumətin tətbiqi istiqamətində mühüm uğurlar əldə edilmişdir. E-hökumət portalı vasitəsilə vətəndaşlar dövlət xidmətlərindən asan və operativ istifadə etmək imkanı qazanmışlar.

Göstərilən dövlət xidmətlərinin müəyyənləşdirilmiş konkret meyarlar əsasında qiymətləndirilməsi dövlət qurumların fəaliyyətinin dəyərləndirilməsi prizmasından mühüm əhəmiyyətə malikdir. Azərbaycanda dövlət xidmətlərinin qiymətləndirilməsini Dövlət Xidmətlərinin Elektron Reyestrinin yaradılması ilə bağlı tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanına uyğun olaraq Vətəndaşların Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi həyata keçirir.

Bütün bunlar onu göstərir ki, dövlət xidmətləri sahəsində həyata keçirilən islahatların əsas istiqamətlərinin, eyni zamanda dövlət xidmətlərinin keyfiyyətinin qiymətləndirilməsi prosesinin araşdırılması və təhlili mühüm elmi aktuallıq kəsb edir.

**Dövlət xidmətləri sahəsində həyata keçirilən islahatların əsas istiqamətləri**

Müasir mərhələdə Azərbaycanda dövlət idarəçiliyinin təkmilləşdirilməsi və bu sahədə şəffaflığının təmin edilməsi istiqamətində ardıcıl mühüm addımlar atılmaqdadır. Xüsusilə də dövlət idarəetməsinin xidmət sektorunda həyata keçirilən islahatlar diqqəti cəlb etməkdədir. Belə ki, vətəndaşların daha çox müraciət etdikləri sahə olaraq xidmət sektorunda müasir idarəetmə metodlarının tətbiqi, bu sahədə əvvəllər mövcud olmuş xoşagəlməz halların aradan qaldırılması islahatların əsas prioritetlərini təşkil etməkdədir. Tətbiq olunan İKT və innovasiyalar xidmət sektorunun dövrün tələblərinə uyğun şəkildə qurulmasına imkan verir.

Qeyd etmək lazımdır ki, dövlət xidməti anlayışına xidməti həyata keçirən qurumlar tərəfindən səlahiyyətlərinin icrası zamanı göstərilən və müvafiq hüquqi nəticənin yaranmasına səbəb olan hərəkətlərin həyata keçirilməsi daxildir. Xidmətlər isə mərkəzi və yerli icra hakimiyyəti orqanları, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər, dövlət adından yaradılan publik hüquqi şəxslər, büdcə təşkilatları tərəfindən yerinə yetirilir.

Xidmət sektorunda həyata keçirilən islahatların başlıca vəzifələrindən biri *dövlət orqanları tərəfindən göstərilən xidmətlərin vahid və əlaqələndirilmiş şəkildə həyata keçirilməsinin təşkilidir.* 2012-ci il tarixdə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət

Agentliyinin yaradılması *bu məqsədə nail olunması istiqamətində atılmış mühüm addım hesab edilməlidir.*

Prezident Fərmanında [1] Agentliyin yaradılmasında əsas məqsədin dövlət orqanlarının fəaliyyətində şəffaflığın artırılmasının, vətəndaşlara göstərilən xidmətlərin daha keyfiyyətli, rahat, yeni üslubda və müasir innovasiyaları tətbiq etməklə həyata keçirilməsinin, vətəndaşlara münasibətdə etik qaydalara, nəzakətli davranışa əməl edilməsinin, vətəndaş məmnunluğunun təmin olunmasının zəruriliyini nəzərə alaraq, dövlət orqanları tərəfindən göstərilən xidmətlərin təkmilləşdirilməsi, elektron xidmətlərə keçidin sürətləndirilməsi olduğu öz əksini tapmışdır.

Qeyd olunan əsas məqsədə nail olunmasını təmin edilməsi üçün *Agentliyin tərkibində vətəndaşlara xidmət məqsədilə ASAN xidmət mərkəzləri yaradılmışdır ki, onların da fəaliyyəti vətəndaşların əlavə xərclərinin və vaxt itkisinin azalmasına, vətəndaşlara münasibətdə etik qaydalara, nəzakətli davranışa əməl edilməsinə nail olunmasına;*

*peşəkarlıq səviyyəsinin artırılması;*

*şəffaflığın artırılması, korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə;*

*elektron xidmətlərdən daha geniş istifadə olunmasına;*

*bu sahədə aparılan institusional islahatların səmərəliliyinin artırılmasına nail olunmasına gətirib çıxarmışdır [8].*

*Agentlik mərkəzi və ya yerli icra hakimiyyəti orqanlarının, büdcə təşkilatlarının, dövlətə məxsus olan hüquqi şəxslərin, o cümlədən dövlət adından yaradılan publik hüquqi şəxslərin əməkdaşlarının fəaliyyətinin əlaqələndirilməsi, nəzarət və qiymətləndirmənin aparılması, dövlət qurumlarının informasiya bazalarının qarşılıqlı inteqrasiyası, elektron xidmətlərin təşkili prosesinin sürətləndirilməsi, bu sahədə idarəetmə sisteminin təkmilləşdirilməsi həyata keçirilir [9].*

"ASAN" xidmət mərkəzlərində Ədliyyə Nazirliyi, Daxili İşlər Nazirliyi, Vergilər Nazirliyi, Əmlak Məsələləri Dövlət Komitəsi, Dövlət Gömrük Komitəsi, Dövlət Miqrasiya Xidməti, Dövlət Sosial Müdafiə Fondu, Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi, Milli Arxiv İdarəsi, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin müvafiq xidmətləri ən yüksək səviyyədə müraciət edən vətəndaşlara göstərilməkdədir.

*Bu gün Azərbaycanın bölgələrində 10, Bakıda isə 5 "ASAN xidmət" mərkəzi fəaliyyət göstərir. İlin sonuna kimi isə əlavə 5 mərkəzin rayonlarda, ikisinin isə Bakıda açılması nəzərdə tutulmuşdur. 2013-cü ildən etibarən ASAN mərkəzlərində ölkə üzrə 30 milyondan artıq ərizəyə baxılmışdır. Bu gün həmin mərkəzlərdə 320 dövlət və özəl xidmət göstərilir [10].*

2014-cü ildən başlayaraq ölkədə dövlət xidmətlərinin elektron reyestrinin aparılmasına başlanmışdır. Bu barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanında [2] göstərilir ki, Dövlət Xidmətlərinin Elektron Reyestri yaradılır və onun fəaliyyətinin təşkili Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinə tapşırılır.

Həmçinin Azərbaycan Respublikasının Nazirlər Kabinetinin tərəfindən 9 fevral 2015-ci il tarixli 32 nömrəli Qərarla "Dövlət orqanları tərəfindən həyata keçirilən xidmətlərin Elektron Reyestrinin aparılması" Qaydaları təsdiq edilib ki, bu da dövlət xidmətlərinin hüququ əsaslarının yaradılması baxımından mühüm əhəmiyyətə malikdir.

Azərbaycanda dövlət xidmətlərinin müasir tələblər səviyyəsində qurulması, bu xidmətlərə əlçatanlığın təmin edilməsi və vətəndaş məmnuniyyətinə nail olunması istiqamətində atılan mühüm addımlardan biri də məşğulluq xidməti ilə bağlıdır. Qeyd etmək lazımdır ki, xüsusilə son dövrlər bu sahədə köklü hüquqi-institusional tədbirlər həyata keçirilmişdir. Bu baxımdan Prezident İlham Əliyev tərəfindən imzalanmış 9 avqust 2018-ci il tarixli "Əhalinin məşğulluğu, əmək, sosial müdafiə və təminat sahələrində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Fərman [4] mühüm əhəmiyyətə malikdir. Fərmana uyğun olaraq yaradılnan innovativ qurum olan DOST Agentliyi məşğulluq, əmək, sosial müdafiə və təminat sahələrində idarəçilik və əhaliyə xidmətlər sisteminin yeni əsaslar üzərində yeni yanaşmalarla qurulmasını və inkişafını təmin etməyə xidmət edəcəkdir.

Dövlət xidmətləri ilə bağlı islahatlar çərçivəsində ABAD publik hüquqi şəxsinin

yaradılması ilə bağlı Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 23 sentyabr 2016-cı il tarixli Fərmanı [3] vacib əhəmiyyətə malikdir.

Fərmanla əhalinin məşğulluq səviyyəsinin artırılmasına və rəqabətqabiliyyətli ailə təsərrüfatlarının formalaşdırılmasına dəstək vermək məqsədilə sosialyönümlü layihələr həyata keçirən "ABAD" (Ailə Biznesinə Asan Dəstək) mərkəzləri yaradılmışdır.

Dövlət xidmətlərinin müasir səviyyədə təşkil edilməsi baxımından Azərbaycan Respublikasında icbari tibbi sığortanın tətbiqinin təmin edilməsi ilə bağlı Azərbaycan Respublikası Prezidentinin Fərmanı [5] vacib əhəmiyyət kəsb edir. Belə ki, fərmanda *ölkədə tibbi xidmətlərin keyfiyyətini daha da yaxşılaşdırmaq və müasir tələblərə uyğunlaşdırmaq, habelə bu sahənin mövcud maliyyələşmə mexanizmlərini yeni iqtisadi əsaslarla tətbiq etmək yolu ilə əhaliyə göstərilən tibbi xidmətlərin səviyyəsinin artırılmasına nail olmaq, tibbi yardımın keyfiyyətinə, pasiyentlərin hüquqlarının qorunmasına nəzarət mexanizmlərini təkmilləşdirmək və əhalinin sağlamlığının etibarlı qorunmasını təmin etmək məqsədilə İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin tərkibində "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" publik hüquqi şəxsi yaradılması öz əksini tapmışdır.*

**Azərbaycanda dövlət xidmətlərinin keyfiyyətinin qiymətləndirilməsi sistemi**

Ayrı-ayrı dövlət qurumların fəaliyyətinin, həmçinin ümumilikdə e-hökumətin fəaliyyətinin dəyərləndirilməsi baxımından dövlət xidmətlərinin müəyyən meyarlar əsasında qiymətləndirilməsi önəmlidir.

Azərbaycanda dövlət xidmətlərinin qiymətləndirilməsi Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinə həvalə edilmişdir. Belə ki, Dövlət Xidmətlərinin Elektron Reyestrinin yaradılması ilə bağlı tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanına uyğun olaraq Dövlət Agentliyi Elektron Reyestrə daxil edilmiş xidmətlərin qiymətləndirilməsini həyata keçirir. Qiymətləndirmə "ASAN xidmət indeksi"nə uyğun olaraq aparılır. "ASAN xidmət indeksi"i təşkil edən parametrlər aşağıdakılardır:

- xidmət barədə məlumatlandırma (xidmət üçün tələb olunan sənədlər və xidmət haqları barədə məlumatlandırma, sorğu xidmətinə edilən müraciətlərin cavablandırılma operativliyi və s.);
- xidmətə müraciət imkanları (elektron, poçt, birbaşa);
- xidmətin göstərilmə müddəti;
- xidmətin təşkilində istifadə edilən informasiya ehtiyatlarının elektronlaşdırılması və digər dövlət orqanlarının informasiya sistemləri ilə inteqrasiyası;
- xidmətlərin təşkili ilə bağlı əməkdaşlara təlim keçilməsi;
- şikayət və nəzarət mexanizmləri;
- vətəndaş məmnunluğunun ölçülməsi mexanizmlər.

"Dövlət Xidmətlərinin Elektron Reyestrinin yaradılması ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanına müvafiq olaraq Agentlik "Dövlət xidmətlərinin "ASAN xidmət indeksi" üzrə qiymətləndirilməsi Qaydaları" [6] müəyyən etmişdir. Qaydalara görə, hər bir dövlət xidmətinin təşkili və göstərilməsi üzrə cari vəziyyətinin bu Qaydalara uyğun qiymətləndirilməsi nəticəsində müəyyən edilən ölçü vahidi "ASAN xidmət indeksi" adlanır.

Dövlət orqanlarında e-xidmətlərin təşkili və göstərilməsi səviyyəsinin qiymətləndirilməsi Dövlət Agentliyi tərəfindən müəyyən olunmuş 3 meyar və altbölmələri olmaqla aşağıdakı istiqamətlər nəzərə alınaraq həyata keçirilir:

– elektronlaşma və əlaqəlilik səviyyəsi;
– informasiya açıqlığı və əldəolunma (giriş) səviyyəsi;
– istifadə rahatlığı səviyyəsi.

Qeyd olunan meyarlar üzrə toplanılan ballar uyğun olaraq müəyyən edilən faizlər üzrə e-xidmətlər və informasiya sistemləri aşağıdakı şəkildə qiymətləndirilir:

– 50% və daha aşağı – qeyri kafi;
– 51%-dən 70%-dək – kafi;
– 71%-dən 90%-dək – yaxşı;
– 91%-dən 100%-dək – əla [11].

Qaydalara görə, dövlət xidmətlərinin qiymətləndirilməsi ildə bir dəfədən az olmayaraq həyata keçirilir və nəticələri Elektron Reyestrin Portalı vasitəsilə ictimaiyyətə açıqlanır.

Qiymətləndirmənin aparılması Dövlət Agentliyi tərəfindən yaradılmış işçi qrupu tərəfindən həyata keçirilir. İşçi qrupuna digər dövlət orqanlarının və təşkilatların nümayəndələri, həmçinin elmi-tədqiqat müəssisələri, müstəqil ekspertlər və mütəxəssislərin cəlb edilməsi mümkündür.

Qaydalara müvafiq olaraq qiymətləndirmə nəticələri barədə arayış hər ilin sentyabr ayınadək xidmət təminatçılarına təqdim olunur. Qiymətləndirmənin nəticələri barədə Azərbaycan Respublikasının Prezidentinə hesabat verilməsi də Qaydalarda əksini tapmışdır.

Qiymətləndirmə zamanı elektron xidmətlərin təşkili və göstərilməsi ilə bağlı mövcud vəziyyət öyrənilir, hazırlanmış rəylərdə çatışmazlıqlar qeyd olunur və hər bir orqana çatışmazlıqların aradan qaldırılması ilə bağlı təkliflər verilir.

Xidmətlərin elektronlaşdırılması ilə bağlı ümumi vəziyyət Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin apardığı təhlillərin nəticələrinə əsasən aşağıda verilmiş cədvəldəki kimi müəyyənləşdirilmişdir [12]:

| | *2013-cü ilin nəticələri* | *2014-cü ilin nəticələri* | *2015-ci ilin nəticələri* | *2016-cı ilin nəticələri* | *2017-ci ilin nəticələri* | *2018-ci ilin nəticələri* |
|---|---|---|---|---|---|---|
| **Qiymətləndirmə aparılmış mərkəzi icra hakimiyyəti orqanlarının sayı** | *40* | *41* | *39* | *34* | *30* | *29* |
| **Xidmətlərin sayı** | *439* | *438* | *438* | *444* | *404* | *410* |
| **Onlardan:** | | | | | | |
| **Elektronlaşdırılmış** | *305* | *341* | *354* | *351* | *330* | *345* |
| **Elektronlaşdırılmamış** | *134* | *97* | *84* | *71* | *74* | *65* |

Buradan aydın etmək mümkündür ki, ildən-ilə elektron xidmətlərin artımı müşahidə edilir. Bu isə ölkədə dövlət xidmətlərinin həm kəmiyyət, həm də keyfiyyət baxımından inkişaf dinamikasına malik olduğunu ortaya qoyur.

2013-cü ildən hazırkı dövrədək Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi tərəfindən elektron formada həyata keçirilən xidmətlərin qiymətləndirilməsinin nəticələri aşağıdakı cədvəldə öz əksini tapmışdır:

| | *2013-cü ilin nəticələri* | *2014-cü ilin nəticələri* | *2015-ci ilin nəticələri* | *2016-cı ilin nəticələri* | *2017-ci ilin nəticələri* | *2018-ci ilin nəticələri* |
|---|---|---|---|---|---|---|
| **"Qeyri-kafi" qiymətləndirilmiş xidmətlərin sayı** | *5* | *55* | *67* | *30* | *19* | - |
| **"Kafi" qiymətləndirilmiş xidmətlərin sayı** | *83* | *72* | *54* | *58* | *51* | - |
| **"Yaxşı" qiymətləndirilmiş xidmətlərin sayı** | *142* | *100* | *105* | *109* | *105* | - |
| **"Əla" qiymətləndirilmiş xidmətlərin sayı** | *75* | *114* | *128* | *154* | *155* | - |

Cədvələ əsasən demək olar ki, dövlət qurumları tərəfindən göstərilən xidmətlərin keyfiyyətində artım dinamikası müşahidə edilməkdədir. Bunun nəticəsi olaraq qiymətləndirici orqan tərəfindən "yaxşı" və "əla" olaraq verilən qiymətlər üzrə xidmətlərin sayı artmaqdadır.

Azərbaycanda dövlət xidmətlərinin göstərilməsində əldə olunmuş uğurlar və vətəndaş məmnuniyyəti beynəlxalq təşkilatlar tərəfindən də etiraf olunur. Məsələn, BMT-nin hesabatına görə, "E-government development index" üzrə Azərbaycan 2016-cı ildə 2014-cü illə müqayisədə dünyanın 193 ölkəsi arasında 12 pillə irəliləyərək 56-cı pilləyə qalxmışdır. Bununla da Azərbaycan Asiya regionu üzrə 11-ci, MDB ölkələri üzrə sıralamada Qazaxıstan, Rusiya və Belarusdan sonra 4-cü yerə sahib olmuşdur. Azərbaycan "E-participation index" üzrə isə 2016-cı ildə 0.6780 balla qiymətləndirilməklə 193 ölkə arasında 47-ci pilləni tutmuşdur [7, s. 80].

## Nəticə

Azərbaycanda dövlət xidmətləri sahəsində həyata keçirilən islahatlar çərçivəsində çoxsaylı qanunvericilik aktları, o cümlədən prezident fərman və sərəncamları, digər hüquqi aktlar qəbul edilmişdir. Həmçinin dövlət xidmətlərinin daha keyfiyyətli şəkildə təqdim edilməsi ilə bağlı atılmış institusional addımlar da diqqəti cəlb edir.

Qanunvericilik bazasının təkmilləşdirilməsi dövlət xidmətlərinin daha keyfiyyətli şəkildə təqdim edilməsinə, şəffaflığın təmin olunmasına və beləliklə də vətəndaş məmnuniyyətinə nail olunmasına gətirib çıxarır.

Azərbaycanda dövlət xidmətlərinin keyfiyyətinin artırılması məqsədilə ciddi qiymətləndirmə sistemi qurulmuşdur. Qiymətləndirmə sisteminin əsasını dövlət xidmətlərinin Reyestrinin aparılması ilə bağlı Prezident Fərmanı və bu fərman əsasında Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi tərəfindən qəbul edilmiş Qaydalar təşkil edir.

Dövlət xidmətlərinin keyfiyyətinin qiymətləndirilməsini Vətəndaşlara Xidmət üzrə Dövlət Agentliyi həyata keçirir. Qiymətləndirmə dövlət xidmətlərinin keyfiyyətinin daha da yüksəldilməsinə xidmət edir.

## ƏDƏBİYYAT SİYAHISI

*1. Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin yaradılması və dövlət orqanları tərəfindən vətəndaşlara göstərilən xidmətlərin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı, Bakı şəhəri, 13 iyul 2012-ci il.*

*2. Dövlət Xidmətlərinin Elektron Reyestrinin yaradılması ilə bağlı tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. 11 sentyabr 2014-cü il, № 262*

*3. Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində "ABAD" publik hüquqi şəxsin yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. 23 sentyabr 2016*

*4. "Əhalinin məşğulluğu, əmək, sosial müdafiə və təminat sahələrində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında". Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakı, 9 avqust 2018-ci il.*

*5. Azərbaycan Respublikasında icbari tibbi sığortanın tətbiqinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. 20 dekabr 2018*

*6. Dövlət xidmətlərinin "ASAN xidmət indeksi" üzrə qiymətləndirilməsi Qaydaları". Bakı, 2016.*

*7. Yusifov F.F., Qurbanlı A.E. Elektron dövlət platformasında xidmətlərin qiymətləndirilməsi meyarları: Azərbaycan təcrübəsi. İnformasiya cəmiyyəti problemləri, 2018, №2, s.80*

*8. https://asan.gov.az/az/about (02.10.2019)*

*9. http://vxsida.gov.az/az/page/agentlik-haqqinda (01.10.2019)*

*10. https://president.az/articles/33629 (02.10.2019)*

*11. http://e-qanun.az/framework/34358 (03.10.2019)*

*12. http://vxsida.gov.az/az/page/hesabat-elektron-xidmetlerin-teskili (03.10.2019)*

**Вусал Гулиев**
**Магистрант Университета Восточной Англии**

**Реформы в сфере государственных услуг в Азербайджане**

**РЕЗЮМЕ**

В статье в первую очередь исследованы правовые основы государственных услуг. Это касается институциональных и правовых актов, принятых в области государственных услуг, а также их реальных результатов. Оценены правовые аспекты реформ, проводимых в сфере услуг.

В статье также исследованы вопросы оценки деятельности учреждений, оказывающих государственные услуги в Азербайджанской Республике. Отмечено, что деятельность по оценке проводится со стороны Государственного Агентства по оказанию Услуг Гражданам и Социальным Инновациям при Президенте. При оценке за основу берется «индекс услуг ASAN".

В статье отмечено, что Правила оценки по «Индексу обслуживания ASAN» подготовлены и приняты Государственным Агентством "ASAN".

При оценке изучается современное состояние организации и оказания электронных услуг, в том числе по результатам оценки предоставляется отчет Президенту страны. Все это способствует более качественной организации оказываемых государственных услуг и достижению удовлетворенности граждан.

**Guliyev Vusal**
**The master of the University of East Anglia**

**Reforms in the public services sector in Azerbaijan**

**SUMMARY**

The article first of all analyzes the legal basis of public services. At the same time, the institutional and the accepted services in the field of public services legislation decisions and their actual results have been investigated. Legal aspects of reforms in the service sector were assessed.

The article also analyzed the performance evaluation of public service providers in the Republic of Azerbaijan. It was noted that the assessment work is carried out by the State Agency for Citizen Service and Social Innovation under the President.

The "ASAN service index" is based on the evaluation.

The assessment of State Agency prepared and adopted its rules on "ASAN Service Index."

The assessment examines the current situation regarding the organization and provision of e-services and also reports on the results to the President of the country. All this is based on better quality of public services and promotes citizen satisfaction.

UOT: 330.8:330.88:332.12

# UŞAQ HÜQUQLARININ TƏDRİSİ PROBLEMLƏRİ

**SEVDA KƏRİMOVA**
*AMEA Hüquq və İnsan Haqları İnstitutunun doktorantı, ADPU "Fəlsəfə və sosial fənlər" kafedrasının müəllimi*
***Azərbaycan***
*E-mail: sevda.aydin.k@gmail.com*

Respublikamızda uşaqların sosial və hüquqi müdafiəsi ilə bağlı məsələlər Azərbaycan Respublikasının Konstitusiyası, Ailə Məcəlləsi, Əmək Məcəlləsi, "Təhsil Qanunu" və bir sıra digər qanunverici və normativ-hüquqi aktlarla tənzimlənir. Bu sahədə əsas normativ sənəd 1998-ci il mayın 19-da qəbul edilmiş "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikasının Qanunudur (4). Qanun bir sıra beynəlxalq sənədlərə, xüsusilə də "İnsan hüquqları haqqında" Ümumdünya Bəyannaməsinə (1948), Uşaq hüquqları Bəyannaməsinə (1959), BMT-nin Uşaq hüquqları Konvensiyasına (1989), Uşaqların yaşaması, müdafiəsi və inkişafının təmin edilməsi üzrə Ümumdünya Bəyannaməsinə (1990) uyğun şəkildə hazırlanmış və uşaqların beynəlxalq səviyyədə təsbit olunmuş əsas hüquq və azadlıqlarını, eləcə də bu hüquqların reallaşdırılması üçün dövlətin vəzifələrini özündə əks etdirir.

Azərbaycan Respublikası 21 iyul 1992-ci il tarixli və 236 №-li qanunla BMT-nin "Uşaq hüquqları haqqında" Konvensiyasını ratifikasiya etmişdir. 1993-cü ildə ölkəmiz "Uşaqların yaşaması, müdafiəsi və inkişafının təmin edilməsi haqqında" 1990-cı il 30 sentyabr tarixli Ümumdünya Bəyannaməsinə qoşulmuşdur. 2000-ci il 6-8 sentyabr tarixlərində BMT-nin Nyu-Yorkda keçirilmiş Minilliyin Sammitində isə Azərbaycan Respublikasının Prezidenti bu konvensiyanın "Uşaqların silahlı münaqişəyə cəlb olunması" və "Uşaq alveri, uşaq fahişəliyi və uşaq pornoqrafiyası" üzrə Fakültativ Protokollarını imzalamışdır. 2004-cü ildə Azərbaycan Beynəlxalq Əmək Təşkilatının "Uşaq əməyinin ən pis formalarının ləğv edilməsi" haqqında 182 saylı Konvensiyasına və eyni adlı 190 saylı Tövsiyəsinə, həmçinin "Beynəlxalq övladlığa götürməyə dair Haaqa Konvensiyası"na qoşulmuşdur. (9)

Qanunvericiliyə əsasən hər bir insan 18 yaşına çatanadək uşaq sayılır, bir şərtlə ki, həmin uşaq barəsində tətbiq edilən qanuna görə o, yetkinlik yaşına daha əvvəl çatmış olmasın. (5)

Azərbaycanda uşaqların sayı 3 milyondan çoxdur, bu təxminən əhalinin 30 faizi deməkdir. Ölkədə polisin qeydiyyatında 4 minə yaxın uşaq var. İl ərzində 2500-ə yaxın küçə uşağı, 500-ə yaxın cinayət törətmiş uşaq saxlanılır. 13 minə yaxın uşaq internat məktəblərindədir. Azərbaycanda 50 minə yaxın uşaq əlildir. Təxminən 200 minə yaxın uşaq isə qaçqın və məcburi köçkün vəziyyətindədir (11). Zorakılığa məruz qalan uşaqların sayı məlum deyil. Mətbuatda gedən qeyri-rəsmi məlumata görə hər il təqribi 1000 nəfər uşaq məktəbdə və ailədə zorakılıqla üzləşir. Bəzən cəmiyyətdə ciddi əks-səda doğuran faciələrlə üzləşməli oluruq. Uşaqların sağlamlığının qorunması, onlara səhiyyə xidmətinin yaxşılaşdırılması problemləri aktual olaraq qalır. Uşaq ölümü hallarına təsadüf olunur. Sağlamlıq imkanları məhdud olan uşaqlar üçün, onların valideynləri üçün çoxsaylı güzəşt və imtiyazlar nəzərdə tutulsa da, qanunlar qəbul olunsa da onların reallaşmasında mövcud qanunları bilməməkdən və ya müvafiq qurumların bürokratik münasibətindən müəyyən çətinliklər mövcuddur. Dövlətin müəyyən etdiyi imtiyazlar yerlərdə öz subyektlərinə çatmır.

Azərbaycan Respublikası Prezidentinin 03 may 2019-cu il tarixli Sərəncamı ilə ali təhsil müəssisələrində təhsil alan fəaliyyət imkanları məhdud uşaqların təhsil haqqının dövlət tərəfindən ödənilməsi bu kateqoriyadan olan şəxslərə ciddi maddi və mənəvi dəstəkdir. (8)

Bu və digər uşaqların həyat səviyyəsinin yaxşılaşdırılması, hüquqlarının qorunması, mənafelərinin təmin edilməsi və həyatı onlar üçün daha yaşana bilən hala gətirməkdən ötəri

dövlətimizin gördüyü işləri ictiamiyyətə daha yaxından təqdim etmək gərəkdir.

Azərbaycan Respublikasında uşaq siyasətinin həyata keçirilməsinə məsul mərkəzi icra hakimiyyəti orqanları Səhiyyə Nazirliyi, Təhsil Nazirliyi, Gənclər və İdman Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (Ombudsman) fəaliyyət göstərir. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi ailə, qadın və uşaq problemləri ilə iş sahəsində dövlət siyasətini və onun tənzimlənməsini həyata keçirən əsas dövlət orqanıdır (10). Mövcud yerli və beynəlxalq qanunvericilik və normativ aktlara uyğun olaraq Azərbaycan Respublikasında uşaqların müdafiəsi və onların rifahının yaxşılaşdırılması, hüquq və azadlıqlarının təmin edilməsi, eləcə də uşaqlarla bağlı dövlət siyasətinin əlaqələndirilməsi vəzifələrini daşıyır.

2006-cı ildə BMT-nin Uşaq Hüquqları Komitəsi Azərbaycanda uşaq hüquqları üzrə Ombudsmanın, yaxud Ombudsman Aparatının nəzdində xüsusi qurumun yaradılmasını tövsiyə edib.

Bütün bunlara baxmayaraq, gələcəyimiz olan uşaqların şən, xoşbəxt, gələcəyin ləyaqətli vətəndaşı kimi böyüməsi, azad və müstəqil düşüncəyə sahib olması, öz imkanlarını tam reallaşdırması, sağlam, gümrah və güclü olması üçün çox işlərin görülməsinə ehtiyac var.

Bununla əlaqədar aparılan araşdırmalar göstərir ki, zəif nöqtələrdən biri uşaqlarla birbaşa, sıx təmasda olan müəllimlərin uşaq hüquqları ilə bağlı məlumatının az olması, bu mövzuya laqeyd yanaşması və uşaq hüquqları ilə bağlı bilikləri uşaqlar və valideynlər arasında zəif təbliğ etməsidir.

Uşaqlarla iş üzrə çoxsaylı dövlət və ictimai komissiyalarda təmsil olunan, ekspert və ya nümayəndə kimi istintaq və ya məhkəmə prosesinə cəlb olunan müəllimlərin uşaqların hüquq və mənafeyini həqiqətən qoruması üçün müəyyən biliklərə, təcrübəyə və normativ bazaya malik olması vacibdir. Biz də dünyanın qabaqcıl ölkələrində geniş tətbiq olunan yuvenal yustisiya (uşaq ədliyyəsi) sisteminin tədricən qurulmasına çalışmalıyıq. Bu isə uşaq hüquqlarının cəmiyyət, pedaqoji heyət, hüquq mühafizə, ədliyyə, məhkəmə orqanları və s. tərəfindən dərindən mənimsənilməsini tələb edir.

Qeyd edilən və edilməyən geniş fəaliyyət sahəsini əhatə etmək üçün əhali və pedaqoji işçilər arasında hüquqi maarifləndirmə və ya məlumatlandırma yetərli ola bilməz. Bunun üçün universitetlərdə, xüsusilə pedaqoji kadr hazırlayan universitetlərdə uşaq hüquqları ilə bağlı sistemli şəkildə tədris təşkil edilməlidir. Gələcək müəllimlər həm özləri bu hüquq sahəsini mükəmməl mənimsəməli, həm də onun məktəblərdə tədrisi metodikasına yiyələnməlidirlər. Bunun üçün orta məktəb və pedaqoji yönümlü tədris müəssisələrinin proqramlarında dəyişiklik aparılmalı, dərsliklər, tədris metodiki vəsaitlər hazırlanmalıdır.

Azərbaycan Respublikası Prezidentinin 27 dekabr 2011-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı"nın 4.4.-cü maddəsində orta ixtisas və ali təhsil müəssisələrində insan hüquqlarının tədrisinin genişləndirilməsi, ümumtəhsil məktəblərində uşaq hüquqlarının pilləli tədrisinin inkişaf etdirilməsi nəzərdə tutulmuşdur. (1)

Bu bəndə uyğun olaraq, 2015-ci ildən etibarən Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilin (Ombudsman) təşəbbüsü və Təhsil Nazirliyi ilə əməkdaşlıq çərçivəsində bəzi orta ümumtəhsil məktəblərində uşaq hüquqları üzrə pilləli tədris proqramı artıq həyata keçirilir.

Ali təhsil müəssisələrində də insan hüquqlarının, xüsusilə də uşaq hüquqlarının tədrisinin genişləndirilməsinə önəm verilməli, konkret işlər görülməlidir.

Universitetlərdə uşaq hüquqları niyə tədris olunmalıdır?

- Demokratik dövlətdə insan hüquqlarının öyrənilməsi və tətbiqi hər bir vətəndaş üçün zəruridir;

- İnsanın şəxsiyyət kimi formalaşmasının ilkin mərhələsi məktəbdir və düzgün yetişdirilmiş fərdlərin ilk tərbiyəçiləri (valideynlərdən sonra) müəllimlər – pedaqoqlardır. Bu səbəbdən də, uşaqların tərbiyəsi və təhsili ilə məşğul olacaq pedaqoqlar insan hüquqları, xüsusilə də uşaq hüquqları ilə bağlı kifayət qədər geniş informasiyaya malik olmalıdır;

- Uşaqlar arasında ayrı-seçkiliyin və əsassız davranışın, zorakılıq hallarının azaldılması, onların hüquqlarının qorunmasında beynəlxalq təşkilatların, dövlətin, ailənin, məktəbin, bələdiyyələrin,

vətəndaşların vəzifələrini hər bir müəllim bilməlidir;

- Uşaq hüquqlarının müdafiə mexanizmlərini bilmək və onlardan səmərəli istifadə etmək müəllimin borcudur;

- Çalışdığı məktəbdə, bölgədə, rayonda uşaq hüquqları ilə bağlı problemləri bilmək, onların həllinə çalışmaq, uşaqları və valideynləri məlumatlandırmaq müəllimin gənc nəsil yetişdirmək sahəsində fəaliyyətinin vacib hissəsidir;

- Uşaq hüquqlarının qorunması, təhsil və sağlamlıq sahəsində dövlətin beynəlxalq təşkilatlar və dünya ictimaiyyəti qarşısındakı öhdəliklərinin yerinə yetirilməsinə kömək üçün də bunları bilmək zəruridir;

- Təhsil qanunvericiliyi, təhsil strategiyası, uşaq və gənclər haqqında normativ hüquqi aktlar müəllimin bu biliklərə yiyələnməsi üçün əsas verir;

- Müəllimin əldə etdiyi bilik və informasiyalar uşaqların və valideynlərin də maariflənməsini təmin edəcəkdir;

- Cəmiyyətin həssas qruplarına aid olan - müharibənin təsirinə məruz qalan, məcburi köçkün, qaçqın, yoxsul ailələrdən olan, azlıqların təmsilçiləri, əlil, xüsusi müəssisələrdə saxlanılan uşaqlar başqaları üçün mümkün olan əsas hüquq və azadlıqlardan istifadə edə bilmirlər. Bu hüquqları müəllimlər bilməli, qorumalı, müdafiə etməlidir və s. Eyni zamanda, universitetlərin nəzdində "Uşaq Hüquqları Klinikası"nın təsis edilməsinə, müəllimlərə, valideynlərə və xüsusilə uşaqlara praktik kömək göstərilməsinə ehtiyac vardır.

Hər bir qanun pozuntusu ilə əlaqədar hüquq mühafizə orqanlarına müraciət etməmək mentalitetinə malik olan insanlarımız çox zaman laqeydliklə, bəzən də yumşaq desək, sərtliklə üzləşəcəklərini düşündüklərindən uşaq hüquqlarının müdafiəsi ilə bağlı üz tutmağa yer tapmırlar.

Fikrimizcə, məsələyə ciddi, müasir səviyyədən yanaşsaq yaxın gələcəkdə belə bir yer hamı üçün əlçatan olan, valideynlərin və uşaqların inandığı, uşaq hüquqlarının və onların müdafiə mexanizmini yaxşı bilən, hüquq mühafizə orqanları ilə sıx təmasda olmağı bacaran pedaqoqlar ola bilər.

İnsanlar uşaqlıqda zorakılığa və təhqirə məruz qalmasalar cəmiyyətdə baş verən narkomaniya, cinayətkarlıq, korrupsiya, yalançılıq, talançılıq, ailədaxili münaqişə və s. kimi neqativ hallar da dəfələrlə azalar.

Uşaq hüquqlarının yeni vətənpərvər gənclik yetişdirmək, ləyaqətli vətəndaş formalaşdırmaq, yaşamın və fəaliyyətin qanunauyğun standartlarını yaratmaq və hüquqi maarifləndirmə baxımından ciddi strateji hüquqi, siyasi və pedaqoji məsələ olduğunu nəzərə alsaq ölkə ictimaiyyətinin bu məsələyə diqqətinin ancaq uşaqlara qarşı radikal zorakılıq halları baş verdikdə və ya uşaqların ölümü ilə nəticələnən hadisələrdən sonra müvəqqəti artması təəssüf doğurur.

Müasir dövrdə hüquqi mədəniyyətin və hüquq tərbiyəsinin əsasında hər kəsin öz hüquq və azadlıqlarını bilməsi, onu reallaşdırmaq bacarığına yiyələnməsi, qoruya bilməsi, şəxsi azadlığının məsuliyyətinin sərhədini dəqiq müəyyənləşdirməsi, mübahisə və konfliktlərin hüquqi vasitələrlə həll edilməsini təmin etmə durursa, deməli uşaq hüquqlarının təkcə uşaqlar tərəfindən öyrənilməsi kifayət deyil. Baxmayaraq ki, bugünkü tədris və tərbiyə sistemi uşaq hüquqlarının uşaqlar tərəfindən öyrənilməsi üçün heç bir real mexanizm təklif etmir.

Uşaq hüquqlarının öyrənilməsinə diqqətin artırılmasını ölkəmizin qoşulduğu beynəlxalq normalar və ölkə daxilində cinayətkarlığa qarşı mübarizə prosesləri də tələb edir.

Araşdırmalar göstərir ki, valideynlərin, pedaqoqların və uşaqların münasibətlərində normativləşmə, standartlaşma olmadığı üçün məktəblərdə uşaqlara qarşı çoxsaylı zorakılıq halları, valideyn və müəllim arasında kobud mübahisələr baş verir.

Bu gün uşağın təkcə təhsil hüququ ilə bağlı hansı hüquq və öhdəlikləri olduğu, məktəbdə və dərs prosesində valideynin, eləcə də müəllimin hansı hüquqlara malik olduğunu və hansı vəzifələr daşıdığını öyrədən bilikverici mənbə, normativ sənəd yoxdur. Ona görə də, hər kəsin özünü haqlı saydığı mühitdə konfliktlər qaçınılmazdır.

Narahatedici faktdır ki, ölkəmizin pedaqoji profilli ali təhsil müəssisələrinin proqramlarında gələcək müəllimlərə tədrisin təşkili, pedaqoji taktın müəyyənləşməsi, ayrı-ayrı fənlərin tədrisi metodikası zamanı, eləcə də məktəbin idarə edilməsində uşaq hüquqlarının öyrədilməsi nəzərdə tutulmur. Bəsit halda öyrədilən Konstitusiya hüququ ilə bağlı proqramlar nə müəllimlərə, nə də uşaqlara öyrətmək üçün uşaq hüquqları haqda kifayət qədər informasiya vermir.

Cəmiyyətin inkişafında insanmərkəzli dəyərlərin önə çıxdığını, demokratik cəmiyyətdə insan hüquq

və azadlıqlarının yerini, hüquqi informasiyanın və hüquqi biliklərin insanların həyatında oynadığı vacib rolu dərindən bilməyən bəzi tədris ekspertləri, metodistlər və tədris idarəçiləri uşaq hüquqlarının pedaqoji profilli ali təhsil müəssisələrində tədrisinə mane olmağa çalışırlar. Fikrimizcə, bu həm də onunla bağlıdır ki, on illərlə daşlaşmış tədris proqramlarının yeni dövrün tələblərinə uyğunlaşdırılması əlavə bilik, bacarıq və sistemdə dəyişiklik aparmaq qabiliyyəti tələb edir.

**Açar sözlər:** *uşaq hüquqları, insan haqları, uşaq ombudsmanı, tədris problemləri.*

## ƏDƏBİYYAT SİYAHISI

*1. Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı. 27 dekabr 2011*

*2. İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Konvensiya. Avropa Şurası. 4 noyabr 1950*

*3. İnsan hüquqları haqqında Ümumdünya Bəyannaməsi. 10 dekabr 1948*

*4. Uşaq hüquqları haqqında Azərbaycan Respublikasının Qanunu. 19 may 1998*

*5. Uşaq hüquqları Bəyannaməsi. 1959*

*6. Uşaq hüquqları Konvensiyası. BMT. 20 noyabr 1989*

*7. Uşaqların yaşaması, müdafiəsi və inkişafının təmin edilməsi üzrə Ümumdünya Bəyannaməsi. 30 sentyabr 1990*

*8. I və II dərəcə əlilliyi olan şəxslərin, habelə sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqların təhsil haqqı xərclərinin ödənilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. 03 may 2019*

*9. http://mfa.gov.az/content/112*

*10. http://scfwca.gov.az/page/about-the-sommit-tee*

*11. http://www.faktxeber.com/214lk601d601-media-v601-u351aq-ombudsmanlar305-niy601-yarad305lm305r--_h11432.html*

**Sevda Karimova**

## PROBLEMS OF EDUCATION OF CHILDREN'S RIGHTS

### SUMMARY

In each society, the level of democracy and protection of human rights is measured in relation to children, women and prisoners. In this sense, the education of children's rights in higher education institutions preparing pedagogical personnel is a serious strategic, legal and political issue. Teaching of children's rights is a key factor in the protection of children's rights. One of the most important problems of modern time is that teachers working with children do not have a deep knowledge of children's rights. It is necessary for teachers to have systematic legal knowledge about children's rights.

**Keywords:** *children's rights, human rights, child ombudsman, educational problems.*

**Севда Каримова**

## ПРОБЛЕМЫ ПРЕПОДАВАНИЕ ПРАВ ДЕТЕЙ

### РЕЗЮМЕ

В каждом обществе уровень демократии и защиты прав человека измеряется по отношению к детям, женщинам и заключенным. В этом смысле обучение прав детей в высших учебных заведениях, которые занимаются подготовкой педагогических кадров является серьезной стратегической, правовой и политической проблемой. Обучение прав детей является ключевым фактором для защиты прав детей. Одна из наиболее важных проблем современности заключается в том, что учителя, работающие с детьми, не имеют глубоких знаний о правах детей. Преподавателям необходимо иметь систематические юридические знания о правах детей.

**Ключевые слова:** *права ребёнка, права человека, детский омбудсмен, проблемы преподавание.*

UOT 32:002.6

Siyasi elmlər

# AZƏRBAYCAN RESPUBLİKASINDA DÖVLƏT İDARƏÇİLİYİ SİSTEMİNDƏ İSLAHATLAR

**MURTƏZA HƏSƏNOV**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Dövlət Qulluğu və kadr siyasəti" kafedrasının dosenti, siyasi elmlər üzrə fəlsəfə doktoru*
***Azərbaycan***
*E-mail: m_hasanoglu@yahoo.com.tr*

## Giriş

Azərbaycan suverenlik əldə etdikdən, müstəqilliyin bərpasından sonra yeni iqtisadi şəraitdə, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğuna müvafiq keçid dövründə dövlət aparatının, dövlət idarəetmə sisteminin yenidən qurulması və dövlət qulluğunun formalaşması mərhələsinə başlanılır. İslahatların həyata keçirilməsində Azərbaycan Respublikasının Prezidenti, Ümummilli Lider Heydər Əliyevin "Hüquqi islahatlar komissiyasının yaradılması haqqında" Sərəncamının (1996) və "Dövlət idarəetmə sistemində islahatlar aparılması üzrə dövlət komissiyasının yaradılması haqqında" Fərmanının (1998) müstəsna rolu olmuşdur.

Dövlət idarəetməsi anlayışı çoxnövlü və mürəkkəb olduğundan inzibati hüquqda onun vahid tərifi yoxdur. İdarəetməyə geniş mənada təşkilati fəaliyyət və idarə olunan obyektə məqsədyönlü təsir kimi baxılır. Dövlət idarəetməsi əsas və birinci əlaməti inzibati hüquq predmeti kimi onun ümumi xarakterli olmasıdır. Bu əlamətə görə ümumi idarəetmə özündə başqa idarəetmə sahələrindən fərqləndirən təşkilati, funksional və hüquqi aspektləri birləşdirir.

Azərbaycan Respublikasında aparılan hüquqi və iqtisadi islahatlar dövlət idarəetmə sisteminin köklü dəyişikliyinə səbəb olmuşdur. Respublikanın yeni Konstitusiyasında hakimiyyətlərin bölgüsü prinsipinin təsbit olunması ilə (7-ci maddə) dövlət aparatının aparıcı bölməsi olan dövlət idarəetmə orqanları icra hakimiyyəti subyektlərinə dəyişdirilmiş, əmək bölgüsü hakimiyyət bölgüsü ilə əvəz edilmişdir.

Qloballaşma prosesində dövlət idarəçiliyindəki yeni paradiqmalar dövlət qulluğu sisteminin də dəyişməsinə səbəb olmuşdur. Dövlət idarəçiliyində əsas olaraq Yerli özünüidarəetmə, Ortaq İdarəçilik (governance), Yeni Dövlət İdarəçiliyi (New Public Management), Davamlı İnkişaf (Sustainable Development) və digər paradiqmalar ortaya atılmışdır.

Ötən əsrin ikinci yarısından etibarən bütün dünyada, qloballaşma, beynəlxalq rəqabət, informasiya, istehsal və xidmət sahələrindəki texnologiyaların sürətli inkişafı, kapitalistləşmə həvəsi və modasının təsiri nəticəsində inkişaf etmiş olsun və ya inkişaf etməkdə olan olsun bir çox ölkənin iqtisadi, siyasi, sosial, mədəni, texniki və inzibati sistemlərində köklü dəyişiklikləri reallaşdırma yolunda əhəmiyyətli addımlar atılmışdır. Bu dəyişikliklər digər sahələrdə olduğu kimi dövlət idarəçiliyi sahəsində də reallaşdırılması üçün müəyyən paradiqmaları özüylə birlikdə gətirmişdir. Ümümi olaraq dövlət idarəçiliyi sahəsində yeni paradigmaların ortaya çıxarılmasının əsas səbəblərindən biri, mövcud idarəçilik sisteminin işləməsi nəticəsində meydana gələn siyasi, iqtisadi, hüquqi, sosyal, mədəni və b. sahələrdəki böhranları aradan qaldırmaq və kapiatalist sistemin (qlobal kapitalizmin) təkmilləşdirilməsindən ibarətdir. Ancaq bu paradiqmaların mətin altı qayəsinin müəyyən subyektlərin mənafelərinə xidmət edə biləcəyini də göz ardı etməmək lazımdır.

Konstitusiyaya təklif edilən bu və ya digər dəyişikliklər Azərbaycanın inkişafı baxımından mühüm islahatlar kimi dəyərləndirilməlidir. Azərbaycan Respublikası Konstitusiyasında 26 sentyabr 2016-cı il tarixində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə növbəti dəyişikliklər həyata keçirilmişdir. Konstitusiyanın 23 maddəsində dəyişiklik edilmişdir və Konstitusiyanın mətninə 6 maddə əlavə edilmişdir. Azərbaycan Respublikası

Konstitusiyasının 101-ci maddəsinə edilən dəyişikliklər nəticəsində Azərbaycan Respublikası Prezidentinin səlahiyyət müddəti 5 ildən 7 ilədək uzadılmışdır. Azərbaycan Respublikası Prezidentinə növbədənkənar seçkilərini elan etmək səlahiyyəti verilmişdir. Vitse-prezidentlik institunun təsis olunması da dövlət hakimiyyətini daha da möhkəmləndirmişdir. Azərbaycanda dövlətçiliyin güclənməsinə, cəmiyyətin və xalqın yüksək inkişafının təmin edilməsinə yönəlmiş növbəti təşəbbüs kimi bu layihə xüsusi əhəmiyyətə malikdir. Düşünürəm ki, istər parlament seçkiləri, istərsə də prezident seçkiləri ilə əlaqədar yaş həddinin götürülməsi demokratik prinsiplərin gücləndirilməsi deməkdir. Azərbaycan Respublikasında islahatların başlıca istiqamətini cəmiyyət üzvlərinin maraqlarına cavab verən, onların istək və tələblərini dəqiqliklə nəzərə ala bilən dövlət idarəetmə sisteminin yaradılması təşkil edir. Vətəndaşlara göstərilən dövlət xidmətlərinin keyfiyyətinin yüksəldilməsi istiqamətində kompleks tədbirlərin həyata keçirilməsi də demokratik islahatların vacib istiqamətlərindən birini təşkil edir.

### 1. Dövlət idarəetməsində islahatların məqsəd və vəzifələri

Dövlət idarəçiliyində islahatlar dedikdə elə məqsədyönlü dəyişiklik və təkmilləşdirmələrin aparılması nəzərdə tutulur ki, bunun nəticəsində dövlət idarəetməsinin tədricən yeni sistemi qurulmuş olur və ya mövcud sistemdə yeni keyfiyyətlər, yeni əlamətlər meydana çıxır. Ən ümumi şəkildə islahatların məqsədi hakimiyyət institutlarının potensialını inkişaf etdirmək, dövlət idarəetməsini daha da sadələşdirmək və müasir tələblərə uyğunluğunu təmin etmək, dövlət aparatı ilə vətəndaşlar arasında münasibətləri asanlaşdırmaq və dövlət xidmətlərinin keyfiyyətini yüksəltməkdən ibarətdir [17].

İnzibati islahatların məqsədlərini adətən aşağıdakı dörd mexanizmin yenidən qurulması, layihələndirilməsi və sazlanması ilə əlaqələndirirlər:

1.Dövlət xərcləri mexanizmi - bura məcmu xərclərin məhdudlaşdırılması, vəsaitlərin xərclənməsinin prioritetliliyinin müəyyənləşdirilməsi, dövlət vəsaitlərindən istifadənin səmərəliliyinin təmin olunması, dövlət xərclərinin bölüşdürülməsinə, onlara nəzarət edilməsinə və qiymətləndirilməsinə imkan verən muhasibat uçotu və audit mexanizmləri daxildir.

2.Kadrlara və əmək münasibətlərinə rəhbərlik mexanizmləri – bura vəzifələrə təyin olunma və qulluqda irəliləməni müəyyənləşdirən, dövlət məmurlarını ayrı-ayrı hərəkətlərdən çəkindirən, dövlət qulluqçularını ayrı-ayrı hərəkətlərə stimullaşdıran, ştatda olan əməkdaşların necə və nə vaxt işə təyin olunmasını müəyyən edən mexanizmlər aid edilir.

3.Strukturların təşkili mexanizmləri – bura hesabat sistemləri və hesabatlılıq mexanizmləri, onların cavabdehlik sferalarının müəyyənləşdirilməsi mexanizmləri daxildir.

4.Dövlət idarəetmə sisteminin rolu və məsuliyyəti mexanizmləri – bura dövlət hakimiyyətinin əsas vəzifələrinin yerinə yetirilməsi üzrə məsuliyyətin mərkəzi hökumət və aşağı idarəetmə səviyyələri arasında bölüşdürülməsi qaydaları, dövlətin funksiyalarının bir hissəsinin qeyri-hökumət təşkilatlarına ötürülməsi mexanizmləri daxil edilir.

Bu gün dünya dövlətlərinin bir çoxunda idarəetmənin yeni metod və formalarının axtarışı davam edir. Bu prosesdə ən başlıcası islahatların prinsiplərini və son nəticələrini müəyyənləşdirməkdən ibarətdir.Bu baxımdan dövlət idarəetmə islahatları aşağıdakiləri təmin etməlidir:

1.Qanunvericilik sahəsində islahatlar kompleks şəkildə həyata keçirilməli və hakimiyyətin bölgüsü prinsipinin reallaşdırılmasını,hakimiyyət qollarının razılaşdırılmış qarşılıqlı fəaliyyətini, insan və vətəndaşların hüquq və azadlıqlarının qorunmasını təmin etməlidir.

2.İslahatlar dövlət idarəetməsinin səmərəliliyini və şəffaflığını təmin etməlidir.

3.İslahatlar çərçivəsində hakimiyyətin qeyri-mərkəzləşdirilməsi istiqamətində məqsədyönlü siyasət həyata keçirilməlidir ki, bu da dövlət resurslarından səmərəli və rasional istifadə üçün imkanlar yaratmalıdır.

4.İslahatların gedişində dövlət orqanları sistemi təkmilləşdirilməli, peşəkar dövlət qulluğu sistemi inkişaf etdirilməlidir.

5.İslahatlar dövlət idarəetməsinin səmərəliliyini

artırmaqla yanaşı ölkənin siyasi, sosial və iqtisadi inkişafının mühüm amilləri olan demokratik institutların hərtərəfli inkişafını təmin etməlidir.

6.İslahatlar davamlı iqtisadi artıma və səmərəli bazar iqtisadiyyatının formalaşdırılmasına şərait yaratmalıdır.

Dövlət idarəetmə islahatlarının vəzifələri ilə iki əsas yanaşma mövcuddur ki, onların arasında fərq əsasən şərtidir və çox vaxt bir-birini tamamlayır. Bunlardan biri funksiyaları və iş metodlarını təkmilləşdirmək yolu ilə mövcud çatışmazlıqların tədricən aradan qaldırılmasından, digəri isə cəmiyyətin gələcək təlabatlarını nəzərə almaqla strateji məqsədlərə nail olmaq üçün dövlət idarəetməsinin inkişaf strategiyasının işlənib hazırlanmasından ibarətdir. Sonuncu halda dövlətin və cəmiyyətin inkişafının müasir meyllərinin təhlil olunması, dünya təcrübəsinin ümumiləşdirilməsi, müasir dövrdə dövlət idarəetməsinin parametrlərinin müəyyənləşdirilməsi tələb olunur [12].

## 2. Dövlət İdarəçiliyində İslahatlar

Dövlət idarəçiliyinin həyata keçirdiyi siyasət ölkədə bərqərar olmuş milli ideologiyaya söykənməlidir. Siyasət dövlətin idarə olunması, milli əhəmiyyətli işlərin aparılması sənətidir. Milli ideologiyadan milli ideyalar yaranmalı və cəmiyyətin inkişaf səviyyəsindən asılı olaraq dəyişməlidir. Dövlət idarəçiliyi siyasəti milli ideyanı vətəndaşlara çatdırmalı və ona nail olmaq üçün yollar göstərməlidir [15].

Bütün idarəetmə formaları içərisində dövlət idarəçiliyi xüsusi yer tutur. Dövlət idarəçiliyi dedikdə dövlətin öz hakimiyyət qüvvəsinə əsaslanaraq insanların ictimai həyat fəaliyyətinə onu qaydaya salmaq, qoruyub saxlamaq və ya yenidən qurmaq məqsədilə praktiki, təşkiledici və tənzimləyici qarşılıqlı təsiri nəzərdə tutulur. Əlbəttə, mürəkkəb ictimai hadisələrə verilən təriflər həmişə şərti və nisbətən məhdud xarakter daşıyır, hansısa vacib bir xüsusiyyət, qarşılıqlı əlaqə nəzərə alınmır. Burada dövlət idarəçiliyinə verilmiş .tərif də belədir. Lakin dövlət idarəçiliyinin belə müəyyən edilməsinin əsas müsbət cəhəti ondadır ki, dövlət idarəçiliyinin tamlığını, sistemliliyini. geniş əhatə dairəsini əks etdirən üç cəhət nəzərə alınıb [12]:

- Dövlətin sistemli təşkil olunmuş idarəetmə subyekti olması;
- İnsanlann ictimai həyat fəaliyyətinin idarəetmə təsirinə məruz qalması və bu təsiri qarşılıqlı surətdə qəbul etməsi;
- Qarşılıqlı idarəetmə təsirinin özünün dövlətlə cəmiyyət arasında aktiv qarşılıqlı əlaqə yaratması.

Dövlət idarəçilik sisteminin müəyyən edilməsində bir çox vacib amilləri nəzərə almaq lazımdır. Nəzəriyyədə fərz olunur ki, dövlət idarəçiliyi həqiqətən sistem təşkil edir (digər tərəfdən dövlət quruculuğu prosesində məhz məqsədəmüvafiq bir sistem yaradılmalıdır) və bu sistem. sosial sistemlər sinfinə aiddir. Sosial sistem dedikdə, elementləri sosial subyekt sayılan sistem nəzərdə tutulur. Sosial sistemin digər mühüm cəhəti məqsədyönlü olmasıdır, yəni belə sistemin bir və ya bir neçə fəaliyyət məqsədləri vardır. Nəhayət, sistemin məqsədə çatması üçün fəaliyyəti idarə olumnahdır. Beləliklə, dövlət idarəçilik sistemi məqsədyönlü və idarə olunan sosial sistem növüdür [12].

Vətəndaşlara şəffaf, operativ xidmətlərin göstərilməsini, xidmətlərin daha əlçatan və keyfiyyətli olmasını təmin etmək üçün dövlət və bələdiyyə idarəçiliyində islahatlar həyata keçirilərək cəmiyyətin tələbatına uyğun dövlət və bələdiyyə idarəçilik sistemi formalaşdırılır.

Azərbaycan Respublikasında dövlət qulluğu qədim köklərə malikdir. Əsrlər boyu torpaqlarımızda müxtəlif dövlətlər, hər bir dövlətin isə öz idarəçilik ənənələri olub. İlk dəfə kadrlar sistemli şəkildə Azərbaycan Xalq Cümhuriyyətində hazırlanıb. Azərbaycan Xalq Cümhuriyyətinin erkən süqutu bu prosesin inkişafını ləngitməyib. Sovet dövründə isə dövlət qulluğu sistemi ağır mərhələlərdən keçib [8].

Azərbaycan XX əsrin sonunda öz müstəqilliyini yenidən bərpa etməklə dünya dövlətləri sırasında özünə layiq yer tutdu. Yeni yaranmış dövlətin quruculuq prinsiplərinin müəyyən edilməsi zəruriliyi meydana gəldi. 1995-ci ildə ümumxalq referendumunda ölkə Prezidenti Heydər Əliyev zəkasının məhsulu olan Azərbaycan Respublikasının Konstitusiyası qəbul edildi və beləliklə ölkənin gələcək inkişafı üçün müasir dünya tələblərinə cavab verən demokratik, sivil, hüquqi dövlətin əsası qoyuldu [16].

Milli qanunvericilikdə "dövlət qulluğu" termini ilk dəfə olaraq 1995-ci il tarixdə ümumxalq səsverməsi ilə qəbul olunmuş Konstitusiyada hüquqi cəhətdən təsbit olundu. Azərbaycan Respublikasının Konstitusiyası ölkədə hüquqi tənzımləmənin başlıca prinsiplərini formalaşdıran və təsbit edən bütün respublika qanunvericiliyinin əsası olan, ali hüquqi qüvvəyə malik aktdir. Hər bir dövlətin qanunvericilik sıstemi ilk növbədə onun konstitusiyasına əsaslanır. Konstitusiya ümumən məcburi əhəmiyyətə malik olub, başqa normativ aktlar üzərində üstün hüquqi qüvvəyə və müstəqil təsir qüvvəsinə malikdir. Konstitusiya bir növ vətəndaşla dövlət arasında bağlanan və onun fəaliyyətini nizamlayan ictimai müqavilənin mətni kimi çıxış edir. Onun normaları heç bir qanunla dəyişdirilə bilməz. Ədəbiyyatda göstərildiyi kimi, Konstitusiya ictimai münasibətlərin geniş dairəsini, bunlardan bütün cəmiyyət üzvlərinin, bütün vətəndaşların köklü, maraqlarını əhatə edən daha vaciblərini tənzimləyir.

Azərbaycan Respublikasının Konstitusiyası müasir sivil dünyada qəbul edilmiş normaya uyğun olaraq hakimiyyətin üç hissəyə bölünməsini təsdiqləməklə dövlət idarəçiliyinin ümumi prinsiplərini də müəyyən etdi. Beləliklə, Azərbaycanda dövlət idarəçiliyinin və dövlət qulluğu sisteminin yaradılmasına start verildi. 1996-cı ildə respublika Prezidentinin sərəncamı ilə təşkil edilmiş Hüquqi İslahat Komissiyasının səyləri ilə müstəqil dövlətin öz qanunvericilik bazasının yaradılması prosesi başlandı, komissiya üzvlərinin qarşısında qoyulmuş başlıca məqsəd - Azərbaycanda Avropa və dünya ölkələrinin hüquq sisteminə tam uyğun olan sisteminin yaradılması məqsədi qoyuldu. Zaman göstərdi ki, Hüquqi İslahat Komissiyası və onun bütün üzvləri həqiqətən də bu məqsədə nail olmaq üçün yüksək səylə işləmişlər [16].

Dövlət qulluğu institutunun islahatlarının məqsədi əslində peşəkar, yüksək ixtisaslı, stabil və nüfuzlu dövlət qulluğunun yaradılmasından ibarətdir. Azərbaycanda dövlət institutu kimi dövlət qulluğunun əsas məqsəd və vəzifələri aşağıdakılardan ibarətdir [17]:

- konstitusiyalı quruluşun qorunması, açıq vətəndaş cəmiyyətinin qurulması üçün şəraitin yaradılması, insan və vətəndaş haqlarının və azadlıqlarının müdafiəsi;
- cəmiyyətə və dövlət orqanlarmın siyasi rəhbərliyinə peşəkar idarəetmə xidmətləri göstərmək yolu ilə dövlət orqanlarının səlahiyyətlərinə uyğun səmərəli fəaliyyətin təmin edilməsi.

29 dekabr 1998-ci ildə ümumilli lider Heydər Əliyevin fərmanı ilə Azərbaycan Respublikasında dövlət sistemində islahatların aparılması üzrə Dövlət Komissiyası yaradıldı. Komissiyanın yaradılması dövlət idarəetməsində səmərəliliyin artırılması, cəmiyyətin demokratikləşməsi və bazar münasibətlərinin təkmilləşdirilməsi üçün mühim addım idi. Bu fərmandan başlayaraq bir çox fərman və sərəncamlar imzalanmış, eləcə də bir sıra qanunlar qəbul olmuşdır [7].

Qəbul edilmiş mühüm normativ-hüquqi aktlardan biri də 21 iyul 2000-ci il tarixdə qəbul edilmiş "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanunudur. Bu mühüm dövlət sənədi yeni əsrdə Azərbaycanın idarə olunmasını, onun müstəqilliyinin möhkəmləndirilməsini, insanın, sıravi vətəndaşın rifahının yaxşılaşdırılmasını təmin edən kadr siyasətinin həyata keçirilməsinə, əhalinin geniş bir təbəqəsini təşkil edən dövlət qulluqçularının cəmiyyətdəki yerinin, onların hüquq və vəzifələrinin dəqiq müəyyənləşdirilməsinə xidmət göstərir və ümumilikdə dövlət qulluğu ilə bağlı bütün məsələləri tənzimləyir. Bu qanun Azərbaycanın dövlətçiliyi tarixində ilk dəfə olaraq bilavasitə dövlət qulluğu və dövlət qulluqçusu məfhumlarının mahiyyətini açıqlamışdır. Qanunda xüsusilə dövlət qulluğu sahəsində dövlətlə məmurlar arasında yaranan münasibətlər və dövlət qulluqçularının hüquqi vəziyyəti ilə bağlı bir çox məsələlər tənzimlənir [16].

Dövlət idarəetmə sisteminin islahatları konsepsiyasının layihəsində peşəkar dövlət qulluğu institutunun formalaşdırılması ən vacib məsələlərdən biri kimi qarşıya qoyulmuşdu. Bu məqsədlə "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanunu işlənib hazırlanaraq 21 iyul 2000-ci il tarixdə qəbul olunmuş və 2001-ci ilin sentyabr ayından qüvvəyə minmişdir. Azərbaycan Respublikasının 2001-ci il 13 fevral, 2002-ci il 2 iyul və 3 dekabr 2002-ci il, 24 iyun 2009-cu il, 20 aprel 2012-ci il, 11 aprel 2016-cı il

tarixli Qanunları ilə ona dəyişikliklər edilmişdir [17].

2002-ci il 29 mart tarixli Qanunla Azərbaycan Respublikasının "Dövlət Qulluğunu İdarəetmə Şurası haqqında" Əsasnamə təsdiq olundu. Vahid dövlət kadr siyasətinin formalaşmasında iştirak, dövlət hakimiyyəti orqanlarında dövlət qulluğunun vəziyyətinin və səmərəliliyinin təhlil edilməsi, dövlət qulluğunun kadr təminatının proqnozlaşdırılması və palnlaşdırılması işinin həyata keçirilməsi və s. Şuranın funksiyalarına aid edildi [9].

Dövlət qulluğu haqqında qanunun tətbiqinə nəzarəti, dövlət qulluğunun normativ-metodiki təminatını, dövlət qulluqçuları kateqoriyasına aid edilən şəxslərin siyahısını müəyyən etmək, bütövlükdə Azərbaycanda dövlət qulluğu ilə bağlı problemlərin həllini təmin etmək üçün 18 nəfər üzvdən ibarət Dövlət Qulluğunu İdarəetmə Şurası təşkil olunmuş və fəaliyyətə başlamışdır. Şuranın tərkibi bərabər sayda (hər biri altı nəfər təyin etməklə) ölkə Prezidenti, Milli Məclis və Konstitusiya Məhkəməsi tərəfindən müəyyən edilmişdir. Belə bir müstəqil orqanın yaradılması dövlət qulluğuna qəbul, qulluqda irəliləmə, dövlət qulluqçularının attestasiyası, onların maddi təminat və nizam-intizam məsələlərinin həlli zamanı istifadə olunan müxtəlif prosedurаların səmərəliliyini, şəffaflığını və obyektivliyini təmin etməkdə çox mühüm rol oynamalıdır [17].

2002-ci il avqustun 24-ü müstəqil Azərbaycanın tarixinə mühüm siyasi hadisə ilə daxil oldu. Həmin gün respublika vətəndaşları Prezident Heydər Əliyeb tərəfindən təklif olunmuş " Azərbaycan Respublikasının Kontitusiyasına dəyişikliklər edilməsi haqqında" aktın layihəsinə ümumxalq səsverməsində fəal iştirak etdilər. Referenduma çıxarılan məsələlərin son dərəcə aktual olduğuna və Azərbaycanın dövlət quruculuğunun hüquqi əsasını təkmilləşdirilməsinə və möhkəmləndirilməsinə yönəldiyinə əmin olan Azərbaycan vətəndaşları vaxtında irəli sürülmüş bu təşəbbüsə öz müsbət münasibələtlərini nümayiş etdirərək, dövlətin siyasi xəttini müdafiə etdilər. Referendum müstəqil Azərbaycanın inkişafı yolunda, xüsusən insan hüquqlarının müdafiəsi və demokratik proseslərin genişlənməsində yeni mərhələnin təməlini qoydu [14].

Heydər Əliyevin rəhbərliyi altında cəmiyyət həyatının bütün sahələrində həyata keçirilən islahatlar bunu aydın göstərdi. İstər iqtisadiyyatda, istər dövlət idarəçilik sistemindəki islahatlarımız və ən başlıcası, milli-mənəvi dəyərlərimizə Heydər Əliyev tərəfindən olan qayğı - bunların hamısı son illərdə əldə etdiyimiz böyük nailiyyətlər oldu. Məhz bunların sayəsində xalqımızın milli şüuru xeyli yüksəldi, müstəqilliyə olan inamı möhkəmləndi. Xalqımız müstəqil yaşamağı, bazar iqtisadiyyatı şəraitində yaşamağı öyrəndi. Biz bu nailiyyətləri daim təbliğ etməli, gənclərin şüuruna, qəlbinə çatdırmağa çalışmalıyıq [12].

Heydər Əliyevin milli inkişaf siyasətində ədalətli cəmiyyət və sosialyönümlü dövlət, ölkə vətəndaşlarının sosial-iqtisadi və mənəvi tələblərinin dolğun təminatı, sosial rifahının yaxşılaşdırılması, mövcud maddi resursların ölkə daxilində insan potensialının inkişafına yönəldilməsi prinsipi mühüm yer tuturdu [6].

Müasir dövrdə strateji inkişaf xətti kimi demokratik cəmiyyət quruculuğu və bazar iqtisadiyyatı yolunu seçən Azərbaycan Respublikası dünya təcrübəsində uğurla sınaqdan keçmiş ümumbəşəri dəyərlərdən faydalanmağa çalışır, özünün geniş iqtisadi potensialını hərəkətə gətirmək məqsədilə inkişaf etmiş ölkələrin qabaqcıl texnologiyasını və maliyyə imkanlarını cəlb edir, onlarla qarşılıqlı faydalı əməkdaşlıq əlaqələrini inkişaf etdirir [6].

2011-ci ilin may ayının 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Dövlət orqanlarında elektron xidmətlər göstərilməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında" Sərəncamına əsasən dövlət orqanlarında elektron xidmətlərin göstərilməsinə start verilib və qısa zaman kəsiyində bu xidmətlərin göstərilməsi geniş vüsət almış və elektron xidmətlərin istifadəsi dövlət orqanlarının işinin effektivliyinin və şəffaflığın yüksəldilməsi ilə yanaşı, vətəndaşların da məmnunluğunu da artırmışdır [8].

Dövlət orqanlarının fəaliyyətində şəffaflığın artırılması, vətəndaşlara göstərilən xidmətlərin daha keyfiyyətli, rahat, yeni üslubda və müasir innovasiyaları tətbiq etməklə həyata keçirilməsi dövlət qulluğunun qarşısında duran vəzifələrdən biridir. Bu səbəbdən də idarəetmədə aparılan islahatlar prosesində dövlət orqanlarınıri fəaliyyətində

şəffaflığın artırılması daim diqqət mərkəzindədir.

Dövlət orqanlarının fəaliyyətində vətəndaşlara göstərilən xidmətlərin keyfiyyət səviyyəsinin aşağı olması, dövlət xidmətlərinin göstərilməsi zamanı standartların pozulması halları fiziki və hüquqi şəxslərin dövlət orqanları və onların vəzifəli şəxsləri tərəfindən göstərilən xidmətlərdən narazı qalmasına, vətəndaş məmnunluğunun təmin olunmamasma və nəticədə dövlət qulluğunun nüfuzunun zədələnməsinə səbəb ola bilən mühüm təzahürlərdəndir.

Vətəndaşlara xidmətlərin göstərilməsi proseşində bürokratik süründürməçilik, süni inzibati maneələrin yaradılması dövlət qulluğunun nüfuzunu zədələməklə yanaşı, "vətəndaş-dövlət qulluqçusu münasibətlərində inzibati mübahisələrə də yol aça bilər.

Dövlət idarəetməsində aparılan ardıcıl islahatlar nəticəsində ölkədə "vətəndaşa, insan faktoruna yönümlü" dövlət qulluğu modeli formalaşdırılır. Qurulan yeni modeldə "dövlət qulluğu" anlayışı "cəmiyyətə, xalqa qulluq" mənasını ifadə edir. Bu səbəbdən də islahatlar prosesində əhaliyə dövlət xidmətlərinin istehlakçısı kimi, onun məmnunluq səviyyəsinə isə dövlət tərəfindən göstərilən xidmətlərin, eləcə də dövlət qulluqçularının fəaliyyətinin qiymətləndirilməsi meyarı kimi yanaşılır.

Hazırda dövlət qulluğunun təkmilləşdirilməsi və islahatı dövlət idarəetməsinin modernizasiyası prosesi ilə qarşılıqlı əlaqədə aparılır. Respublikamızda bu yönümdə həyata keçirilən mühüm tədbirlərdən biri Azərbaycan Respublikası Prezidentinin 13 iyul 2012-ci il tarixli Fərmanı ilə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin yaradılmasıdır. Agentlik dövlət orqanlarının fəaliyyətində şəffaflığın artırılmasının, vətəndaşlara göstərilən xidmətlərin daha keyfiyyətli, rahat, yeni üslubda və müasir innovasiyaları tətbiq etməklə həyata keçirilməsirin, vətəndaşlara münasibətdə etik qaydalara, nəzakətli davranışa əməl edilməsinin, vətəndaş məmnunluğunun təmin olunmasının zərruriliyi nəzərə alınaraq yaradılmışdır [9].

Agentliyin yaradılması vətəndaş - dövlət qulluqçusu" münasibətlərinin səmərəli inkişafi, vətəndaşlara dövlət xidmətlərinin asan şəkildə müəssər olması, dövlət qulluğürun müsbət imicinin artırılması üçün tədricən dövlət orqanlarında vəzifəli şəxslərdə yeni etik xüsusiyyərlərin, təşkilati mədəniyyətin fəaliyyət üslubunun formalaşdırılması yönümündə həyata keçirilən mühüm tədbirdir. Bir neçə dövlət orqanının səlahiyyətinə aid olan xidmətləri bir orqanda vətəndaşlara təqdim edən "Asan xidmət"in yaradılması ilə dövlət idarəetmə sistemində yeni prinsipin - "rəqabət" prinsipinin tətbiqinə başlanılmışdır. İdarəetmədə rəqabət prinsipi vətəndaş məmnunluğunun təmin olunması, korrupsiyanın qarşısının alınması, dövlət orqanlarının fəaliyyətində səmərənin və çevikliyin artırılması üçün dövlət orqanları arasında sağlam rəqabətin yaradılmasını nəzərdə tutur.

Dövlət Agentliyi fəaliyyət istiqamətlərinə uyğun olaraq, Azərbaycan Respublikasında "ASAN xidmət" və "ASAN Kommunal" mərkəzlərinin vahid şəkildə idarə edilməsini, xidmət mərkəzlərində fəaliyyət göstərən mərkəzi və ya yerli icra hakimiyyəti orqanlarının, büdcə təşkilatlarının, dövlətə məxsus olan hüquqi şəxslərin, o cümlədən dövlət adından yaradılan publik hüquqi şəxslərin əməkdaşlarının fəaliyyətinin əlaqələndirilməsini, nəzarət və qiymətləndirmənin aparılmasını, dövlət qurumlarının informasiya bazalarının qarşılıqlı inteqrasiyasını, elektron xidmətlərin təşkili prosesinin sürətləndirilməsini, bu sahədə idarəetmə sisteminin təkmilləşdirilməsini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır [8].

İslahatlar dövlət idarəetməsinin ənənəvi funksiyalarına proqnozlaşdırma, strateji təhlil, qiymətləndirmə, marketinq, insan resurslarının idarə olunması kimi yeni funksiyaların əlavə olunmasına, innovasiyalardan və müasir texnologiyalardan fəal istifadənin təmininə də səbəb olmuşdur. Dövlət orqanlarının fəaliyyətinin müasir standartlara uyğun təkmilləşdirilməsi üçün 2007-2011-ci illərdə "Şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə üzrə Milli Strategiya" icra edilmiş, Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planında dövlət orqanlarının fəaliyyətində şəffaflığın artırılması, hesabatlılığın, yeni texnologiyaların tətbiqi əsas prinsiplər kimi təsbit olunmuşdur. Dövlət qulluğuna şəffaf seçim və irəliləyiş qaydası fəaliyyət göstərir, ehtiyat kadrların

formalaşdırılmasında, əlavə peşə təhsilinin təşkilində və ümumilikdə dövlət orqanlarının fəaliyyətində, xidmətlərin təqdim olunmasında şəffaflığın təmin olunması zəruri əhəmiyyət kəsb edir Mütərəqqi cəhətlərdən birini də idarəetmənin modernizasiyasının onun bütün sahələrinin təkmilləşdirilməsi ilə paralel şəkildə aparılması təşkil edir [10].

"Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi publik hüquqi şəxsin yaradılması haqqında" Azərbaycan Pespublikasi Prezidentinin 11 aprel 2016-ci il tarixli fərmanı ilə Azərbaycan Respublikasında dövlət qulluğu üçün kadrların müsabiqə əsasında seçilməsini, ümumi təhsil pilləsində təhsilalanların yekun qiymətləndirilməsini (attestasiyasını), orta ixtisas təhsili müəssisələrinə, ali təhsil müəssisələrində ali təhsilin bakalavriat və magistratura (tibb təhsili üzrə əsas təhsil və rezidentura) səviyyələrinə, Azərbaycan Milli Elmlər Akademiyasında magistratura səviyyəsinə mərkəzləşdirilmiş qəbul imtahanlarının keçirilməsini təşkil etmək məqsədi ilə Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi publik hüquqi şəxs yaradılmışdır [5].

Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi dövlət qeydiyyatına alındığı andan Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya və Azərbaycan Respublikasının Tələbə Qəbulu üzrə Dövlət Komissiyası ləğv edilmiş və onların istifadəsində olan dövlət əmlakı Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinin balansına verilmişdir [5].

Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi dövlət qulluğu sahəsində fəaliyyəti, ümumi təhsil pilləsində təhsilalanların yekun qiymətləndirilməsini (attestasiyasını) həyata keçirən, dövlət qulluğu üçün kadrların seçilməsi, təşkilati-hüquqi və mülkiyyət formasından asılı olmayaraq ali və orta ixtisas təhsili müəssisələrinə, bakalavriat səviyyəsində hazırlıq qruplarına tələbə qəbulunun həyata keçirilməsi məqsədi ilə, habelə müqavilə əsasında dövlət orqanları, hüquqi və fiziki şəxslər üçün imtahanlar təşkil edən publik hüquqi şəxsdir [5].

Mərkəzin əsas fəaliyyət istiqamətlərinə aşağıdakıları aid edə bilərik [19]:

- Dövlət qulluğu sahəsində dövlət siyasətinin formalaşdırılmasında iştirak edilməsi və bu siyasətin həyata keçirilməsinin təmin edilməsi;
- Dövlət qulluğuna qəbul və dövlət qulluğunda fəaliyyətin davam etdirilməsi üçün test imtahanından keçən şəxsə sertifikatın verilməsi;
- Dövlət qulluğu üzrə verilmiş sertifikatların uçotunun aparılması;
- Dövlət orqanının yaratdığı müsahibə komissiyasının tərkibinə nümayəndələrin təqdim edilməsi;
- Dövlət qulluğuna dair qanunvericiliyin icra vəziyyətini öyrənilmsi və bu barədə hesabatın hazırlanması;
- Dövlət qulluqçuları tərəfindən etik davranış qaydalarına əməl edilməsi vəziyyətinin öyrənilməsi və bu barədə məlumatlarn ümumiləşdirilməsi;
- Dövlət qulluqçularının reyestrinin aparılması və dövlət qulluqçularının xidməti fəaliyyətinin qiymətləndirilməsi barədə məlumatların həmin reyestrə daxil edilməsinin təmin edilməsi;
- Müvafiq sahədə kadr hazırlığının təmin edilməsi, həmçinin mütəxəssislərin əlavə təhsili üçün tədbirlərin görülməsi;
- Peşəkar mühasib sertifikatının verilməsi məqsədi ilə imtahanların keçirilməsi və imtahandan müvəffəqiyyətlə keçən şəxslərəsertifikatların verilməsi;
- Abituriyentlərin biliyinin qiymətləndirilməsinin həyata keçirilməsi və s.

Dövlət qulluğuna qəbul müsabiqə əsasında həyata keçirilir. Müsabiqə test imtahanından və müsahibədən ibarətdir. Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi (bundan sonra - Mərkəz) dövlət qulluğuna qəbul prosesində şəffaflığı və obyektivliyi təmin etmək məqsədilə inzibati vəzifələrin təsnifat toplusuna uyğun olaraq dövlət qulluğuna qəbul üçün ayda bir dəfədən az olmayaraq test imtahanları təşkil edir.

Dövlət qulluğuna qəbulun test imtahanı mərhələsi Mərkəz tərəfindən inzibati vəzifələrin təsnifat toplusuna uyğun olaraq, birinci-beşinci kateqoriya dövlət orqanlarında (ali kateqoriya dövlət orqanları və yerli icra hakimiyyəti orqanları, yerli icra hakimiyyəti orqanlarının yanındakı orqanlar və inzibati ərazi dairələri üzrə nümayəndəlikləri istisna olmaqla) inzibati vəzifələrin birinci-yeddinci təsnifatına uyğun olan vəzifələr üzrə həyata keçirilir. Test imtahanı

inzibati dövlət qulluğu vəzifələrinin növləri üzrə aşağıdakı qruplara uyğun keçirilir [4]:

1. A növü - inzibati rəhbər (idarəetmə) vəzifələr üzrə:

- AA qrupu;
- AB qrupu;
- AC qrupu.

2. B növü - inzibati icraçı vəzifələr üzrə:

- BA qrupu;
- BB qrupu.

Test imtahanı mərhələsində namizədlərə qapalı tipli test tapşırıqları, açıq və esse tipli tapşırıqlar təqdim olunur. Test tapşırıqlarının məzmunu, növü, ümumi sayı, sahələr və çətinlik dərəcəsi vəzifə altqruplarına uyğun olaraq müxtəlif olur və Mərkəz tərəfindən müəyyən edilir. Test imtahanı proqramları Mərkəzin internet portalında (bundan sonra - portal) yerləşdirilir. Test imtahanı Mərkəzin qərarı ilə kağız daşıyıcılarda və ya kompyuter vasitəsilə aparılır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2018-ci il 9 avqust tarixində imzaladığı "Əhalinin sosial müdafiəsi sahəsində əlavə tədbirlər haqqında" Sərəncamına əsasən DOST Agentliyi yaradıldı. DOST Agentliyi Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi adlanır ki, əhalinin məşğulluğu, əmək, sosial müdafiə və təminat sahələrində vətəndaşlara göstərilən xidmətlərin təkmilləşdirilməsi məqsədi ilə DOST Agentliyinin fəaliyyətinin təşkili, "DOST" mərkəzlərinin yaradılması Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2018-ci il 9 avqust tarixində imzaladığı Sərəncamında mühüm yer tutur.

"Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin fəaliyyətinin təmin edilməsi" haqqında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2018-ci il 10 dekabr tarixli 387 nömrəli Fərmanı ilə "Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin Nizannaməsi" və "Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin strukturu" təsdiq edildi [18].

DOST Agentliyinin idarəetmə orqanları Müşahidə Şurası və İdarə heyətidir. DOST Agentliyinin Müşahidə Şurası Agentliyə ümumi rəhbərliyi və nəzarəti həyata keçirir. Müşahidə Şurası, onun sədri də daxil olmaqla 7 üzvdən ibarətdir. Bunlar aşağıdakılardır [18]:

- Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Naziri;
- Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisi;
- Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri;
- Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Dövlət Agentliyinin İdarə Heyətinin sədri;
- Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri;
- Azərbaycan Respublikası Sahibkarlar Milli Konfederasiyasının Prezidenti;
- Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin bir nümayəndəsi.

### 3. Yerli özünüidarəetmə sahəsində islahatlar

Hakimiyyət orqanlarının idarəetmə obyektinə yaxınlaşdırılması yerli xüsusiyyətləri maksimum nəzərə almaqla optimal idarəetmə qərarları qəbul etməyə və bununla da sosial və iqtisadi sahədə vəziyyətə səmərəli təsir göstərməyə imkan verir. İnkişaf etmiş ölkələrin tarixi təcrübəsi göstərir ki, ölkənin dayanıqlı inkişafına nail olmaq üçün cəmiyyətin, iqtisadiyyatın sistemli şəkildə dəyişdirilməsinin mürəkkəb məsələləri yalnız hakimiyyətin bütün səviyyələrində səmərəli idarəetmə sisteminin mövcud olduğu şəraitdə mümkün ola bilər.

1970-ci illərin sonundan etibarən, yerli özünüidarəetmələrin inzibati və maliyyə muxtariyyətlərinin artırılması və yerliləşmə meylləri yenidən ön plana keçmişdi. Qatı mərkəziyyətçi xüsusiyyətlərini 1980-ci illərə qədər qoruyan Fransada belə, yerliləşmə səyləri bu tarixdən etibarən genişlənmişdir. Dünyada desantralizasiya düşüncəsi və subsidiyaritə (xidmətdə Yerlilik) prinsipi çərçivəsində yerliləşmə siyasəti geniş bir şəkildə hökumət proqramlarına girmiş və tətbiq olunmağa başlanmışdır [3].

Yerli idarəetmə, bu gün bir çox ölkədə ümumi idarəetmə və konstitusiya nizamının bir parçası olmaqla birlikdə məhəlli səviyyədə şəhər, ilçə, qəsəbə və kənd kimi müəyyən bir bölgənin rəhbərliyini, təmsilini və xidmətetməni reallaşdıran muxtar vahidlərdir [1].

Yerli idarəetmə anlayışı, yerli səviyyədəki demokratik həyatı və yerli idarəetmə praktikasını ifadə edən bir məzmunla və yerli demokratiyanın işləyişini xarakterizə edən bir mənada istifadə edilmişdir. Bu anlayışlar artıq yerli hökumət ədəbiyyatlarında öz yerlərini tapmışdır. Yerli demokratiya anlayışı əslində Kamal Görmezin də ifadə etdiyi kimi, "demokratik dəyərlərin yerliözünüidarəetmə üçün etibarlı olmasından" başqa bir şey deyil. Bu çərçivədə, yerli rəhbərliklərin, fəaliyyət, demokratiya və qoşulma kimi bir çox dəyərlə birlikdə nəzərdən keçirilməsi və ölkələrin demokratikləşməsindəki müzakirəsiz funksiyaları, yerli demokratiya olaraq adlandırılmalarını haqlı etmişdir [11].

Azərbaycanda bələdiyyələrin yaranması, formalaşması və hüquqi bazası Ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Bələdiyyələrin hüquqi statusunun qanun çərçivəsində müəyyənləşdirilməsi ilk dəfə olaraq məhz Ümummilli lider Heydər Əliyevin fəaliyyəti dövründə – 12 noyabr 1995-ci ildə qəbul edilən Azərbaycan Respublikasının Konstitusiyasında öz əksini tapdı. Dövlətçilik tarixinə mühüm hadisə kimi daxil olan bu tarixi gündən sonra, 1999-cu ilin dekabrında ilk bələdiyyə seçkilərinin keçirilməsi ilə bu institut formalaşmağa başladı - bələdiyyələrin hüquqi bazasını formalaşdıran normativ aktlar qəbul edilməyə başladı. Bu aktlarda bələdiyyələrin bir qurum olaraq hüquqi statuslarının müəyyən olunması, onların fəaliyyətinin əsasları, statusu və digər məqamlar öz əksini tapdı.

Respublikada yerli özünüidarəetmə sisteminin hüquqi bazasının yaradılması Milli Məclisin işinin tərkib hissəsi olmuş, bələdiyyələrin fəaliyyətinin hüquqi tənzimlənməsini əhatə edən mühüm qanunlar işlənib hazırlanmış və qəbul edilmişdir. Bu qanunlar, hüquqi-normativ aktlar, əsasnamələr bələdiyyə həyatının bütün sahələrini əhatə edir [13].

Azərbaycan Respublikası Konstitusiyasının 12 noyabr 1995-ci il tarixdə ümumxalq səsverməsi yolu ilə qəbul olunması ilə Dövlət və bələdiyyə idarəçiliyində islahatların həyata keçirilməsinin əsasını qoydu. Azərbaycan Respublikası Konstitusiyasında yerli özünüidarəetmə orqanları olan bələdiyyələrin yaradılması, onların fəaliyyət istiqamətləri ilə bağlı bir sıra məsələlər öz əksini tapdı. Azərbaycanda yerli idarəetmə orqanları olan bələdiyyələrin fəaliyət istiqamətləri, onların səmərəli fəaliyyətinin təmin edilməsi ilə məqsədi ilə Bələdiyyələr haqqında Azərbaycan Respublikasının Qanunları qəbul edildi.

2 iyul 1999-cu ildə "Bələdiyyələrə seçkilərin qaydaları haqqında" Azərbaycan Respublikasinin Qanunu qəbul edildi. Qanuna əsasən Azərbaycan Respublikaında yerli özünüidarəni həyata keçirən bələdiyyələri Azərbaycan Respublikasının vətəndaşları çoxmandatlı seçki əraziləri üzrə ümumi, bərabər, birbaşa seçki hüququ əsasında sərbəst, şəxsi və gizli səsvermə yolu ilə seçirlər. Bu qanunla Azırbaycanda Bələdiyyələrin səlahiyyət müddəti, bələdiyyələrə seçkilərin təyin edilməsi, Seçkilərin hazırlanması və keçirilməsi ilə bağlı xərclər və s. məsələlər öz təsdiqini tapdı.

Respublikamızda bələdiyyə seçkilərinin həyata keçirilməsinin əsas hüquqi bazasını ölkə Konstitusiyası, 2 iyul 1999-cu ildə qəbul olunmuş "Bələdiyyələrə seçkilərin qaydaları haqqında" Azər-baycan Respublikasının Qanunu, 2003-cü ildən isə Azərbaycan Respublikasının Seçki Məcəlləsi təşkil etmişdir [13].

Bələdiyyə seçkiləri 5 ildən bir ümumi, bərabər və birbaşa seçki hüququ əsasında sərbəst, gizli və şəxsi səsvermə yolu ilə keçirilir. Siyasi partiyaların, siyasi partiya bloklarının da bələdiyyə seçkilərində iştirakı qanunvericiliklə müəyyən olunmuşdur.

**Nəticə**

Bu gün ölkəmizdə cəmiyyət və dövlət həyatının bütün sahələrini əhatə edən islahatlar aparılır və hakimiyyətin bütün qolları bu prosesdə fəal iştirak edir. Bütün bunlar, həmçinin milli səviyyədə formalaşmış əlverişli ictimai, siyasi, hüquqi və iqtisadi mühit gənc Azərbaycan dövlətinin parlaq gələcəyinə olan inamı daha da artırır.

Son illərdə dövlət səviyyəsində görülmüş ciddi tədbirlər nəticəsində respublikada kadr və struktur islahatları mükəmməl şəkildə reallaşdırılmaqdadır. Cənab Prezident İlham Əliyevin sosial, iqtisadi və s. sahələrdə apardığı çoxsaylı islahatlar birbaşa xalqın rifahı və dövlətin daha güclü olmasına hesablanır.

Dövlət idarəçiliyinin əsasını insanlar - səriştəli və peşəkar idarəetmə işçilərindən ibarət dövlət qulluqçuları təşkil edir. Buna görə də dövlət

idarəetməsinin mərkəzi problemi idarəetmə kadrlarından ibarət olur ki, onların da səriştəliliyi, bacarığı və peşəkarlığı dövlət idarəetməsinin səmərəliliyinə təsir göstərir. Azərbaycanda demokratik islahatların taleyi, onların sosial bazasının möhkəmləndirilməsi dövlət qulluğunun inkişafı ilə sıx bağlıdır. Dövlət idarəçiliyinin səmərəli fəaliyyətini təmin etmək və qarşıda duran problemlərin müvəffəqiyyətli həlli üçün yüksək ixtisaslı, siyasi cəhətdən neytral, qanunla müdafiə olunan, cəmiyyətin maraqları naminə fəaliyyət göstərən, ləyaqətli, açıq, informasiyadan istifadə etmək bacarığı olan, səmərəli rəhbərlik edə bilən mütəxəssislərin dövlət qulluğuna cəlb olunması tələb olunur.

Beləliklə, dövlət qulluğu institutunun formalaşdırılmasının başlıca məqsədi dövlətin möhkəmləndirilməsi və vətəndaş cəmiyyətinin inkişafında əhəmiyyətli keyfiyyət dəyişikliklərinə nail olmaqdan, dövlət idarəçiliyində səmərəli idarəetməni təmin etməkdən, bazar iqtisadiyyatının formalaşdırılması prosesinə və iqtisadi tərəqqiyə yardım etməkdən, göstərilən dövlət xidmətlərinin keyfiyyətini yüksəltməkdən, dövlət resurslarından istifadəni rasionallaşdırmaqdan ibarətdir. Azərbaycanda dövlət qulluğu institutu ölkənin tarixi, mədəni, milli və digər xüsusiyyətlərini və bu sahədə dünya təcrübəsini nəzərə almaqla vahid bir sistem kimi formalaşdırılır.

Dövlət idarəçiliyində səmərəli idarəetmənin həyata keçirilməsi, dövlət orqanlarında xidmətlərin vətəndaşlara şəffaf, keyfiyyətli, rahat və effektiv şəkildə göstərilməsi və vətəndaş məmnunluğunun təmin edilməsi üçün daima yeniliklər tətbiq etmək lazımdır. Bunu da yalnız islahatlar vasitəsilə həyata keçirmək mümkündür. Cəmiyyət daim inkişaf edir və bu inkişafla ayaqlaşmaq üçün daim islahatlar aparmaq lazımdır. İslahatların həyata keçirilməsi heç bir zaman dayanmır, əksinə ardıcıl olaraq həyata keçirilir.

Dövlət idarəetmə sisteminin əks-mərkəzləşdirilməsi siyasətinin reallaşdırılması yolu ilə yerli özünüidarəetmə sisteminin formalaşdırılması prosesi ölkədə demokratiyanın inkişafı, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu, dövlətin və cəmiyyətin idarə olunmasının səmərəliliyinin artırılması istiqamətində atılan ən əhəmiyyətli addımlardan biri kimi qiymətləndirilməlidir.

Ölkə ərazisində idarəetmənin səmərəliyinin, vətəndaş məmnunluğunun təmin edilməsi dövlət idarəçiliyində islahatların həyata keçirilməsi ilə yanaşı, həmçinin bələdiyyə idarəçiliyində də islahatların həyata keçirilməsi, vətəndaşların tələbatına uyğun sistemin yaradılması üçün qanunların qəbul edilməsi lazımdır. Belə ki, yerli əhəmiyyətli məsələlərin, problemlərin həll edilməsi yerli özünüidarəetmə orqanları olan bələdiyyələrin üzərinə düşür.

Yerli özünüidarəetmə orqanları olan bələdiyyələr ərazilərində yaşayan əhali ilə yaxşı, sıx münasibətlər qurmalı, onların problemlərini öyrənməli, yaranmış problemlərin aradan qaldırılması müəyyən işlər görməlidir. Bələdiyyələr vətəndaş məmnunluğunu təmin etmək üçün onlarla maraqlanmalı, bələdiyyə üzvləri, bələdiyyə sədri daima xalqın arasında olmalı, onların problemlərini vaxtında öyrənməli və effektiv şəkildə həll etməlidirlər.

Vətəndaş məmnunluğunun təmin edilməsi, vətəndaşlara şəffaf, keyfiyyətli, rahat və effektiv xidmətlərin göstərilməsi, Dövlət və bələdiyyə idarəçiliyində səmərəli idarəetmənin təmin edilməsi, vətəndaşyönümlü, vətəndaşların tələbatına uyğun sistemin yaradılması daima islahatların aparılması, yeni qanunların qəbul edilməsi, mövcud qanunlara dəyişikliklərin edilməsi yolu ilə mümkündür.

**Açar sözlər:** *Azərbaycan Respublikası, Konstitusiya, dövlət idarəçiliyi, dövlət qulluğu, islahatlar.*

## ƏDƏBİYYAT SİYAHISI

1. *Alan Norton, International Handbook of Local and Regional Government: A Comparative Analysis of Advanced Democracies, Edward Elgar Press, Cheltenham, 1994;*

2. *Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanası, "Bələdiyyələr haqqında Azərbaycan Respublikasının Qanunları";*

3. *Bilal Eryılmaz Kamu Yönetimi, Okutman Yayıncılık, İstanbul-2012,.*

4. *"Dövlət qulluğuna qəbul qaydalari ilə bağli nələri bilməliyik?", Dövlət İmtahan Mərkəzi, Bakı-2017;*

5. *Əsgərov.V, "Dövlət qulluğunda etika", Bakı-*

*2014;*

*6. Həsənov Ə.M., "Azərbaycan Respublikasının Milli İnkişaf və Təhlükəsizlik Siyasəti", Bakı-2018;*

*7. Həsənov.M.İ, "Azərbaycanda dövlət qulluğunda islahatların yeni mərhələsi", Bakı-2018, http://az.strategiya.az/news.php?id=143562;*

*8. Həsənov.M.İ, "Azərbaycanın dövlət qulluğu sistemində islahatlar", Bakı-2018, https://azertag.az/xeber/1174192;*

*9. Hüseynova.N.Ş, "Dövlət qulluğu və kadr siyasəti", Bakı-2013;*

*10. Hüseynova.N.Ş, "Dövlət qulluğu və idarəetmə", Bakı-2017;*

*11. Kemal Görmez (1997), Yerel Demokrasi ve Türkiye, Vadi Yayınları, Ankara;*

*12. Qəndilov S.T., "Dövlət İdarəçilik Nəzəriyyəsi", Bakı-2010;*

*13. MDB Parlamentlərarası Assambleyasının Beynəlxalq Institutunun Bakı Filialı, "Yerli Özünüidarəetmə Orqanlarinin Fəaliyyətində Azərbaycan Respublikasi Milli Məclisinin Rolu", Bakı-2014;*

*14. Mehdiyev R.Ə., "Milli Məfkurə, Dövlətçilik, Müstəqillik Yolu ilə", Bakı-2006;*

*15. Sahbazov K.A., Həsənov H.S., Məmmədov H.M., "Dövlət və bələdiyyə idarəçiliyi, Bakı-2011;*

*16. Yanq.R, Şabanov.R, "Azərbaycanda müasir dövlət qulluğu modeli axtarışı", Bakı-2004;*

*17. Yanq.R, Azadov.E, "Dövlət idarəetməsində islahatlar: nailiyyətlər, problemlər, perspektivlər", Bakı-2005;*

*18. www.e-qanun.az/framework/40918;*

*19. www.e-qanun.az/framework/32559.*

### Реформы системы государственного управления в Азербайджанской Республике

**РЕЗЮМЕ**

Государственная управления в Азербайджанской Республике имеет древние корни. В конце двадцатого века Азербайджан восстановил свою независимость и занял достойное место среди стран мира. Возникла необходимость установления основополагающих принципов новосозданного государства. Институт государственной службы в Азербайджане сформирован как единая система, учитывающая исторические, культурные, национальные и другие особенности страны, а также мировой опыт в этой сфере. На самом деле, целью реформ института государственной службы является создание профессиональной, высококвалифицированной, стабильной и авторитетной государственной службы. В данной работе была исследована основная цель реформ государственной управления в Азербайджанской Республике.

**Ключевые слова:** *Азербайджанская Республика, Конституция, государственное управление, государственная служба, реформы.*

### Reforms in the Public Administration System in the Republic of Azerbaijan

**SUMMARY**

Public Administration System in the Republic of Azerbaijan has ancient roots. At the end of the twentieth century, Azerbaijan regained its independence and took its rightful place among the countries of the world. There was a need to establish the fundamental principles of the newly created state. The institute of public service in Azerbaijan is formed as a single system that takes into account the historical, cultural, national and other specifities of the country as well as world experience in this field. In fact, the goal of the reform of the public service is to create a professional, highly qualified, stable and authoritative public service. In this article was investigated the main goal of public Administration system reforms in the Republic of Azerbaijan.

**Key words:** *Republic of Azerbaijan, Constitution, public administration, public service, reforms.*

UOT 378

# Pedaqogika

**MÜSLÜM NƏZƏROV**
*Pedaqogika üzrə fəlsfə doktoru, dosent,*
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
***Azərbaycan***
*E-mail: muslimnazarov@mail.ru*

# MÜASİR ALİ TƏHSİL SİSTEMİNİN İNKİŞAFININ ƏSAS İSTİQAMƏTLƏRİ

İnkişaf etməkdə olan cəmiyyətə müasir təhsilli, əxlaqlı, təşəbbüskar və bacarıqlı, seçim şəraitində müstəqil şəkildə qərar verə bilən, mümkün nəticələrini proqnozlaşdıra, əməkdaşlıq metodlarını seçə bilən şəxslərə ehtiyac duyulur. Bütün bunlar mobillik, dinamizm, konstruktivlik ilə xarakterizə olunur və həmin şəxslərdə ölkənin taleyi üçün inkişaf etmiş bir məsuliyyət hissi yaranır.

Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 29 dekabr 2012-ci il tarixli fərmanı ilə təsdiq edilmiş "Azərbaycan 2020: Gələcəyə Baxış İnkişaf Konsepsiyası"na (1) görə, dövlətin üzərinə Azərbaycan təhsilinin dünya və Avropa təhsil məkanına inteqrasiyasının gücləndirilməsi, Azərbaycanın təhsil ocaqlarının, xüsusilə də ali təhsil müəssisələrinin beynəlxalq əlaqələrinin genişləndirilməsi, təhsil sahəsində həyata keçirilən beynəlxalq proqramlara onların fəal cəlb olunması üçün müvafiq şəraitin yaradılması kimi mühüm vəzifələr qoyulmuşdur (4, s.7).

Müasir dünyada baş verən qloballaşma prosesləri ənənəvi təhsil sisteminin istiqamətlənməsiin katalizatoruna çevrilir. İnformasiya texnologiyaları inkişaf etdikcə əksər təhsil müəssisələrinin fəaliyyəti dəyişdirilir. Vahid təhsil məkanı və qlobal təhsil xidmətləri bazarı formalaşır. Bu baxmdan, müasir tədqiqatçılar dünyadakı universitetlərin inkişaf meyllərinin təhlili əsasında müəyyən nəticələr çıxarmağa çalışırlar. Universitetlər (güman edildiyi kimi, lakin bu qismən əsaslandırılmışdır) hər zaman özünü idarə edən, nisbətən müstəqil təşkilatlar olmuşdur.

Azərbaycan təhsil sisteminin inkişafının, xüsusən də Avropa təhsil məkanına inteqrasiyasının təhlili bu prosesin qanunauyğunluqlarının dərki üçün ilkin şərait yaradır, eyni zamanda, dövlətin təhsil siyasətinin konturlarını çəkmək üçün oriyentirlər verir. Öz növbəsində, dövlətin təhsil siyasətinin səmərəliliyi milli təhsil sisteminin mahiyyəti və xüsusiyyətlərinin dərkindən asılıdır. Buna görə də təhsilimizin sosiomədəni inkişaf problemləri tədqiqatçıların diqqət mərkəzində olmalı, onları problemin həlli yollarını axtarıb tapmağa sövq etməlidir (4,s. 8).

XX əsrin sonu - XXI əsrin əvvəllərində universitetlər yeni tədqiqat, layihə və idarəetmə metodologiyaların (arzuolunan) yaradılmasının əsas məqsədinə (ideya kimi) nail oldular. Layihə təfəkkürünə əsaslanan təhsil texnologiyasının ən mühüm vəzifəsi yenilikçi tədqiqat metodologiyaları ilə məzunları silahlandırmaqdan ibarətdir. Öz növbəsində təhsilin layihə düşüncəsini dəstəklədiyini, inkişaf etdirdiyini və qismən yenilədiyini bilmək lazımdır. Təhsil gələcəyi təxmin etməyə, cərəyan edən dəyişikliklərə dərhal reaksiya verməyə və bu metodundan istifadə edərək məlumatları mənimsəməyi öyrədir .

Müasir dünyada ali təhsilin inkişafındakı aşağıdakı meyllər dəqiq müəyyən edilmişdir:

1. Ümumi təhsil müddətinin artması.
2. Davamlı təhsilə ehtiyac (həyat boyu).
3. Ali təhsilin fərdiləşdirilməsi.
4. Metodik bilik və analitik bacarıqların artan əhəmiyyəti.

Ali təhsil meylləri özünü təhsil, ömür boyu təhsil sisteminə daxil olmaqla, daim öz bacarıqlarını artırmaqla tələbələrin real layihələrə və əməkdaşlıq və tərəfdaşlıq kimi kollektivin akademik işlərə cəlb olunmasından ibarətdir.

Postindustrial və informasiya cəmiyyətinə keçid

yüksək peşəkar hazırlıq, yaradıcı iş təcrübəsi olan, yeni informasiya texnologiyalarından istifadə edə bilən, fəaliyyətlərinin nəticələrini proqnozlaşdırma, təşkilatçılıq və idarəetmə fəaliyyəti bacarıqları olan tamamilə yeni mütəxəssislər tələb edir. Peşəkarlar ünsiyyətli, fəal, məsuliyyətli, həm ölkəmizdə, həm də beynəlxalq səviyyədə şəxsiyyətlərarası və mədəniyyətlərarası əməkdaşlığa hazır olmalıdırlar. Bu vəzifələri yerinə yetirmək üçün ali təhsilin inkişaf tendensiyalarını ilə sıx bağlılıq yaratmaq lazımdır. Müasir dünyada təhsilin inkişafındakı bəzi tendensiyaları aşağıdakı kimi nəzərdən keçirmək olar:

**Aktivləşdirmə.** Təhsilin yenilənməsi onun elmi məzmununun müasir biliklərin dinamik quruluşuna uyğunlaşdırılması deməkdir. Təhsil yalnız yeni kəşfləri, dəyişiklikləri, dünyada görünən yeni məlumatları əks etdirməklə yanaşı, müxtəlif sahələrdə müvafiq biliklər verməli, eyni zamanda cəmiyyətdə baş verən dəyişiklikləri əks etdirməli, gələcək vəziyyətini müəyyənləşdirməlidir. Ali təhsil cəmiyyətin inkişafı ilə birlikdə inkişaf edərək bu inkişafın tempinə və keyfiyyətinə birbaşa təsir etmişdir. Dəyişikliklərin dinamikasının daim böyüdüyü və bütün ideya standartları ilə görünməmiş qısa müddətdə "ideyalar kütlələri tutan" informasiya cəmiyyətində xüsusi əhəmiyyət kəsb etmişdir. Ali təhsilin ənənəvi olaraq aktual olan mövzularına (təhsilin elmin inkişaf səviyyəsinə uyğunluğu, nəzəriyyə və praktik fəaliyyət arasındakı sıx əlaqə, ümumiləşdirmə və ixtisaslaşma nisbəti və s.), təlim sisteminin müasir cəmiyyətin enerji-informasiya reallıqları üçün adek-vatlığı məsələsi prioritet kimi əlavə edilməlidir.

**Praqmatizm.** Bazar iqtisadiyyatına özəlləşdirmə və digər atributlar vasitəsilə keçid insanların şüurunda və hərəkətlərində geniş miqyasda praqmatizmi stimullaşdırdı və gücləndirdi. Bu keyfiyyət insanların taleyində, iş karyeralarında və rifahlarında getdikcə müəyyənedici və həlledici amilə çevrilir.

Praqmatistlərin əsas xüsusiyyətləri və əlamətləri soyuq hesablama, güclü iradə, cəsarət, qətiyyət, yaradıcı enerji və ən əsası ixtiraçılıq və zehni konstruktivizmdir. Bütün bu keyfiyyətlər, ilk növbədə, insana cəmiyyətin qanunlarına və qaydalarına uyğun hərəkət edərək yeni sosial-iqtisadi şəraitə uğurla uyğunlaşmağa imkan verir və cəmiyyətin qanunlarına və qaydalarına uyğun hərəkət edir. Praqmatizm prosesləri yaradıcı bir təhsil sisteminin inkişafı ilə əlaqələndirilir və mövcud dövlət standartları əsasən tələbələrin yaradıcılıq qabiliyyətlərini inkişaf etdirmək məqsədi daşıyır.

**Açıqlıq.** Təhsilin açıqlığı həmyaşıdından, fiziki vəziyyətindən, yaşayış yerindən, vətəndaşlıqdan asılı olmayaraq təhsil almaq istəyən hər kəs üçün əlçatanlıq səviyyəsində və bu anda ən əlverişli və məqbul olan hər hansı bir təhsil formasını seçmək səviyyəsində özünü göstərir. Heç bir halda açıqlıq təhsilin keyfiyyətinin aşağı düşməsini nəzərdə tutmur. Açıqlığın eksperimental tətbiqi, məzunların yüksək keyfiyyətli təhsil aldıqlarını sübut edən, beynəlxalq nüfuza və uzunmüddətli layihələr və müqavilələr əsasında bir çox ölkələrin universitetləri ilə möhkəm əlaqələrə sahib olan universitetlərə həvalə edilməlidir.

**İnnovasiya.** Təhsil ən innovativ sahələrdən biridir. İnnovasiya müəyyən tələblər üçün praktik istifadə məqsədi ilə yeni ideya və biliklərin həyata keçirilməsinin nəticəsidir. Təhsil sahəsində yeniliklər istehsal və idarəetmə texnologiyalarına bölünür. İstehsalın texnoloji yenilikləri (yeni texnologiyalar), pedaqoji cəhətdən yeni tədris və öyrənmə metodlarını əhatə edir. İdarəetmə yeniliklərinin strukturuna iqtisadi yeniliklər (təhsil sahəsində yeni iqtisadi mexanizmlər) və təşkilati yeniliklər (təhsil sahəsində yeni təşkilati strukturlar və institusional formalar) daxildir.

İnnovasiya, qabaqcıl elmi inkişafların təhsil prosesinə daxil edilməsi və bu şəkildə elmi karyerası boyunca gələcək yenilikləri həyata keçirə biləcək mütəxəssis hazırlamağa imkan verən bir yoldur.

**İnformasiya.** İnformasiyalaşdırma ümumiyyətlə kompüterləşmə və texniki təlim vasitələrinin inkişafı ilə əlaqələndirilir. Bu, həqiqətən yeni bir təhsil sisteminin formalaşmasında çox vacib bir məqamdır. Adətən, informasiya problemlərini nəzərə alaraq, "məlumat partlayışı" adlanan problem xüsusi olaraq fərqlənir. Hal hazırda bu problemin mahiyyəti fərqlidir. Kompüter savadı, kompüter mədəniyyəti gənclərin həyatının bütün məsamələrinə artıq nüfuz edib. "Virtual şəxs",

“virtual işçi” anlayışları ortaya çıxdı, yəni gerçək dünyanın dəyərləri ilə yaşamayan, lakin özünü “icad olunan dünya”, “kölgələr dünyası”, “güzgü dünyası” və s. kimi yerlərə tam girməyə meyli bir insandır. Bəzi təhsil müəssisələri də bu qlobal tendensiyalardan kənarda qalmadı. Bu gün yerli təhsilin informasiyalaşdırılmasının əsas istiqamətlərindən biri informasiya mədəniyyətinin forma-laşdırılmasıdır. Bu baxımdan bu istiqamət hərtərəfli və inteqrasiya olunmuş bir yanaşma tələb edir. Çünki təhsilin informasiyalaşdırılmasının əksər anlayışlarında, informasiya mədəniyyəti, peşə fəaliyyətində informasiya və kommunikasiya texnologiyalarının tətbiqi sahəsində müasir bir mütəxəssisin peşəkar xarakteristikası kimi dar şəkildə başa düşülür. Lakin, sürətlə dəyişən dünya və cəmiyyətdə, informasiya mədəniyyətinin bilik və risk sivilizasiyasına üzvi şəkildə daxil olması üçün insanın formalaşma dərəcəsi kimi qəbul edilməlidir. Müasir informasiya cəmiyyətində informasiya mədəniyyətinə aşağıdakı kimi diqqət yetirilməlidir:

- informasiya cəmiyyətinə, bu cəmiyyətin mədəni məkanına daxil olan insanın formalaşma dərəcəsini yüksəldir və cəmiyyətin mədəniyyət məkanında tanıdır;
- informasiya proseslərinin təşkili səviyyəsini yüksəldir;
- insanların informasiya əlaqəsindən məmnunluq dərəcəsini yeni səviyyəyə qaldırır;
- dünyanın vahid mənzərəsini, qərarların nəticələrini gözləməyi təmin edən məlumatların yaradılması, toplanması, saxlanması, emalı, ötürülməsi, təqdimatı və istifadəsində səmərəlilik səviyyəsini kökündən dəyişir.

Göstərilənlərdən aydın olur ki, informasiya mədəniyyətinin formalaşması probleminin həlli yerli təhsilin modernləşdirilməsi və informasiyalaşdırılması prosesində ən vacib məsələlərindən biri kimi görünür. Ali təhsilin informasiyalaşdırılmasının inkişafındakı mövcud tendensiyaların təhlili onun mürəkkəb və dinamik quruluşunu göstərir.

**Demokratikləşmə.** Demokratikləşmə ali təhsil müəssisəsinin ayrılmaz hissəsi olduğu bütün sosial sistemin inkişafındakı aparıcı istiqamətlərdən biridir. Bu, ali təhsil sisteminin idarə edilməsinin artan mərkəzsizləşdirilməsində, ali təhsilin fəaliyyətində və inkişafında əsas tendensiyada özünü göstərir. Təhsil sisteminin inkişafındakı dünya və daxili tendensiyaların tərkibinə təhsil idarəçiliyinin müxtəlif səviyyələri, o cümlədən təhsil sisteminin inkişafında aparıcı istiqamət kimi demokratikləşmə ilə birbaşa əlaqəli olan təhsil müəssisələri tərəfindən müstəqillik əldə edilməsi ilə bağlı meyllər daxildir. Demokratiklik - təhsilalanların azad düşüncə ruhunda tərbiyə edilməsi, təhsilin dövlət-ictimai əsaslarla təşkilində və idarə edilməsində səlahiyyət və azadlıqların genişləndirilməsi, təhsil müəssisələrinin muxtariyyətinin artırılması prosesidir(2 )

Təhsilin demokratikləşməsi aşağıdakı prinsiplərə əsaslanır.

- tələbələrin təhsil fəaliyyətinin müstəqil təşkili;
- müəllim və tələbələrin əməkdaşlığı;
- təhsil müəssisələrinin açıqlığı;
- təhsil sistemlərinin müxtəlifliyi;
- bərabər təhsil imkanları;
- dövlət idarəçiliyi.

Demokratikləşmə sosial vəziyyətindən, cinsindən, milli, dini, irqi mənsubiyyətindən asılı olmayaraq hər kəsin təhsil almaq hüququnun reallaşmasına öz töhfəsini verməlidir.

Təhsil inteqrasiyası. İnteqrasiya edilmiş təhsil dünyada getdikcə yayılmaqdadır.

İnteqrasiya öyrənməyin əsas məqsədi tələbələri əsas hadisələr, elmlərin faktları, bacarıqların formalaşması, öyrənilən hadisələrin təsnifatı və ölçülməsi, elmi intuisiyanın inkişafı ilə tanış etməkdir.

İnteqrasiya - milli təhsil sisteminin dünya təhsil sisteminə səmərəli formada qoşulması, uyğunlaşması və qovuşması əsasında inkişafı deməkdir (2) .

Daxili və xarici inteqrasiya ilə yanaşı müxtəlif ölkələrin təhsil sistemlərinin yaxınlaşmasına və vahid dünya təhsil məkanının formalaşdırılmasına yönəldilir. Təhsilin inteqrasiyası bu gün ilk növbədə - orta məktəbdə tətbiq olunur və bu prosesi təhsilin məzmunu ilə başlayırlar, mahiyyəti ondan ibarətdir ki, inteqrasiya uşağa obyektləri və hadisələri vahid və sistemli şəkildə qavramağa imkan verir.

**Təhsilin standartlaşdırılması.** Müəyyən bir

təhsil keyfiyyətinə nail olmaq üçün vacib şərt təhsil standartlarıdır. Standartlaşdırma, sistemin dövlət təhsil standartının həyata keçirilməsinə yönəldilməsidir, müəyyən bir vaxt həcmində məcburi akademik fənlər toplusudur. Təhsilin standartlaşdırılması həmişə tədris planlarının və proqramlarının hazırlanması, müəyyən bir təhsil səviyyəsinin yaradılması yolu ilə müxtəlif ölkələrdə həyata keçirilir.

"Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu dövlət orqanlarının təməl təhsil proqramlarının məzmunu, tədris yükünün maksimum miqdarı və məzunların hazırlıq səviyyəsinə olan tələblərin minimum səviyyədə qurulması nəzərdə tutulur.

Təhsil sahəsində dövlət standartları fərdin, cəmiyyətin, dövlətin tələbatına uyğun olaraq, elmi-pedaqoji prinsiplər əsasında hazırlanan və müəyyən dövr (5 ildən az olmayaraq) üçün vahid dövlət tələblərini əks etdirən ümumi normalar məcmusudur.

Dövlət təhsil standartları təhsilin məzmununu, idarə olunmasını, maddi-texniki və tədris bazasını, infrastrukturunu, təhsilverənlərin keyfiyyət göstəricilərini, hər bir təhsil pilləsində və səviyyəsində təhsilalanların bilik, bacarıq və vərdişlərinin səviyyəsini müəyyənləşdirir.( 2, s.7).

**Təhsilin qloballaşması.** XXI əsrin əvvəlləri dünya birliyinin və Respublikamızın həyatının bütün sahələrində qloballaşma proseslərinin intensivləşməsi ilə xarakterizə olunur. Təbii ki, təhsil də müasir dəyişən dünyada fərdin tərbiyəsinə mümkün töhfə verməyə, bəşəriyyətin qlobal problemlərinin mahiyyətini və onların həlli metodologi-yasını dərk etməyə çağırılır.

Qloballaşma dünyanı vahid xüsusiyyətləri olan, xalqların və dövlətlərin qarşılıqlı təsiri və qarşılıqlı asılılığının artdığı tarixi bir prosesdir.

Qloballaşma – beynəlxalq əhəmiyyətli müxtəlif siyasi, iqtisadi, mədəni, informasiya təyinatlı amillərin ayrı-ayrı ölkələrin sosial varlığına hərtərəfli artan təsir prosesidir. Hesab edirik ki, təhsil sistemi kontekstində beynəlxalq əmək prosesləri ilə bağlı olan sosial fenomen kimi qloballaşmanı mübadilə proseslərini asanlaşdırmaq üçün dövlətlər üstü təşkilatları hədəf götürən qloballaşmadan fərqləndirmək lazımdır (4,s.174). Qloballaşma üç mənada başa düşülür -birincisi, insanlar, dövlətlər və mədəniyyətlər arasında qarşılıqlı əlaqələrin genişlənməsində davam edən tarixi bir proses kimi; ikincisi, homogen bir siyasi, iqtisadi və mədəni dünyaya tədricən hərəkət etmək kimi universallıq və homogenləşmə xüsusiyyətlərini gücləndirməklə dünyanın ümumbəşəri universallaşması kimi; üçüncüsü, qarşılıqlı iqtisadi fəaliyyət sahəsində şəffaflığı qorumaqla milli sərhədlərin açıqlığı kimi. Qloballaşmanın vacib bir istiqaməti kütləvi mədəniyyətin, kütləvi şüurun formalaşmasının çox gəlirli bir iş növünə çevrilməsidir.

**Mərkəzsizləşdirmə.** Təhsil sistemlərinin mərkəzsizləşdirilməsi prosesi bazar iqtisadiyyatının fikir və dəyərlərinə əsaslanır. Bazar iqtisadiyyatı hökumətin bütün səviyyələrində demokratik bir quruluş tələb edir, çünki bunsuz ədalətli bazar rəqabəti üçün şərait yaratmaq mümkün deyil. Digər tərəfdən, bazar iqtisadiyyatı qərar qəbuletmə sistemində həddindən artıq mərkəzləşdirilməməli və sosial- iqtisadi şəraitdə həyat subyektləri ilə birbaşa təmasda olan yerli orqanlar üçün müəyyən səlahiyyətlərin və maliyyə mənbələrinin birləşdirilməsini tələb edir. Eyni zamanda, təhsil üçün büdcə və digər maliyyələşdirmə mənbələrindən istifadənin səmərəliliyinin artırılması, təhsil bazarında insan resursları institutu kimi əsas əhəmiyyətini daha səmərəli şəkildə nəzərdən keçirmək məqsədi daşıyır (5).

Ayrı-ayrı ölkələrdə əhəmiyyətli fərqlərə baxmayaraq, fərqli siyasi quruluşlara, dövlətlərin sosial-iqtisadi xüsusiyyətlərinə, təhsilin strukturundakı fərqlərə görə, təhsilin mərkəzləşdirilməməsi prosesində ortaq bir şey səlahiyyətin, o cümlədən maliyyə, təhsil idarəçiliyinin aşağı səviyyələrinə təhvil verilməsidir. Mərkəzsizləşdirmə yalnız təhsil sistemindəki dəyişiklikləri vurğulamır, lakin güclü şaxələndirici bir mexanizm olaraq bütün məsələni fərqli səviyyəyə qaldırır.

**Tənzimləmə.** Qlobal tendensiya, aşağı struktur komponentlərinə daha çox səlahiyyət və muxtariyyət verməkdən ibarət olan bir çox ölkələrin apardığı ali təhsil sisteminin ləğvi siyasətində özünü göstərir. İqtisadi təhlükəsizlik problemləri ilə əlaqədar olaraq, ali təhsil müəssisələrinin ehtiyaclarını ödəmək üçün

dövlət xərclərinin azalması müşahidə olunur. Bu,inkişaf etmiş ölkələrin böyük əksəriyyəti, xüsusən keçid iqtisadiyyatı olan ölkələr üçün son onilliklərdə xarakterik bir xüsusiyyətdir. Tənzimləmə təhsil sahəsindəki əvvəllər qurulmuş qayda və normalardan qurtarmaqda da ifadə edilir. Tətbiqetmə məqsədə çatmaq üçün imkanlar dairəsini genişləndirməyə yönəlmişdir - bu təhsil müəssisəsinə, tələbələrə və ictimaiyyətə daha çox sərbəstlik verməkdən ibarətdir.

**Suverenlik.** Dünyanın sivil ölkələrində, qabaqcıl dünya meylləri və yerli təhsil ənənələri nəzərə alınmaqla milli təhsil sistemlərini inkişaf etdirmək üçün davamlı və gərgin bir proses mövcuddur. Təhsil strukturlarının, proseslərin və texnologiyaların müasirləşdirilməsi və şaxələndirilməsi təhsilin keyfiyyətinin yüksəldilməsinə, fundamental biliklərin vahid bir sisteminin və müstəqil yaradıcı düşüncə bacarıqlarının inkişafına yönəldilmişdir. Bu problemlərin həlli üçün iki qrupu: tədris fəaliyyətinin konseptual əsasını təsir edən nəzəri və metodoloji və bu fəaliyyətin tədris və texnoloji tərəfini müəyyən edən pedaqoji və təşkilati-metodiki işlər ön plana çıxarılır.

**Aksiologiya.** (yun. Axia - dəyər və logos təlim, söz) - dəyərlər mahiyyətinin fəlsəfi tədqiqidir. Aksiologiya termini mədəniyyət və fəlsəfənin ortaq termini kimi götürülməlidir, çünki hər iki elm sahəsi mümkün imkanlarından istifadə edərək bu və ya digər dərəcədə insanın dəyərlər sistemini və onun cəmiyyətdəki yerini öyrənir. Məhz bu tədqiqlərin sayəsində insana, onun gündəlik həyatında var olan yaxud olmayan faydalı, zəruri, yaxud zərərli və qeyri-zəruri olan dəyərlər sistemi öyrənilib, üzə çıxarmaqdır (3,s. 20).

Təhsilin aksiologiyası tələbənin gələcək peşə fəaliyyətini, habelə onun dünya və insanlarla qarşılıqlı münasibətlərini müəyyən edən dəyərlərin tərkibini və iyerarxiyasını müəyyənləşdirir. Təhsil prosesinin vahid istiqaməti tələbələri sosial və təhsil reallıqlarının dünyagörüşü anlayışına cəlb edir.

Bu baxımdan zəruri olan aksiologizasiya anlayışına - təhsil sisteminin inkişafındakı aparıcı müasir tendensiyaya müraciət etməkdir. Aksiologiya adətən aşağıdakı mənalarda nəzərə alınır:

- nəzəriyyədə və həqiqi praktikada təhsil dəyərlərinin tərkibini və iyerarxiyasını müəyyən etdiyi üçün təhsilin humanistləşdirilməsinin tərkib hissəsi;
- təhsil müəssisəsinin təhsil fəaliyyətinin inkişafının göstərilən tərəflərini və tələbə şəxsiyyətini birləşdirən bir proses;
- təlim və tərbiyənin dəyər-semantik yönümünün güclənməsinə səbəb olan tədris prosesini yeniləmək üçün tədbirlər sistemi;
- şəxsiyyətin vacib xüsusiyyətlərinin inkişafına kömək edən amillər toplusu;
- təhsilin mədəniyyətin üzvi bir hissəsi olduğunu nəzərə alaraq, mədəniyyət dəyərlərinin ötürülməsini və dialoqunu təmin etdiyinə görə dəyər sistemin özünəməxsusluğu.

Məqsəd yaradıcı və dəyərli şəxsiyyət əlamətlərinin inkişafı olan bir metoddur, həyati əhəmiyyətli hədəflərə çatmaq üçün müstəqil insanlıq fəaliyyətidir.

Respublikamızda ali təhsil müəssisəsinin idarə edilməsi, tətbiq olunan qanunauyğun, tədris prosesinin təşkili formasının müstəqil müəyyənləşdirilməsini, özünün inkişafını və elmi tədqiqat, innovasiya işlərini, ölkə qanunvericiliyinə uyğun olaraq struktur bölmələrin yaradılmasını təmin edən özünüidarəetmə prinsipləri əsasında həyata keçirilir.

Beləliklə ali təhsil müəssisələri, təhsil alan gənclərimizdə bilik, analitik düşüncə, geniş imkanlar və texniki bacarıqları inkişaf etdirərək gələcək işçi qüvvəsinin təmin olunmasında ortaq rol oynayırlar. Burada əsas prioritet gənclərin peşə seçimləri etmək və sürətli dəyişən iqtisadiyyatda dəyər tutan bir yol seçmək üçün təchiz olunmasını və dəstəklənməsini təmin etməlidir.

**Açar sözlər:** *təhsil, ali təhsil, informasiya cəmiyyəti, inkişaf, təhsilin inkişaf istiqamətləri, universitet modeli.*

## ƏDƏBİYYAT SİYAHISI

*1.“Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyası. Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 29 dekabr 2012-ci il tarixli Fərmanı ilə təsdiq edilmiş, “Azərbaycan” qəzeti 30 dekabr 2012-ci il.*

*2. Azərbaycan Respublikasının "Təhsil haqqında" qanunu. 2009. http://www.e-qanun.az/alpidata /framework/data/18/c_f_ 18343.htm*

*3.Fəlsəfə: ensiklopedik lüğəti. İ.Ə.Rüstəmovun redaktorluğu ilə.Bakı-1997,520s*

*4. Nəzərov M.H. Müasir dövrdə təhsilin sosialmədəni problemləri. Monoqrafiya. Bakı - Mütərcim – 2018,296 s.*

*5. Звонников В.И., Пугач В.Н., Колубев В.В., Алимова Н.К. Образованная личностно-логистическая база: предварительные концепции. Монография. М.: ИГУПИТ, 2011. 218 с.*

**Муслим Назаров**

**Основные направления развития современной системы высшего образования**

**РЕЗЮМЕ**

В статье рассматриваются основные тенденции развития современного высшего образования: активация, прозрачность, инновации, информация, демократизация, централизация, интеграция образования, регулирование, суверенитет, аксиология и так далее. обобщение и систематизация каждого из них в отдельности.

Тенденции высшего образования, включая самообразование, обучение на протяжении всей жизни и постоянное улучшение способности студентов заниматься академической работой, такие как реальные проекты, сотрудничество и партнерские отношения, анализируют тенденции развития высшего образования.

В статье также представлена информация о педагогической и организационно-методической работе, направленной на повышение качества образования, развитие единой системы базовых знаний и навыков самостоятельного творческого мышления путем интеграции и диверсификации образовательных структур, процессов и технологий.

**Ключевые слова:** *образование, высшее образование, информационное общество, развитие, направления развития образования, модель университета.*

**Muslum Nazarov**

**Main directions of development of modern higher education system**

**SUMMARY**

The article discusses the main trends and trends in the development of modern higher education: activation, transparency, innovation, information, democratization, centralization, education integration, regulation, sovereignty, axiology and so on. summarizing and systematizing each of them separately.

Higher education trends, including self-education, lifelong learning, and constantly improving students' ability to engage in academic work, such as real projects, collaboration and partnerships, analyze trends in the development of higher education.

The article also provides information on pedagogical and organizational and methodological work that modernizes and diversifies education structures, processes and technologies, to improve the quality of education, the development of a unified system of fundamental knowledge, and the development of independent creative thinking skills.

**Keywords:** *education, higher education, information society, development, directions of education development, university model.*

UOT: 316.33;316.27

# Sosiologiya

## İNKİŞAF ETMİŞ XARİCİ ÖLKƏLƏRİN TƏCRÜBƏSİ BAXIMINDAN SOSİAL XİDMƏTƏ YENİ YANAŞMALAR

**CEYRAN RƏHMƏTULLAYEVA**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının dissertantı, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Sosial-mədəni fəaliyyət kafedrasının müəllimi*
***Azərbaycan***
*E-mail: ceyran_8@yahoo.com*

Əmək qabiliyyəti olmayan vətəndaşlara sosial xidmət məsələləri həm bir çox elm sahələrinin tədqiqat obyekti, həm də istənilən dövlətin siyasətinin prioritet istiqamətlərindən biri kimi çıxış etmişdir. Bu gün bu məsələ xüsusi aktuallıq kəsb edir. Çünki dövlət sistemlərinin fəaliyyətinin müasir şərtləri sosial yönümlülük prioritetlərinə əsaslanır. "Sosial dövlət" anlayışı rəsmi surətdə beynəlxalq standartlar kataloquna daxil olmuşdur və demək olar ki, bütün hüquq sistemlərinin hüquq leksikonunda geniş istifadə olunur. Bundan başqa, məhz o dövlətin sosial müdafiə çərçivəsində reallaşdırılan sosial siyasətinin baza xüsusiyyətini təşkil edir. Bu gün belə dövlət statusunun elan olunması yalnız ölkənin kifayət qədər yüksək iqtisadi inkişaf səviyyəsini deyil, həm də siyasi sistemlərin demokratikliyinin yüksək dərəcəsini, siyasi qüvvələr arasında sağlam kompromis münasibətlərinin olmasını, vətəndaşların, ilk növbədə isə sosial cəhətdən həssas əhali təbəqələrinin yüksək sosial müdafiəsini ifadə edir. Bu mənada sosial xidmət dövlətin elan olunmuş status prinsiplərinin və konstitusion təminatlarının real olub-olmamasının başlıca göstəricisi kimi çıxış edir [7, s. 144-151]. Hər kəsin sosial xidmət hüququnun maneəsiz həyata keçirilməsində dövlətin əsas rolu hər şeydən əvvəl sosial xidmətin ümumrespublika sisteminin təşkil və təmin edilməsində, onun fasiləsiz fəaliyyət göstərməsinə zəmanət verilməsində ifadə olunur. Müəlliflərdən M.O.Buyanova sosial xidmət hüququnun sosial deyil, siyasi təminatını fərqləndirərək göstərir ki, sosial xidmət sahəsində siyasi təminatlar sosial təminat, o cümlədən sosial xidmət sahəsində beynəlxalq siyasətin təsiri altında, habelə dövlətin milli siyasətinin təsiri altında formalaşır. Müasir dövlətin siyasi təminatları hər bir ölkənin ratifikasiya etdiyi beynəlxalq paktlarda təsbitini tapmış səviyyədə sosial xidmətə yönəlməlidir [4, s. 35]. Öz əhəmiyyətinə görə iqtisadi və siyasi təminatlar bütün sosial xidmət növləri üçün konstitusion xarakter daşıyır. Sosial xidmət institutuna aid olan konstitusion normaların (Konstitusiyanın 12-ci, 16-cı, 38-ci, 41-ci, 73-cü, 78-ci və sair maddələrin) təhlili göstərir ki, onlar ictimai münasibətlərin iştirakçılarının hüquqi statusunu müəyyən etməklə və müstəsna olaraq birbaşa tətbiq olunur.

Sosial xidmət müəssisələrinin fəaliyyəti əhalinin həssas təbəqələrinin sosial-psixoloji vəziyyətini korrektə etməyə, bütövlükdə cəmiyyətdə sosial vəziyyəti stabilləşdirməyə, sosial gərginlik səviyyəsinin azaldılması, gələcəkdə onun proqnozlaşdırılması məqsədilə bu faktorlara təsir göstərməyə imkan verir. Sosial xidmət sistemi dövlətin inkişafının bütün müasir paradiqmaları ilə üzvi surətdə bağlıdır. Sivil dövlətlərin sosial siyasətində sosial xidmət təhsil və səhiyyə ilə yanaşı prioritet istiqamətlərdən biri kimi fərqləndirilir. Sosial xidmətlərin keyfiyyətinin yüksəldilmsinə və növlərinin genişləndirilməsinə xüsusi diqqət yetirilir. Sosial sahənin dinamik sistemlərindən biri kimi sosial xidmətin səviyyəsi müasir cəmiyyətin mühüm göstəricisi və inkişaf meyarı kimi çıxış edir [8].

Hesab edilir ki, sosial xidmət sisteminin gələcək inkişafı müəyyən prinsiplərə əsaslanır:

1) aksioloji – şəxsi, qrup və ictimai dəyərlərin iyerarxiyası;

2) praksioloji – göstərilən sosial xidmətlərin səmərəliliyinin yüksəldilməsi (sosial fəaliyyət subyektlərinin peşəkarlığı prinsipi);

3) kulturoloji – sivilizasiyanın və mədəniyyətin

inkişafının nəzərə alınması;

4) internal – özünə daha çox inanan insanların sayının artması [10].

Müasir dövrdə sosial xidmətlərin göstərilməsi insanın öz potensialını reallaşdırmasına, fərdin özünə və öz ailəsinin rifahına görə məsuliyyətinin artırılmasına, eyni zamanda dövlət paternalizmi siyasətindən imtina olunmasına yönəlmişdir [2].

Müasir dövrdə sosial xidmət sisteminin inkişafı sosial müəssisələr şəbəkəsinin genişləndirilməsi və regional xüsusiyyətlər nəzərə alınmaqla sosial xidmət texnologiyalarının təkmilləşdirilməsi ilə xarakterizə olunur. Sosial xidmət müasir sosial siyasətin ayrılmaz tərkib hissəsi, əhalinin sosial müdafiəsinin əsas istiqamətlərindən biri kimi xarakterizə olunur. Sosial xidmətə müasir yanaşmalar bununla bitmir, o həmçinin sosial işin yeni paradiqması, sosial texnologiya, sosial institut, sosial sahənin yeni sektoru, cəmiyyətdə sabitlik və sosial gərginliyin azaldılması faktoru kimi nəzərdən keçirilir.

Son illər dövlətlər həssas əhali qruplarına xidmət üzrə sosial texnologiyaların diferensial şəkildə inkişaf etdirilməsi məqsədilə sosial sektorun təkmilləşdirilməsinə yönəlmiş fəal və ardıcıl tədbirlər həyata keçirirlər. Belə siyasət sosial baxımdan həssas əhali qruplarının həyat səviyyələrinin bərabərləşdirilməsi, fiziki məhdudiyyətli şəxslər üçün müyəssər mühit yaradılması vəzifəsi ilə şərtlənir. Həyata keçirilən struktur dəyişiklikləri, ilk növbədə, sosial xidmətlərin əlçatanlığının artırılmasına, sosial xidmət sistemində nemətlərin təqdim edilməsində ünvanlılıq yanaşmasının gücləndirilməsinə, sosial işçilərin əməyinin normalaşdırılması mexanizminin təkmilləşdirilməsinə, sosial xidmətlərin dəyərinin konkretləşdirilməsinə yönəlir.

Sosial xidmət üç tipə bölünə bilər: liberal model, mühafizəkar-korporativ model, sosial-demokratik model. Liberal və ya sosial yardım modeli (ABŞ, Kanada, Avstraliya) minimum standartlara təminat verilməsi və xüsusi sosial xidmət sxemlərinin subsidiyalaşdırılması, ehtiyac meyarlarının tətbiq edilməsi ilə fərqlənir. Mühafizəkar-korporativ və ya sosial sığorta modelində (Avstriya, Fransa, Almaniya, İtaliya) müxtəlif sinfi və status qrupları üçün fərdiləşdirilmiş proqramlar gəlirlərinin yenidən bölüşdürülməsi mexanizminin əhəmiyyətsiz təsirini əks etdirir və subsidiarlıq prinsipinə əməl olunmaqla təqdim edilir. Yəni burada ailənin öz üzvlərinə xidmət etmək imkanları dükəndiyi hallarda dövlət müdaxiləsi reallaşır. Məsələn, Almaniyada sosial xidmətlər qismən sosial təminat və sosial sığorta, Avstriyada isə rezidentlər üçün tibbi sığorta vəsaitləri hesabına maliyyələşdirilir. Sosial demokratik və ya solidar model (İsveç, Norveç) əvvəlki gəlirlərdən, ödəmələrdən və ya əmək məhsuldarlığından asılı olmayaraq baza, bərabər sosial hüquqları təklif edir. ümumiyyətlə, Skandinaviya sosial proqramları (o cümlədən sosial xidmətlər sahəsində) fərdi ehtiyaclara uyğunlaşdırılmaqla, əldə edənlərin bazar və ailə əlaqələrindən emansipasiya olunması, habelə ailəyə çəkilən xərclərin preventiv sosializasiyası və fərdi müstəqillik prinsiplərinə əməl edilməsi ilə fərqlənir [14; 13].

Ahıl vətəndaşlara münasibətdə Böyük Britaniyanın siyasəti onların ev şəraitində yaşamaları üçün hərtərəfli şəraitin yaradılmasına yönəlmişdir. Hesab edilir ki, internat tipli müəssisələr şəbəkəsi hələ kifayət qədər inkişaf etmədiyi üçün əsas məsələlər evdə həll olunmalıdır. Bu ölkədə sosial xidmətin təşkili yerli özünüidarə orqanlarına həvalə olunmuşdur. Yaşlı insanlara həm ştatda olan işçilər, həm də müxtəlif ictimai, dini, xeyriyyə, gənclər və digər təşkilatlardan olan çoxsaylı könüllülər yardım göstərirlər. Bütün bu sistem ümumdövlət səviyyəsində Ahıl insanlara xidmət üzrə dövlət komitəsi tərəfindən əlaqələndirilir. Almaniyada, ənənəvi olaraq, ahıl insanlara sosial xidmət sahəsində könüllü birliklər, ilk növbədə isə kilsə xeyriyyə birlikləri və Alman Qırmızı Xaç komitəsi mühüm rol oynayır. Lakin müasir dövrdə onların funksiyalarının bir hissəsini dövlət öz üzərinə götürməli olur. Bu ölkədə ahıl vətəndaşlar üçün gündəlik qayğı mərkəzləri, müxtəlif klublar geniş yayılmışdır. Ahıllara ev şəraitində sosial və tibbi yardımın göstərilməsi, təsərrüfat işlərində köməklik edilməsi üçün sosial bölmələr yaradılmışdır. Yaponiyanın sosial xidmət sahəsində yeni siyasəti ahıl vətəndaşlar üçün aralıq (evlə xəstəxana arasında) tibbi-sosial müəssisələr şəbəkəsinin sürətli şəkildə inkişaf etdirilməsini nəzərdə tutur [9].

Rusiya Federasiyasının Buryatiya Respublikasında sosial xidmət qanunvericiliyi çərçivəsində sosial xidmət standartlaşdırılmış və insanın fərdi tələbatlarının qiymətləndirilməsi, vətəndaşın və onun ailəsinin orta gəlirlərinin məbləğinin nəzərə alınması prinsipləri əsasında

həyata keçirilir. Burada müəssisələrin idarə edilməsinə yanaşma dəyişdirilmiş, sosial xidmət müəssisələrinin işinin nəticəyə yönəldilməsi üzrə sahədaxili sistem işlənib hazırlanmış və tətbiq edilməyə başlanmışdır. Xidmətlərin göstərilməsinə dair dövlət tapşırıqlarının icra mexanizmi təkmilləşdirilmiş, bütün müəssisələr şəbəkəsi üçün məqsədli fəaliyyət indikatorları və hər bir müəssisənin işinin keyfiyyətinin qiymətləndirilməsi meyarları müəyyən edilmişdir. Maddi stimullaşdırma sistemi fəaliyyət göstərir. Məsələn, müalicə-reabilitasiya xidmətləri yalnız müəssisədə qalanlar üçün deyil, müəyyən haqq müqabilində arzu edən hər kəsə göstərilir. Ödənişli xidmətlərdən əldə edilən gəlirlər müəssisənin inkişafına və işçilərin əməyinin stimullaşdırılmasına yönəldilir. Müəssisələrə muxtariyyət verilməsi ilə onların göstərdiyi xidmətlərin keyfiyyəti də yüksəlmiş, həm müəssisənin maddi-texniki bazasından, həm də təbii sağlamlaşdırma faktorlarından daha səmərəli istifadə olunmağa başlamışdır. Yeni iş formaları və xidmət növləri tətbiq edilmişdir: yüksək komfortlu palatalar, müvəqqəti qalanlar üçün ödənişli koyka-yerlər, “sifarişli” menyular və s. Müasir mərhələdə muxtar müəssisələrin işinin təhlili göstərir ki, muxtar müəssisə təşkilati-hüquqi formalarından, xüsusən də maliyyə-təsərrüfat müstəqilliyindən, sosial xidmətlər bazarının tələblərinə operativ reaksiya imkanlarından istifadə xidmətlərin keyfiyyətinin və növ müxtəlifliyinin artmasını, onların kateqoriyasından asılı olmayaraq bütün əhali üçün daha əlçatan olmasını təmin edə bilər. İnnovasion texnologiyaların, iş forma və metodlarının tətbiqi, xidmətlərin keyfiyyətinin, növ müxtəlifliyinin artması və təhlükəsizliyinin təminatı, qrant layihələrində iştirak imkanları modernləşmə prosesinin uğurla aparılmasının nəticəsi kimi qiymətləndirilə bilər [6, s. 171-176; 3, s. 282].

Sosial xidmət göstərən müəssisələrin yerli və beynəlxalq səviyyəli qrant layihələrində iştirakı təqdim edilən sosial xidmətlərin keyfiyyətini yüksəltməyə, müəssisələrin imkanlarını genişləndirməyə və xarici həmkarların mütərəqqi təcrübəsini mənimsəməyə imkan verir [12, s. 14].

Xarici ölkələrin təcrübəsi [15; 16, s. 246-259] göstərir ki, qüvvədə olan sosial xidmət modellərinin təkmilləşdirilməsi sahəsində əsas tendensiyalar bazar mexanizmlərinin sosial xidmətlərin təqdim edilməsi sisteminə tətbiq edilməsi ilə bağlıdır (özəl təchizatçı ilə müqavilə bağlanması, xidmət növlərinin, formalarının, xidmət göstərənlərin və s. sərbəst surətdə seçilməsi sisteminin inkişafı (Almaniya, Fransa, İsveç, İspaniya), xidmətlərin göstərilməsi prosesində vətəndaş cəmiyyəti institutları və əldə edənlərlə əlaqələrin gücləndirilməsi - bu xidmətlərin fərdiləşdirilməsini, gəlirlərin optimallaşdırılmasını, xidmət keyfiyyətinin yüksəldilməsini, könüllü dəstək formalarının inkişafına şərait yaradır, sosial xidmət sahəsində funksiyaların yerli orqanlara verilməsi – məsələn, İsveçdə bələdiyyələr ahıllara və əlillərə qayğı ilə bağlı tam məsuliyyət daşıyır). Bu və ya digər tendensiyalar sosial xidmətlərin təchizatçılarının strukturuna və maliyyələşmə mexanizmlərinə təsir göstərir, sosial xidməti onu əldə edənlərin tələbatlarına yönəldir, ixtisaslaşdırılmış və inteqrasiya olunmuş xidmətləri iqtisadi baxımdan daha səmərəli surətdə təqdim etməyə imkan verir.

Dövlət sosial siyasəti müxtəlif əhali qruplarının tələbatlarından və imkanlarından asılı olaraq sosial dəstək tədbirlərinin diferensiasiyasını nəzərdə tutmalıdır. Bununla əlaqədar olaraq sosial problemlərin həllinin və xidmət keyfiyyətinin yüksəldilməsinin əsasən üç – iqtisadi, sosial və tibbi istiqaməti fərqləndirilə bilər. İqtisadi istiqamət məşğulluq, gəlir, mənzil təminatı məsələlərini, sosial istiqamət sosial xidmət sistemini, tibbi istiqamət isə tibbi xidmət sistemini əhatə edir.

Müasir sosial xidmət sisteminin əsas vəzifəsi elə bir sosial siyasət formalaşdırmaqdır ki, həmin siyasətin əsasında həm insan, ailə və sosial qrupların optimal rifah səviyyəsinə çatmalarına əngəl yaradan səbəblərin aradan qaldırılmasına, həm də çətin həyat şəraitinə düşən insanlara fərdi yardımın təşkilinə yönələn dövlət fəaliyyəti dayansın. Sosial xidmət sistemində həyata keçirilən tədbirlərin əsas səmərəlilik göstəriciləri aşağıdakıları özündə əks etdirir:

- müştərilərin mühitdən və sosial xidmətlərdən asılılığının azaldılması;
- müştərilərin müstəqilliyinin artırılması;
- itirilmiş funksiyaların elementlərinin qaytarılması və vurulmuş zərərin ödənilməsi;
- aktivlik və hər bir müştəri üçün optimal olan formaların seçilməsi üçün motivasiya yaratma.

Sosial xidmətlərin səmərəlilik meyarlarının əsası kimi həmin xidmətlərin mürəkkəbliyini və davamiyyətini, onların müxtəlif əhali

kateqoriyalarının tələbat və ehtiyaclarına uyğunluq dərəcəsini də qeyd etmək olar [11].

Cəmiyyətin inkişafı elə yolla gedir ki, ictimai tələbatlar istər-istəməz müxtəlif institutların qarşılıqlı təsiri altında formalaşır və reallaşdırılır. Sosial xidmətin institusionallaşması nəticəsində yaranan sosial mexanizmlər institutlararası qarşılıqlı təsir sistemində daxili tənzimetmə barədə təsəvvürü genişləndirir. Sosial xidmət institutu ilə dövlət, iqtisadiyyat, ailə, təhsil, mədəniyyət və digər bu kimi institutlar arasında əlaqələr müasir dövrdə (hər bir institutun əhəmiyyətini və səmərəliliyini yüksəltməklə) elə tamamlayıcı və qarşılıqlı şərtləndirici xarakter daşıyır ki, bir tərəfdən, sosial xidmət institutunun ayrı-ayrı funksiyalarının həyata keçirilməsi yuxarıda sadalanan institutlar olmadan qeyri-mümkün olur, digər tərəfdən isə sosial sahənin bütün institutları sosial xidmət institutunun təsiri ilə müəyyən dəyişikliklərə məruz qalır. Bu, sosial xidmət sahəsinin inkişafının sosietal xarakter daşıdığını göstərir [5, s. 14].

Əhalinin sosial müdafiəsi sahəsində inkişaf perspektivlərinin ümumiləşdirilməsi əsasında sosial xidmətlərin əlçatanlığı və keyfiyyətinin yüksəldilməsi üçün aşağıdakı tədbirlərin həyata keçirilməsi zəruri hesab edilir:

- əhalinin sosial müdafiəsi müəssisələrinin büdcə maliyyələşməsində sabitlik təminatının artırılması;
- sosial xidmətlərin hüquqi tənzimlənməsi və keyfiyyətinə nəzarətin təkmilləşdirilməsi;
- sosial xidmətlər sahəsində standartlaşdırma;
- sosial xidmətlərə ehtiyacın fərdi qiymətləndirilməsi sisteminin işlənib hazırlanması və tətbiq edilməsi;
- sosial xidmətlərin göstərilməsinin struktur modellərinin təkmilləşdirilməsi;
- ehtiyacı olan şəxslərin sosial xidmətlər və uzunmüddətli qayğı ilə təmin edilməsində ailələrin inkişafına dəstək verilməsi;
- sosial xidmət müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi;
- əhalinin sosial müdafiəsi sisteminin innovasion potensialının yüksəldilməsi.

Xarici ölkələrin təcrübəsi baxımından sosial xidmət sisteminin inkişafının əsas istiqamətləri kimi aşağıdakıları qeyd etmək olar:

- müştərilərin sosial xidmətlərə ehtiyaclarının fərdi olaraq müəyyən edilməsi metodikasının işlənib hazırlanması;
- təqdim edilən xidmətlərin dairəsinin genişləndirilməsi;
- özünəxidmət imkanlarının genişləndirilməsi;
- səhiyyə, təhsil və digər aidiyyəti qurumlarla sosial tərəfdaşlıq münasibətlərinin möhkəmləndirilməsi;
- sosial iş mütəxəssislərinin bilik və bacarıqlarının daha da inkişaf etdirilməsi;
- müsbət təcrübələrin və gərəkli praktiki məlumatların yayılması mexanizminin işlənib hazırlanması;
- əhaliyə sosial xidmət standartlarının təkmilləşdirilməsi və s.

Bəzi ahıl insanlar tənha yaşamaq istəmirlər və müxtəlif səbəblərə görə xüsusi müəssisələrə getməyə razı olmurlar. Belə hallarda problemin həlli kimi ahıl insanları himayəyə götürən və onları aktiv həyat tərzi və keyfiyyətli qayğı ilə təmin etməyi qəbul edən ailələr çıxış edir. Ahıl insanların belə ailələrə yerləşdirilməsi sosial xidmətlərin yeni fəaliyyət istiqamətini təşkil edir. Bu növ sosial xidmətin tətbiq edilməsi ümumi tipli internat evlərində növbəliliyin azaldılmasına xidmət edir. Bu iqtisadi cəhətdən daha səmərəlidir və stasionar xidmətə alternativdir. Bu cür ailələr yaşlı nəslə ənənəvi ailə qayğısını qoruyub saxlamağa, nəsillərin əlaqəsini təmin etməyə, ailədə və bütövlükdə cəmiyyətdə ahıl insanların statusunu yüksəltməyə imkan verir. Mülayim ailə mühiti ev şəraitində yaşamağa davam, müxtəlif yardım növlərinin sistemli göstərilməsi, mənzil probleminin həlli deməkdir. Ailə qayğısına, ilk növbədə, yaşına və fiziki çatışmazlıqlarına görə özünəqulluq qabiliyyətlərini qismən itirmiş ahıllar və əlilliyi olan şəxslər xüsusilə ciddi ehtiyac duyurlar. Ahıl vətəndaşlar üçün himayəçi ailə sosial xidmətlərə ehtiyacı olan şəxslə sosial xidmət göstərən, lakin onun qohumu olmayan şəxsin birgə yaşaması və təsərrüfatçılıq etməsidir [6, s. 171-176].

Sosial xidmətin yeni formalarından biri kimi mobil briqadalar və mobil sosial xidmətlər çıxış edir. Mobil briqada ahıl insanlara evdə sosial xidmət formasıdır. Bu zaman sosial işçilər qrup halında birləşərək ehtiyacı olan vətəndaşlara birlikdə zəruri xidmətləri göstərirlər.

Sosial xidmətin göstərilməsində briqada metodundan istifadə xidmətlərin kompleks surətdə göstərilməsinə, qısa zaman kəsiyində fiziki işlərin kollektiv surətdə görülməsini, qadın və kişi əməyinin bölgüsünü tələb edən əməktutumlu xidmətlərin həyata keçirilməsinə şərait yaradır

(məsələn, evin fasadının ağardılması, odunların doğranması, həyətin məişət tullantılarından təmizlənməsi və s.). Bu metod xidmətin göstərilməsi müddətini azaltmağa və göstərilən xidmətlərin keyfiyyətini yüksəltməyə imkan verir.

Ölkəmizdə aparılan sosial siyasət kursuna uyğun olaraq, sosial müdafiə sisteminin səmərəliliyinin və əhatəliliyinin artırılmasına yönələn islahatlar sosial xidmətlər sisteminin də sosial məsələlərin həllində rolunun artırılmasına şərait yaradıb. Artıq ölkəmizdə çətin həyat şəraitində yaşayanlar da onların bu və ya digər səbəbdən sosial-psixoloji vəziyyətini, məişətini çətinləşdirən və təkbaşına öhdəsindən gələ bilmədikləri problemlərin həllində dövlət dəstəyini nəzərdə tutan geniş əhatəliliyə malik sosial xidmətlər sistemi formalaşıb. Onların sırasına xəstəlik, əlillik və ya ahıllıqla əlaqədar özünəqulluq qabiliyyəti və onlara qulluq, köməklik göstərə biləcək əmək qabiliyyətli qohumları olmayanlar, sağlamlıq imkanları məhdud, yaxud valideynlərini itirən və ya valideyn himayəsindən məhrum olan uşaqlar daxildir. Baxımsız və ya sosial təhlükəli vəziyyətdə olan yetkinlik yaşına çatmayanlar, məişət zorakılığından zərər çəkənlər, müəyyən yaşayış yeri olmayanlar, insan alveri qurbanları və qanunvericilikdə nəzərdə tutulan digər kateqoriyalardan olanlar sosial xidmət sistemi ilə əhatə olunublar [1].

Bundan başqa 2007 - ci ildən bəri Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin 11 rayonda icma səviyyəsində fəaliyyət göstərən Uşaq və Ailələrə Dəstək mərkəzləri fəaliyyət göstərir ki, bu müəssisələrin fəaliyyəti risk qruplu əhaliyə göstərilən sosial xidmətin operativliyini təmin etməklə yanaşı, ailələrdə mövcüd olan sosial problemlərin vaxtında araşdırılaraq, qarşısının alınmasında mühüm rol oynayır. Uşaq və Ailələrə Dəstək Mərkəzləri modeli müasirliyi və fərdiliyi ilə seçilir.

“Sosial xidmət haqqında” Qanundan, “Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyasından, ratifikasiya olunmuş müvafiq beynəlxalq konvensiyalardan irəli gələn müddəalar sosial xidmətlərin mütərəqqi dünya praktikasına uyğun təkmilləşdirilməsini əsas vəzifələrdən biri kimi müəyyən edir. Bununla əlaqədar 2018-2022-ci illəri əhatə edən “Azərbaycan Respublikasında sosial xidmətin inkişafı Konsepsiyası” da hazırlanıb: “Ümumilikdə, sosial xidmətlər sahəsində aparılan islahatlar həmin xidmətlərin kəmiyyət və keyfiyyətinin artırılması, ünvanlığının və əlçatanlığının, beynəlxalq standartlara uyğunluğunun təmin olunması, müvafiq normativ hüquqi bazanın təkmilləşdirilməsi, sosial işçi heyətinin bilik və peşəkarlıq səviyyələrinin yüksəldilməsi, sosial xidmətlər üzrə innovativ texnologiyalar üzərində vahid məlumat bazasının yaradılması və s. kimi hədəflərə yönəlib. Ölkənin bölgələrində sosial xidmətlərə ehtiyacların müəyyən olunması üçün sosial xəritələşmənin aparılması və sosial xidmət müəssisələri şəbəkəsinin, habelə sosial sifarişlər üzrə icra olunan sosial xidmət layihələrinin icrası işlərinin həmin əsasda genişləndirilməsi də əsas məqsədlərdəndir” [1].

Dəyişdirilmiş Avropa Sosial Xartiyasının 23-cü maddəsinə görə ahıl insanların sosial müdafiə hüququnun səmərəli surətdə həyata keçirilməsini təmin etmək məqsədilə Tərəflər bilavasitə və ya dövlət və özəl qurumlarla əməkdaşlıq edərək lazımi, o cümlədən aşağıdakılara yönəlmiş tədbirlərin görülməsini və yaxud təşviqi üçün aşağıdakı öhdəlikləri götürürlər:

aşağıda göstərilənləri sərəncamlarına vermək yolu ilə ahıl insanların mümkün qədər uzun müddət cəmiyyətin tam dəyərli üzvü olmalarına imkan vermək:

a) onlara layiqli həyat sürməyə və dövlət, ictimai və mədəni həyatda fəal rol oynamağa imkan verən yetərli vəsaitləri;

b) ahıl adamlar üçün mövcud olan xidmət və güzəştlər haqqında və onların bu xidmətlərdən istifadə imkanları haqqında olan informasiyanı;

ahıl adamlara sərbəst olaraq öz həyat tərzini seçmək və özlərinin istədikləri və bacardığı qədər vərdiş etdikləri şəraitdə müstəqil həyat sürmək imkanını aşağıda göstərilən yollarla təmin etmək:

a) onların tələbat və sağlamlıq durumuna uyğun yaşayış yerlərinin verilməsi və yaxud ehtiyaclarına uyğun olaraq onların yaşadıqları yerlərin yenidən avadanlıqla təchiz edilməsində kömək göstərməklə;

b) onların sağlamlığına qayğı ilə, sağlamlıq durumuna uyğun tibbi və digər xidmətlərlə;

özəl həyatlarının toxunulmazlığına hörmət etməklə qocalar evində yaşayan ahıl insanlara dəstək verməyi və həmçinin qocalar evindəki həyat şəraitinə toxunan qərarların qəbul edilməsində onların iştirakını təmin etmək.

Avropa Şurası Parlament Assambleyasının

Azərbaycanın Avropa Şurasına üzv olmaq üçün müraciəti haqqında 222 nömrəli rəyinin 14-cü bəndinin "h" yarımbəndində göstərilir ki, "qəbul olunduğu vaxtdan keçən iki il ərzində Avropa Sosial Xartiyasını imzalamaq və qəbul olduğu vaxtdan keçən üç il müddətində onu ratifikasiya etmək və dərhal Xartiyada öz əksini tapmış prinsiplərə uyğun siyasətin həyata keçirilməsinə çalışmaq" barədə Azərbaycan Respublikası öz üzərinə öhdəlik götürməlidir. "Avropa Sosial Xartiyasının təsdiq edilməsi barədə" 6 yanvar 2004-cü il tarixli Azərbaycan Respublikası Qanunu ilə 1996-cı il 3 may tarixli Dəyişdirilmiş Avropa Sosial Xartiyası müvafiq bəyanatlarla təsdiq edilmişdir. Bundan əvvəl, 7 aprel 2003-cü il tarixdə isə bu vəzifənin icrasını təmin etmək üçün Avropa Sosial Xartiyasında nəzərdə tutulmuş normaların tətbiqi üzrə Dövlət Proqramı hazırlanmışdır.

Bu kontekstdə, bütövlükdə təqdim edilən sosial xidmətlərin keyfiyyəti, o cümlədən ayrı-ayrı regionlar, şəhər və kənd yerlərində sosial xidmətin keyfiyyət göstəriciləri arasında mövcud olan fərqlərin aradan qaldırılması xüsusi önəm kəsb edir. Sosial xidmətlərin keyfiyyətinin yüksəldilməsi prioritet olduğu üçün məhz ahıl və digər bu kateqoriyadan olan insanların konkret ehtiyacları bu sahənin inkişaf strategiyasını müəyyən etməlidir. Ahıl və digər bu kateqoriyadan olan insanlar müxtəlif hallara görə sosial xidmət təsisatlarının onlara təqdim edə bilmədiyi deyil, konkret surətdə onların fərdi ehtiyaclarına uyğun olan zəruri xidmətləri əldə etməlidirlər.

Beləliklə, bu məqalədə qeyd edilənləri ümumiləşdirərək aşağıdakıları göstərmək olar:

1. Bu gün sivil dövlət sistemlərinin fəaliyyətinin müasir şərtləri sosial yönümlülük prioritetlərinə əsaslandığı üçün əmək qabiliyyəti olmayan vətəndaşlara sosial xidmət məsələləri xüsusi aktuallıq kəsb edir. Sivil dövlətlərin sosial siyasətində sosial xidmət təhsil və səhiyyə ilə yanaşı prioritet istiqamətlərdən biri kimi fərqləndirilir.

2. Müasir dövrdə sosial xidmət sisteminin inkişafı sosial müəssisələr şəbəkəsinin genişləndirilməsi və regional xüsusiyyətlər nəzərə alınmaqla sosial xidmət texnologiyalarının təkmilləşdirilməsi ilə xarakterizə olunur. Sosial xidmət müasir sosial siyasətin ayrılmaz tərkib hissəsi, əhalinin sosial müdafiəsinin əsas istiqamətlərindən biri kimi xarakterizə olunur. Sosial xidmətə müasir yanaşmalar bununla bitmir, o həmçinin sosial işin yeni paradiqması, sosial texnologiya, sosial institut, sosial sahənin yeni sektoru, cəmiyyətdə sabitlik və sosial gərginliyin azaldılması faktoru kimi nəzərdən keçirilir.

3. Son illər dövlətlər həssas əhali qruplarına xidmət üzrə sosial texnologiyaların diferensial şəkildə inkişaf etdirilməsi məqsədilə sosial sektorun təkmilləşdirilməsinə yönəlmiş fəal və ardıcıl tədbirlər həyata keçirirlər. Belə siyasət sosial baxımdan həssas əhali qruplarının həyat səviyyələrinin bərabərləşdirilməsi, fiziki məhdudiyyətli şəxslər üçün müyəssər mühit yaradılması vəzifəsi ilə şərtlənir. Həyata keçirilən struktur dəyişiklikləri, ilk növbədə, sosial xidmətlərin əlçatanlığının artırılmasına, sosial xidmət sistemində nemətlərin təqdim edilməsində ünvanlılıq yanaşmasının gücləndirilməsinə, sosial işçilərin əməyinin normalaşdırılması mexanizminin təkmilləşdirilməsinə, sosial xidmətlərin dəyərinin konkretləşdirilməsinə yönəlir.

4. Xarici ölkələrin təcrübəsi göstərir ki, qüvvədə olan sosial xidmət modellərinin təkmilləşdirilməsi sahəsində əsas tendensiyalar bazar mexanizmlərinin sosial xidmətlərin təqdim edilməsi sisteminə tətbiq edilməsi ilə bağlıdır. Bu və ya digər tendensiyalar sosial xidmətlərin təchizatçılarının strukturuna və maliyyələşmə mexanizmlərinə təsir göstərir, sosial xidməti onu əldə edənlərin tələbatlarına yönəldir, ixtisaslaşdırılmış və inteqrasiya olunmuş xidmətləri iqtisadi baxımdan daha səmərəli surətdə təqdim etməyə imkan verir.

5. Dövlət sosial siyasəti müxtəlif əhali qruplarının tələbatlarından və imkanlarından asılı olaraq sosial dəstək tədbirlərinin diferensiasiyasını nəzərdə tutmalıdır. Bununla əlaqədar olaraq sosial problemlərin həllinin və xidmət keyfiyyətinin yüksəldilməsinin əsasən üç – iqtisadi, sosial və tibbi istiqaməti fərqləndirilə bilər. İqtisadi istiqamət məşğulluq, gəlir, mənzil təminatı məsələlərini, sosial istiqamət sosial xidmət sistemini, tibbi istiqamət isə tibbi xidmət sistemini əhatə edir.

6. Xarici ölkələrin təcrübəsi baxımından sosial xidmət sisteminin inkişafının əsas istiqamətləri kimi aşağıdakıları qeyd etmək olar:

- əhalinin sosial müdafiəsi müəssisələrinin büdcə maliyyələşməsində sabitlik təminatının artırılması;
- müştərilərin sosial xidmətlərə ehtiyaclarının fərdi olaraq müəyyən edilməsi metodikasının işlənib

hazırlanması;

- təqdim edilən xidmətlərin dairəsinin genişləndirilməsi;
- sosial xidmətlərin hüquqi tənzimlənməsi və keyfiyyətinə nəzarətin təkmilləşdirilməsi;
- özünəxidmət imkanlarının genişləndirilməsi;
- səhiyyə, təhsil və digər aidiyyəti qurumlarla sosial tərəfdaşlıq münasibətlərinin möhkəmləndirilməsi;
- sosial iş mütəxəssislərinin bilik və bacarıqlarının daha da inkişaf etdirilməsi;
- ehtiyacı olan şəxslərin sosial xidmətlər və uzunmüddətli qayğı ilə təmin edilməsində ailələrin inkişafına dəstək verilməsi;
- müsbət təcrübələrin və gərəkli praktiki məlumatların yayılması mexanizminin işlənib hazırlanması;
- əhaliyə sosial xidmət standartlarının təkmilləşdirilməsi;
- sosial xidmət müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi;
- sosial xidmətin göstərilməsində briqada metodundan istifadə imkanlarının genişləndirilməsi;
- əhalinin sosial müdafiəsi sisteminin innovasion potensialının yüksəldilməsi;
- bütövlükdə təqdim edilən sosial xidmətlərin keyfiyyəti, o cümlədən ayrı-ayrı regionlar, şəhər və kənd yerlərində sosial xidmətin keyfiyyət göstəriciləri arasında mövcud olan fərqlərin aradan qaldırılması;
- qeyri-stasionar sosial xidmətlərin inkişaf etdirilməsi;
- sosial xidmət müəssisələrində "xospislərin" təşkili imkanlarının genişləndirilməsi;
- təcili sosial xidmət növünün tətbiqinə və həyata keçirilməsinə başlanılması;
- əhaliyə sosial xidmət tədbirlərinin maliyyələşdirilməsi sistemində yerli büdcələrin və büdcədənkənar sosial fondların rolunun artırılması və s.

7. Sosial xidmətin fərdiləşdirilməsi və humanistləşdirilməsi onun inkişafının prioritet istiqamətlərindən biri kimi nəzərdən keçirilməlidir.

8. Sosial xidmət müəssisələrinin fəaliyyətinin inkişafının sürətləndirilməsi və səmərəliyinin yüksəldilməsi üçün digər ölkələrin təcrübəsində sınanmış və müsbət nəticələr vermiş yeni proqressiv sosial texnologiyalardan istifadə imkanları genişləndirilməlidir.

9. Əhaliyə sosial xidmət sistemində vətəndaşlara evdə xidmət üzrə yeni xidmət növləri və sosial iş formaları fəal şəkildə tətbiq edilməlidir.

**Açar sözlər:** *sosial xidmət, xarici ölkələrin təcrübəsi, yeni yanaşmalar, dövlətin sosial siyasəti, sosial xidmət hüququ, əhalinin sosial müdafiəsi*

## ƏDƏBİYYAT SİYAHISI

*1. "Sosial xidmət müəssisələrinin işinin təşkili: Avropa standartları və Azərbaycan təcrübəsi" mövzusunda konfrans keçirilib. https: // azertag.az/ xeber/Sosial _xidmet_muessiselerinin_isinin_teskili_Avropa_standartlari_ve_Azerbaycan_tecrubesi_ movzusunda_konfrans_kechirilib-1116332*

*2. Атякшева М.А. Социальные услуги: определение, виды, условия предоставления // Научное сообщество студентов: Междисциплинарные исследования: сб. ст. по мат. XXIV междунар. студ. науч.-практ. конф. № 13(24). https://sibac.info/archive/meghdis/13(24).pdf*

*3. Бутуева З.А. Анализ оказания медикосоциальной помощи пожилым людям в нестационарных учреждениях социального обслуживания (на примере городского центра социального обслуживания г. Улан-Удэ) // Вестник БГУ, вып. 5, 2009, с. 281-286*

*4. Буянова М.О. Социальное обслуживание граждан России в условиях рыночной экономики: Дисс. ... докт. юрид. наук. М., 2003, 325 с.*

*5. Воробьева Э.Л. Социетальное развитие сферы социального обслуживания: Опыт регионального исследования: Дисс. ... докт. соц. наук. М., 2003, 435 с.*

*6. Ефимов С.Г. Социальное обслуживание граждан старшего возраста в условиях модернизации общества // Вестник Бурятского государственного университета. Выпуск 5: Психология, социальная работа. Улан-Удэ: Изд-во БГУ, 2012, с. 171-176*

*7. Межибовская И.В. Правовая категория «социальное обслуживание» в системе социальной защиты республики Казахстан // Вестник Пермского Университета. Юридические науки, 2013, выпуск 3 (21), с. 144-151*

*8. Понятие и особенности социального обслуживания населения в РФ. http://odiplom.ru/*

*lab/ponyatie-i-osobennosti-socialnogo-obsluzhivaniya-naseleniya-v-rf-kak-vida-socialnogo-obespecheniya.html*

*9. Социальное обслуживание в зарубежных странах. https://studbooks.net/1179343/sotsiologiya/sotsialnoe_obsluzhivanie_zarubezhnyh_stranah*

*10. Социальное обслуживание населения – ведущее направление социальной защиты населения. https://studme.org/1667020629409/sotsiologiya/sotsialnoe_obsluzhivanie_naseleniya_veduschee_napravlenie_sotsialnoy_zaschity_naseleniya*

*11. Сущность социального обслуживания. http://geolike.ru/page/gl_7333.htm*

*12. Хамаганова Н.Н. Публичный доклад об итогах деятельности Министерства социальной защиты Республики Бурятия за 2010 г. Улан-Удэ: Экос, 2011, 21 с.*

*13. Anheirer H.K., Kumar S. Social Service in Europe. An annotated Bibliography. Institut fur Sozialarbeit und Sozialpadagogik e.V. [Institute for Social Work and Social Education] Beobachtungsstelle fur die Entwicklung der sozialen Dienste in Europa [Monitoring Unit], 2000, 344 p.*

*14. Esping-Andersen G. The Three Worlds of Welfare Capitalism. Cambridge: Polity Press, 1990*

*15. Montero A.L., van Duijn, S.Zonneveld, N.Minkman, M.H.Nies. Integrated Social Service in Europe, European Social Network, Brighton, 2016, 86 p.*

*16. Pavolini E., Ranci C. «Restructuring the welfare state: reforms in long-term care in Western European countries», Journal of European Social Policy, 2008, № 18 (3], pp. 246-259*

**Джейран Рахматуллаева**
**Аспирант Академии Государственного Управления при Президенте Азербайджанской Республики**
**Лектор кафедры социально-культурной деятельности Азербайджанского Государственного Университета Культуры и Искусства**

**РЕЗЮМЕ**

Опыт развитых стран и новые подходы в реализации социальных услуг.

В данной статье рассматриваются новые подходы в реализации социальных услуг на основе опыта развитых стран. Автор показывает, что вопросы социального обслуживания граждан с ограниченными возможностями приобретают особую актуальность, поскольку современные условия функционирования цивилизованных государственных систем основаны на приоритетах социальной направленности. Статья, на основе проведенных исследований и путем изучения опыта развитых стран мира, раскрывает различия в основных направлениях системы развития социальных услуг.

**Ключевые слова:** *социальная служба, опыт зарубежных стран, новые подходы, социальная политика государства, право на социальные услуги, социальная защита населения.*

**Jayran Rakhmatullaeva**
**Postgraduate Academy of State Management at the President of the Republic of Azerbaijan**
**Lecturer of department of Social and Cultural Studies of Azerbaijan**

**SUMMARY**

New approaches ın provısıon of socıal servıces through the experıence of developed countrıes

This article explores new approaches in provision of social services through the experience of developed countries. The author shows that the issues of provision of social services to individuals with disabilities are of particular relevance, because modern conditions of functioning of civilized state systems are based on the priorities of social orientation. The article reveals the main directions of development of social service systems through researches and experience of developed countries.

**Key words:** *social services, the experience of foreign countries, new approaches, state social policy, the right to social security, social protection of population.*

UOT: 330.8:330.88

# İqtisadiyyat

## SUMQAYITIN SOSİAL-İQTİSADİ İNKİŞAFININ DÜNYA SƏVİYYƏSİNƏ QALDIRILMASINDA İLHAM ƏLİYEV MODELİ

**ŞƏFA ƏLİYEV**
*İqtisad elmləri doktoru,*
*Sumqayıt Dövlət Universitetinin*
*"Dünya iqtisadiyyatı və marketinq"*
*kafedrasının professoru*
***Azərbaycan***
*E-mail: shafaaliyev@gmail.com*

Sumqayıt şəhəri bu il özünün 70 yaşını qeyd edir. Ölkə Prezidenti İlham Əliyevin 2019-cu il 14 fevral tarixli Sərəncamı ilə Sumqayıt şəhərinin 70 illik yubileyinin təntənəli şəraitdə qeyd edilməsi nəzərdə tutulmuşdur [1]. Sumqayıt şəhəri özünəməxsus iqtisadi-tarixi inkişaf yolu keçmiş, boş düzənlikdən müasir infrastruktura malik iri sənaye şəhərinə çevrilə bilmişdir [2].

2003-cü ilin sonlarından başlayaraq, Sumqayıtın sosial-iqtisadi inkişaf proseslərində yeni bir mərhələ - müasir inkişaf mərhələsi başlanmışdır. Həmin dövrdə Ulu Öndərin tapşırıq və tövsiyələrinə uyğun olaraq artıq Sumqayıtda yığılıb qalmış problemlərin həlli istiqamətində işlər başlamışdır. 2004-cü ilin əvvəllərindən isə bu məsələlərin daha planlı və sistemli şəkildə həyata keçirilməsi intensivləşdirildi. Xüsusilə, ölkə Prezidenti İlham Əliyevin tapşırıq və qərarlarına uyğun olaraq, Sumqayıt şəhərinin sosial-iqtisadi inkişafının sürətləndirilməsi, şəhərin sənaye potensialından səmərəli istifadə olunması, şəhərin enerji təchizadının yaxşılaşdırılması tədbirlərinin görülməsinə ciddi önəm verilmişdir. Ölkə Prezidentinin 11 fevral 2004-cü il tarixli Fərmanı ilə təsdiq olunmuş "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nda (2004-2008-ci illər) nəzərdə tutulmuş tədbirlər sırasında Sumqayıt şəhəri ilə bağlı bir sıra mühüm tədbirlər yer almışdır və onların reallaşdırılması şəhərin sosial-iqtisadi inkişafına əsaslı təkan vermişdir [3]. Bu proqramın icrası proseslərində Sumqayıtda sənaye potensialının bərpası və gücləndirilməsi məqsədilə, həmçinin metallurgiya sənayesinin inkişafının təmin edilməsi üçün bir sıra işlər görülmüşdür. Sumqayıtda 525 MVt gücünə malik müasir elektrik stansiyası inşa olunmuş və istismara verilmişdir. Qeyd edək ki, "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramının (2004-2008-ci illər)" icrası çərçivəsində ölkə Prezidenti İlham Əliyev Sumqayıta 5 dəfə səfər etmişdir. Son 10 il ərzində Sumqayıtn sosial-iqtisadi inkişaf proseslərində, onun sənaye potensialının yenilənməsində və güclənməsində əlamətdar hadisələrdən biri də - Sumqayıt Texnologiyalar Parkının tikintisi və istismara verilməsi ilə əlaqəlidir. Ölkə Prezidenti İlham Əliyev 2009-cu il dekabr ayının 22-də Sumqayıta özünün VI səfəri çərçivəsində STP-nin birinci mərhələsində inşa olunmuş obyektlərin açılış mərasimində iştirak etmişdir. Bu Parkda 13 istehsalat sahəsi fəaliyyət göstərir [4].

Sumqayıt 70 ildə dinamik sosial-iqtisadi inkişaf prosesləri keçərək, hazırkı yüksək inkişaf səviyyəsinə gəlib çıxmışdır. Bununla belə, hər bir dövrün özünün çağırışları və tələbləri vardır. Bu məsələlər daim dövlət başçısının nəzarətindədir və Sumqayıtın daha yüksək standartlar səviyyəsinə qədər inkişaf etdirilməsinin vacibliyini önə çəkir. Şübhəsiz, bu yanaşma və tələblər, eyni zamanda, dövlət başçısının özünün diqqət və qayğısı son nəticədə Sumqayıtın tarazlı və dinamik inkişafına əlavə stimullar verir. Sumqayıtın sosial-iqtisadi inkişafının mövcud mexanizmlərinin və yanaşmalarının yenilənməsi, istifadə olunan metodların və üsulların dünya səviyyəsinə qaldırılması, mütərəqqi şəhərsalma və inkişaf etdirilməsi təcrübəsinin Sumqayıta gətirilməsi və tətbiq olunması, şəhər təsərrüfatının və sosial infrastrukturun səviyyəsinin yüksəldilməsi, müasir dövrün standartlarına cavab verən səviyyəyə çatdırılması tədbirlərinin kompleks və sistemli şəkildə reallaşdırılması təşəbbüsləri və qətiyyəti ilə belə bir fikir irəli sürmək mümkündür ki,

məhz Sumqayıtın sosial-iqtisadi inkişafının dünya səviyyəsinə qaldırılmasında İlham Əliyev modeli formalaşmışdır [5].

Dövlət başçısı dəfələrlə Sumqayıta səfər edərək onun inkişafı, sosial-iqtisadi tərəqqisi, müəssisələrin modernizasiya edilməsi, müasir texnologiyalar əsaslı və rəqabətqabiliyyətli müəssisələr şəbəkəsinin yaradılması, şəhər təsərrüfatının maddi-texniki bazasının gücləndirilməsi, əhalinin yaşayış səviyyəsinin daha yüksək standartlara uyğunlaşdırılması, şəhər əhalisinin sosial-iqtisadi fəallığının artırılması üçün təşəbbüslər göstərmiş, tövsiyələr və sərəncamlar vermiş, zəruri tədbirlərin görülməsi üçün dövlət strukturlarına, nazirlik və komitələrə, aidiyyəti təşkilatlara zəruri tapşırıqlar vermişdir. Bütün bunların nəticəsində Sumqayıtın sosial-iqtisadi inkişafında uzun illər ərzində diqqətdən kənarda qalmış problemlərin sistemli şəkildə həll edilməsi, şəhərin inkişafı üçün vacib təminatın göstərilməsi, mövcud problemlərə bütün səviyyələrdə daha ciddi yanaşmaların bir prinsip kimi ortaya qoyulması, şəhərin sosial-iqtisadi inkişafına əsaslı vəsait qoyuluşunun artırılması və daha çox daxili investisiyaların yönəldilməsi, xarici investisiyaların cəlbi üçün fəal tədbirlərin görülməsi, şəhərin investisiya-innovasiya cəlbediciliyinin artırılması mümkün olmuşdur.

Ölkə Prezidentinin rəhbərliyi tərəfindən verilən tapşırıqlar və nəzarəti altında “Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”na müvafiq olaraq, Sumqayıtda kompleks tədbirlər həyata keçirilmişdir. Dövlət Proqramının icrası ilə bağlı tədbirlərin təhlili göstərir ki, Sumqayıt şəhərində həmin tədbirlərin reallaşdırılmasına strateji yanaşmalar təmin olunmuşdur [6]. Prezident Sumqayıtla bağlı iri həcmli layihələrin həyata keçirilməsi və reallaşdırılması proseslərini daim izləməklə, zəruri tapşırıqlar və tövsiyələr verməklə, bərabər mühüm istehsal sahələrinin və obyektlərin tikintisi, yaxud genişləndirilməsi ilə bağlı məsələlərdə yerindəcə bütün proseslərlə tanış olmağa və daha səmərəli şəkildə bu proseslərin reallaşdırılmasına nail olmağa üstünlük verir [7].

Sumqayıtın sosial-iqtisadi inkişafının dünya səviyyəsinə qaldırılmasında İlham Əliyev modelinin əsas tərkib elementləri kimi - milli iqtisadiyyatın şaxələndirilməsi və bununla yanaşı, əhalinin sosial rifahının yaxşılaşdırılması, gəlirlərinin artırılması, yeni iş yerlərinin yaradılması üçün davamlı şəkildə tədbirlərin görülməsi, insan kapitalına və insan amilinə xüsusi önəmin verilməsi, aparılan iqtisadi və institusional islahatların mərkəzində insan amilinin dayanması daha çox diqqət çəkirlər. Təsadüfi deyildir ki, Azərbaycanda son 10-15 il ərzində nəinki paytaxt Bakıda, həmçinin ölkənin digər iri şəhərlərində və regionlarında, o cümlədən, Sumqayıtda əhalinin yaşayış səviyyəsi və sosial rifahı əhəmiyyətli səviyyədə yüksəlmişdir. Akademik Ramiz Mehdiyev haqlı olaraq qeyd edir ki: “Prezident İlham Əliyevin siyasəti nəticəsində Azərbaycan iqtisadiyyatının şaxələnməsi və sosial rifah sahələrində mühüm nailiyyətlər əldə edilib” [8]. Dövlət başçısının bu siyasəti uzunmüddətli strateji hədəflərə hesablanıb və məqsəd - Azərbaycanın sosial-iqtisadi inkişafının daha təkmilləşdirilmiş və dünya standartlarına uyğunlaşdırılmış sosial-iqtisadi inkişaf modelini hazırlamaqdan və reallaşdırmaqdan ibarətdir. Qürurverici haldır ki, bu strateji yanaşmaların tərkib hissəsində və dövlət başçısının tapşırıqlarında Sumqayıt əsas yerlərdən birini tutur və xüsusilə, ölkə iqtisadiyyatının neftdən asılılığını azaltmaq istiqamətində bütün diqqətlər Sumqayıt və onun sənaye potensialının daha da artırılmasına yönəldilmişdir. Buna görə də, ölkə Prezidentinin Sumqayıta münasibəti xeyli fərqlidir və o, öz fəaliyyətində Sumqayıtın sosial-iqtisadi inkişafına, onun dinamikliyinə, sənaye potensialının artırılmasına, şəhərin infrastrukturunun inkişaf etdirilməsi tədbirlərinə daha çox diqqət yetirir. Öz sözündə və vədlərində qətiyyətliliyi, dürüstülüyü və bütövlüyü ilə daim ölkə vətəndaşlarının, o cümlədən, sumqa-yıtlıların misilsiz rəğbətinin qazanan Prezident İlham Əliyev Sumqayıtın sənaye potensialının gücləndirilməsi və müasir texnologiyalar əsaslı müəssisələrin yaradılması məqsədilə, 2011-ci il 21 dekabr tarixli Fərmanı ilə Sumqayıtda Kimya Sənayesi Parkı yaradılmışdır. Parkın ərazisi 508 hektardan çoxdur və burada müasir tələblərə cavab verən infrastruktur yaradılmışdır [9]. Parkda yeni müəssisələrin yaradılması, xidmətlərin təşkili, ümumilikdə, sahibkarlıq fəaliyyətinin və biznesin inkişaf etdirilməsi üçün hər cür şərait təmin edilmişdir. Həmin parkda 20-ə yaxın rezident qeydə alınmışdır və yatırılan investisiyaların həcmi 3 mlrd. ABŞ dollarından çoxdur. Təqdirəlayiq haldır ki, bu sənaye

parkında idxala, ixraca, müxtəlif növ əmtəələrin və malların təchizatına münbit şərait yaratmaq məqsədilə Logistik Mərkəzin fəaliyyətinin təşkili və genişləndirilməsi nəzərdə tutulmuşdur. Mərkəz müxtəlif tipli yüklərin, o cümlədən, xammalın, hazır məhsulların və avadanlığın nəqlinə xidmət edəcəkdir. Bu nəhəng Kimya Sənaye Parkının əsas strateji hədəfləri sırasında Qafqaz və Orta Şərq regionunda kimya-sənaye mərkəzinə çevrilmək, yerli istehsalın rəqabətqabiliyyətliliyi artırmaq, ölkədə innovativ və yüksək texnoloji istehsalı və bu sahədə sahibkarlığı genişləndirmək, qeyri-neft sektorunun inkişafını stimullaşdırmaq, investorlar üçün geniş imkanlar məkanı olmaq, kimya sənayesində məhsullarının əsas təchizatçısına çevrilmək və s. daha çox diqqət çəkirlər [10]. Maraqlıdır ki, ölkə Prezidenti təkcə Sumqayıt Kimya Sənaye Parkına 7 dəfə səfər etmişdir və hər dəfə də bu unikal kimya müəssisələri şəbəkəsinin inkişafına öz töhfəsini vermişdir. İlk dəfə Kimya Sənaye Parkına dövlət başçısı 2013-cü il 03 oktyabr tarixində XII səfəri çərçivəsində gəlmiş və təməlqoyma mərasimində iştirak etmişdir [11]. Bu mərasimdə çıxış edən Prezident İlham Əliyev demişdir: "Kimya Sənaye Parkının yaradılması Sumqayıtın inkişafına böyük təkan verəcəkdir... Bu gün, bir daha demək istəyirəm ki, tarixdə qalacaqdır. Sumqayıtın yeni sənaye inkişafı günüdür. Sumqayıtın böyük, müasir sənaye şəhəri olmasının başlanması günüdür". Məlumdur ki, son on il ərzində Azərbaycanda sənaye sahələrinin inkişafına kompleks və sistemli yanaşma təmin olunmuşdur. Əsas məqsəd sənaye sahələrinin potensialının bərpası və dirçəldilməsi, eyni zamanda yeni sənaye müəssisələrinin yaradılması və müasir texnologiyalar əsaslı rəqabət qabiliyyətli sənaye müəssisələrinin istismara verilməsi olmuşdur. Təsadüfi deyildir ki, ölkə Prezidentinin 2014-cü il 10 yanvar tarixli Sərəncamı ilə 2014-cü il - Azərbaycan Respublikasında "Sənaye ili" elan olunmuşdur [12]. Bundan əlavə, Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 26 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı" xüsusi əhəmiyyət kəsb edir. Sənayenin modernləşdirilməsi və strukturunun təkmilləşdirilməsi, qeyri-neft sənayesinin inkişafı və ixrac potensialının artırılması, yüksək əlavə dəyər yaradan rəqabətqabiliyyətli sənaye istehsalının genişləndirilməsi, yeni müasir istehsal sahələrinin yaradılmasının dəstəklənməsi və sənaye sahəsində məşğulluğun təmin olunması Dövlət Proqramının əsas məqsəd və vəzifələrindəndir [13].

Sumqayıtda kompleks və sistemli şəkildə həyata keçirilən sosial-iqtisadi inkişaf proseslərinin dünya səviyyəsinə qaldırılmasında İlham Əliyev modelinin formalaşması, inkişaf etməsi və təkmilləşməsi ilə bağlı aruqmentləri, yanaşmaları, əsasları ümumiləşdirməyə cəhd göstərsək, Sumqayıtın sosial-iqtisadi inkişafının dünya səviyyəsinə qaldırılmasında İlham Əliyev modelinin strateji hədəfləri, prinsipləri, xüsusiyyətləri və meyarlarının blok-sxemini Şəkil 1-dəki kimi verməyi məqsəduyğun hesab etmişik.

**Şəkil 1. Sumqayıtın sosial-iqtisadi inkişafının dünya səviyyəsinə qaldırılmasında İlham Əliyev modelinin strateji hədəflərinin, prinsiplərinin, xüsusiyyətlərinin və meyarlarının blok-sxemi (müəllif tərəfindən hazırlanmışdır).**




Bu modeldə bir tərəfdən, iqtisadi inkişaf modelinin zənginləşdirilməsi, dünya standartlarına cavab verən iqtisadi sistemin formalaşdırılması

və bu sistemdə yer alan fəaliyyəti istiqamətlərinin təkmilləşdirilməsi önəmli hal kimi baxılırsa, digər tərəfdən, strateji məsələlər kimi ölkə əhalisinin yaşayış səviyyəsinin yüksəldilməsi tədbirlərinin görülməsi, sosial-iqtisadi inkişafın sürətləndirilməsi, əhalinin gəlirlərinin artırılması, cəmiyyətlə milli iqtisadiyyat arasında balanslaşdırılmanın təmin olunması, dayanıqlı inkişafın bərqərar olması üçün zəruri tədbirlərin görülməsi, ölkə iqtisadiyyatının rəqabətqabiliyyətliliyinin artırılması və ölkənin hər yerində, bütün şəhər və rayonlarda sosial-iqtisadi inkişafının təmin olunması vacib şərtlərdən sayılır. Bütün bunlar öz əksini ölkə Prezidentinin 6 dekabr 2016-cı il tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi"ndə tapmışdır [14.]. Artıq strateji yol xəritəsi çərçivəsində sosial-iqtisadi və institusional islahatların dairəsi genişləndirilməkdədir, mövcud mexanizmlər təkmilləşdirilir, daha çevik dövlət qurumları yaradılır, iqtisadiyyatın strukturu qeyri-neft sektoru müəssisələri hesabına diversifikasiyalaşdırılır və bu sahələrin inkişafının sürətləndirilməsi üçün ölkənin əsas iqtisadiyyat sahəsi olan neft-qaz sektorunun potensialından maksimum bəhrələnmək üçün kompleks tədbirlər görülür. Yenə ölkə Prezidentinin 6 dekabr 2016-cı il tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının neft və qaz sənayesinin (kimya məhsulları daxil olmaqla) inkişafına dair Strateji Yol Xəritəsi"ndə bu sahədə daha strateji hədəflərin yerinə yetirilməsi, o cümlədən, kimya sənayesinin inkişaf potensialından səmərəli istifadə olunması məsələləri nəzərdə tutulmuşdur [15]. Bu strateji tədbirlərin reallaşdırılmasında Sumqayıt şəhərinin rolu əhəmiyyətli yerlərdən birini tutur, xüsusilə, qeyri-neft təmayüllü sənaye sahələrinin inkişaf etidirilməsində, bu sahədə ixrac potensialının artırılmasında, neft və qaz emalının dərinləşdirilməsi hesabına yeni rəqabətqabiliyyətli kimya və neftkimya məhsullarının alınmasında, digər sənaye sahələrinin, o cümlədən, metallurgiya sənayesinin dirçəldilməsində, qara metallurgiya sənayesi təyinatlı müasir müəssisələr şəbəkəsinin yaradılmasında, elektrotexnika məhsulları istehsalının çeşidinin genişlən-dirilməsində, toxuculuq və yeyinti sənayesi məhsullarının sturkturunun diversifikasiyalaşdırılmasında Sumqayıt şəhərinin potensialından səmərəli istifadə olunması strateji əhəmiyyət daşıyır.

Qeyd edək ki, dövlət başçısı Sumqayıtın inkişafına, onun tərəqqisinə, sumqayıtlılara böyük inam hissi ilə yanaşaraq, 2015-ci ilin sentyabrından başalayaraq, şəhərin sosial-iqtisadi inkişafının müasir dövrdə strateji hədəflərinin reallaşdırılmasında daha intensiv və təsirli addımlar atmış, qərarlar vermişdir. 2015-ci ilin sentyabr ayından 2019-cu ilin iyun ayınadək ölkə Prezidenti tərəfindən Sumqayıtın bu və ya digər sosial-iqtisadi problemləri, abadlıq-quruculuq işləri və s. məsələlər üzrə 9 dəfə sərəncam vermiş və maraqlıdır ki, 9 dəfə də Sumqayıt şəhərinə səfər etmişdir. Şübhəsiz, bu məsələlərdə sistemlilik, ardıcıllıq, məqsədyönlülük diqqət çəkir və əsas prinsiplər kimi götürülmüşdür. Başlıca məqsəd - Sumqayıtın Azərbaycanın sosial-iqtisadi inkişafında rolunu və əhəmiyyətini artırmaq, onun inkişaf səviyyəsinin paytaxt Bakının standartlarına çatdırmaq, regionun və dünyanın cəlbedici, dinamik inkişaf edən şəhərlərindən birinə çevirməkdir.

2015-2016-cı illər Sumqayıtda abadlıq-quruculuq proseslərinin xüsusilə sosial-iqtisadi təyinatlı infrastrukturun yenidən yaradılması, şəhərin simasının gözəlləşdirilməsi, yaradılan obyektlərin dünya standartları səviyəsində qurulması və, ilk növbədə Sumqayıtın tarixində əhəmiyyətli bir layihənin – beynəlxalq standartlara ən yüksək səviyyədə cavab verən Sumqayıt bulvarının tikintisinin başa çatdırılması tədbirləri ilə yadda qalmışdır. Eyni zamanda, Sumqayıtda ulu öndər Heydər Əliyevin tarixi xidmətlərinə, şəxsiyyətinə, dahiliyinə və Sumqayıtın inkişafında misilsiz əməyinə, töhfəsinə layiq olan və yüksək standartlar səviyyəsinə cavab verən müasir Heydər Əliyev Mərkəzinin binası istismara verilmişdir. Qısa müddət ərzində şəhərin abadlaşdırılmasında, quruculuq işlərinin sürətləndirilməsində, yüksək standartlara cavab verən müasir sosial-iqtisadi obyektlərin yaradılmasında misilsiz uğurlar əldə edən Sumqayıt dövlət başçısının ən yüksək qiymətinə layiq görülmüş və rəğbətini qazanmışdır. 27 sentyabr 2016-cı ildə dövlət başçısı Sumqayıtda Heydər Əliyev Mərkəzinin iclas zalında şəhər ictimaiyyətinin nümayəndələri ilə görüşmüş və Sumqayıtda bir çox gözəl obyektlərin açılışını qeyd etmişdir [16]. Heydər Əliyev Mərkəzinin əzəməti və möhtəşəmliyi,

memarlıq və funksionallıq baxımından gözəl bir abidə, həm də Ulu Öndərin adına layiq bir mərkəz olmasını dövlət başçısı xüsusilə vurğulamışdır. Həmin tədbirdə İlham Əliyev demişdir: "Sumqayıt böyük sənaye şəhəridir. Sumqayıtın əhalisi də kifayət qədər böyükdür. Sumqayıt Bakıdan sonra Azərbaycanın ikinci şəhəridir... Sumqayıtda çox böyük işlər görülüb. Bu gün iştirak etdiyim açılışlar onu əyani şəkildə göstərir. Cəmi 8-9 ay ərzində belə möhtəşəm Heydər Əliyev Mərkəzi yaradılıb... Sumqayıt bulvarı isə hesab edirəm ki, bir möcüzədir... Bu bulvarın yaradılmasında şəhər rəhbərliyinin xüsusi rolu, Sumqayıt sakinlərinin böyük rolu var... Hesab edirəm ki, Sumqayıt artıq Bakının səviyyəsinə gəlib çatıb. Bu münasibətlə mən sizi ürəkdən təbrik edirəm". Sumqayıtda aparılan abadlıq-quruculuq işlərinə, Sumqayıtın sosial-iqtisadi inkişafının sürətləndirilməsi, şəhər təsərrüfatının yenilənməsi, şəhərin simasının dəyişdirilməsi və dünya standartları səviyyəsinə qaldırılması tədbirlərinə dövlət başçısının bu cür yüksək qiymət verməsi, ilk növbədə, şəhər rəhbərliyinin səmərəli fəaliyyətinin və onun öz ətrafında birləşdirdiyi bütün sumqayıtlıların gərgin əməyinin nəticəsində mümkün olmuşdur.

Sumqayıtda son illərdə nəhəng sənaye müəssisələrinin yaradılması ilə də diqqət çəkmişdir. 2018-ci ilin iyul ayının 18-də isə dövlət başçısı Sumqayıta XIX səfərini edərək, İtaliya Prezidenti Sercio Mattarella ilə birlikdə, Sumqayıt Kimya Sənaye Parkında "SOCAR Polymer" layihəsi çərçivəsində inşa edilən polipropilen zavodunun açılışında iştirak etmişlər [17]. Bu zavodun ümumi investisiya xərcləri 816 mln. dollar təşkil edən və bunun 768 mln. dollarınını xərclənməsi hesabına başa gələn Polipropilen zavodu Sumqayıtın sənaye potensialının müasirləşdirilməsində və gücləndirilməsində tarixi bir hadisədir. Zavodun istismar dövründə əldə edəcəyi gəlirin ümumi məbləği 6,3 mlrd. ABŞ dolları həcmində proqnozlaşdırılır. Bu zavodun digər bir üstün cəhəti, onun multiplikativ xüsusiyyətə malik olmasıdır, belə ki, zavodda istehsal olunan 19 növ polipropilen və 12 növ yüksəksıxlıqlı polietilen məhsulları, eyni zamanda, xammal təyinatlılıdırlar. Həmin xammalların hesabına yeni emal müəssisələrin yaradılması mümkün olacaq və sahibkarlıq subyektlərinin xammalla təchiz edilməsində problemlər aradan qalxacaqdır.

2005-2018-ci illərdə Sumqayıtda ümumi məhsul buraxılışı 7,6 dəfəyə yaxın artmışdır. 2015-2018-ci illərdə isə artım kifayət qədər intensiv xarakter almışdır və qısa müddət ərzində şəhərdə ümumi məhsul buraxılışının həcmi 2,36 dəfə artaraq, 2018-ci ildə 2013,4 mln. manat təşkil etmişdir. Xüsusilə, 2015-2018-ci illərdə Sumqayıt şəhərinin ölkə ÜDM-də payı əhəmiyyətli səviyyədə artmış və 2018-ci ilin yekununda 2,52 % təşkil etmişdir. Şəhər üzrə ümumi məhsul buraxılışı 2003-ci illə müqayisədə 2018-ci ildə 12,5 dəfə artmış, sənaye məhsulunun həcmi həmin dövrdə 10 dəfə yüksəlmiş, orta aylıq əmək haqqı bu dövrdə 6,1 dəfə artmış, yerli büdcə xərcləri 2003-cü ildə dotasiya ilə birlikdə 36,0 milyon manat olmuşdursa, 2018-ci ildə yerli büdcə xərcləri dotasiyasiz 45,0 milyon manat təşkil etmiş və ya 2003-ci illə müqayisədə 4,1 dəfədən cox artmış, 2003-2018-ci il ərzində infratruktur layihələrinə 3 mlrd. manatdan çox investisiya qoyulmuş, 2003-2018-ci il ərzində 84 min yeni iş yeri, o cümlədən, 67 min daimi iş yerləri açılmışdır.

Ölkə Prezidentinin 29 yanvar 2019-cu il tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nda strateji yanaşmalar kimi sosial-iqtisadi inkişafın sürətləndirilməsi, qeyri-neft sektorunun davamlı inkişafı, sahibkarlıq və investisiya mühitinin cəlbediciliyinin artırılması, yeni müəssisələrin yaradılması və iş yerlərinin açılması prioritetlik təşkil edir [18]. 2019-cu illərin əvvəlrindən başlayaraq, Sumqayıtda sosial-iqtisadi inkişafın sürətləndirilməsi istiqamətində və strateji hədəflərin reallaşdırılmasında aparılan kompleks və sistemli işlər daha da intensivləşmişdir. 2019-cu il yanvar ayının 16-da Sumqayıta XXII səfəri çərçivəsində dövlət başçısı artıq inşası başa çatdırılmış "SOCAR karbamid" zavodunun açılışında iştirak etmişdir. Bu layihənin ümumi dəyəri təxminən 800 mln. avro səviyyəsində olmuşdur və zavodun ərsəyə gəlməsi üçün beynəlxalq banklardan Azərbaycan dövlətinin zəmanəti ilə 500 mln. avro vəsait cəlb edilmişdir. Zavodda 500 nəfərin işləməsi gözlənilir. 2019-cu il fevralın 18-də isə ölkə Prezidenti Sumqayıta XXIII səfərini etmiş və bu səfərin əsas məqsədi - Sumqayıt Kimya Sənaye Parkında "SOCAR Polymer" layihəsi çərçivəsində inşa edilən yüksək

sıxlıqlı polietilen zavodunun açılışında iştirak etməkdən ibarət olmuşdur. Bu zavodda istehsal olunacaq məhsulun əhəmiyyətli hissəsi ixracyönlüdür. Müəssisənin kollektivi ilə görüşdə Prezident İlham Əliyev bunları demişdir: "Keçən il polipropilen zavodunun açılışı rəsmi qaydada qeyd olundu. Bu gün isə biz, yüksəksıxlıqlı polietilen zavodunun açılışını qeyd edirik. Beləliklə, "SOCAR Polymer" tam gücü ilə işə başlayır... Siz - burada çalışan gənclər yaxşı bilrsiniz ki, zavodun istehsal gücü 300 min ton olacaqdır. Bu, bizim qeyri-neft ixracımızın 15 % artımı deməkdir... Bu zavodun fəaliyyətə başlaması, Sumqayıt şəhərinin ümumi inkişafına da böyük töhfədir... Bu gün nəinki Sumqayıtın tarixində, ölkəmizin tarixində çox əlamətdar bir gündür. Çünkü hər bir ölkə belə gözəl müəssisələrlə fəxr edə bilər" [19].

Ölkə Prezidenti İlham Əliyevin diqqət və qayğısı nəticəsində Azərbaycanın sosial-iqtisadi inkişafının strateji hədəflərinin reallaşdırılmasında Sumqayıt şəhərinin əhəmiyyətinin daha da artması ilə bağlı fikir və mülahizələrimizi aşağıdakı kimi ümumiləşdirmişik:

1. Sumqayıt özünəməxsus sosial-iqtisadi inkişaf tarixi olan və 70 il ərzində formalaşmış və sürətli inkişaf yolu keçmiş yetkin bir şəhər kimi qiymətləndirilməlidir. Sumqayıt güclü infrastruktura, çevik şəhər təsərrüfatı baxımından maddi-texniki bazasına malik şəhərdir və burada insanların rahat yaşaması üçün hər bir şərait vardır.

2. Sumqayıtda ölkənin sənaye potensialının əhəmiyyətli hissəsi formalaşdırılmışdır və bir-birinin ardınca yeni istehsal gücləri, rəqabətqabiliyyətli müəssisələr yaradılmaqdadır, başqa sözlə, Sumqayıt təkcə Azərbaycanın yox, regionun, dünyanın güclü sənaye potensialına malik şəhərlərindən biri kimi inkişaf etmişdir.

3. Sumqayıt Heydər Əliyev ideyalarının təcəssümündən formalaşan, Prezident İlham Əliyevin diqqət və nəzarəti, strateji qərarları sayəsində sürətlə inkişaf edən, xüsusilə, Azərbaycan üçün əhəmiyyətli olan qeyri-neft təmayüllü iqtisadiyyat sahələrində ixtisaslaşan, dayanıqlı sosial-iqtisadi inkişaf ənənələrinə və mexanizmlərinə malik olan bir şəhərdir.

4. Sumqayıtın sosial-iqtisadi inkişafının dünya səviyyəsinə qaldırılmasında İlham Əliyev modelinin reallaşdırılması nəticəsində, bu şəhər dövrün çağırışlarını özündə əks etdirən, qlobal təsirlərə dayanıqlılıq mexanizmləri olan balanslaşdırılmış şəhər və sənaye infrastrukturuna malik, memarlıq baxımından zövqlə yeniləşən, abadlaşan, ekoloji aspektlərdən tamamilə dəyişən və intensiv yaşıllaşan, Sumqayıt bulvarının gözəlliklərindən dünyaya boylanan, səs salan müasir şəhərlərdən birinə çevrilmişdir və s.

**Açar sözlər:** *İlham Əliyev modeli, Sumqayıt şəhəri, Sumqayıt - 70, Sumqayıt sənaye mərkəzi, şəhər infrastrukturu, Sumqayıtın sosial-iqtisadi inkişafı, Sumqayıtın sosial-iqtisadi inkişaf perspektivləri.*

## ƏDƏBİYYAT SİYAHISI

*1. Sumqayıt şəhərinin 70 illik yubileyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. Bakı şəhəri, 14 fevral 2019-cu il.*

*2. Alıyev H.A. Sumqayıt şəhərinin tarixi. Bakı, "Elm və təhsil" nəşriyyatı, 2011, 544 s.*

*3. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər). Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə təsdiq edilmişdir. Bakı şəhəri, 11 fevral 2004-cü il, № 24.*

*4. STP MMC. https://scip.az.*

*5. Şəfa Əliyev. Azərbaycanın sosial-iqtisadi inkişafında Sumqayıt şəhərinin strateji əhəmiyyəti. Monoqrafiya. Sumqayıt, "Azəri" nəşriyyatı, 2019, 368 s.*

*6. Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının yekunları. Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyi. Bakı, 2014, 233 s.*

*7. İlham Əliyev Sumqayıt Texnologiyalar Parkında polimer məhsulları istehsal zavodunun genişləndirilməsi işləri ilə tanış olmuşdur. 24 aprel 2012. https://president.az/articles/4756.*

*8. Ramiz Mehdiyev: "Prezident İlham Əliyevin siyasəti nəticəsində Azərbaycan iqtisadiyyatının şaxələnməsi və sosial rifah sahələrində mühüm nailiyyətlər əldə edilib", 3 dekabr 2012. http://www.news.milli.az.*

*9. Sumqayıt Kimya Sənaye Parkı - https://scip.az.*

*10. Hədəfimiz – Gələcəyə baxışımız. SKSP. https://scip.az.*

11. *İlham Əliyev Sumqayıt Kimya Sənaye Parkının təməlqoyma mərasimində iştirak etmişdir. 03 oktyabr 2013. https://president.az/articles/9464.*

12. *2014-cü ilin Azərbaycan Respublikasında "Sənaye ili" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. Bakı şəhəri, 12 mart 2014-cü il, № 331.*

13. *Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı. Azərbaycan Respublika Prezdentinin 2014-cü il 26 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmişdir.*

14. *Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 06 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.*

15. *Azərbaycan Respublikasının neft və qaz sənayesinin (kimya məhsulları daxil olmaqla) inkişafına dair Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.*

16. *İlham Əliyev Sumqayıtda Heydər Əliyev Mərkəzinin binasının açılışında iştirak edib. 27 sentyabr 2016. https://president.az/articles/21187*

17. *İlham Əliyev və İtaliya Prezidenti Sercio Mattarella Sumqayıt Kimya Sənaye Parkında "SOCAR Polymer" layihəsi çərçivəsində inşa edilən polipropilen zavodunun açılışında iştirak ediblər. 18 iyul 2018. https://president.az/articles/29502*

18. *Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakı şəhəri, 29 yanvar 2019-cu il. №500.*

19. *İlham Əliyev Sumqayıtda "SOCAR Polymer"in yüksək sıxlıqlı zavodunun açılışında iştirak edib. 18 fevral 2019. https://president.az/articles/31894.*


**Модель Ильхама Алиева по поднятию на мировой уровень социального-экономического развития Сумгайыта**

**РЕЗЮМЕ**


В статье исследована модель Ильхама Алиева по поднятию на мировой уровень социального-экономического развития Сумгайыта. Анализированы процессы развития Сумгайыта в качестве сильного индустриального центра и поднятие его на мировой уровень. Раскрыта и обоснована стратегическая роль инициативы и решений Ильхама Алиева в модернизации промышленного центра города. Рассмотрена модель Ильхама Алиева в поднятии на мировой уровень социально-экономического развития Сумгайыта и обоснована важность города Сумгайыта в реализации стратегических целей социально-экономического развития страны.



**Ключевые слова:** *модель Ильхам Алиева, город Сумгайыт, Сумгайыт – 70, Сумгайытский индустриальный центр, городская инфраструктура, социально-экономическое развитие Сумгайыта, перспективы социально-экономическое развитие Сумгайыта.*


**Model of Ilham Aliyev to raise the social and economic development of Sumgait to the world level**

**SUMMARY**


The model of Ilham Aliyev on raising the social and economic development of Sumgait to the world level is investigated in the article. The processes of development of Sumgait as a strong industrial center and its raising to the world level are analyzed for this purpose. The strategic role of Ilham Aliyev's initiative and decisions in modernizing the industrial center of the city is considered then. The model of Ilham Aliyev in raising the social and economic development of Sumgait to the world level and the importance of the Sumgait city in the implementation of the strategic goals of social and economic development of the country is given in the end of the article.



**Keywords:** *the model of Ilham Aliyev, the Sumgait city, Sumgait - 70, the Sumgait industrial center, city infrastructure, social and economic development of Sumgait, perspectives of social and economic development of Sumgait.*

UOT: 331.108.4:331.434

# AZƏRBAYCANDA İNSAN KAPİTALINDAN İSTİFADƏNİN SƏMƏRƏLİ TƏŞKİLİNİN STRATEJİ MƏSƏLƏLƏRİ

**LOĞMAN ABDULLAYEV**
*Sumqayıt Dövlət Universitetinin*
*"Maliyyə və mühasibat uçotu" kafedrasının*
*müdiri, dosent, iqtisad üzrə fəlsəfə doktoru*
***Azərbaycan***
*E-mail: loqman.2005@mail.ru*

Müasir dövrdə Azərbaycanda sosial-iqtisadi inkişafın mövcud modelinin daha da təkmilləşdirilməsi prosesləri gedir. Bir tərəfdən, sosialyönlü islahatlar dərinləşdirilirsə, başqa tərəfdən, iqtisadi və struktur dəyişiklikləri genişləndirilməkdədir. İnsan resurslarından və bütövlükdə insan kapitalından istifadənin maksimum səmərəli təşkilinin strateji əhəmiyyəti artmışdır. Ölkə Prezidenti İlham Əliyevin yanında 2019-cu il oktyabrın 15-də keçirilən iqtisadi müşavirədə dövlət başçısı qeyd etmişdir ki, bizim sosial siyasətimiz birmənalıdır. Dəfələrlə demişəm ki, siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır... Əlbəttə ki, əsas vəzifəmiz iqtisadi inkişafı şərtləndirən islahatları dərinləşdirməkdir. Bütövlükdə, Azərbaycanda iqtisadi sahədə islahatlar uğurla gedir... Ancaq buna baxmayaraq, əlbəttə, bir daha demək istəyirəm ki, istifadə olunmayan kifayət qədər ehtiyatlar var və biz bu ehtiyatları aşkar etməliyik. Elə etməliyik ki, Azərbaycanda hər bir sahə şəffaf olsun və ən yüksək standartlara cavab versin [1]. Fikrimizcə, bu strateji vəzifələrin reallaşdırılmasında və başlanılmış islahatların daha uğurla aparılmasında, planlaşdırılan yüksək nəticələrin əldə edilməsində insan amili – insan kapitalı həlledici rola malikdir. Belə ki, iqtisadi inkişaf proseslərinin səmərəli təşkilində kadrların peşəkarlıq səviyyəsinin artırılması, hər bir kadrdan onun hazırlıq və peşəkarlıq xüsusiyyətlərinə görə istifadə olunması, kadrların düzgün seçilməsi və qeyd edildiyi kimi, şəffaflığın təmin olunması mühüm önəm daşıyır. Bu amillər baxımdan, ölkəmizdə insan kapitalından istifadənin müasir dövrün tələblərinə uyğun şəkildə səmərəli təşkili problemləri fundamental səviyyədə öyrənilməli, problemlər açıqlanmalı və aparılmış təhlillər nəticəsində zəruri tədbirlər həyata keçirilməlidir [2]. Təsadüfi deyildir ki, Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan 2020: gələcəyə baxış İnkişaf Konsepsiyası" insan kapitalının inkişafı və səmərəli sosial müdafiə sisteminin qurulması məsələlərinə ciddi diqqət yetirilmişdir. Konsepsiyada əhalinin sağlamlığı və səhiyyə sahəsində mövcud olan problemlərin aradan qaldırılılması, səhiyyə sisteminin maddi-texniki bazasının gücləndirilməsi, müasir təhsil sisteminin formalaşdırılması və təhsildə idarəetmənin təkmilləşdirilməsi məsələlərinə strateji yanaşmalar ortaya qoyulmuşdur [3]. Bunlarla yanaşı, təhsil sisteminin informasiyalaşdırılması, elektron təhsil texnologiyalarının inkişaf etdirilməsi və informasiya-kommunikasiya texnologiyalarından istifadənin daha geniş mənimsənilməsi, ölkənin təhsil sisteminin dünya və Avropa təhsil məkanına inteqrasiyasının sürətləndirilməsi əsas vəzifələr kimi qarşıya qoyulmuşdur. Eyni zamanda, sosial müdafiə sistemində islahatların aparılması, mövcud mexanizmlərin təkmilləşdirilməsi, aktiv məşğulluq tədbirlərinin gücləndirilməsi, ölkədə gender bərabərliyinin təmin edilməsi və ailə institutunun inkişafına daha çox diqqətin yönəldilməsi prioritetlik təşkil etmişdir. Son illərdə ölkəmiz mövcud olan iqtisadi inkişaf modelinin tərkib hissəsinin yenilənməsinin daha sürətli fazasına daxil olmuşdur və bunlar da öz növbəsində insan kapitalından istifadənin yeni səmərəli modellərinin, üsullarının və mexanizmlərinin işlənib hazırlanmasını və tətbiqini şərtləndirir. Ölkə Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi çərçivəsində həyata keçirılən prioritet vəzifələr

və tədbirlərlə bağlı, insan kapitalından istifadənin aktuallığı diqqət çəkir [4]. Bu strateji vəzifələrin reallaşdırılması ilə əlaqədar olaraq ölkəmizdə insan kapitalından istifadənin səmərəli təşkili üzrə daha optimal mexanimzlərin formalaşdırılması, hazırlanması və tətbiqi istiqamətində davamlı tədbirlər görülməkdədir. Aparılan sosial və iqtisadi islahatlarda insan amili və insan kapitalı məsələlərinə konseptual yanaşmalar təmin olunmaqdadır. Azərbaycan Respubliklası İqtisadiyyat Nazirliyinin İqtisadi İslahatlar Elmi-Tədqiqat İnstitutunun mütəxəssisləri tərəfindən hazırlanmış “İnsan kapitalının inkişafı: nəzəri aspektləri və qiymətləndirmə metodologiyası” adlı sənəddə göstərilir ki, iqtisadiyyatın inkişafında insanın rolu daha düzgün başa düşüldükcə, onun tədqiq edilib öyrənilməsi zərurəti də get-gedə daha anlamlı olmuş, həmçinin bu sahədə aparılan tədqiqatların əhatə dairəsi və intensivliyi artmışdır. Bu baxımından son illər insan inkişafı ilə bağlı tədqiqatların aparılması daha da genişlənmişdir. Belə ki, baş verən köklü iqtisadi-siyasi dəyişikliklər şəraitində insan kapitalının inkişaf etdiilməsi və bu kapitaldan səmərəli istifadə edilməsi mühüm əhəmiyyət kəsb edir. Çünki burada məqsəd sosial proseslərin inkişafına təsir edən amilləri aşkara çıxarmaq, meydana çıxa bilən və mümkün olan bütün sosial nəticələrin dövlət səviyyəsində həll edilməsi vəziyyətini qiymətləndirən prosesin inkişaf meyillərinə fəal təsir göstərməkdən ibarətdir. Başqa sözlə desək, insan kapitalının inkişafı və ondan səmərəli istifadə olunması dövlətin fəal siyasətinin mühüm istiqamətlərindən birini təşkil edir [5, s.5]. Bundan əlavə, insan kapitalının formalaşmasında ölkə regionlarında mövcud olan məhsuldar qüvvələrdən səmərəli istifadənin modelləşdirilməsi məsələlri yaxın perspektivdə qarşıda duran strateji vəzifələrdəndir [6, s. 49.]. Eyni zamanda, insan kapitalından istifadənin cəmiyyət və milli iqtisadiyyatın qarşısında duran strateji vəzifələrin hədəfləri ilə qarşılıqlı konteksdə baxılması və fəaliyyət mexanizmlərin hazırlanması vacibdir [7]. İnsan kapitalı dövlətin iqtisadi və sosial siyasətinin təkmilləşdirilməsində, çevikliyinin artırılmasında əsas istinad və dayaq mənbəyi kimi qiymətləndirilməli, onun inkişafı ilə bağlı tədbirlərin etibarlı maliyyə təminatı yaradılmalı və işlək fəaliyyət mexanizmləri tətbiq edilməlidir. İnsan kapitalından istifadənin əsasında ölkənin sosial-iqtisadi inkişafı və əhalinin özünün sosial rifahı dayanmalıdır [8]. Bu qeyd olunan istiqamətlərdə daha yüksək nəticələrin əldə edilməsi üçün insan kapitalından istifadənin idarəetmə modelinin formalaşdırılmasında “dövlət-özəl sektor” əməkdaşlığı da xüsusi diqqət mərkəzində saxlanılmalıdır. Müasir dövrün çağırışları nəzərə alınmaqla, insan kapitalının formalaşdırılması və ondan istifadənin təşkilinin səmərəliliyini əngəlləyən problemlərin sistemli şəkildə baxılması və həlli yollarının müəyyənləşdirilməsi təmin edilməlidir. Bu amillər baxımından, istər müəssisə, istərsə də bütövlükdə ölkə səviyyəsində insan resurslarının inkişafı və insan kapitalına balanslaşdırılmış investisiyalar sahəsində düşünülmüş və ardıcıl siyasətə ehtiyac vardır [9, s.41]. Bütövlükdə, insan resurslarından səmərəli istifadənin təmin edilməsi ilə bağlı maksimum optimal modellər, variantlar hazırlanmalı və tətbiq olunmalıdır.

Şəkil 1-də insan kapitalından istifadənin səmərəli təşkilinin strateji məsələlərinə yanaşmaların qiymətləndirilməsi prinsipləri və meyarlarının blok-sxemi verilmişdir.

Şəkil 1-dən bu nəticəyə gəlmək olar ki, insan kapitalından istifadənin səmərəli təşkilinin strateji məsələlərinə yanaşamların qiymətləndirilməsi prinsipləri və meyarları içərisində, ilk növbədə insan kapitalından istifadənin təmin eilməsi üzrə uzunmüddətli dövrü əhatə edən fəaliyyət strategiyasının və dövlət siyasətinin formalaşdırılması, bunlarla bağlı yanaşmaların, tətbiq olunan mexanizmlərin stratji səviyyədə qiymətləndirlməsi və nəzərə alınması, ölkədə təhsil infrastrukturunun gücləndirilməsi və idarəetmə mexanizminin təkmilləşdirilməsi, insanların yaşayış səviyyəsinin yaxşılaşdırılması və yoxsulluğun azaldılması isitqamətində görülən tədbirlərin səmərəliliyi, insan amilinin bütün sahələrdə obyektiv qiymətləndirilməsi və dəyərləndirilməsi, insanların bacarıq və istedadlarının reallaşdırılması üçün şəffaf rəqabət mühitinin yaradılması, ölkədə ədalətli və işlək sosial müdafiə sisteminin formalaşdırılması və s. daha çox diqqət çəkirlər.

Qeyd edək ki, insan kapitalının inkişaf etdirilməsi və ondan istifadənin səmərəli təşkilinin təzahürü və ifadəsi ölkədə əsas sosial-iqtisadi

**Şəkil 1. İnsan kapitalından istifadənin səmərəli təşkilinin strateji məsələlərinə yanaşmaların qiymətləndirilməsi prinsipləri və meyarlarının blok-sxemi (tədqiqat materialları üzrə müəllif tərəfindən hazırlanmışdır).**




göstəricilərdə öz əksini tapır və onların bir qrupunu təhlil etmişik. Şəkil 2-də 2000-2018-ci illərdə Azərbaycanda ÜDM-ın artım dinamikası verilmişdir və həmin dövrdə ölkə ÜDM-in ümumi həcmi dəfələrlə artmışdır, belə ki, 2010-cu ildə bu göstərici 42,5 mlrd. manat olmuşdursa, 2015-ci ildə 54,35 mlrd. manat və 2018-ci ildə isə 79,8 mlrd. manat təşkil etmişdir.

**Şəkil 2. Azərbaycanda ÜDM-ın artım dinamikası, mlrd. manat (2000-2018-ci illər) (ARDSK-nın məlumatları üzrə müəllif tərəfindən hazırlanmışdır - https://www.stat.gov.az).**



Ölkədə adambaşına düşən ÜDM-in həcminə görə isə, bu göstərici 2000-ci ildə 593,2 manat, 2010-cu ildə 4763 manat, 2015-ci ildə 5706,6 manat və 2018-ci ildə 8126,2 manat təşkil etmişdir.

Şəkil 3-də ölkədə sənaye sektorunda cəmləşən insan kapitalı haqqında təsəvvürün formalaşdırılması üçün bu sektorda işçilərin 2005-2018-ci illər üçün orta illik sayı təhlil olmuşdur və təhlil nəticəsində görsənir ki, 2005-ci ilə nisbətdə 2015-ci ildə bu sektorda işləyənlərin sayı azalmışdır, amma sonrakı illərdə artım tempi bərpa olunmuş, sənaye sektorunda yeni iş yerlərinin yaradılması hesabına orta illik işçi sayı artmış və 2018-ci lin yekununda 211 min nəfərə yaxın olmuşdur.




**Şəkil 3. Azərbaycanda sənaye sektorunda işçilərin orta illik sayı, 2005-2018-ci illər, min nəfər (ARDSK-nın məlumatları üzrə müəllif tərəfindən hazırlanmışdır - https://www.stat.gov.az).**

İnsan kapitalının inkişafında və bununla bağlı proseslərin idarəetmə mexanizmlərinin təkmilləşdirilməsində güclü potensialın formalaşdırılmasında sənaye sektorunun rolu böyükdür.

Şəkil 4-də 2011-2017-ci illərdə Azərbaycanda sənaye məhsulunun həcminin dinamikası öz əksini tapmışdır və təhlildən göründüyü kimi, sənaye məhsulunun artım tempinin intensivləşdirilməsinə, yüksək texnologiyalar əsaslı sənaye sahələrinin inkişaf etdirilməsinə ehtiyac vardır.




**Şəkil 4. Azərbaycanda sənaye məhsulunun həcminin dinamikası, mlrd. manat, 2011-2017-ci illər (ARDSK-nın məlumatları üzrə müəllif tərəfindən hazırlanmışdır - https://www.stat.gov.az).**

Şəkil 5-də isə Azərbaycanda iqtisadi fəaliyyət növləri üzrə sənaye istehsalının strukturu təhlil olunmuşdur və buradan görünür ki, sənayenin strukturunda emal sənayesi 2005-ci ildə 25,9 % və mədənçıxarma sənayesi 67,4 % təşkil etmişdir, 2015-ci ildə bu göstəricilər müvafiq olaraq 24,4 % və 70,3 %, 2018-ci ildə isə emal sənayesinin payı 21,9 % və mədənçıxarma sənayesinin payı 73,3 % səviyyəsində olmuşdur.




**Şəkil 5. Azərbaycanda iqtisadi fəaliyyət növləri üzrə sənaye istehsalının strukturu, %-lə, 2005-2018-ci illər (ARDSK-nın məlumatları üzrə müəllif tərəfindən hazırlanmışdır - https://www.stat.gov.az).**

Bu təhlildən belə qənaətə gəlmək olar ki, ölkə sənayesinin qeyri-neft sektoru sahəsinin daha intensiv inkişafına və bu sahələrdə insan kapitalından istifadənin maksimum səmərəli təşkilinə böyük zərurət vardır. Bundan əlavə, ölkəmizin iqtisadi inkişafının modelləşdirilməsində insan kapitalının inkişaf etdirilməsi və ondan istifadənin səmərəli şəkildə modelləşdirilməsi bu istiqamətdə fəaliyyət strategiyasının daha da təkmilləşdirilməsini tələb edir.

## NƏTİCƏ

Tədqiqat materialları əsasında bu nəticəyə gəlmək olar ki, son illərdə ölkəmiz mövcud olan iqtisadi inkişaf modelinin tərkib hissəsinin yenilənməsinin daha sürətli fazasına daxil olmuşdur və bunlar da öz növbəsində insan kapitalından istifadənin yeni səmərəli modellərinin, üsullarının və mexanizmlərinin işlənib hazırlanmasını və tətbiqini tələbd edir. Bu istiqamətlərdə bir sıra mühüm məsələlərə və strateji yanaşamalra daha çox diqqət yetirilməlidir:

- ölkəmizdə insan kapitalından istifadənin səmərəli təşkili üzrə daha optimal mexanimzlərin formalaşdırılması, hazırlanması və tətbiqi istiqamətində davamlı tədbirlər görülməlidir;
- yaxın illərdə insan kapitalının daha obyektiv dəyərləndirilməsi və bunlarla bağlı sistemli tədbirlərin görülməsi üzrə uzunmüddətli dövrü əhatə edən proqramlar və tədbirlər kompleksi hazırlanaraq həyata keçirilməlidir;
- müasir dövrdə insanların bacarıq və istedadlarının reallaşdırılması üçün şəffaf rəqabət mühitinin yaradılması, ölkədə ədalətli və işlək sosial müdafiə sisteminin formalaşdırılması təmin olunmalıdır və s.

**Açar sözlər:** *insan kapitalı, insan kapitalından istifadənin modelləşdirlməsi, insan kapitalından istifadənin səmərəliliyi, insan kapitalına strateji yanaşmalar, insan kapitalının strateji məsələləri, insan kapitalının inkişaf perspektivləri.*

## ƏDƏBİYYAT SİYAHISI

*1. İlham Əliyevin yanında iqtisadi müşavirə keçirilib. 15 oktyabr 2019. - https://president.az/articles/34450.*

*2. Vəliyev V. Azərbaycanda həyata keçirilən iqtisadi islahatlar dərin elmi əsaslara malikdir. - http://www.economy.gov.az/article/v-veliyev-meqale/22015.*

*3. Azərbaycan 2020: gələcəyə baxış İnkişaf Konsepsiyası. Azərbaycan Respublikası Prezidentinin 2012-cı il 29 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.*

*4. Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.*

*5. İnsan kapitalının inkişafı: nəzəri aspektləri və qiymətləndirmə metodologiyası. Azərbaycan Respubliklası İqtisadiyyat Nazirliyi, İqtisadi İslahatlar Elmi-Tədqiqat İnstitutu. Bakı - 2017. - 27 s.*

*6. Əliyev Ş.T. İnsan kapitalının formalaşmasında regionlarda məhsuldar qüvvələrdən səmərəli istifadənin strateji aspektləri / "Milli iqtisadiyyatın perspektiv inkişafı üzrə Strateji Yol Xəritəsi: insan kapitalının formalaşmasının prioritet istiqamətləri" mövzusunda Respublika Elmi-Praktiki Konfransın materialları. Bakı Biznes Universiteti. 2018 - 496 s.*

*7. Советов П.М., Федорков А.И., Кабичкин*

*С.Е. Методологические аспекты оценки состояния и использования человеческого капитала // Экономические и социальные перемены: факты, тенденции, прогноз. 2012. №2. С.104-114.*

*8. Долгова Т.В., Мешкова Ю.О. Об эффективности использования человеческого капитала // Научный вестник ЮИМ. 2015. №2. С.22-24.*

*9. Mədətov M. İnsan kapitalının iqtisadi səmərəliliyinin yaxşılaşdırılması // "Geostrategiya" jurnalı №01 (49) yanvar-fevral 2019, S. 38-41.*

## СТРАТЕГИЧЕСКИЕ ВОПРОСЫ ЭФФЕКТИВНОЙ ОРГАНИЗАЦИИ ИСПОЛЬЗОВАНИЯ ЧЕЛОВЕЧЕСКОГО КАПИТАЛА В АЗЕРБАЙДЖАНЕ

### РЕЗЮМЕ

В статье исследованы стратегические вопросы эффективной организации использования человеческого капитала в Азербайджане. С этой целью анализированы важные вопросы и сущность проблем, связанных с использованием человеческого капитала, определены принципы и критерии оценки подходов к стратегическим вопросам эффективной организации использования человеческого капитала. Исследован ряд социально-экономических показателей, отражающих эффективную организацию формирования, развития и использования человеческого капитала. Анализирована динамика ВВП, среднегодовая численность работающих в промышленном секторе, динамика объема промышленной продукции и структура промышленного производства по различным сферам экономической деятельности. Подготовлены рекомендации и даны предложения по исследуемым проблемам.

**Ключевые слова:** *человеческий капитал, моделирование использования человеческого капитала, эффективность использования человеческого капитала, стратегические подходы к человеческому капиталу, стратегические вопросы человеческого капитала, перспективы развития человеческого капитала.*

## STRATEGIC ISSUES OF EFFECTIVE ORGANIZATION OF HUMAN CAPITAL USE IN AZERBAIJAN

### SUMMARY

Strategic issues of effective organization of human capital use in Azerbaijan are explored in the article. Important issues and the essence of problems related to the use of human capital are analyzed and principles for assessing approaches to strategic issues of effective organization of the use of human capital are defined for this purpose. A number of socio-economic indicators reflecting effective organization of formation, development and use of human capital are studied too. The dynamics of GDP, the average annual number of workers in the industrial sector, the dynamics of the volume of industrial production and the structure of industrial production in various spheres of economic activity are analyzed then. Recommendations and proposals on these problems are prepared in the end of the article.

**Key words:** *human capital, modeling of human capital, human capital efficiency, strategic approaches to human capital, strategic human capital issues, human capital perspectives.*

UOT: 336.02: 336.71

# AZƏRBAYCANIN MALİYYƏ XİDMƏTLƏRİ BAZARINDA SİSTEM ƏHƏMİYYƏTLİ BANKLARIN MULTİPLİKATİV XÜSUSİYYƏTLƏRİNİN MÜHÜM ASPEKTLƏRİ

**VAHİD ƏLİYEV**
*Azərbaycan Dövlət İqtisad Universitetinin dissertantı*
***Azərbaycan***
*E-mail: vahid.eliyev@gmail.com*

Müasir dövrdə ölkəmizdə makroiqtisadi və makromaliyyə sabitliyinin təmin edilməsi məsələləri strateji əhəmiyyət kəsb edir. 2015-2016-cı illərdə ölkədə devalvasiya prosesləri ilə əlaqədar olaraq maliyyə sistemindəki və bank sektorundakı üzə çıxan problemlər bu istiqamətdə daha dayanıqlı və təsirli mexanizmlərin işlənib hazırlanmasını və tətbiqini şərtləndirir. Ölkəmizin bank sistemi hələ də milli iqtisadiyyatın inkişafında mühüm əhəmiyyət kəsb edən maliyyə və kredit təminatının əlçatanlıq səviyyəsində formalaşdırılmasında, real iqtisadiyyat sahələrinin ucuz kredit resursları ilə təmin olunmasında zəruri funksiyaları yetərincə yerinə yetirə bilmir. Haqlı olaraq 15 oktyabr 2019-cu ildə ölkə Prezidenti İlham Əliyevin yanında keçirilən iqtisadi müşavirədə qeyd olunmuşdur ki, hazırda sahibkarlığın maliyyələşdirilməsi üçün kifayət qədər vəsait çatışmır, çünki bank sektoru tərəfindən kifayət qədər maliyyələşmə həyata keçirilmir. Bunlarla bağlı olaraq dövlət başçısı demişdir: "... bank sektoru bizdə iqtisadiyyatın artımına, iqtisadiyyatın real sektorunun artımına o qədər də kömək göstərmir və son illərdə yenə də istehlak kreditlərinin həcmi artır. Mən əvvəlki illərdə bunu demişəm ki, bizim portfelimizdə istehlak kreditləri üstünlük təşkil edir və bank sektorunun böhranının səbəblərindən biri də məhz o idi. İndi də mənə məlumat verilir ki, yenə də bu meyillər artır, iqtisadiyyatın real sektoruna yox, yenə də istehlaka, yəni istehlak mallarının alınmasına kreditlər verilir. Əgər bu davam edərsə, yenə də bir neçə ildən sonra xoşagəlməz problemlərlə üzləşə bilərik" [1]. Bu mühüm amillər və mövcud problemlər ölkəmizdə bank sisteminin əhəmiyyətli səviyyədə inkişaf etdirilməsini, xüsusilə maliyyə xidmətləri bazarında sistem əhəmiyyətli bankların multiplikativ xüsusiyyətlərinin mühüm aspektlərinin yetərincə qiymətləndirilməsi və nəzərə alınmasını şərtləndirir. Yəni, maliyyə xidmətləri bazarındakı müasir yanaşmalar maksimum olaraq, yeni inkişaf tendensiyalarına və fəaliyyət istiqamətlərinə yönəldilməlidir. Son dünya maliyyə böhranının təsiri nəticəsində maliyyə resurslarının hərəkəti, onların banklar vasitəsilə toplanması, bölüşdürülməsi, real sektorun səmərəli fəaliyyətinə imkan verən kredit resurslarının formalaşdırılması, onların əlçatanlığının təmin edilməsi vacib məsələlər kimi xarakterizə olunur. Bir sözlə, antiböhran şəraitində maliyyə-kredit sisteminin səmərəli fəaliyyət göstərməsi və maliyyə bazarlarında daha rəqabətqabiliyyətli xidmətlərin formalaşdırılması, onların son təyinatı üzrə çatdırılmasında çevikliyin təmin edilməsində sistem əhəmiyyətli bankların rolu artırılmalıdır.

Dünya təcrübəsindən baxsaq, sistem əhəmiyyətli banklar kifayət qədər funksiyaları reallaşdırırlar və həmin funksiyaların həyata keçirilməsi nəticəsində iqtisadi inkişaf proseslərinə, ilk növbədə real iqtisadiyyat sektorlarına multiplikativ təsir göstərmək potensialının formalaşdırılması təmin olunur. Professorlar Ə.Ələkbərov və E.Sadıqov qeyd edirlər ki, Azərbaycan müstəqillik əldə etdikdən sonra bank fəaliyyətinin təkmilləşdirilməsi həmişə diqqət mərkəzində olmuşdur. Azərbaycan Respublikasında iqtisadiyyatın sabit və sürətli inkişafı bank sisteminin formalaşması, xüsusilə də kommersiya banklarının səmərəli fəaliyyət göstərməsi ilə sıx bağlıdır... İqtisadiyyatın real sektoru ilə bank sisteminin daha fəal qarşılıqlı əlaqədədə olaması üçün uzunmüddətli resurs bazasının yaradılması tələb olunur... Respublikamızda investisiya banklarının fəaliyyətinə də xüsusi ehtiyac vardır. İnvestisiya bankları inkişaf etmiş maliyyə bazarlarının əsas iştirakçısı hesab olunur, çünki o, investorla emitent arasında mühüm vasitəçi rolunu oynayaraq gəlir əldə etməsinə şərait yaradır. İlik mərhələdə respublikamızda bu

vəzifəni kommersiya banklarına vermək, fəaliyyət uğurla nəticələnərsə ayrıca investisya banklarının yaradılmasına başlamaq olar [2, s.20]. Digər tərəfdən, müasir dövrdə ölkə iqtisadiyyatında bank sektorunun və əsas etibarlı ilə sistem əhəmiyyətli bankların rolunun artırılması strateji əhəmiyyət kəsb edir və bu istiqamətdə davamlı tədbirlərin görülməsi, zəruri mexanizmlərin işlənib hazırlanması və həyata keçirilməsi vacib şərtlərdəndir. Bank sektorunun səmərəli fəaliyyəti və multiplikativ xüsusiyyətləri nəticəsində ümumilikdə ölkənin maliyyə sistemində sabitliyin təmin olunması, bankların ictimai vəsaitlərindən səmərəli istifadə hesabına iqtisadiyyatda və cəmiyyətdə maliyyə resurslarının toplanması, yığılması, saxlanılması və bölüşdürülməsi funksiyalarının yerinə yetirilməsi, iqtisadiyyatda əmtəə rolunda pulun çıxış etməsinin təmin edilməsi kimi mühüm funksiyalar yerinə yetirilir [3]. Bunlarla bərabər, ölkəmizdə pul tədavülü, hesablaşmalar və valyuta münasibətləri sahəsində vəziyyətin tənzimlənməsi, bank və ödəniş sistemlərinin sabitliyinin təmin edilməsi, əmanətçilərin və kreditorların maraqlarının qorunması, əhalidən və investorlardan cəlb olunmuş vəsaitlərdən səmərəli istifadə edilməsi, investisiya layihələrinin hazırlanması və həyata keçirilməsi tədbirləri bankların fəaliyyətində önəmli və strateji vəzifələr kimi diqqət çəkirlər [4]. Maliyyə bazarlarının dinamikliyinin təmin olunması sabitliyinin gücləndirilməsi istiqamətlərində görülən tədbirlərin səmərəli olmasında şəffaflığın qorunması və bank nəzarəti mexanizmlərinin təkmilləşdirilmiş formalarının hazırlanması, həyata keçirilməsi təmin edilməlidir. Bank Nəzarəti üzrə Bazel Kommitəsinin banklar üçün müştərilərlə bağlı lazimi ehtiyat tədbirləri üzrə standartlarda və yanaşmalarda bank risklərinin sistemli şəkildə öyrənilməsi, müştərilərin maraqlarının nəzərə alınması və qorunması məqsədilə tələb olunan tədbirlərin müəyyənləşdirilmiş mexanizmlər əsasında prinsipial şəkildə həyata keçirilməsi mütləq şərtlər kimi bildirilmişdir [5].

Qeyd edək ki, əksər bank sistemi güclü olan ölkələrdə bu proseslərin uzun illər ərzində təkmilləşdirilməsi və daha mütərəqqi fəaliyyət formalarının müəyyənləşdirilməsi məsələləri prioritetlik təşkil etmiş, bunlarla bağlı müəyyən təcrübə toplanmışdır. Bu baxımdan, bank sektorunun fəaliyyəti, o cümlədən sistem əhəmiyyətli bankların səmərəli fəaliyyət göstərmələri ilə əlaqədar məsələlər üzrə daha çevik və işlək mexanizmlərin tətbiqi vacibdir. Bunun üçün sistem əhəmiyyətli bankların ölkənin sosial və iqtisadi proseslərdə, maliyyə resurslarının fasiləsiz və səmərəli hərəkətində rolu və əhəmiyyəti obyektiv qiymətləndirilməli və dövlətin iqtisadi-maliyyə siyasətində nəzərə alınmalı, bank sisteminin təkmilləşdirilməsi tədbirləri görülməlidir [6, s. 45]. Hazırkı şəraitdə sistem əhəmiyyətli bankların inkişaf problemləri sırasında daha çox fərqlənən bir qrup məsələlərə diqqətin yönəldilməsi və onların həlli istiqamətində zəruri tədbirlərin görülməsi vacibdir: 1) bank sektorunun fəaliyyətinin müasir dövrün çağırışlarına uyğunlaşdırılması üçün, bank qanunvericiliyində mövcud boşluqların aradan qaldırılması məqsədilə qanunvericiliyin təkmilləşdirilməsi tədbirləri təmin olunmalıdır; 2) bankların maliyyə mənbələrinin diversifikasiyalaşdırılması həyata keçirilməli, yeni məhsuldar maliyyə mənbələri müəyyənləşdirilməli və sistem əhəmiyyətli bankların maliyyə sabitliyinin gücləndirilməsi istiqamətində önəmli addımlar atılmalıdır; 3) fəaliyyətdə olan bank mexanizmlərinin təkmilləşdirilməsi və gücləndirilməsi tədbirləri hazırlanaraq həyata keçirilməlidir; 4) sistem əhəmiyyətli bankların kapitallaşma proseslərində dayanıqlı maliyyə və investisiya mənbələrin formalaşdırılması, bunlarla əlaqədar investisiyaların fəal şəkildə cəlb edilməsi mexanizmləri hazırlanmalı və reallaşdırılmalıdır; 5) sistem əhəmiyyətli bankların kredit portfelinin diversifikasiyalaşdırılması istiqamətində daha çox işlər görülməli və real iqtisadiyyat sektorunun müxtəlif sahələrinin fəal şəkildə kreditləşdirilməsi siyasətinə daha çox önəm verilməli, bu istiqamətdə bank xidmətlərinin çeşidi genişləndirilməli və iqtisadiyyat subyektlərinin – sahibkarlarınm kredit resursların əlçatanlığı təmin olunmalıdır; 6) sistem əhəmiyyətli bankların rəqabət qabiliyyətinin artırılması və antiböhran şəraitində dayanıqlılığının yüksəldilməsi üçün kompleks və sistemli tədbirlərin görülməsi təmin olunmalıdır. Bu qeyd olunanlar nöqteyi-nəzərindən sistem əhəmiyyətli bankların maksimum sabit və səmərəli fəaliyyət göstərmələri üçün əlverişli şəraitin yaradılması məqsədilə dövlət dəstəyi mexanizmləri hazırlanmalı və tətbiq olunmalıdır. Dövlət tərəfindən sistem əhəmiyyətli bankların fəaliyyəti ilə əlaqədar tələb olunan tədbirlərin kompleks şəkildə həyata keçirilməsi, bank sisteminin fəaliyyətinə yaranan və təsir göstərə biləcək təhlükələrin, həmçinin risklərin minimum səviyyəyə qədər azaldılması məsələləri diqqət mərkəzində saxlanılmalı, maliyyə bazarlarının daha çevik mexanizmlər əsasında idarə olunması və tənzimlənməsi tədbirləri görülməlidir.

Maliyyə xidmətləri bazarında sistem əhəmiyyətli

bankların multiplikativ xüsusiyyətlərindən səmərəli istifadə edilməsi diqqət mərkəzində saxlanılmalı və bununla bağlı tələb olunan tədbirlər davamlı şəkildə yerinə yetirilməlidir. Məsələn, bankların fəaliyyətində tətbiq edilmiş və fəal istifadə olunan mexanizmlərinin qlobal bank-maliyyə və kredit çağırışları tələbinə uyğun olaraq tənzimlənməli və bu amillər nəzərə alınmalıdır [7]. Sistem əhəmiyyətli banklar tərəfindən onların məhsuldar və səmərəli fəaliyyət üzrə dayanıqlılığının formalaşdırılması, bu sahədə potensialın artıtılması üçün daha məhsuldar maliyyə-kredit mənbələri müəyyənləşdirilməli, bank xidmətlərinin çeşidi genişləndirilməli, kredit şərtləri uyğun və əlçatan olmalı, xidmətin səviyyəsi yüksəldilməli, xərclər optimallaşdırılmalı, şəffaflıq və dürüstlük təmin olunmalıdır. Sistem əhəmiyyətli bankların ölkənin bütün regionları üzrə fəaliyyət dairəsi və əhatəsinin multiplikativ təsiri diqqət mərkəzində saxlanılmalı və bununla əlaqədar olaraq regionlarda bank xidmətlərinin geniş spekterdə təşkilinə strateji yanaşmalar strateji səviyyədə baxılmalı və reallaşdırılmalıdır [8]. Sistem əhəmiyyətli bankların maliyyə xidmətləri bazarında rolu obyektiv olaraq təhlil edilməli, bu bankların fəaliyyətinin uzunmüddətli dövr üçün səmərəliliyi qiymətləndirilməlidir. Bunlarla bərabər, sistem əhəmiyyətli bankların ölkə iqtisadiyyatında strateji rolu obyektiv olaraq qiymətləndirilməli, hər bir bank strukturunun və filialların istifadə etdikləri maliyyə-bank mexanizmlərinin səmərəliliyinin yüksəldilməsinə maksimum diqqət yönəldilməlidir. Sistem əhəmiyyətli bankların maliyyə qeyri-sabitliyi dövründə dayanıqlılıq nöqteyi-nəzərindən tələb olunan fəaliyyət mexanizmlərinin hazırlanaraq sistemləşdirilməsi və onların reallaşdırılması istiqamətində işlək alətlərin tətbiqinə önəm verilməlidir [9, s. 91]. Sistem əhəmiyyətli banklarla maliyyə bazarları arasında olan münasibətlərin və fəaliyyət istiqamətlərin qlobal tendensiyaların əhatə dairəsi nəzərə alınmaqla təkmilləşdirilməsi və modelləşdirilməsi istiqamətində təsirli tədbirlərin görülməsi də diqqət mərkəzində saxlanılmalıdır [10, s. 82]. Eyni zamanda, sistem əhəmiyyətli bankların dayanıqlı kapital artımı mənbələrinin formalaşdırılması və inkişaf etdirililməsi problemlərinin həlli istiqamətində ardıcıl işlər aparılmalı, tədbirlər görülməlidir. Bu istiqamətlərdə "dövlət-bank sektoru-sistem əhəmiyyətli banklar" əməkdaşlığına diqqətin artırılması tələb olunur [11]. Başqa bir məsələ, sistem əhəmiyyətli bankların inkişafını ləngidən problemlərin optimal həlli yollarının tapılması istiqamətində təsirli tədbirlərin görülməsi və səmərəli mexanizmlərin hazırlanaraq tətbiqi təmin edilməlidir.

Azərbaycanda da son illərdə maliyyə bazarlarında xeyli çətinliklər yaranmışdır, milli valyuta - manat ikiqat devalvasiyaya məruz qalmış və bir neçə bank iflasa uğramışdır. Ölkədə kredit resurslarının ahəngdarlığı pozulmuş və onların ayrılmasında məhdudiyyətlər yaranmış, kredit resurslarının əlçatanlığı pisləşmişdir. Burada yenə əsas ağırlıq sistem əhəmiyyətli bankların üzərinə düşmüşdür. Ölkəmizdə bir qrup daha iri kapitala və aktivlərə malik olan sistem əhəmiyyətli bankların- Kapital Bank, Pasha Bank və s. bankların səmərəliliyi hesabına maliyyə-kredit sisteminin fəaliyyəti nisbətən sabitləşmiş və maliyyə xidmətləri bazarının intensivliyi bərpa olunmuşdur. Bundan əlavə, ölkə Prezidentinini 2016-cı il 06 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi"ndə maliyyə xidmətlərinin çeşidinin və səmərəliliyinin artırılması istiqamətləri üzrə strateji hədəflər müəyyənləşdirilmişdir [12].

**Şəkil 1-də** Azərbaycanda 2005-2018-ci illər üzrə bankların sayı verilmişdir. 2005-ci ildə bankların ümumi sayı 44, 2010-cu ildə 45 olmuşdursa, 2018-ci ildə bankların sayı 30-a enmişdir.

**Şəkil 1. Azərbaycanda 2005-2018-ci illərin əvvəlinə bankların sayı (Azərbaycan Banklar Assosiasiyasının məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır. http://www.aba.az.).**



**Şəkil 2. Azərbaycan banklaının 2008-2018-ci illərdə məcmu aktivlərinin dinamikası, mln. manat (Azərbaycan Respublikasının Mərkəzi Bankının məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır http://www.cbar.az).**




**Şəkil 2-də** isə Azərbaycan banklarının məcmu aktivlərinin dinamikası öz əksini tapmışdır. 2008-2018-ci illər ərzində ölkə banklarının məcmu aktivləri 2,9 dəfəyə yaxın yüksəlmişdir. Qeyd edək ki, 2018-ci ilin yekununda bankların ümumi məcmu aktivlərinin məbləği 29,5 mlrd. manat həcminə çatmışdır.

Əvvəlki dövrlərdə olduğu kimi ölkə banklarının məcmu aktivlərində uzun müddət ölkənin bank sektorunda həlledici sistem əhəmiyyətli bank rolunu oynayan Azərbaycan Beynəlxalq Bankının məcmu aktivləri hələ də yüksək olmaqda qalmaqdadır və ölkə banklarının məcmu kapitalının 30 %-ə qədəri bu banka məxsusdur. Amma, əvvəldə bildirdiyimiz kimi son illərdə bir sıra özəl banklar sistem əhəmiyyətli banklar kimi formalaşmış və ümumilikdə ölkə banklarının məcmu aktivlərində paylarını artırmağa nail olmuşlar. Məsələn, PAŞA Bank ASC-nin ümumi məcmu aktivlərdə payı 12,2 %, Kapital Bank ASC-nin payı 10,8 %, Xalq Bank ASC – 5,66 % və Ac-cess Bank QSC 3,59 % təşkil edir [13]. Bunlarla bərabər, banklar tərəfindən iqtisadiyyatın müxtəlif sahələrinə, xüsusilə əlavə dəyər yaradan qeyri-neft sektoru sahələrinə kredit qoyuluşları tempinin bərpa edilməsinə ciddi ehtiyac vardır və bütün bunlar ölkə iqtisadiyyatının strukturunun təkmilləşdirilməsində, əlavə dəyər yaradan sahələrin inkişaf etdirilməsində əhəmiyyətli rol oynayırlar. Əgər, 2016-cı ildə ölkəmizdə iqtisadiyyata kredit qoyuluşunun həcmi 20,3 mlrd. manat olmuşdursa, bu göstərici 2018-ci ilin yekununda cəmisi 13,1 mlrd. manat olmuşdur. Ölkə banklarının maliyyə resurslarının və kredit fəaliyyətinin yenidən balanslaşdırılması, maliyyə sabitliyi tədbirlərinin gücləndirilməsi və tətbiq olunan və hazırda daha çox istifadə edilən maliyyə-bank mexanizmlərinin səmərəliliyinin artırılması tədbirlərinin genişləndiirlməsinə ehtiyac qalmaqdadır.

## NƏTİCƏ

Ölkədə maliyyə xidmətlərinin genişləndirilməsi üzrə strateji hədəflərdən çıxış etməklə, yaxın illərdə sistem əhəmiyyətli bankların fəaliyyətinin maksimum təkmilləşdirilməsi və onların maliyyə xidmətləri bazarının sabitliyində rolunun artırılması üçün bir sıra tədbirlərin görülməsini vacib hesab edirik:

- maliyyə bazarı iştirakçılarının sistem əhəmiyyətli banklarla əlaqələrinin qlobal bank və maliyyə çağırışlarına uyğun şəkildə tənzimlənməsi və fəaliyyət mexanizmlərinin təkmilləşdirilməsi təmin olunmalıdır;
- ölkədə bank sisteminin fəaliyyətinin və bank qanunvericiliyinin beynəlxalq təcrübəyə, bu sahədəki standartlara və meyarlara daha çox yaxınlaşdırılması və təkmilləşdirilməsi tədbirləri görülməlidir;
- bank sektoru, ölkənin maliyyə-kredit sistemi və maliyyə xidmətləri bazarı üzrə institusional islahatlar, struktur tədbirləri dərinləşdirilməli, tətbiq olunan mexanizmlər beynəlxaq təcrübəyə uyğunlaşdırılmalı və onların səmərəliliyi təmin edilməlidir;
- hər bir bankın antiböhran strategiyası olmalı, maliyyə dayanıqlılığı gücləndirilməli, yeni bank texnologiyalarının fəal tətbiqi təmin edilməlidir və s.

**Açar sözlər:** *maliyyə xidmətləri, maliyyə bazarı, sistem əhəmiyyətli banklar, multiplikativ təsir, bank, bankların səmərəliliyi, bankların maliyyə sabitliyi.*

## ƏDƏBİYYAT SİYAHISI


1. *İlham Əliyevin yanında iqtisadi müşavirə keçirilib. 15 oktyabr 2019. - https://president.az/articles/34450.*

2. *Ələkbərov Ə., Sadıqov E. Müasir dövrdə maliyyə bazarlarında bank resurslarının iqtisadiyyata təsirinin gücləndirilməsi mühüm strateji prioritetdir // Maliyyə, kredit və pul tədavülü məsələləri jurnalı. 04 (311)-2018, S. 14-21.*

3. *Azərbaycan Mərkəzi Bankının ölkə iqtisadiyyatında rolu. https://banker.az.*

4. *Azərbaycan Mərkəzi Bankının ölkə iqtisadiyyatında rolu. https://modern.az/az/news/19596.*

5. *Banklar üçün müştərilərlə bağlı lazımi ehtiyat tədbirləri. Bank Nəzarəti üzrə Bazel Komitəsi. http://www.fiu.az.*

6. *Wagner W., Nijskens R.Credit risk transfer activities and systemic risk: How banks became less risky individually but posed greater risks to the financial system at the same time // Journal of Banking and Finance. 2001. Vol. 35, P. 43-54.*

7. *Гавриченко Н. В. Международный опыт устойчивости развития КБ // Научно-методический электронный журнал «Концепт», 2017, Т.18, С. 37–42.*

8. *Вострухина Т.Ю. Факторы и условия, влияющие на развитие банковских услуг в регионах // Российское предпринимательство. – 2011, Том 12. № 9. С. 130-135.*

9. *Глухова О.С., Щесняк К.Е. Деятельность российских коммерческих банков в условиях мирового финансового кризиса // Современные проблемы науки и образования. – 2015. – № 1-2.-С. 85-94.*

10. *Рыкова И.Н. Моделирование взаимоотношений банковской системы и финансовых рынков. Дисс. док-ра экон. наук. Ставрополь, 2004. - 330 с.*

11. *Лаврушин О.И., Ветрова Т.Н. Эффективность банковской деятельности: методология, критерии, показатели, процедуры // Банковское дело, №5, 2015. С. 38-42.*

12. *Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 06 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir. Bakı, 2016, 59 s.*

13. *Azərbaycan Banklar Assosiasiyası. http://www.aba.az.*


## ВАЖНЫЕ АСПЕКТЫ МУЛЬТИПЛИКАТИВНЫХ ОСОБЕННОСТЕЙ СИСТЕМНО-ЗНАЧИМЫХ БАНКОВ НА РЫНКЕ ФИНАНСОВЫХ УСЛУГ АЗЕРБАЙДЖАНА

### РЕЗЮМЕ


В статье исследованы важные аспекты мультипликативных особенностей системно-значимых банков на рынке финансовых услуг Азербайджана. С этой целью анализирована сущность и роль системно-значимых банков банковского сектора страны. Рассмотрены важные аспекты повышения финансовой стабильности системно-значимых банков в условиях финансовой нестабильности и глобальных воздействий. Обоснована необходимость совершенствования основных механизмов системно-значимых банков Азербайджана. Рассмотрены проблемы наращивания объема банковских вложений в реальных сектор экономики страны. Подготовлены рекомендации и даны предложения по важным аспектам мультипликативных особенностей системно-значимых банков на рынке финансовых услуг Азербайджана.



**Ключевые слова:** *финансовые услуги, финансовый рынок, системно-значимые банки, мультипликативное влияние, банк, эффективность банков, финансовая стабильность банков.*


## IMPORTANT ASPECTS OF MULTIPLICATIVE FEATURES OF SYSTEMICALLY IMPORTANT BANKS IN FINANCIAL SERVICES MARKET OF AZERBAIJAN

### SUMMARY


Important aspects of multiplicative features of systemically important banks in the financial services market of Azerbaijan are explored in the article. The essence and role of systemically important banks of the banking sector of the country is analyzed for this purpose. Important aspects of increasing financial stability of systemically important banks in conditions of financial instability and global impacts are considered then. The need to improve the main mechanisms of system important banks of Azerbaijan is investigated too. The problems of increasing the volume of bank investments in the real sector of the economy of the country are considered. Recommendations and proposals on important aspects of multiplicative features of systemically important banks in the financial services market of Azerbaijan are given.



**Key words:** *financial services, financial market, systemically important banks, multiplicative influence, bank, efficiency of banks, financial stability of banks.*

UOT: 339.132.2: 339.5.025.7

**ƏLİHEYDƏR MAHMUDOV**
*Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin doktorantı*
***Azərbaycan***
*E-mail: aliheydar_89@mail.ru*

# AZƏRBAYCANDA TEXNOPARK İNSTİTUTUNUN SƏMƏRƏLİLİYİNİN YÜKSƏLDİLMƏSİNİN MÜASİR PROBLEMLƏRİ VƏ HƏLLİ YOLLARI

Dünya ölkələrinin iqtisadi inkişaf proseslərinin təhlilindən yanaşdıqda, hazırda iqtisadi cəhətdən inkişaf etmiş ölkələrin iqtisadi və texnoloji yüksəlişin əsasları kimi çıxış edən iqtisadi mexanizmlər, onların mahiyyəti, çoxfunksiyalılıq xüsusiyyətləri və səmərəlilik baxımından fərqlənən keyfiyyətləri xüsusilə diqqəti cəlb edir. Beynəlxalq təcrübədə bu əlamətlərinə və xüsusiyyətlərinə görə fərqlənən məhsuldar və səmərəli vasitələrdən biri də texnoparklardır. Texnoparklar bir sıra fəaliyyət sahələrinin, ilk növbədə elm, istehsalat, maliyyə, investisiya təşkilatlarının, xidmət və təssərrüfat subyektlərinin, bazar iqtisadiyyatı şəraitində fəaliyyət göstərən bazaq iştirakçılarının qarşılıqlı fəaliyyətinin təmin olunduğu çoxfunksiyalı fəaliyyət ərazisi kimi xarakterizə olunur. Bu xüsusiyyətli texnoparklarda müxtəlif istehsal və xidmət sahələrinin təşkili, elmi işləmələrin və ixtiraların istehsal proseslərinə tətbiqi, kiçik və orta biznes subyektlərinin fəaliyyətinin şaxələndirilməsi tədbirləri həyata keçirilir. Əsas etibarlı ilə innovasiyaların yaradılması, işlənməsi, mənimsənilməsi və istehsal proseslərinə tətbiqi baxımından səmərəli iqtisadi mexanizmlər kimi texnoparkların rolu böyükdür. Belə ki, texnoparklarda tətbiq edilən güzəştlər və daha sadə prosedurlar rezidentlər üçün cəlbedici olur və bu kimi texnoparklarda fəaliyyət göstərən istehsal sahələrinə xarici investorların marağı artır, həmçinin xarici investisiyaların cəlbi xeyli intensivləşir, ümumilkdə isə investisiya cəlbediciliyi mühiti əlverişli səviyyəyə qaldırılır [1, s. 242]. Eyni zamanda, texnoparklar əsasən hüquqi şəxs statusunda yaradırlar və onların rezidentləri yenilik ideyalarını daha səmərəli şəkildə tətbiq etmək hədəfləri ilə fərqlənirlər. Texnoparkların başlıca funksiyaları istehsal sahələrinin genişləndirilməsindən və rəqabətqabiliyyətli müəssisələrin yaradılmasından, yüksək keyfiyyətli, həmçinin ixracyönlü məhsulların istehsalından ibarətdir. Texnopaklarda alimlərin, ixtiraçıların, səmərələşdiricilərin, konstruktorların işlədikləri, əldə etdikləri, hazırladıqları texnoloji yeniliklər, kəşflər, ixtiralar, innovasiyalar sistemli və davamlı şəkildə istehsal proseslərinə tətbiq olunanadək vahid tsikldə baxılır. Texnoparkların əsas təsisçiləri sırasında universitetlər, iri sənaye müəssisələri, müxtəlif sahə nazirlikləri və dövlət qurumları, regional və yerli idarəetmə strukturları, dövlət və özəl müəssisələr, investisiya fondları, maliyyə-kredit təşkilatları, beynəlxalq innovasiya-investisiya təşkilatları, investor kompaniyalar və s. yer alırlar [2, s. 49].

Dünya təcrübəsindən yanaşdıqda, iqtisadiyyatının transformatik vəziyyətdə olduğu bir şəraitdə, yeni və çoxfunksiyalı iqtisadi mexanizmlərə ehtiyacın artmasını qeyd etmək mümkündür və dünyanın əksər ölkələrində bu məsələlərə diqqət artmışdır. Amma, texnoparkların səmərəli fəaliyyətinə, texnopark institutunun optimal inkişafına yalnız bir qrup ölkələrdə, ilk növbədə iqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə nail olunmuşdur. Məsələn, ABŞ, Qərbi Avropa ölkələri, o cümlədən Böyük Britaniya, Almaniya, Fransa, İtaliya, Yaponiya, Kanada kimi ölkələrdə innovasiyaların yayılması, işlənilməsi və tətbiqi proseslərinin çevikliyi, səmərəliliyi hesabına yüksək texnologiyalara sahib olunmuş və güclü iqtisadiyyatın formalaşdırılması təmin edilmiş, innovasiyalar və texnologiyalar bazarları əhəmiyyətli səviyyədə inkişaf etdirilmiş, bu ölkələrin ixracında əsas yeri yüksək texnologiyalar və elm tutumlu qiymətli məhsulalr tutmuşdur. Bu proseslərin kökündə isə elm və texnikanın yeniliklərinin fəal şəkildə istehsalata tətbiq olunması dayanmışdır və həmin proseslərdə başlıca funksiyaları müxtəlif

təyinatlı texnoparklar və texnopolislər yerinə yetirirlər. Texnoparklardan fəal istifadə etməklə, iqtisadi inkişaf proseslərinə güclü təkan verilməsi mümkün olmuş və texnoparklar çoxfunksiyalı, həmçinin yüksək məhsuldarlığa malik fəaliyyət imkanlarından səmərəli istifadə edilməsi və məhsul istehsalının əhəmiyyətli səviyyədə artırılması davamlı şəkildə iqtisadi artıma səbəb olmuş, əvvəldə qeyd etdiytimiz kimi bir çox iqtisadi cəhətdən inkişaf etmiş ölkələrin tərəqqisində və iqtisadiyyatın güclənməsində, onun rəqabət qabiliyyətinin artırılmasında mühüm əhəmiyyət kəsb etmişdir. Dünya iqtisadiyyatının hazırki liderləri olan ABŞ və Çində texnoparkların inkişaf etdirilməsi sayəsində iqtisadi artım tempinin sabitləşdirilməsinə nail olunmuş və yüksək nəticələr əldə edilmişdir. Texnoparklarda ən son texnologiyalar üzrə mübadilələr həyata keçirilməklə bərabər, həm də onların istehsala tətbiqi prosesləri intensivləşdirilir. Texnoparklarda innovativ inkişafın əsas mexanizmləri tətbiq edilir və onların məhsuldar fəaliyyəti hesabına iqtisadiyatın müxtəlif sahələrinin inkişaf etdirilməsi, yeni texnologiyaların işlənib hazırlanması və tətbiqi prioritetləri reallaşdırılır. Texnoparklar əlverişli fəaliyyət sahəsi və ərazisi kimi iqtisadiyyat sahəsinin və müəssisələrin tarazlı və məhsuldar inkişafına müsbət şərait yaradır. Təsadüfü deyildir ki, dünyada fəaliyyət göstərən 700 texnoparkdan 42 %-i ABŞ-da yerləşir və texnoparkların məhsuldar fəaliyyəti ABŞ iqtisadiyyatının güclü potensialını saxlamağa və artırmağa imkan verir. İqtisadi cəhətdən inkişaf etmiş ölkələrin daha çox yerləşdiyi Avropa Birliyi ölkələrində dünya üzrə fəaliyyət göstərən texnoparkların 34 %-i cəmləşmişdir. Buradakı texnoparkların başlıca fəaliyyət istiqamətləri yüksək texnologiyaların işlənməsi, xüsusilə elektrotexnika, elektron, telekomunikasiya avadanlıqları və s. elm-texnologiyalar tutumlu sənaye məhsullarının istehsalından ibarətdir. Texnoparklar Avropa Birliyi ölkələrinin iqtisadi proseslərinə dərin təsir edən mexanizmlərdən biri hesab olunur. Almaniya, Fransa, İtaliya və s. Avropa ölkələrində texnoparkların fəaliyyəti hesabına iqtisadi inkişaf hesabına əlavə impulslar verilir və yüksək texnologiyaların işlənməsi, tətbiq edilməsi prosesləri həyata keçirilir. Bu Birliyin ölkələrində sahibkarlıq subyektlərinin inkişafında və innovatik inkişafın genişləndirilməsində texnopark institutunun rolu əhəmiyyətli səviyyədə artmaqdadır. Dünyanın güclü inkişaf etmiş ölkələrindən hesab olunan Almaniyada mərkəzi innovasiya sistemi olmadığından, innovativ inkişaf proseslərinin əsas ağırlığı texnoparkların üzərinə düşür. Böyük Britaniyada texnoparklar əsasən XX əsrin 70-ci illərindən başlayaraq formalaşmışdır və müasir dövrdə burada 77 texnopark fəaliyyət göstərir. Texnoparkların maliyyə təminatının həyata keçirilməsində əsas maliyyə mənbələri kimi təsisçilərin və sponsorların maliyyə resursları, texnoparkın yaradılması üçün yaradılan torpaq sahəsinin dəyəri, kommersiya kreditləri, qrantlar və subsidiyalar, texnoparkın tikdiyi binaların satışından əldə etdiyi vəsaitlər və s., həmçinin xarici investisiyalar diqqət çəkirlər. Böyük Britaniyanın texnoparklarında innovatik yanaşmalara üstünlük verirlər və bu sahədə ixtisaslaşmış kompaniyaların 41 %-i universitetlərlə və tədqiqat institutları ilə sıx əməkdaşlıq əlaqələri çərçivəsində fəaliyyət göstərirlər [3]. Son illərdə dünya iqtisadiyyatında önəmli yer tutan və ildən-ilə öz iqtisadi gücünü daha sürərlə artıran Çində isə dünyada mövcud olan texnoparkların 11 %-dən çoxu fəaliyyət göstərirlər. Çin kimi dinamik inkişaf edən dünya ölkəsinin iqtisadiyyatında texnoparkların rolu artmaqdadır və hazırda 53 texnopark fəaliyyət göstərir [4]. Bu texnoparklarda başlıca fəaliyyət istiqamətləri iqtisadi və texniki inkişafın innovativ mexanizmlər əsasında sürətləndirilməsi, yüksək məhsuldarlığa malik yeni texnologiyalarının tətbiqinin intensivləşdirilməsi strateji vəzifələrdən hesab olunur.

Qeyd edək ki, texnoparklar geniş funksiyalara malik olduqlarından, iqtisadi fəaliyyət proseslərinin təşkilində daha çox səmərə vermək imkanları ilə fərqlənirlər. Məsələn, texnoparklar özlərinin geniş potensiala malik fəaliyyət mexanizmləri əsasında iqtisadi inkişaf proseslərinə güclü təkan verməklə yanaşı, eyni zamanda həmin proseslərin daha səmərəli təşkil olunmasında önəmli rol oynayırlar [5]. Digər tərəfdən, iqtisadi cəhətdən inkişaf etmiş ölkələrlə bərabər, inkişaf etməkdə olan və dayanıqlı iqtisadi artımı ilə fərqlənən dünya ölkələrində də texnopark institutunun inkişaf etdirilməsinə, yeni texnoparkların yaradılmasına, bu sahələrə investisiyaların yatırılmasına və investorların cəlb edilməsinə böyük önəm verilir. Texnoparklara dövlət tərəfindən dəstək mexanizmlərinin göstərilməsi, infrastrukturun yaradılmasında kompleks tədbirlərin görülməsi, bu kimi parkların səmərəli fəaliyyəti üçün əsaslı zəmin formalaşdırır. Bundan əlavə, texnoparklarda qeydiyyata düşən rezident - firmalar və müəssisələr müəyyən müddət ərzində

inteqrativ münasibətlərlə sıx olan bir mühitdə məhsudlar işləmək üçün imkanlar əldə edirlər və bunun nəticəsində yatırılan investisiyaların və yönəldilən kapitalın səmərəliliyi, rentabelliyi təmin edilir, bunlar isə öz növbəsində yeni investisiyaların cəlb edilməsində və investorların stimullaşdırılmasında önəmli rol oynayırlar. Qlobal çağırışların intensivləşdiyi bir dövrdə və maliyyə resurslarının qeyri-sabitliyi ilə müşaiyyət olunan dünya iqtisadi proseslərində texnoparklar özlərinin cəlbedici xüsusiyyətləri ilə ölkələrin iqtisadi modernizasiya proseslərinə, xüsusi iqtisadi proqramların yerinə yetirilməsinə, sənaye sahələrinin inkişaf etdirilməsinə daha çox səmərə verirlər. Texnoparklar yerli və xarici investorlar üçün cəlbedici fəaliyyət məkanının təşkili, müvafiq güzəştlər sisteminin və stimullaşdırıcı dəstək mexanizmlərinin olması səbəbindən digər iqtisadi fəaliyyət mexanizmləri ilə müqayisədə əhəmiyyətli rəqabət üstünlüklərinə malikdirlər və buna görə də texnoparkların inkişafı ilə bağlı məsələlər kifayət qədər prioritetlik təşkil edir [6]. Digər tərəfdən, texnoparkların milli iqtisadiyyatın innovasiyalaşdırılmasında əhəmiyyətli rolu da, bu kateqoriyadan olan iqtisadi mexanizmlərə marağı artırmaqdadır. Texnoparklar ölkə iqtisadiyyatının strukturunu və istehsalın təkmilləşdirməklə bərabər, regionlarda xammal resurslarının hasilatı və emalı ilə bağlı strateji vəzifələrin reallaşdırılmasında, rəqabətqabiliyyətli emal müəssisələrinin yaradılmasında önəmli əhəmiyyət kəsb edirlər. Texnoparklar əmək məhsuldarlığı qüvvələrinin səmərəli yerləşdirilməsidə və əmək ehtiyatlarından səmərəli istifadə edilməsində, bunlarla bağlı fəaliyyət strategiyasının modelləşdirilməsində kifayət qədər səmərəli mexanizmlər kimi diqqət çəkirlər. Belə ki, texnoparklar fəaliyyət göstərdikləri regionun və ya şəhərin sosial-iqtisadi problemlərin həllinə müsbət təsir göstərməklə bərabər, həm də insan kapitalından istifadənin səmərəli təşkilində, layiqli iş yerlərinin yaradılmasında, ümumilikdə sosial-iqtisadi problemlərin həllində faydalı fəaliyyətləri ilə diqqət çəkirlər. Regionlarda yaradılan texnoparklar yeni iş yerləri yaratmaqla bərabər, bu regionlarda əhalinin iqtisadi fəallığının artılmasında əlavə stimullar formalaşdırırlar və bu ərazilərə müasir texnologiyaların, idarəetmə metodlarının gətirilməsini təmin edirlər [7]. Texnoparklarda müxtəlif istehsal sahələrinin təşkili, elmi işləmələrin və ixtiraların istehsal proseslərinə tətbiqi daha səmərəli şəkildə həyata keçirilir və bu kimi fəaliyyət zonalarına xarici investorların marağı kifayət qədər yüksək olur. Bunun əsasında isə texnoparkların kompleks şəkildə innovativ inkişaf mexanizmlərinin səmərəli şəkildə həyata keçirə biləcək istehsal, kommersiya və xidmət strukturunun yaradılması üçün kifayəy qədər əlverişli bir məkan olması ilə bağlıdır [8]. Eyni zamanda, texnoparklar müasir dövrdə yüksək texnologiyaların transferinə imkan verən fəaliyyət sahələrinin təşkili, ümumilikdə innovasiyaların fəal şəkildə tətbiqini həyata keçirmək üçün mövcud baryerlərin aradan qaldırılması baxımından, həmçinin səmərəli fəaliyyət mühitinin formalaşdırılması və inkişaf etdirilməsində maksimum səmərəli və məhsuldar fəaliyyət ərazisi kimi diqqət çəkirlər və bu amillərə görə onlardan istifadənin dairəsi genişlənməkdədir.

Son illərdə Azərbaycanda iqtisadi inkişaf proseslərinin qlobal iqtisadi, maliyyə və investisiya, elm və texnologiyalar çağırışlarına uyğunlaşdırılması istiqamətində önəmli addımlar atılmaqdadır. Hazırda milli iqtisadiyyatın strukturunun yenilənməsi və təkmilləşdirilməsi ilə bağlı iqtisadi islahatlar dərinləşdirilməkdədir, bundan əvvəl isə geniş həcmli sosial islahatlar başlamışdır. Amma, bu islahatların daha səmərəli və məhsuldar həyata keçirilməsi üçün resurslar, ilk növbədə yeni investisiyalar və maliyyə resursları tələb olunur. Həmin strateji məqsədə çatmaq üçün dünya təcrübəsində səmərəliliyi ilə diqqət çəkən iqtisadi mexanizmlərin tətbiqi məsələlərinə də daha ciddi önəmin verilməsi vacib şərtlər kimi ortaya çıxmışdır. Qeyd edək ki, artıq bir neçə ildir ki, bunlarla bağlı strateji hədəflərin reallaşdırılmasına başlamışdır, belə ki, milli iqtisadiyyatın perspektiv sektorları üzrə konseptual yanaşmalar və strateji hədəflər strateji yol xəritələrində öz əksini tapmışdır. Bunlarla bərabər, ölkə Prezidentinin 6 dekabr 2016-cı il tarixli Fərmanı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasında telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair Strateji Yol Xəritəsi"ndə milli iqtisadiyyatın müxtəlif sahələrində innovatik yanaşmaların təmin edilməsi ilə bağlı strateji hədəflər müəyyənləşdirilmiş və onların icrasına başlanılmışdır [9]. Həmin strateji hədəflərin reallaşdırılması proseslərində yüksək texnologiyaların və innovasiyaların işlənməsi, tətbiqi ilə bağlı prosesləri səmərəliliyinin təmin edilməsi istiqamətində texnoparklardan istifadənin genişləndirilməsi, texnopark istitutunun inkişaf

etdirilməsi tədbirlərinə intensiv start verilmişdir. Dövlət tərəfindən texnoparkların fəaliyyətinin tənzimlənməsi və bu parkların rezidentlərinin motivasiyasının artırılması üçün onlar 7 illik müddətinə vergilərdən və gömrük rüsumlarından azad edilmişlər [10]. Bunlarla yanaşı, texnoparkların təşkilinə dövlət tərəfindən əsaslı kapital qoyuluşu ilə bərabər, yerli və xarici investorların fəaliyyəti üçün əlverişli şərait yaradılmış, rezidentlərin texnoparklarda qeydiyyata düşməsi prosedurları sadələşdirilmiş və onların fəaliyyətinə kənar müdaxilələrin qarşısının alınması üçün təsirli tədbirlər görülmüşdür. Eyni zamanda, texnoparklara dövlət tərəfindən dəstək mexanizmlərin davamlı şəkildə olması onların səmərəliliyini və motivasiyasını yüksəldir. Texnoparklarda elmi-texniki yeniliklərdən istifadə etməklə, biznes layihələrinin cəlbediciliyi daha da artırılır. İdeyalar və təşəbbüslər adaptiv proseslərdən keçərək istehsala tətbiq olunur. Azərbaycanda tətbiqinə daha çox maraq göstərilən sənaye texnoparkları əsasən yeni istehsalın təşkili üçün fiziki və infrastruktur obyektlərin kompleksi kimi qiymətləndirilir. Burada daha çox ərazilər müxtəlif fəaliyyət növləri üçün rezidentlərin sərəncamına verilir və onların səmərəli fəaliyyətinə münbit şərait yaradır. İstehsalat texnoparkının yerləşdirilməsi şərtləri və onun obyektlərinə tələbat əsas rezidentlərin istəyi əsasında və ya sahə sənayesinə uyğun istehsal komplekslərinin yerləşdirilməsi təcrübəsinin təhlili nəticəsində müəyyən olunur. Çox vaxt əlavə nəqliyyat və logistikada ixtisaslaşma tələb edir [11, s. 17]. Bu təsadüfi deyildir, belə ki, texnoparkarda cəmlənmiş güclü maddi-texniki baza və müvafiq infrastruktur obyektləri həlledici əhəmiyyət daaşıyır. Belə ki, innovasiyaların tətbiqi və onun yayılması, ümumilikdə bu proseslər üzrə vahid tsiklin reallaşdırılmasında texnoparklar daha cəlbedici və səmərəli fəaliyyət məkanı kimi tələb olunurlar [12]. Texnoparklarda istehsalın inkişaf etdirilməsi, bununla əlaqədar səmərəli fəaliyyət sahələrinin formalaşdırılması, innovasiyaların işlənməsi, yayılması və tətbiqinin təmin edilməsi, bu məqsədlə həmin sahələrə yerli və xarici investorların cəlbedilməsi potensialları xeyli yüksəkdir [13].

Artıq ölkəmizdə texnopark institutunun formalaşdırılmasına, yaradılmasına, inkişafının sürətləndirilməsinə və səmərəliliyinin yüksəldilməsinə diqqət artırılmışdır. Belə ki, iqtisadi sistemin yenilənməsi və onun strukturunun təkmilləşdirilməsində, innovatik inkişafın genişləndirilməsində texnoparklardan istifadəyə üstünlük verilməkdədir. Ölkənin ilk iri texnoloji parkı - Sumqayıt Texnologiyalar Parkı 2009-cu ildən fəaliyyətə başlamışdır [14]. Bu Parkda yüksək texnologiyalar əsasında çoxlu çeşiddə rəqabətqabiliyyətli sənaye məhsulları, əsasən, elektrotexnika məmulatları və elektrik kabelləri istehsal olunur. Burada istehsal olunan innovatik məhsullar yerli bazarın tələbatını ödəməklə yanaşı, artıq ixrac edilməkdədir. Başqa bir texnopark - Yüksək Texnologiyalar Parkı Pirallahıda yaradılır və bu texnoparkın bir neçə müəssisəsinin tikintisi sürətlə davam etməkdədir, həmin texnopark dərman məhsulları və prepratlarının istehsalı üzrə ixtisaslaşmaqdadır. Strateji yol xəritələrinin icra proseslərinin daha intensiv mərhələyə keçməsi ilə əlaqədar olaraq, texnoparklardan istifadənin səmərəliliyinin artırılması üçün yeni imkanlar və potensial formalaşmışdır. Bu məsələlərin kompleks və sistemli şəkildə həll olunması vacib xaraktert daşıyır. Texnoparklar şəbəkəsinin inkişaf etdirilməsi hesabına milli iqtisadiyyatın yeni məhsuldar artım mənbələrinin formalaşdırılması və inkişaf etdirilməsi potensialını gücləndirmək mümkündür. Hesab edirik ki, ölkəmizdə texnoparklardan istifadənin səmərəliliyinin təmin edilməsi ilə milli iqtisadiyyatın strukturunun yenilənməsinə və onun innovasiyalaşdırılmasına nail olamq üçün əlverişli şərait yaradılmışdır və bu istiqamətdə başlanılan tədbirlərin daha da intensivləşdirilməsi vacibdir.

## NƏTİCƏ

Yaxın illərdə ölkəmizdə texnopark institutunun səmərəliliyinin yüksəldilməsinin müasir problemlərinin həlli yolları baxımından, bir sıra fəaliyyət istiqamətlərinə daha çox önəm verilməlidir:

-iqtisadiyyatın strukturunun təkmilləşdirilməsində, iqtisadi islahatların sürətləndirilməsində və ixrac potensialının gücləndirilməsində texnoparkların çoxfunksiyalılıq xüsusiyyətlərindən istifadənin müasir dövrün çağırışlarına uyğun şəkildə təmin olunması tədbirləri görülməlidir;

-texnoparkların iqtisadi inkişaf proseslərinə müsbət təsirindən yanaşmaqla, texnopark institutunun kompleks və sistemli şəkildə inkişaf etdirilməsi strategiyası hazırlanmalı və reallaşdırılmalıdır;

-milli innovasiya sisteminin təşkili və innovatik inkişafın gücləndirilməsi ilə bağlı strateji vəzifələrin yerinə yetirilməsində texnoparkların məhsuldar

mexanizmlərindən səmərəli istifadə olunması təmin edilməlidir və s.

**Açar sözlər:** *texnoparklar, texnopakların iqtisadiyyatda əhəmiyyəti, texnoparkların səmərəlilik problemləri, texnopark institutu, texnopark institutunun inkişafı, texnoparklardan istifadənin səmərəliliyinin yüksəldilməsi yolları.*

## ƏDƏBİYYAT SİYAHISI

1. *Əliyev Ş.T. Azərbaycan iqtisadiyyatı. Sumqayıt, 2018, 376 s.*

2. *Tağıyev A.H. İnnovasiya (nəzəri və tətbiqi səpkidə). Bakı, "Təknur", 2018, 552 s.*

3. *Британский опыт создания и управления технопарками. Фонд «Центр Инновационного Бизнеса». Екатеринбург, 2008. -23 с.*

4. *Мазур А.А., Стогний В.С., Осадчая Н.В. Технопарки Китая// Наука та інновації. 2009. № 3 - С.127-134*

5. *Пономарев В.Н. Особые экономические зоны, технопарки и промышленные кластеры как инструменты инновационного развития. Дисс. канд. экон. наук. Москва, 2011, 207 с.*

6. *Rodríguez-Pose A., Hardy D. Are Parks in Emerging Countries Delivering? Technology and Industrial Parks in Emerging Countries. SpringerBriefs in Regional Science 2014, pp. 67-95.*

7. *Какатунова Т.В. Организационно-экономические механизмы развития региональных технопарковых структур. Дисс. канд. экон. наук. Смоленск, 2007, 160 с.*

8. *Liu S., Liu C. Management Innovation of IT Project Managers. / 3 rd International Conference on Information Management, Innovation Management and Industrial Engineering (ICIII), 26-28 Nov. 2010, pp. 62-65.*

9. *Azərbaycan Respublikasında telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 6 dekabr 2016-cı il tarixli Fərmanı ilə təsdiq olunmuşdur.*

10. *Sənaye parkları haqqında Nümunəvi Əsasnamə. AR Prezidentinin 2013-cü il 24 aprel tarixli Fərmanı ilə təsdiq edilib.*

11. *Texnoparkların yaradılması üzrə beynəlxalq təcrübə. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutu. Bakı-2017, 69 s. http://ier.az.*

12. *Əliyev Ş.T. Xüsusi iqtisadi zonaların tətbiqi problemləri. Bakı: Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu, 2012, 360 s.*

13. *Гюльмамедов Р.Г. Технопарки как основа формирования национальной инновационной системы // Креативная экономика. 2016, Т.10, № 1, С. 35-44.*

14. *Sumqayıt Texnologiyalar Parkı. 22 dekabr 2009-cu il. - https://stp.az.*

## СОВРЕМЕННЫЕ ПРОБЛЕМЫ И ПУТИ РЕШЕНИЯ ПОВЫШЕНИЯ ЭФФЕКТИВНОСТИ ИНСТИТУТА ТЕХНОПАРКА В АЗЕРБАЙДЖАНЕ

### РЕЗЮМЕ

В статье исследованы современные проблемы и пути решения повышения эффективности института технопарка в Азербайджане. С этой целью анализирована роль и сущность института технопарка. Исследован потенциал возможностей развития сети технопарков в Азербайджане. Подготовлены рекомендации и даны предложения по рассматриваемым проблемам.

**Ключевые слова:** *технопарки, важность технопарков в экономике, проблемы эффективности технопарков, институт технопарка, развитие института технопарка, эффективность использования технопарков.*

## MODERN PROBLEMS AND SOLUTIONS TO INCREASE EFFICIENCY OF TECHNOPARK INSTITUTE IN AZERBAIJAN

### SUMMARY

Modern problems and ways of solving the increase of efficiency of the institute of technopark in Azerbaijan are explored in the article. The role and essence of the institute of the technopark is analyzed for this purpose. Potential of opportunities for development of network of technoparks in Azerbaijan is investigated. Recommendations and proposals on the issues under consideration are given.

**Keywords:** *technoparks, importance of technology parks in the economy, problems of efficiency of technology parks, institute of technopark, development of institute of technopark, efficiency of use of technoparks.*

UOT: 336.012.23

**MƏTLƏB MƏHƏRRƏMOV**
*Sumqayıt Dövlət Universitetinin*
*"Biznesin təşkili və idarə edilməsi" kafedrasının*
*doktorantı*
***Azərbaycan***
*E-mail: science.info@gmail.com*

# SƏNAYE MÜƏSSİSƏLƏRİNİN MALİYYƏ MEXANİZMLƏRİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ

Müasir dövrdə qlobal maliyyə təzyiqlərinin gücləndiyi bir şəraitdə sənaye müəssisələrinin maliyyə dayanıqlılığının formalaşdırılması və gücləndirilməsi məsələləri xeyli aktuallığı ilə diqqət tələb edir. Belə ki, 2008-ci ilin sonlarından başlayan dünya maliyyə böhranının mənfi təsiri bütün sahələrdə yeni yanaşmaların, metodların və üslubların, xüsusilə maliyyə mexanizmlərinin və alətlərinin təkmilləşdirilməsini, məhsuldarlığının və səmərəliliyinin artırılmasını şərtləndirir. Analoji məsələlər son on illikdə kifayət qədər qlobal təzyiqlərə məruz qalan Azərbaycan iqtisadiyaytı və onun maliyyə sistemi üçün də xarakterikdir. Məlumdur ki, ölkəmizin iqtisadi inkişaf modelinin və strategiyasının aparıcı və təkanverici qüvvəsi olan neft sənayesinin iqtisadiyyatımızın davamlı və dayanıqlı inkişafında, iqtisadi artımda rolu böyük olaraq qalmaqdadır. Amma, 2015-ci ildən başlayaraq, dünya bazarlarında bu strateji ixrac məhsulunun qiymətinin bir neçə dəfə aşağı düşməsi səbəbindən ölkəmizin maliyyə sabitliyində problemlər yaranmış, təzyiqlər artmış, milli valyuta – manatın devalvasiyası qaçılmaz olmuşdur. Bütün bunlar öz təsirini göstərməyə bilməzdi və sonrakı illərdə ölkədə maliyyə sabitliyinin gücləndirilməsi üçün yeni mexanizmlərin, qlobal təsirlərə qarşı yeni maliyyə alətlərinin və maliyyə xidmətlərinin hazırlanması və inkişaf etdirilməsi lazım gəlmişdir. Bu istiqamətdə strateji hədəflər və geniş spektrli fəaliyyət istiqamətləri öz əksini ölkə Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi"ndə tapmışdır [1]. Eyni zamanda, maliyyə sabitiliyinin təmin edilməsi ilə bağlı institusional islahatlar dərinləşdirilmiş, zəruri tədbirlər görülmüş, maliyyə bazarının inkişaf etdirilməsi məqsədilə lazım olan qanunvericilik aktları qəbul olunmuş və ya mövcud qanunvericilik bazası təkmilləşdirilmiş, çevik struktur vahidləri və maliyyə bazarlarına nəzarət funksiyasını yerinə yetirən qurumlar yaradılmışdır. Bütün bunlar nəzərə alınmaqla, son illərdə Azərbaycanda maliyyə sabitiliyinin təmin edilməsi məqsədilə sistemli tədbirlər reallaşdırılır, həmçinin maliyyə resurslarına və onların hərəkətinə, istifadəsi mexanizmlərinin qanunauyğunluğuna, maliyyə axınlarının şəffaf şəkildə hərəkətinə nəzarət formalarının gücləndirilməsi tədbirləri həyata keçirilmişdir.

Hazırkı şəraitdə sənaye müəssisələrinin maliyyə dayanıqlılığının gücləndirilməsi və hər bir müəssisənin maliyyə fəaliyyəti ilə bağlı əsaslandırılmış, balanslaşdırılmış, fəaliyyət strategiyasının təmin edilməsi əsas şərtlər kimi diqqət çəkirlər. Müəssisənin maliyyə resurslarının şəffaf və səmərəli hərəkətinə və ondan istifadəyə nail olmaq üçün etibarlı fəaliyyət mexanizmləri hazırlanaraq tətbiq olunmalıdır. Bunlarla bərabər, müəssisənin kapitalının davamlı şəkildə artırılması, yeni maliyyə mənbələrinin formalaşdırılması, maliyyə vəsaitlərinin cari dövriyyəsinin səmərəli təşkili, xüsusi diqqət mərkəzində saxlanılmalıdır. Bu sırada əsas məsələlərdən biri də müəssisənin maliyyə resurslarının hərəkətinin istənilən həlqəsində maksimum səmərəli idarəetmə və nəzarət funksiyaları təmin olunmalı, konseptual baxımdan maliyyə vəsaitlərindən istifadənin daha optimal modelləşdirilməsi strategiyası hazırlanmalıdır. Belə ki, iqtisadiyyatın bütün sahələrində və iqtisadi fəaliyyət subyektlərində, o cümlədən sənaye müəssisələrində maliyyə dayanıqlılığı ilə bağlı problemlər bütün hallarda

aktual olaraq qalır və həmin problemlərin aradan qaldırılması istiqamətində yeni mexanizmlərin işlənib hazırlanması, tətbiqi tələb olunur, buna görə də həmin problemlərin çevik və ardıcıl şəkildə həyata keçirilməsi təmin olunmalıdır. Ölkənin maliyyə bazarlarına, həmçinin maliyyə resurslarının hərəkətinə, mümkün maliyyə risklərinin sistemli və davamlı şəkildə öyrənilməsinə diqqət xeyli artmışdır və bunlarla bağlı olaraq, dövlət tərəfindən də önəmli addımlar atılmışdır. Belə ki, ölkə Prezidentinin 15 iyul 2016-cı il Fərmanı ilə "Azərbaycan Respublikasının Maliyyə Sabitliyi Şurası" yaradılmışdır [2]. Həmin Fərmanda qeyd edilir ki, son dövrlərdə istər regionda, istərsə də qlobal iqtisadiyyatda təzahür edilən proseslər, neft gəlirlərinin kəskin azaldılması və mürəkkəb xarici iqtisadi mühit ölkənin makroiqtisadi və maliyyə sabitliyinə öz təsirini göstərməkdədir. Dünyada cərəyan edən iqtisadi proseslərin yaratdığı yeni çağırışlara uyğunlaşmaq və mövcud qlobal iqtisadi böhranın ölkəmizə təsirini minimuma endirmək üçün iqtisadiyyatın mövcud vəziyyətinin dərin təhlili və ölkədə müəyyən olunmuş iqtisadi islahatların əsas strateji hədəflərinə uyğun olaraq sistem xarakterli bir sıra tədbirlərin həyata keçirilməsi əsas prioritet vəzifələrdir. Bunlarla bərabər, ölkəmizdə maliyyə sabitliyinin təmin olunması, o cümlədən müəssisələrdə maliyyə dayanıqlılığının gücləndirilməsi istiqamətində strateji yanaşmaların genişləndirilməsi, müəssisələrin daha optimal və işlək maliyyə strategiyalarının və mexanizmlərinin hazırlanması məsələlərinə diqqət daha da artırılmalıdır. Dünya təcrübəsindən yanaşdıqda, hər bir müəssisənin maliyyə sabitliyi və maliyyə dayanıqlılığı strateji məsələlərdən hesab olunmalı və xüsusilə sənaye müəssisələrinin maliyyə mexanizmlərinin təkmilləşdirilməsi istiqamətində tələb olunan alətlər fəal şəkildə tətbiq edilməlidir. Belə ki, müəssisənin maliyyə dayanıqlığının təmin olunması üçün onun maliyyə resurslarının etibarlı mənbələrinin formalaşdırılması və zəruri hallarda uzunmüddətli dövr üçün maliyyə resursalarının ehtiyatlarının yaradılması, ucuz kredit resurslarına əlçatanlığın təmin edilməsi və bütün bunların sayəsində müəssisədə tələb olunan maliyyə ödəmələrinin təmin olunması, müəssisənin özünəməxsus kapitalının artırılması, cari likvidliyin yüksək səviyyədə saxlanılması və fəaliyyətdə olan maliyyə mexanizmlərinin şəffaflığının, maliyyə hesabatlarının dürüstülüyünün, mühasibat sənədlərinin qanunvericiliyin tələblərinə uyğun olmasının xüsusi nəzarətdə saxlanılması vacib hesab olunur.

Qeyd edək ki, ölkəmizdə maliyyə resurslarına çıxışın sadələşdirilməsi və daha dayanıqlı mexanizmlərin formalaşdırılması məqsədilə, davamlı tədbirlər görülməkdədir. Hazırkı şəraitdə müəssisələrin maliyyə təminatının universal mexanizmlərinin təmin edilməsi və onların çevikliyinə nail olunması vacib şərtlərdəndir. Bunlar nəzərə alınmaqla, maliyyə və kredit resurslarının zəmanətliliyi, sığortalanmasının təmin edilməsi üçün 15 sentyabr 2017-ci il "Kredit Zəmanəti Fondunun yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanında bu kimi problemlərin həlli üçün müasir mexanizmlərin müəyyənləşdirilməsi istiqamətində ciddi addımlar atılmışdır [3]. Digər tərəfdən, müəssisənin ödəmə qabiliyyətinin yüksəldilməsi, əksinə onun pisləşməsinin operativ şəkildə müəyyən edilməsi mexanizmləri olmalıdır. Bunun üçün, daxil olan maliyyə vəsaitlərinin səviyyəsi qiymətləndirilməli, borc və öhdəliklərin ödənilməsi məqsədilə onlardan istifadənin imkanları müəyyənləşdirilməli, həmçinin gələcək artım və inkişafdan ötrü keçid qalığını özündə əks etdirən özəl pul vəsaitlərinin hərəkət balansının hazırlanması və təhlilinin aparılması diqqət mərkəzində saxlanılmalıdır. Müəssisənin maliyyə resurslarının səmərəli hərəkəti üzrə ortaya çıxa biləcək müxtəlif risklərin sistemli şəkildə araşdırılması və onların həllinə imkan verən mexanizmlərin hazırlanraq tətbiq edilməsi təmin olunmalıdır [4]. Bundan əlavə, ödəmə qabiliyyəti müəssisənin bütün pul vəsaitləri hesabına öz borc və öhdəliklərinə cavabdehlik daşımaq qabiliyyətini ifadə edir. Müəssisənin ümumi ödəmə qabiliyyətinin, maliyyə dayanıqlığı və maliyyə asılılığının qiymətləndirilməsi müxtəlif kreditorlarla qarşılıqlı münasibətləri əks etdirir [5] Müəssisənin pul dövriyyəsinin və xərclərinin onun fəaliyyət istiqamətlərinin strateji hədəflərinə uyğun şəkildə təmin edilməsi və optimallaşdırılması vacib hesab olunur. Bu məqsədlə, müəssisənin aktivləri və əsas etibarı ilə kapital resursları üzərində nəzarət və idarəetmə funksiyalarının işləkliyi, səmərəliliyi təmin edilməlidir. Müəssisənin sərəncamında olan kapitalın, maliyyə resurslarının və cari likvidlik səviyyəsinin adekvatlığı, artım tempinin olması da vacib məsələlər kimi xarakterizə olunur [6]. Hər bir

müəssisənin əsas məqsədlərindən biri də öz daxili maliyyə ehtiyatlarını artırmaqdan ibarətdir. Belə ki, onun səmərəli fəaliyyəti ilk növbədə, bu ehtiyatların etibarlılığından bilavasitə asılıdır. Maliyyə ehtiyatları ilkin formada müəssisə təşkil edilən anda nizamnamə fondunun təsis edilməsi ilə formalaşır. Nizamnamə fondunun həcmi məbləğcə nə qədər çox olarsa, müəssisənin investisiya və pul vəsaitlərindən operativ istifadə imkanları bir o qədər çox ola bilər. Müəssisədə maliyyə ehtiyatlarının toplanması və artırılması nə qədər zəruri şərtdirsə, onlardan düzgün və səmərəli istifadə etmək bir o qədər vacib hesab olunur. Belə ki, bazar iqtisadiyyatı münasibətləri olan yerdə maliyyə resurslarından səmərəli istifadə olunmasının istiqamətləri üzrə variantlar çoxdur və onların yetərincə dəyərləndirilməsi mühüm əhəmiyyət kəsb edir [7, s.67]. Digər tərəfdən, bazar iqtisadiyyatı mexanizmlərinin daha da dərinləşdiyi bir mühitdə, müəssisənin pul dövriyyəsinin və xərclərinin onun fəaliyyət istiqamətlərinin strateji hədəflərinə uyğun şəkildə təmin edilməsi və optimallaşdırılması vacibdir. Müəssisənin aktivləri və kapital resursları üzərində nəzarət və idarəetmə funksiyalarının maksimum səmərəli təşkil edilməsi tədbirləri görülməlidir [8]. Həmçinin, müəssisənin maliyyə aktivləri və maliyyə resurslarının uçotunun dürüstlüyü və şəffaflığı məsələlərinə də xüsusi önəm verilməlidir. Maliyyə uçotu nağd pul vəsaitlərinin və nağdsız resursların hərəkətinin uçotunu özündə birləşdirir. Maliyyə uçotunun strateji və başlıca vəzifələri sırasında müəssisə fəaliyyəti və onun daxili istifadəçiləri olan səhmdarlar, rəhbərlik, xarici investorlar, kreditorlar haqqında müfəssəl informasiyanın təmin olunması; maliyyə hesabatlarında göstərilən informasiyaların daxili və xarici istifadəçilərə əlçatanlığının yaradılması, müəssisədə maliyyə sabitliyini gücləndirmək məqsədilə rəqabətqabliyyətinin artırılmasına zəminin yaradılması daha çox diqqət çəkirlər [9, s. 8]. Maliyyə uçotunun əsas prinsiplərinə isə təsisçi və müəssisə arasında formalaşan mülkiyyət prinsipləri, müəssisənin fəaliyyəti ilə bağlı məsələlər, uçot siyasətinin prioritet mexanizmləri, müəssisənin təsərrüfat fəaliyyətinin dürüst təhlil olunması, uçot və inventarlaşma əsasında müəssisənin təsərrüfat – fəaliyyəti ilə bağlı bütün halların əhatə edilməsi, mühüm məlumatların vaxtında mühasibatlıqda əks olunması, iqtisadi təhlilin təşkili məqsədilə maliyyə uçotunun və analitik məlumat bazasının formalaşması aiddirlər. Maliyyə dayanıqlığının qiymətləndirilməsində, ilk növbədə müəssisənin mülkiyyətçiləri, səhmdarları maraqlıdırlar, çünki cari dövrdə borc və öhdəliklərin ödənməsi üçün, eyni zamanda sonrakı dövrdə gələcək artım və inkişaf üçün özəl ödəmə mənbələrinin kifayət etməsi məlum müəssisənin işinin səmərəliliyini tamamilə xarakterizə edir [10].

İqtisadiyyatın müxtəlif sahələrində maliyyə-təsərrüfat fəaliyyətinin təşkili üçün tələb olunan maliyyə resurslarının hərəkəti istiqamətində üzrə hər bir fəaliyyət mərhələsinin səmərəlilik prinsipləri əsasında nəzarətdə saxlanılması və bunlarla bağlı həmin proseslərə məsuliyyət daşıyan işçilərin və menecment heyətinin güclü maliyyə intizamı mühüm əhəmiyyət kəsb edir. Bundan əlavə, sənaye müəssisəsinin fəaliyyəti ilə əlaqədar olaraq zəruri xərclərin optimallaşdırılması və son nəticədə xərclərin azaldılması təmin olunmalı, bununla da hər bir müəssisənin maliyyə resurslarından səmərəli istifadə etmək strategiyası formalaşdırılmalıdır. Maliyyə bazarlarında baş verən dəyişikliklərə və hər hansı bir intensiv xarakter daşıyan səmtlərə operativ reaksiyanın verilməsi vacib hesab olunur. Amma, bunun üçün müəssisənin güclü və təkmilləşdirilmiş, maliyyə mexanizmləri olmalı və sənaye müəssisəsi ən azından müəyyən antiböhran dövrü üçün maliyyə ehtiyatlarının yaradılmasını təmin etməlidir. Belə ki, müəssisə transformasiyalar və antiböhran şəraitində təkmilləşdirilmiş və güclü immunitetə malik maliyyə dayanıqlılığı mexanizmlərinə və fəaliyyət alətlərinə malik olmalıdır. Bunlarla yanaşı, sənaye müəssisənin öz öhdəliklərini balanslaşdırılması, borc və öhdəliklərinin ödənilməsi üçün cari aktivlərin və özəl mənbələrin kifayət etməsinə xüsusi diqqət yetirməsi vacibdir. Sənaye müəssisənin maliyyə mexanizmlərinin təkmilləşdirilməsi tədbirləri görülməli və bunun üçün hər bir məsul şəxsin və struktur vahidinin maliyyə intizamnın təmin olunması tədbirləri həyata keçirilməlidir. Ödəmə qabiliyyəti müəssisənin bütün pul vəsaitləri hesabına öz borc və öhdəliklərinə cavabdehlik daşımaq qabiliyyətini əks etdirir [11]. Bütün pul vəsaitlərinin tərkibində özəl və borc mənbələri olduğu üçün maliyyə dayanıqlığı dedikdə, müəssisənin özəl mənbələri hesabına öz borc və öhdəliklərinə cavabdehlik daşımaq qabiliyyətini, maliyyə asılılığı dedikdə isə, yalnız pul formasında xarici borc mənbələrinin hesabına öz borc və öhdəliklərinə

cavabdehlik daşımaq qabiliyyətini başa düşülür. Buna görə də müəssisənin ümumi ödəmə qabiliyyətinin, maliyyə dayanıqlığı və maliyyə asılılığının qiymətləndirilməsi müxtəlif kreditorlarla qarşılıqlı münasibətləri əks etdirir.

Maliyyə-təsərrüfat fəaliyyətinin səmərəli təşkili üçün ümumi ödəmə qabiliyyətinin qiymətləndirilməsi müəssisənin elə kreditorlarla qarşılıqlı münasibətlərini xarakterizə edir ki, onlar pul mənbələrinin tərkibi və mənsubiyyətinə nisbəti qarşısında borc və öhdəliklərin ödənməsi faktının özündə xeyli dərəcədə maraqlıdırlar. Bu kreditorlara müəssisələrin işçiləri (əməyin ödənməsi üzrə borca görə ödəmə), tədarükçülər (xammal, materialların, əmtəələrin, işlərin və xidmətlərin borcunun ödənməsi) və bütövlükdə büdcə (vergilərin, qeyri-vergi ödəmələri və yığımlarının hesablanması üzrə borcun ödənməsi) aiddir. Maliyyə dayanıqlığının qiymətləndirilməsində, ilk növbədə, səhmdarlar maraqlıdırlar, çünki cari dövrdə borc və öhdəliklərin ödənməsi üçün, eyni zamanda sonrakı dövrdə gələcək artım və inkişaf üçün özəl ödəmə mənbələrinin kifayət etməsi məlum müəssisənin işinin səmərəliliyini tamamilə xarakterizə edir [12]. Bu halda müəssisənin maliyyə dayanıqlığının yüksəlməsi onun maliyyə vəziyyətinin yaxşılaşmasına və müxtəlif risklərin azalmasına birbaşa təsir edir. Eyni zamanda, hər bir sənaye müəssisəsinin maliyyə dayanıqlılığının gücləndirilməsi problemlərinin həllinə kompleks və sistemli yanaşmalar vacib məsələlər kimi qiymətləndirilməli və nəzərə alınmalıdır. Bu amillər baxımından, sənaye müəssisələrinin əsaslandırılmış maliyyə strategiyası və işlək alətləri hazırlanmalıdır [13]. Maliyyə resurslarından istifadənin səmərəliliyinin yüksəltməsi və mövcud resurslardan maksimum məhsuldar istifadə etməklə yanaşı, yeni maliyyə mənbələrinin formalaşdırılması, daha məhsuldar mənbələrin müəyyənləşdirilməsi, o cümlədən bu sahədə xarici əməkdaşlığın genişləndirilməsi, xaricdən investisiyaların və iri kapitalın cəlb olunması, bunlar üçün əlverişli maliyyə və investisiya cəlbediciliyi mühitinin yaradılması təmin edilməlidir. Yaxın illərdə ölkəmizdə və ölkə iqtisadiyyatının əsas fəaliyyət sektoru olan sənaye sektorunda – sənaye müəssisələrində maliyyə sabitliyinin təmin edilməsi, sənaye müəssisələrinin maliyyə mexanizmlərinin gücləndirilməsi üçün daha çox işlərin görülməsi lazım gələcəkdir. Hazırda həyata keçirilən struktur və institusional, həmçinin kadr islahatları, iqtisadiyyatın bütün sahələrində, o cümlədən maliyyə sektorunda, müəssisələrdə şəffaflığın təmin edilməsi, ikili mühasibatın tamamilə aradan qaldırılması, "kölgə iqtisadiyyatı"nın zəiflədilməsi və ya tamamilə dayaqlarının itirilməsi, vergiqoyma bazasının təkmilləşdirilməsi, sənaye müəssisələrinin maliyyə resurslarının və aktivlərinin uçotunun təkmilləşdirilməsi tədbirləri diqqət çəkir. Ümumilikdə Azərbaycanda maliyyə sektorunda aparılan iqtisadi islahatların həm cari, həm də orta və uzunmüddətli dönəmdə səmərələlərini görmək mümkün olacaq. Xüsusilə, manatın və qiymətlərin sabitliyi fonunda iqtisadi canlandırılmanın bank sektoru vasitəsilə həyata keçirilməsi siyasəti uğur qazanacaqdır. Sürətli iqtisadi islahatlar və yaxşı infrastruktur davamlı iqtisadi inkişaf üçün zəmindir [14].

## NƏTİCƏ

Sənaye müəssisələrinin maliyyə mexanizmlərinin təkmilləşdirilməsi və bunlarla bağlı daha təsirli, məhsuldar və işlək fəaliyyət alətlərinin hazırlanaraq tətbiq edilməsi üçün bir sıra məqamlara daha çox önəm verilməlidir:

- bazar iqtisadiyyatı dövründə sənaye müəssisələrinin maliyyə mexanizmlərinin təkmilləşdirilməsi istiqamətində fəaliyyət strategiyasının hazırlanması və reallaşdırılması təmin olunmalıdır;

-sənaye müəssisələrnin maliyyə mexanizmlərinin qlobal maliyyə çağırışları şəraitində işləkliyinin təmin olunması tədbirləri görülməli və təkmilləşdirilmələr aparılmalıdır;

-sənaye müəssisələrnin uzunmüddətli dövrü nəzərə alan smərəli fəaliyyət istiqamətləri müəyyənləşdirilməli və hər bir müəssisənin optimal maliyyə sisyasəti olmalıdır və s.

Açar sözlər: sənaye müəssisələri, müəssisənin maliyyə mexanizmləri, müəssisənin maliyyə problemləri, maliyyə mexanizmlərinin təkmilləşdirilməsi isitqamətləri, müəssisənin maliyyə ehitiyatlarının yaradılması, sənaye müəssisəsinin maliyyə mexanizmlərinin təkmilləşdirilməsi.

## ƏDƏBİYYAT SİYAHISI

*1. Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafina dair Strateji Yol Xəritəsi.*

*Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixi Fərmanı ilə təsdiq edilmişdir. Bakı, 2016, 59 s.*

*2. Azərbaycan Respublikasının Maliyyə Sabitliyi Şurasının yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Azərbaycan Respublikasının Prezidentinin 2016-cı il 15 iyul tarixli Fərmanı ilə təsdiq edilmişdir.*

*3. Kredit Zəmanət Fondunun yaradılması haqqında Azərbaycan Respublikasının Prezidentinin 15 sentyabr 2017-ci il tarixli Fərmanı, Bakı şəhəri, 15 sentyabr 2017-ci il.*

*4. Ковалев, В.В. Анализ хозяйственной деятельности предприятия. М.: Проспект, 2009. – 420 с.*

*5. Канке А.А. Анализ финансово-хозяйственной деятельности предприятия. М.: Форум – ИНФРА-М, 2008. – 287 с.*

*6. Həsənov B.N. Azərbaycan Respublikasında dövlət maliyyəsinin formalaşması və səmərəliliyinin artırılmasının nəzəri aspektləri. İ.ü.f.d. Avtoreferatı. Bakı– 2008.- 24 s.*

*7. Ataşov B., Novruzov N., İbrahimov E. Müəssisələrin maliyyəsi. Bakı, 2009 "Kooperasiya" nəşriyyatı, 336 s.*

*8. Ермошенко Т.А. Теоретические аспекты управления финансовой устойчивостью предприятия / Т.А. Ермошенко // Экономика и социум. – 2015. – № 3 (16). – С. 136 – 140.*

*9. Abdullayev L.İ. Maliyyə uçotu. Sumqayıt, SDU-nun nəşriyyatı, 2017, 221 s*

*10. Чечевицина, Л.Н. Анализ финансово-хозяйственной деятельности. Ростов-на-дону: Феникс, 2008. – 378 с.*

*11. Ataşov B.X. Maliyyə bazarları. Bakı, "Kooperasiya" nəşriyyatı, 2016. -456 s.*

*12. Əliyev Ş.T. Azərbaycanda maliyyə sabitliyinin təmin edilməsi problemləri və maliyyə-kredit sisteminin inkişafının müasir aspektləri// Audit, № 03, 2017. -S. 26-40.*

*13. Зайков В.П. Теория и методология управления финансовыми потоками. Автореферат дисс. д-ра экон. наук. Санкт-Петербург, 2008, 51 с.*

*14. Çaparlı A. Azərbaycanda maliyyə sabitliyi: çağırışlar və perspektivlər. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi. http://iqtisadiislahat.org/.*

## Направления совершенствования финансовых механизмов промышленных предприятий

### РЕЗЮМЕ

В статье исследованы направления совершенствования финансовых механизмов промышленных предприятий. С этой целью анализированы проблемы совершенствования финансовых механизмов предприятия и раскрыта их сущность. Обоснована важность осуществления необходимых мероприятий по направлению усиления финансовых механизмов промышленных предприятий. Отмечена значимость обеспечения финансовой стабильности и создания финансовых запасов предприятий в рыночных условиях. Подготовлены рекомендации и даны предложения по совершенствованию финансовых механизмов промышленных предприятий в условиях глобальной финансовой нестабильности.

**Ключевые слова:** *промышленные предприятия, финансовые механизмы предприятий, финансовые проблемы, направления совершенствования финансовых механизмов, создание финансовых запасов предприятия, совершенствование финансовых механизмов промышленных предприятий.*

## Directions of improving financial mechanisms of industrial enterprises

### SUMMARY

Directions of improving the financial mechanisms of industrial enterprises are explored in the article. The problems of improvement of financial mechanisms of the enterprise are analyzed for this purpose. The importance of carrying out the necessary measures to strengthen the financial mechanisms of industrial enterprises is justified too. The significance of ensuring financial stability and creating financial reserves of enterprises in market conditions is investigated then. Recommendations and proposals to improve the financial mechanisms of industrial enterprises in a context of global financial instability are given in the end of the article.

**Keywords:** *industrial enterprises, financial mechanisms of enterprises, financial problems, directions of improvement of financial mechanisms, creation of financial reserves of enterprises, improvement of financial mechanisms of industrial enterprises.*

UOT: 338.24: 339.5

**MURAD SALMANOV**
*Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin dissertantı*
***Azərbaycan***
*E-mail: murad_salman@hotmail.com*

# AZƏRBAYCANDA NEFTKİMYA MÜƏSSİSƏLƏRİNİN İXRAC POTENSİALININ ARTIRILMASI İSTİQAMƏTLƏRİ VƏ PERSPEKTİVLƏRİ

Azərbaycanda iqtisadi inkişaf modelinin təkmilləşdirilməsi və milli iqtisadiyyatın strukturunun diversifikasiyalaşdırılması istiqamətində önəmli addımlar atılmaqdadır. Bu istiqamətdə əsas məsələlərdən biri qeyri-neft sektorunun intensiv inkişafının təmin olunması və bununla əlaqədar olaraq istehsal potensialının gücləndirilməsi və rəqabətqabiliyyətli, eyni zamanda, ixracyönlü məhsulların çeşidinin və həcminin artırılması tədbirləri sürətləndirilməlidir. Qeyri-neft sektorunun inkişaf etdirilməsi və bu sahədə görülən tədbirlərin daha səmərəli təşkili ölkəmzidə strateji səviyyədə baxılan və qiymətləndirilən iqtisadiyyat sektoru kimi dövlət başçısının xüsusi diqqət mərkəzindədir. Belə ki, 2019-cu il oktyabr ayının 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yanında keçirilən iqtisadi müşavirədə dövlət başçısı qeyd etmişdir ki, əsas vəzifəmiz iqtisadi inkişafı sürətləndirən islahatları dərinləşdirməkdir. Bütövlükdə Azərbaycanda iqtisadi sahədə islahatlar uğurlar gedir [1]. Bu mühüm müşavirədə ölkə Prezidenti qeyri-neft sektorunda aparılan işlərin daha da sürətləndirilməsini və iqtisadi artıma bu sektorun təsirini xüsusilə vurğulamışdır və bu sahədə görülən işlərin iqtisadi artıma o qədər də böyük olmamasından narahatçılığını, iradını bildirmişdir: “Onda nə üçün bizdə qeyri-neft sektorunda ümumi artım o qədər də böyük deyil? Güzəştlər veririk, subsidiyalar veririk, texnika alırıq, infrastruktur layihələri həyata keçiririk, dövlət investisiya xərcləri kifayət qədər yüksək səviyyədədir. Bütün bu amillər özlüyündə iqtisadi artımı daha da böyük rəqəmlərə gətirib çıxarmalıdır. Amma, biz bunu görmürük”. Hesab edirk ki, bu məsələlərdə ölkə Prezidenti kifayət qədər strateji problemlərə və məsələlərə öz münasibətini bildirməklə, qeyri-neft sektorunun nə dərəcədə mühüm əhəmiyyət kəsb etdiyini bir daha diqqət mərkəzinə gətirmişdir. Bu baxımdan, qeyri-neft sektorunun ən güclü potensiala və perspektivə malik sahələrindən biri olan neftkimya kompleksinin və neftkimya müəssisələrinin fəaliyyəti strateji əhəmiyyət daşıyır. Birincisi, bu fəaliyyət sahəsinin ölkəmiz üçün xeyli ənənəvi xarakter daşıması və hələ keçmiş SSRİ dövründə Azərbaycanda çoxlu sayda kimya və neftkimya müəssisələrinin fəaliyyət göstərməsi, Sumqayıtın isə keçmiş ittifaqın iri kimya və neftkimya mərkəzlərindən birinə çevrilməsi ilə bilavasitə bu sahənin yüksək potensiala malik olması göz önündədir. İkincisi, neftkimya kompleksinin iri müəssisələrinin xammal təminatı ilk növbədə ölkəmizdə istehsal olunan neft xammalı ilə birbaşa bağlıdır və neftin emalı nəticəsində neftkimya müəssisələrinin istehsal həcminin və potensialının dəfələrlə artırılması və gücləndirilməsi mümkündür. Üçüncüsü, neftlə yanaşı ölkəmizdə həm də təbii qaz istehsalı ildən-ilə artmaqdadır, bu xammal isə neftkimya məhsullarının istehsalında kifayət qədər səmərəli olan xammal resursu hesab olunur və dünyanın əksər iqtisadi cəhətdən inkişaf etmiş ölkələrində, o cümlədən qaz istehsalı geniş həcmdə olan ölkələrdə bu xammalın emalı sayəsində nəhəng qazkimya emalı kompleksləri yaradılmışdır və bunlar külli məbləğdə valyuta resursları əldə etməyə, ixrac potensialını artırmağa imkan verir. Misal üçün, Rusiya, Səudiyyə Ərəbistanı, İran kimi neft və qaz istehsal edən ölkələrdə neft və qaz emalı nəticəsində alınan xammallardan səmərəli istifadə hesabına 100 milyardlarla ABŞ dolları məbləğində neftkimya və qaz kimyası məhsulları istehsal olunur, nəticədə əlavə emal müəssisələrinin yaradılması təmin edilir, iqtisadiyyata multiplikativ təsir üçün əlverişli şərait yaradılır, əvvəldə qeyd etdiyimiz kimi ixrac potensialı gücləndirilir və ixracdan əldə olunan valyuta hesabına ölkənin maliyyə vəziyyəti sabitləşdirilir, valyuta ehtiyatları artırılır, bütövlükdə makroiqtisadi və makromaliyyə sabitliyinin gücləndirilməsi üçün əsaslı zəmin formalaşdırılır. Bu baxımdan ölkəmizdə milli iqtisadiyyatın inkişafının

müasir problemləri və inkişaf tendensiyaları nəzərə alınmaqla, mövcud reallıqları əks etdirən, yüksək texnologiyalar əsasında formalaşdırılan və neftkimya kompleksinin intensiv inkişafını təmin edə bilən strateji hədəflərin, o cümlədən məqsədli dövlət proqramının, praktiki tədbirlərin yer alması xüsusilə vacibdir [2]

Qeyd olunan amillər və arqumentlər nöqteyi-nəzərindən Azərbaycanda neftkimya kompleksinin və onun müəssisələrinin yüksək ixrac potensialının olması xüsusilə diqqət çəkir. Ölkəmizdə kimya və neftkimya sənayesinin formalaşdırılması prosesləri hələ XIX əsrin 60-70-ci illərinə təsadüf edir və bunlar bilavasitə neftemalı sənayesinin inkişafı ilə bağlı olmuşdur. 1970-1982-ci illərdə isə Azərbaycanda neftkimya qurğularının istehsal və ixrac potensialı dəfələrlə artırılmışdır. Bu sahənin strateji əhəmiyyətini yüksək səviyyədə dərk edən və qiymətləndirən ümummilli liderimiz Heydər Əliyevin həmin dövrdə tarixi xidmətləri olmuşdur. Belə ki, 1970-1975-ci illərdə neftkimya kompleksinin əsasən cəmləşdiyi Sumqayıt şəhərinin sənaye mərkəzi kimi inkişafının sürətləndirilməsində və həmin dövrün yüksək texnologiyalarına uyğun şəkildə gücləndirilməsində Heydər Əliyevin tarixi xidmətləri olmuşdur. XX əsrin 70-80-ci illərində respublikamız rəhbərlik edərkən, Heydər Əliyev kimya sənayesinin inkişafına xüsusi əhəmiyyət verirdi. Məhz Heydər Əliyevin səyləri nəticəsində yaradılmış iri kimya müəssisələri təkcə Azərbaycan iqtisadiyyatının deyil, bütövlükdə Cənubi Qafqazın inkişafında həlledici rol oynamışdır. Heydər Əliyev dəfələrlə Sumqayıta səfərlər etmiş və neftkimya kompleksinin, onun müəssisələrinin problemləri ilə yerində tanış olmuş, keçmiş SSRİ rəhbərliyinin nümayəndələrini və yüksək vəzifəli şəxslərini özü ilə Sumqayıta gətirmiş, nəticədə iri və güclü istehsal və ixrac potensialına malik neftkimya emal qurğularının bu şəhərdə yerləşən neftkimya müəssisələrində tikilməsinə maliyyə resursları ayırtdırmış və həmin müəssisələrin tikilib istismara verilməsini şəxsi nəzarətində saxlamışdır [3, s. 204]. Bütün bunların nəticəsində neftkimya kompleksinin fəaliyyəti ölkəmizin qeyri-neft sektorunda önəmli yer tutmuş və pay sahibi olmuşdur. Ümummili liderimiz Heydər Əliyev Azərbaycanın müstəqillik illərində qeyd etmişdir ki, “Sumqayıtda iri kimya kompleksi yaradarkən, biz bunu Azərbaycan kimya sənayesinin inkişafı üçün etdik”. Müstəqil Azərbaycanın hazırkı iqtisadi inkişafında qeyri-neft sektorunun əhəmiyyətini xüsusi diqqətdə saxlayan ölkə Prezidenti İlham Əliyev Azərbaycanda müasir texnologiyalar əsasında kimya və neftkimya kompleksinin yaradılması və inkişaf etdirilməsi məsələlərini strateji vəzifələr sırasına aid etmiş və bu istiqamətdə çox mühüm məqsədlər açıqlanmış, qarşıya qoyulmuş və onların reallaşdırılması üçün davamlı tədbirlər görülməkdədir [4].

Son on il ərzində ölkədə qeyri-neft sektorunun inkişafının intensivləşdirilməsi və iqtisadiyyatın neftdən asılılığının azaldılması istiqamətlərində davamlı və səmərəli tədbirlər görülməkdədir. Xüsusilə, ölkəmizdə makromaliyyə sabitliyinin formalaşdırılmasında əhəmiyyətli rol oynayan valyuta resurslarının yeni mənbələrinin yaradılmasında və diversifikasiyalaşdırılmasında yüksək potensiala malik və ixrac imkanlarına malik sənaye sahələrinin inkişafına daha çox önəm verilməkdədir və bu sırada neftkimya kompleksinə strateji yanaşmanın olduğunu əvvəldə də qeyd etmişdik. Ölkə Prezidentinin 29 dekabr 2012-ci il tarixli Fərmanı ilə təsdiq olunmuş “Azərbaycan 2020: gələcəyə baxış İnkişaf Konsepsiyası”nda iqtisadiyyatın strukturunun təkmilləşdirilməsi və bununla bağlı olaraq qeyri-neft sektorunun inkişafına ciddi önəm diqqət çəkir. Konsepsiyada neft-qaz emalı və neftkimya komplekslərinin özəl sektorun iştirakı ilə son məhsulun istehsalına qədər texnoloji zəncirin qurulması və bu sahədə ixrac potensialının əhəmiyyətli səviyyədə gücləndirilməsi, innovasiya yönümlü texnologiyaların tətbiqinin stimullaşdırılması, sənaye şəhərciklərinin yaradılması, neftkimya məhsullarının emalı hesabına ixracyönümlü qeyri-neft sektorunun inkişafının dərinləşdirilməsi hədəflər kimi qarşıya qoyulmuşdur [5]. Hazırda həmin istiqamətlər kimi hədəf kimi götürülən vəzifələrin əhəmiyyətli hissəsinin öhdəsindən gəlindiyini qeyd etmək mümkündür və bunlar barəsində irəlidə əlavə materiallar veriləcəkdir.

Digər tərəfdən, ölkə Prezidentinin 6 dekabr 2016-cı il tarixli Fərmanı ilə təsdiq olunmuş “Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi”ndə də ölkə iqtisadiyyatının diversifikasiyalaşdırılmasında ağır sənaye sahələrinin, o cümlədən neftkimya kompleksi və onun müəssisələrinin strateji rolu ön plana çəkilmişdir. Əsas hədəflər sırasında neft və qaz emalı hesabına yeni yüksək texnologiyalar əsaslı müəssisələrin yaradılması, qurğuların istismara verilməsi, yerli tələbatı ödəməklə yanaşı, ixrac potensialını əhəmiyyətli səviyyədə artırılması yer almışdır [6]. Eyni zamanda, ölkə Prezidentinin 6 dekabr 2016-ci il tarixli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının neft və qaz sənayesinin

(kimya məhsulları daxil olmaqla) inkişafına dair Strateji Yol Xəritəsi"ndə ixracyönlü neftkimya məhsullarının strukturunun genişləndirilməsi və həcminin artırılması strateji hədəflər sırasında yer almışdır [7]. Hələ bu strateji hədəflərin müəyyənləşdirilməsinə qədər də ölkəmizdə sənayenin inkişafına dair prioritet məsələlər üzrə vəzifələr müəyyənləşdirilmiş və dövlət proqramları çərçivəsində baxılmışdır. Belə ki, ölkə Prezidentinin 26 dekabr 2014-cü il tarixli Sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı"nda iqtisadiyyatın rəqabət qabiliyyətinin artırılması və strukturunun təkmilləşdirilməsi baxımından sənayenin inkişafı ölkədə aparılan iqtisadi siyasətin əsas prioritetlərindən biri kimi qəbul olunmuşdur [8]. 2014-cü il isə Azərbaycanda "Sənaye ili" kimi yadda qalmışdır və ölkədə sənayeləşmənin yeni mərhələsinə keçmək üçün əsaslı zəmin formalaşdırılmışdır. Məhz bu dövlət proqramı çərçivəsində Sumqayıt kimya sənaye parkında polimer zavodunun qurulması ilə bağlı zəruri tədbirlərin görülməsi və Sumqayıtda korbamid zavodunun istifadəyə verilməsi planlaşdırılmış, sonrakı illərdə həmin vəzifələrin öhdəsindən bacarıqla gəlinmiş və ölkəmizdə neftkimya kompleksinin yeni güclü ixrac potensialı formalaşdırılmışdır.

Cədvəl 1-də 2010-2018-ci illərdə Sumqayıt "Etilen-Polietilen" zavodunda xammal təminatı və məhsul istehsalı göstəriciləri verilmişdir.

**Cədvəl 1**

**"Azərikimya" İB-nin Sumqayıt "Etilen-Polietilen" zavodunun 2013-2018-ci illər üzrə xammal təminatı və məhsul istehsalı göstəriciləri**

| Məhsulların adı | Ölçü vahidi | İllər | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 |
| **Xammal** | min ton | 224,3 | 284,5 | 256,6 | 287,2 | 373,4 | 374,8 | 358,4 | 344,1 | 366,4 |
| **Polietilen** | min ton | 53,5 | 74,5 | 67,1 | 76,2 | 101,0 | 103,5 | 100,3 | 93,5 | 96,4 |
| **Etilen** | min ton | 55,0 | 77,5 | 69,2 | 78,5 | 104,0 | 106,7 | 103,4 | 96,1 | 98,9 |
| **Propilen** | min ton | 28,6 | 40,2 | 35,0 | 40,9 | 56,5 | 56,4 | 52,2 | 48,6 | 56,3 |
| **Butilen-Butadien fraksiyası** | min ton | 25,0 | 27,3 | 20,3 | 24,8 | 30,1 | 24,8 | 22,2 | 31,6 | 33,1 |
| **Maye piroliz qatranı** | min ton | 54,0 | 58,2 | 54,2 | 55,4 | 71,8 | 73,4 | 70,0 | 63,9 | 69,2 |
| **Ağır piroliz qatranı** | min ton | 10,6 | 11,7 | 13,1 | 15,3 | 18,7 | 22,1 | 17,2 | 15,1 | 14,3 |
| **Saf İzopropil spirti** | min ton | 10,0 | 10,9 | 7,4 | 13,8 | 10,6 | 12,3 | 8,9 | 11,9 | 7,3 |
| **Əmtəəlik məhsul istehsalı cəmi:** | mln. manat | 120,3 | 145,2 | 121,5 | 138,8 | 181,3 | 157,4 | 214,3 | 268,4 | - |

*Mənbə: Şəfa Əliyev. Azərbaycanın sosial-iqtisadi inkişafında Sumqayıt şəhərinin strateji əhəmiyyəti. Monoqrafiya. Sumqayıt, "Azəri" nəşriyyatı, 2019, S. 119.*

Azərbaycanın ixrac potensialının artırılması bütün dövrlərdə diqqət mərkəzində olmuşdur, amma bu məsələlər müstəqillik illərində daha aktual xarakter daşımışdır. Belə ki, ölkəmiz öz müstəqilliyini bərpa etdikdən sonra, əsas məhsulalr üzrə satış və ixrac bazarlarını itirmişdi, yaxud müəssisələrarası əlaqələrin kəsilməsi səbəbindən əksər məsələləri yenidən başlamaq lazım gəlirdi. Eyni zamanda, iri neftkimya müəssisələri planlı iqtisadiyyatdan bazar iqtisadiyyatı mexanizmlərinə keçid zamanı rəqabətə tab gətirə bilmədiklərindən öz potensiallarını, o cümlədən, ixrac potensialını itirmişdilər. Bu səbəbdən neftkimya müəssisələrinin əsas fondlarının yenilənməsi, müasir texnologiyaların transferinə nail

olunması, rəqabətqabiliyyətli və ixracyönlü istehsal sahələrinin yaradılması tələb olunurdu. Lakin, bütün bunlar üçün külli maliyyə resurslarına və investisiyalara ehtiyac var idi. Ölkədə dövlət müəssisələri ilə yanaşı, özəl neftkimya müəssisələrinin yaradılması və bu sahənin məhsullarının ixrac edilməsi proseslərinin genişlənməsi üçün daha çox məqsədli investisiyalar yatırılmış və maliyyə resursları yönəldilmişdir. Rəsmi məlumatlara görə, 2018-ci ilin əvvəlinə ölkənin kimya sənayesində fəaliyyət göstərən müəssisələrin sayı 81 olmuşdur, müqayisə üçün deyək ki, 2013-cü ildə 70 təşkil etmişdir. Hazırda fəaliyyət göstərən 81 müəssisədən 76-sı qeyri-dövlət müəssisəsidir. Bundan əlavə, kimya sənayesi müəssisəsində istehsalın həcmi 2013-2017-ci illərdə 200,3 mln. manatdan 513,9 mln. manatadək artmışdır [9]. 2013-2017-ci illərdə kimya sənayesində əsas fondların yenilənməsi prosesləri sürətləndirilmiş və 2018-ci ilin əvvəlinə onların dəyəri 926,4 mln. manat səviyyəsinə qədər yüksəlmişdir. Rezin və plastik kütlə məmulatları istehsal edən emal kimya müəssisələrinin sayı isə 2018-ci ilin əvvəlinə 103 olmuşdur və onlardan 98-i qeyri dövlət müəssisələridir. Bu kateqoriyadan olan müəssisələrdə illik istehsalın həcmi 2017-ci ildə 304,2 mln. manat səviyyəsində olmuşdur.

Hazırda neftkimya məhsullarının ölkə ixracında ümumi payı onun mövcud potensialına heç də uyğun deyildir. 2018-ci ilin yekununda bu göstərici üzrə faktiki nəticə cəmisi 1 % səviyyəsində olmuşdur, göründüyü kimi bu göstərici güclü ixrac potensialına malik olan neftkimya kompleksinin ixrac imkanlarına heç də mütənasib deyildir. Əsas ixrac olunan neftkimya məhsullarından polietilen məhsulunu qeyd etmək olar və 2017-ci ildə 75,8 min ton, 2018-ci ildə isə 79,7 min ton polietilen ixrac olunmuş və dəyər hesabında müvafiq olaraq 75,4 və 74,4 mln. ABŞ dolları təşkil etmişdir. Bununla belə, 2017-2018-ci illərdə 128 mln. ABŞ dolları həcmində rezin şinlər, 42 mln. ABŞ dolları həcmində vinilxlorid polimerləri, 96 mln. ABŞ dolları həcmində etilen polimerləri, 61,5 mln. ABŞ dolları - propilen polimerləri, 130 mln. ABŞ dolları - sintetik yuyucu maddələr, 145 mln. ABŞ dolları - mineral gübrələr və s. idxal olunmuşdur [10, s.75]. İdxal olunmuş neftkimya məhsullarının əksəriyyətinin ölkəmizdə istehsal olunma potensialı vardır, bu isə o deməkdir ki, gələcəkdə həmin istehsal sahələrinin yerli bazasının təşkili hesabına, ixrac potensialını əhəmiyyətli səviyyədə artırmaq mümkündür.

Bu amillər və imkanlar nəzərə alınmaqla, Azərbaycanda neftkimya kompleksi müəssisələrinin ixrac potensialının artırılması ilə bağlı bir qrup məsələlərə, o cümlədən həmin məsələlərin maliyyə aspektlərinə xüsusi diqqət yetirilməlidir. Hazırda Sumqayıt Kimya Sənaye Parkında yeni kimya müəssisələrinin yaradılması və xüsusilə ixracyönlü məhsul istehsalı potensialının artırılması üçün əlverişli imkan yaranmışdır [11]. Bu nəhəng parkda dövlət tərəfindən kimya sənayesində özəl sektor subyektlərinin inkişaf etməsi, ixracyönlü məhsulların istehsalına investisiyalar yatırılması məqsədilə müvafiq istehsal infrastrukturu yaradılmış və rezidentlər üçün güzəştlər müəyyənləşdirilmişdir. Bütün bunlar ölkəmizdə neftkimya kompleksində ixrac potensialının artırılması üçün əsaslı zəminin formalaşdırılması tədbirlərinin intensivliyindən xəbər verir. Son iki il ərzində - 2017-2018-ci illərdə ölkəmizdə bir sıra nəhəng ixracyönlü neftkimya müəssisələrinin istifadəyə verilməsini nəzərə alsaq, artıq kimya sektorunda məhsul istehsalının və ixrac potensialının əhəmiyyətli səviyyədə artacağını gözləmək lazım gəlir. Belə ki, Sumqayıtda istismara verilən SOCAR Polimer və SOCAR Karbamid zavodlarının əsas məhsulları yerli tələbatla yanaşı, yüksək ixrac potensialına malikdir və bu iki zavodun üst-üstə ixrac potensialı il ərzində 300-400 mln. ABŞ dolları həcmində proqnozlaşdırılır. Ölkəmizdə milli iqtisadiyyat sahələrinin strateji hədəflərin müəyyənləşdirilməsi və artıq bu istiqamətlərdə intensiv işlərin getməsini nəzərə alsaq, yaxın illərdə neftkimya kompleksinin ixrac potensialının əhəmiyyətli səviyyədə artırılması mümkün olacaqdır [12]. Ölkəmizin neftkimya kompleksinin ixrac məhsullarının həcminin artırılması və strukturunun genişləndirilməsi perspektivlərindən yaxın illərdə daha güclü istifadə edilməsi vacib şərtlərdəndir. Belə ki, neft gəlirlərinin azalması ilə əlaqədar, digər məhsullar hesabına ölkəmizə valyuta daxilolmalarının artırılması strateji əhəmiyyət kəsb edir.

## NƏTİCƏ

Yaxın illərdə bu istiqamətdə daha yüksək nəticələrə nail olmaq üçün bir sıra tədbirlərin həyata keçirilməsi məqsədəuyğundur:

- ölkəmizdə neftkimya kompleksinin ixracyönlü istehsal sahələrinin potensialının artırılması, idxal olunan kimya və neftkimya məhsullarının yerli istehsalla əvəzolunması istiqamətində zəruri tədbirlərin görülməsi və investisiyaların yatırılması tələb olunur;
- neftkimya kompleksinin ixrac potensialının diversifikasiyalaşdırılması tədbirləri görülməli, ənənəvi ixracyönlü məhsularla yanaşı, elm və innovasiyalar, yüksək texnologiyalar tutumlu ixracyönlü neftkimya məhsullarının istehsalı üzrə iri layihələr

hazırlanmalı və reallaşdırılmalıdır.

**Açar sözlər:** *ixrac potensialı, neftkimya müəssisələrinin ixrac potensialı, ixrac potensialının artırılması, neftkimya müəssisələrinin inkişaf prioritetləri, ixracyönlü neftkimya məhsulları, neftkimya müəssisələrinin inkişaf perspektivləri.*

## ƏDƏBİYYAT SİYAHISI


1. *İlham Əliyevin yanında iqtisadi müşavirə keçirilib. 15 oktyabr 2019. - https://president.az/articles/34450.*
2. *Paşazadə C.H. Azərbaycanda neft-qaz sənayesinin emal şəbəkəsinin genişləndirilməsinin aktual problemləri və perspektivləri. İ.ü.f.d. dissertasiyasının avtoreferatı. Bakı, 2016, 36 s.*
3. *Şəfa Əliyev. Azərbaycanın sosial-iqtisadi inkişafında Sumqayıt şəhərinin strateji əhəmiyyəti. Monoqrafiya. Sumqayıt, "Azəri" nəşriyyatı, 2019, 368 s.*
4. *Əliyev Ş.T. Azərbaycanın kimya və neftkimya kompleksinin qiymətləndirilməsi və yenidənqurulması istiqamətləri. Bakı, "Elm və təhsil", 2012, 156 s.*
5. *Azərbaycan 2020: gələcəyə baxış İnkişaf Konsepsiyası. Azərbaycan Respublikası Prezidentinin 2012-cı il 29 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.*
6. *Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.*
7. *Azərbaycan Respublikasının neft və qaz sənayesinin (kimya məhsulları daxil olmaqla inkişafına dair Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.*
8. *Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı. Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 26 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmişdir.*
9. *2018-ci il üzrə qeyri-neft sektorunun inkişafı. https://economy.gov.az.*
10. *Azərbaycanın xarici ticarəti. Statistik məcmuə. Bakı, 2019, 216 s.*
11. *Sumqayıt Kimya Sənaye Parkının yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı, Bakı şəhəri, 21 dekabr 2011-ci il, № 548.*
12. *Əliyev Ş.T. Azərbaycanda neftkimya kompleksininin inkişafının müasir aspektləri və istiqamətləri // Audit, № 3, 2016, S.41-45.*


## НАПРАВЛЕНИЯ ПОВЫШЕНИЯ И ПЕРСПЕКТИВЫ ЭКСПОРТНОГО ПОТЕНЦИАЛА НЕФТЕХИМИЧЕСКИХ ПРЕДПРИЯТИЙ В АЗЕРБАЙДЖАНЕ


### РЕЗЮМЕ

В статье исследованы направления повышения экспортного потенциала нефтехимического комплекса Азербайджана. С этой целью анализирован экспортный потенциал нефтехимических предприятий. Обоснована необходимость повышения и эффективного использования экспортного потенциала созданных крупных нефтехимических установок. Рассмотрена роль нефтехимических предприятий в повышении ненефтяного экспортного потенциала в Азербайджане. Подготовлены рекомендации и даны предложения по направлениям повышения экспортного потенциала нефтехимического комплекса Азербайджана.


**Ключевые слова:** *экспортный потенциал, экспортный потенциал нефтехимических предприятий, повышение экспортного потенциала, приоритеты развития нефтехимических предприятий, экспортноориентированные нефтехимические предприятия, перспективы развития нефтехимических предприятий.*

## DIRECTIONS OF INCREASING AND PERSPECTIVES OF EXPORT POTENTIAL OF PETROCHEMICAL ENTERPRISES IN AZERBAIJAN


### ABSTRACT

The directions of increasing the export potential of the petrochemical complex of Azerbaijan are explored in the article. The export potential of petrochemical enterprises is analysed for this purpose. The need to increase and effectively use the export potential of large petrochemical plants established is justified then. The role of petrochemical enterprises in increasing non-oil export potential in Azerbaijan is considered too. Recommendations and proposals of increasing export potential of the petrochemical complex of Azerbaijan are given in the end of the article.


**Keywords:** *export potential, export potential of the petrochemical enterprises, increase in the export potential, priorities of development of the petrochemical enterprises, export-oriented petrochemical enterprises, perspectives of development of the petrochemical enterprises.*

**UOT 330.341**
**39.56.21**
**UOT 334.012**
**39.56.25**

# AZƏRBAYCAN RESPUBLİKASINDA KİÇİK VƏ ORTA SAHİBKARLIĞIN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ MEXANİZMLƏRİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ

**AYDAN ZƏRBƏLİYEVA**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının doktorantı*
***Azərbaycan***
*E-mail: zerbeliyeva91@gmail.com*

İnkişaf etmiş ölkələrin təcrübəsi sübut edir ki, kiçik və orta sahibkarlıq subyektlərinin, ümumilikdə biznes strukturlarının ölkə iqtisadiyyatında, milli iqtisadi sistemin inkişafı və fəaliyyətində özlərinin iqtisadi və sosial funksiyalarını normal və dolğun şəkildə həyata keçirə bilmələri üçün onlara hərətərfli dövlət dəstəyinin göstərilməsi xüsusilə vacibdir. Ona görə də bu ölkələrdə kiçik və orta biznesin inkişafına dəstək və yardım göstərilməsi dövlətiin iqtisadi siyasətinin strateji prioritetlərinədən birini təşkil edir, hətta bu siyasətin müstəqil bir istiqamətini formalaşdırır.

Biznes subyektlərinin fəaliyyətinə dövlət dəstəyi və yardımı mexanizmlərinin formalaşması və onların uğurlu fəaliyyəti həm ölkələrin inkişaf səviyəsindən, həm sosial-iqtisadi, siyasi sistemin yetkinlik səviyyəsindən, həm də bazar iqtisadi sistem modellərinin xüsusiyyətlərindən asılıdır. Ona görə bu məsələdə qeyd edilən amillərin nəzərə alınması daha uğurlu nəticələrin əldə edilməsini şərtləndirir. Bu məqsədin həyata keçirilməsi isə müxtəlif istiqamətlərdə bir-birini tamamlayan kompleks tədbirlərin həyata keçirilməsinə əsaslanır.

Respublikamızda kiçik və orta sahibkarlığın inkişafının əsas strateji hədəflərindən biri əlverişli investisya mühitinin formalaşdırılması və biznes fəaliyyətinin həyata keçirilməsi üçün şəraitin təmin edimәsidir. Bu istiqamətdə atılan mühüm addımlardan biri ümumilikdə milli iqtisadiyyatın, o cümlədən, ölkədə kiçik və orta sahibkarlıq subyektlərinin normal fəaliyyətini təmin edəcək təkmil qanunverici bazanın formalaşdırılması və inkişaf prosesləri fonunda onun daima təkmilləşdirilməsidir.

Normativ-hüquqi aktlar sahibkarlıq subyektlərinin həm fəaliyyətinin xarakterindən irəli gələn vəzifə və öhdəliklərini, məsuliyyətini müəyyən edir, həm də onların dövlət və qeyri-dövlət strukturları, tərəfdaşları və digər təsərrüfat subyektləri, eləcə də, istehlakçılar ilə olan münasibətlərini tənzimləyir. Normativ-hüquqi aktlar, eyni zamanda sahibkarlıq subyektlərinə zəruri dəstək mexanizmlərinin fəaliyyətini bə və bu dəstək sisteminə zəruri təminat elementlərini möhkəmləndirir.

Eyni zamanda normativ-hüquqi aktlar çərçivəsində sahibkarlıq subyektlərini xarici təsirlərdən, o cümlədən, onların fəaliyyətinə dövlət strukturları tərəfindən müxtəlif səviyyələrdə qanunsuz müdaxilələrdən müdafiə etmək üçün tədbirlər sistemi müəyyən edilir. Ümumilikdə, mükəmməl qanunverici baza ölkədə sahibkarlıq fəaliyyətinin sağlam təməllər üzərində formalaşması və inkişafını təmin edir və şərtləndirir.

Doğrudur, son illər respublikamızda sahibkarlığın inkişafı, sahibkarların hüquqlarının qorunması sahəsiində əhəmiyyətli işlər həyata keçirilsə də, kiçik və orta sahibkarlığa haqqında qanun qəbul edilməmişdir. Belə bir qanunun qəbul edilməsi dövlət dəstəyi mexanizmlərinin və təsisatlarının yaradılması, onların uğurlu fəaliyyətinin təmin edilməsi, kiçik və orta sahibkarlığa dövlət dəstəyinin tənzimlənməsi, onun konkret istiqamətləri və formalarının müəyyən edilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir. Eyni zamanda, bu fəaliyyətin qanunverici bazasının formalaşdırılması üçün əsas rol oynaya bilər.

KOS-ların fəaliyyətinin qanunvericilik əsaslarının yaradılmasının digər mühüm cəhətlərindən biri bu sahədə qəbul edilmiş müxtəlif proqramların, qanunların, normativ-hüquqi aktların sahibkarlıq subyektlərinin fəaliyyətinə təsirlərinin müəyyən edilməsi və qiymətləndirilməsidir. Belə bir sistemin yaradılması qəbul edilən qanun layihələrinin, qa-

nunverici aktların məqsədyönlülüyünü, mümkün mənfi təsirlərini əvvəlcədən müəyyən etməyə, onun qarşısını almağa imkan verir. Bu baxımdan respublikamızda KOS-larla bağlı qəbul edilmiş Strateji Yol Xəritəsində qanunvericiliyin təsiri analizinin tətbiq edilməsi və sistemin yaradılması, institusional təsisatın formalaşdırılması əsas prioritetlərədən biri olaraq müəyyən edilmişdir. Onu da qeyd edək ki, belə bir sistemin formalaşdırılması qanunvericilik aktlarının, hüquqi normativlərin yaradılmasında ictimai təsisatların, eləcə də sahibkarların fəal iştirakının təmin edilməsinə də əsaslanmalıdır. Əks halda bu sistemin uğurlu fəaliyyəti təmin edilə bilməz.

Ölkədə KOS-ların fəaliyyəti üçün əlverişli mühitin yaradılmasının prioritet istiqamətlərindən bir də rəqabət mühitinin sağlamlaşdırılması, təkmil rəqabət şəraitinin təmin edilməsidir. KOS subyektlərinin inhisardan, haqsız rəqabətdən qorunması, bazarda inhisarın aradan qaldırılması üçün məhz tələb və təklif mexanizmlərinin normal fəaliyyətinə əsaslanan bazar iqtisadi sisteminin formalaşdırılması vacibdir. Burada mülkiyyətin özəlləşdirilməsi sahəsində islahatların bazar prinsipləri əsasında aparılması da şərtləndirici amillərdən biridir.

Təkmil rəqabət mühitinin yaradılması bazar iştirakçılarının sayının dəyişkən olmasını, onların bazara sərbəst daxil olmaları və bazarı sərbəst şəkildə tərk edə bilmələrini, qanun çərçivəsində hər bir şəxsin iqtisadi fəaliyyətin mümkün istiqamətləri üzrə fəaliyyət göstərə bilmələrini təmin edir. Eyni zamanda, sadalanan bu şərtlərin təmin edilməsi əks effekt göstərərək, öz növbəsində, rəqabət mühitinin sağlamlaşdırılmasına geniş imkanlar yaradır. Ona görə də sağlam rəqabət mühitinin yaradılması və inkişaf etdirilməsinin başlıca şərti mülikiyyət formasından, istehsalın miqyasından, məhsul və xidmətlər satışının həcmindən və digər fəaliyyət xüsusiyyətlərindən asılı olmayaraq bazarın bütün iştirakçıları üçün bərabər imkanların yaradılması, sərbəstliyin təmin edilməsidir. Məhz bu strategiyaya uyğun olaraq dövlət tərəfindən ölkədə sağlam rəqabətin, sahibkarlıq fəaliyyətinin təşviq edilməsi, onun qanun çərçivəsində həyata keçirilməsinin dəstəklənməsi, əmtəə və xidmətlər istehsalı və satışı sahələrində inhisarçılığın məhdudlaşdırılması iqtisadiyyatın deinhisarlaşdırılması istqamətində əsas vəzifələrdəndir.

Bu sahədə həlli vacib məsələlərdən biri də, mənada iqtisadiyyatda inhisarın məhdudlaşdırılmasında, deinhisarlaşmada antiinhisar qanunvericiliyinin yaradılmasıdır. Bu qanunvericilik bazası qanunlar, məhkəmə qərarları və hüquqi normaların mürəkkəb və çoxsəviyyəsli sistemi olub, bazarların uğurlu fəaliyyətinin təmin edilməsi, iqtisadi subyektlər, firmalar və müəssisələr arasında rəqabətin tənzimlənməsi ilə bağlı fəaliyyətin çərçivəsini və prioritetlərini müəyyən edir.

Doğrudur, bu gün respublikamızda bazar iqtisadiyyatı prinsipləri bərqərar olsa da, inhisarçılıqla bağlı qanunvericilik bazası, onun səviyyəsi hələ də beynəlxalq tələblərə cavab vermir. Hələ də inhisar fəaliyyəti haqqında, konsessiya haqqında, antiinhisarla bağlı qanunvericilik formalaşmamışdır, rəqabət məcəlləsi qəbul edilməmişdir. Bu baxımdan antiinhisar qanunvericiliyinin yaradılması xüsusilə vacibdir.

Digər tərəfdən, bu gün respublikamızda təkmil və sağlam rəqabət mühitinin formalaşdırılması üçün institusional strukturun yaradılması və idarəetmə mexanizminin gücləndirilməsinə də xüsusi ehtiyac vardır. Doğrudur, respublikamızda antiinhisar fəaliyyətinə nəzarət edən qurum olaraq Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidməti fəaliyyət göstərir. Ancaq dünya iqtisadiyyatına inteqrasiyanın sürətlənməsi, ölkənin ixrac potensialının artırılması, yerli istehsalın rəqabətqabiliyyətliliyinin gücləndirilməsinə olan tələblər, eləcə də milli iqtisadiyyatın xarici rəqabət üçün açıqlığı, azad iqtisadi zonaların yaradılması proseslərinin geniş vüsət alması antiinhisar fəaliyyətini həyata keçirən müstəqil orqanın yaraılmasına ehtiyacı daha da artırır. Ona görə də yaxın perspektivdə belə bir qurumun yaradılması Strateji Yol Xəritəsində də nəzərdə tutulmuşdur.[9, s.102-104]

Ölkədə KOS-ların fəaliyyətinə münbit şəraitin yaradılmasının, ümumilikdə, biznes mühitinin yaxşılaşdırılması və təkmilləşdirilməsi mexanizmlərindən biri kimi dövlət və biznes strukturları arasında münasibərlətin inkişaf etdirilməsi, dövlət-özəl tərəfdaşlığının gücləndirilməsi də xüsusi əhəmiyyət kəsb edir və geniş potensial imkanlara malikdir. Dövlət-özəl tərəfdaşlığı əsas etibarilə dövlət satınalmaları, dövlət sifarişləri üzrə müqavilələr istisna olmaqla, iri infrastruktur layihələrinin

maliyyələşdirilməsi, infrastruktur xidmətlərinin təqdim olunması və yaxşılaşdırılması məqsədilə dövlət və özəl sektor arasında yaranan müqavilə və ya hüquqi münasibətləri özündə ehtiva edir. Bu mexanizmin inkişafı iri infrastruktur layihələrinin həyata keçirilməsi zamanı ilkin mərhələdə tələb olunan maliyyə vəsaitlərinə yaranan ehtiyacın dövlətin imkanları hesabına təmin edilə bilməməsi və infrastruktur obyektlərinin istismarı və onlara xidmət xərclərinin maliyyələşdirilməsində özəl sektorun iştirak imkanlarının geniş olması səbəbləri ilə şərtləşir. [11]

Bu tərəfdaşlıq həm infrastruktur layihələrinin reallaşması ilə bağlı xidmətlərin təqdim edilməsi, həm də bu prosesdə dövlətə dəstək mexanizmi kimi mühüm rola malikdir. Bir tərəfdən, özəl sektorun bu xidmətlərin təqdim edilməsində iştirakı onların səmərəliliyinin artırılmasında öz müsbət təsirləri ilə xarakterizə olunur. Digər tərəfdən, bu tərəfdaşlıq özəl sektorun dövlət əhəmiyyətli, ictimai layihələrdə fəal şəkildə iştirakını təmin edir.

Dünya təcrübəsində dövlət-özəl tərəfdaşlığının müxtəlif modelləri tətbiq edilir. Bu modellərə aşağıdakıları aid etmək olar: “Tik–istismar et–təhvil ver”; “Tik–sahib ol–istismar et–təhvil ver”; “Layihələndir–tik–maliyyələşdir–istismar et”; “Layihələndir–tik–idarə et–maliyyələşdir”; “Tik–sahib ol–istismar et”. [11]

Bu gün respublikamızda dövlət-özəl tərəfdaşlığının hüquqi əsası kimi qəbul edilmiş “Tikinti və infrastruktur obyektləri ilə əlaqədar investisiya layihələrinin xüsusi maliyyələşmə əsasında həyata keçirilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda “Tik-idarə et-təhvil ver” modelinin tətbiqi nəzərdə tutulur. Bu, tikinti və infrastruktur obyektləri ilə əlaqədar investisiya layihələrinin xərclərinin (əldə ediləcək gəlir də daxil olmaqla) investora, onun istehsal etdiyi mal və xidmətlərin istehlakçılar və ya səlahiyyətli orqan tərəfindən müqaviləyə uyğun olaraq satınalma yolu ilə ödənməsinə imkan yaradır. Qanun, həmçinin tikinti və infrastruktur obyektlərinin və onlara oxşar obyektlərin “Tik-idarə et-təhvil ver” modelinə uyğun olan maliyyələşmə əsasında tikintisinə (inşasına, cari və əsaslı təmirinə, yenidən qurulmasına, bərpasına), idarə edilməsinə və təhvil verilməsinə investisiyanın cəlb olunmasının hüquqi əsaslarını müəyyən edir.[4]

Məhz dövlət və özəl sektor arasında əməkdaşlığın inkişafı dövlət büdcəsinə düşən yükün azaldılmasına da şərait yarada bilər. Bununla yanaşı, fikrimizcə, dövlət-özəl tərəfdaşlığının potensialının tam müəyyən edilməsi və ondan səmərəli istifadəyə nail olmaq üçün dövlət-özəl tərəfdaşlığının inkişaf Konsepsiyasının, bu sahədə strategiyanın hazırlanması da xüsusi əhəmiyyət kəsb edir.

Sahibkarlığın inkişafı üçün əlverişli biznes mühitinin yaradılması mexanizmlərindən biri də dövlət satınalmalarında, dövlət sifarişlərinin yerinə yetirilməsində özəl sektorun, xüsusilə də, kiçik və orta sahibkarlıq subyektlərinin iştirakının təmin edilməsidir. Bu prosesdə dövlətin rolu xüsusilə daha çoxdur. KOS-ların dövlət sifarişlərinin yerinə yetirilməsinə cəlb edilməsi onlar üçün yeni imkanlar yaradır:

1. Dövlət sifarişlərinin yerinə yetirilməsində iştirak KOS-ların əlavə resurslar əldə etmək, eləcə də sərəncamlarında olan vəsaitlər çərçivəsində kiçik və orta sahibkarlıq sektorunda investisiya proseslərini stimullaşdırır;

2. Dövlət sifarişləri KOS sektorunun iqtisadiyyatın real sektorunda fəaliyyət göstərmələrinə şərait yaratmaqla, bu sektorda inkişaf dəyişikliklərini, innovasiyalı fəaliyyəti stimullaşdırır və şərtləndirir;

3. KOS subyektlərinin fəaliyyəti yalnız ticarət və vasitəçilik fəaliyyətləri ilə məhdudlaşmır, bu sifarişlərin yerinə yetirilməsi ilə onlar istehsal proseslərində, əlavə dəyərin yaradılmasında daha yaxından, fəal sürətdə iştirak edirlər;

4. Dövlət sifarişlərinin yerinə yetirilməsi sahibkarlıq sektorunda, o cümlədən, kiçik, orta və iri sahibkarlıq subyektləri arasında kooperasiya əlaqələrinin inkişafına, genişlənməsinə, sağlam, tam rəqabətə əsaslanan sahibkarlıq mühitinin yaranmasına təkan verir.

KOS subyektlərinin dövlət sifarişlərinin icrasına cəlbediməsinin əsas şərtlərindən biri kiçik və orta müəssisələrin, KOS subyektlərinin dövlət satınalmalarında, dövlət ehtiyacları üçün sifarişlərin yerinə yetirilməsində iştirakının qanunvericilik əsaslarının və onun reallaşması mexanizmlərinin yaradılmasıdır. “Kiçik sahibkarlığa dövlət köməyi haqqında” Azərbaycan Respublikası Qanununun 13-cü maddəsinə edilən dəyişikliklə əlaqədar olaraq kiçik sahibkarlıq subyektlərinin dövlət ehtiyacları üçün məhsul istehsalı, işlərin görülməsi və xidmətlərin göstərilməsi üzrə sifarişlərin yerinə yetirilməsində iştirak payı 15 faiz həddində

müəyyən edilmişdir. Bu qanuna görə kiçik sahibkarlıq subyektlərinin dövlət ehtiyacları üçün məhsul istehsalı, işlərin görülməsi və xidmətlərin göstərilməsi üzrə sifarişlərin yerinə yetirilməsində iştirakı dövlət satınalmaları haqqında Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun həyata keçirilir. [1; 2] Buna baxmayaraq, resublikamızda bu sahədə KOS-ların fəal iştirakını təmin edən qanunvericilik əsasları tam formalaşmadığı üçün, dövlət sifarişlərinin icrası ilə bağlı onların iştirakında bir sıra qeyri-müəyyənliklər və problemlər qalmaqdadır. Ona görə də bu sahədə qanunvericilik bazası, bütün normativ-hüquqi sənədlər kiçik və orta müəssisələrin inkişaf səviyyəsi və onların dövlət sifarişlərinin yerinə yetirilməsində iştirakla bağlı spesifik xüsusiyyətləri tam olaraq nəzərə almaqla formalaşdırılmalıdır.

Ölkədə KOS-ların fəaliyyəti üçün əlverişli biznes mühitinin yaradılması mexanizmlərindən biri də inzibati maneələrin aradan qaldırılması, məhdudiyyətlərin minimuma endirilməsidir. Bu gün respublikamızda bu mexanizmin tətbiq olunan elementlərinin əlaqələndirilmiş sxematik təsvirini aşağıdakı kimi ümumiləşdirmək olar (şəkil 1).

**Səkil 1. Sahibkarlıq subyeyklərinin fəaliyyəniə yarana biləcək inzibati maneələr və onların aradan qaldırılması xüsusiyyətləri**




*Mənbə: Müəllif tərəfindən tərtib edilmişdir.*

Bu manelərin aradan qaldırılması sahibkarlıq subyektlərinin fəaliyyətə başlamaları üçün xərclərin səviyyəsini minimuma endirməklə, daha rahat və inamlı şəkildə fəaliyyət göstərmələrinə şərait yaradır. Bu, eyni zamanda iqtisadiyyatın bürokratik əngəllərdən bir növ azad olunmasını təmin edərək, eyni zamanda, iqtisadi proseslərin dövlət tənzimləməsinin sərhədlərini müəyyən edir. Nəticədə dövlət strukturlarının sahibkarlıq sektorunda fəaliyyətə əlavə müdaxiləsinin qarşısı alınır.

Son illər respublikamızda da sahibkarların fəaliyyəti üçün əlverişli şəraitin yaradılması istiqamətində inzibati maneələrin yumşalıdılması və aradan qaldırılması ilə bağlı bir sıra işlər görülmüşdür. Bu istiqamətdə atılan addımlardan ilkin olaraq "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının 2013-cü il 2 iyul tarixli 714-IVQ nömrəli Qanununun qəbul edilməsi olmuşdur. Qanunda sahibkarlıq subyektlərində aparılan yoxlamaların risk qiymətləndirilməsi prinsipi əsasında təyin edilməsi və onların risk qrupları üzrə bölgüyə uyğun olaraq həyata keçirilməsi, yoxlamaların elektron uçotu və yoxlamalar həyata keçirilərkən yoxlama suallarının siyahısının tətbiqi nəzərdə tutulmuşdur. Qanunun tələbləri yoxlayıcı orqanlar tərəfindən aparılan bütün növ yoxlama tədbirlərinə, o cümlədən araşdırmalar, müayinələr, monitorinqlər, müşahidələr, təftişlər, nəzarətlər, xronometrajlar, reydlər, baxışlar və digər bu cür tədbirlərə şamil edilir. [3]

Son illər respublikamızda da sahibkarlıq fəaliyyətinə başlamaq və onu həyata keçirmək üçün lisenziyalar və icazələrlə bağlı müxtəlif yumşaldıcı tədbirlər də reallaşdırılmışdır. Bununla bağlı həm qanunvericlik bazasında müyyən dəyişikliklər edilmiş, institusional xarakterli tədbirlər həyata keçirilmiş, həm də normativ-hüquqi baza təkmilləşdirilmişdir. Bu islahatların nəticələri ilə bağlı nəticə xarakterli məlumatlar aşağıdakı cədvəldə verilmişdir.

**İnzibati maneələrin aradan qaldırılması istiqamətində aparılan islahatların nəticələri**

**Cədvəl 3.4.**

| | Normativ-hüquqi baza | İslahatların istiqamətləri və nəticələr |
|---|---|---|
| 1. | "Sahibkarlıq fəaliyyətinin xüsusi razılıq (lisenziya) tələb olunan növlərinin sayının azaldılması, xüsusi razılıq (lisenziya) verilməsi prosedurlarının sadələşdirilməsi və şəffaflığının təmin edilməsi haqqında" Fərman (19 oktyabr 2015-ci il) | ✓ 2015-ci ilin 2 noyabr tarixindən etibarən dövlət təhlükəsizliyi (həmçinin qiymətli kağızlar bazarı) ilə bağlı hallar istisna olmaqla lisenziyaların verilməsi İqtisadiyyat Nazirliyi tərəfindən "ASAN xidmət" mərkəzlərində həyata keçirilməyə başlaılmışdır. |
| 2. | "Lisenziyalaşdırma sahəsində bəzi tədbirlər haqqında" Fərman (21 dekabr 2016-cı il) | ✓ lisenziya tələb olunan fəaliyyət növlərinin sayı 59-dan 37-yə endirilmişdir;<br>✓ qüvvədə olan müddətli lisenziyalar müddətsiz elan olunmuşdur;<br>✓ yeni verilən lisenziyalar müddətsiz verilir;<br>✓ lisenziyanın verilməsinə görə ödənilən dövlət rüsumunun məbləğləri təxminən 2 dəfə, regionlar üzrə 4 dəfə (regional televiziya və radio yayımı istisna olmaqla) azaldılmışdır;<br>✓ lisenziyaların verilməsi müddəti 15 gündən 10 iş gününə endirilib və prosedurlar sadələşdirilib. |
| 3. | "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanunu (15 mart 2016-cı il) | ✓ lisenziya və icazə sisteminin tənzimlənməsinin hüquqi, iqtisadi və təşkilati əsaslarını müəyyən edir;<br>✓ sahibkarlıq fəaliyyəti növlərinə verilən icazələrin dairəsi dəqiq müəyyən edilmiş, onların sayı təqribən 4 dəfə azaldılaraq 86-ya endirilmişdir.;<br>✓ "Lisenziyalar və icazələr" portalının yaradılması;<br>✓ dövlət orqanları tərəfindən lisenziya və icazə məsələləri üzrə sahibkarlara qanunvericiliyin tətbiqi ilə bağlı məsləhətlərin verilməsi;<br>✓ "susmaqla razılıq" və "bir pəncərə" prinsiplərinin tətbiqi və sahibkarların işini yüngülləşdirən digər mütərəqqi mexanizmlər müəyyən edilmişdir. |
| 4. | "Lisenziyalar və icazələr" portalı haqqında Əsasnamə" təsdiq edilməsi barədə Fərman (21 yanvar 2017-ci il) | ✓ sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün tələb olunan lisenziyaların və icazələrin elektron qaydada verilməsini təmin edən "Lisenziyalar və icazələr" portalı istifadəyə verilmişdir. |

*Mənbə: [13] Müəllif tərəfindən aqreqasiya edilmişdir.*

Bunlardan əlavə, KOS subyektləri üçün əlavə maneələrin aradan qaldırılması, inzibati yükün azaldılması, lisenziyalaşdırma və sertifikatlaşdırma sahəsində islahatların nəticəliliyini artırmaq üçün lisenziyaların elektron qaydada verilməsi, ölkə xaricində verilmiş lisenziyaların Azərbaycanda tanınması, ekvivalentliyinin təmin edilməsi mexanizminin yaradılması, KOS subyektləri üçün vahid sertifikatlaşdırma sisteminin yaradılması, onların istehsal etdikləri məhsulların (işlərin, xidmətlərin) sertifikatlaşdırılması qaydalarının təkmilləşdirilməsi və sadələşdirilməsi, bu sahədə fəaliyyət göstərən orqanların vahid sertifikatlaşdırma sistemində birləşdirilməsi, lazımi sertifikatların bütün məlumatları əks etdirən vahid sənəddə birləşdirilməsi və bunun üçün bir müraciətin olması imkanlarının təmin edilməsi, eləcə də KOS subyektlərinin kommunal xidmətlər şəbəkəsinə qoşulma prosedurlarının sadələşdirilməsi, bu prosesin tam elektronlaşdırılması ilə bağlı işlərin həyata keçirilməsi gündəmdə olan məsələlər sırasındadır. Bunların həyata keçirilməsi həm KOS subyektlərinin beynəlxalq bazarlara çıxış imkanlarını, həm də respublikamızda xarici investisiya qoyuluşlarını artıra bilər.

Dünya ölkələrinin təcrübəsi göstərir ki, kiçik və orta sahibkarlıq subyektlərinin inkişafının ən əsas şərtləndirici amillərindən biri maliyyə resursları və onlara əlçatanlıq imkanlarının olmasıdır. Doğrudur, hazırda respublikamızda sahibkarlıq sektorunun, eləcə də, kiçik və orta sahibkarlıq sektorunun inkişafının maliyyələşdirliməsi sahəsində bir neçə struktur fəaliyyət göstərir. Ancaq bu gün respublikamızda da KOS-ların inkişafı sahəsində mövcud olan çoxsaylı problemlər sırasında maliyyə ilə bağlı məsələlər kifayət qədər ciddi təsirlərini göstərməkdədir. Bu isə bankların kiçik və orta sahibkarlıq sektorunun maliyyələşdiriməsinə bir o qədər də maraqlı olmamasıdır. İnkişaf etmiş ölkələrin təcrübəsi isə onu göstərir ki, kommersiya banları, bütövlükdə bank sektoru sahibkarlığın, biznesin inkişafının maliyyələşdirilməsində kifayət qədər ciddi tərəf kimi çıxış edir. Ona görə də respublikamızda bank sektorunun bu sahəyə marağının artırılması, diqqətinin yönəldilməsi istiqamətində fəaliyyətin həyata keçirilməsi daha faydalı ola bilər.

Bank sektorunun bu sahəyə diqqətinin artırılması üçün respublikamızda da digər ölkələrdə olduğu kimi kiçik və orta sahibkarlıq subyektləri üçün kredit təminatı proqramlarının həyata keçirilməsi məqsədəuyğun olardı. Bu proqram bankları sahibkarlıq subyektlərinə verdikləri kreditlərin qaytarılmaması ilə bağlı risklərdən bir növ azad edir. Halbuki, bu təminatın məsuliyyəti KOS-ların üzərinə düşür, ancaq onların imkanları buna yetərli olmadığı üçün kredit təminatı proqramı bu məsuliyyəti öz üzərinə götürür. Bu proqramın tətbiqi real sektora, kiçik və orta sahibkarlıq sektoruna kapital axınını stimullaşdırır, bu sektorun kreditləşməsi məqsədilə birbaşa dövlət büdcəsindən ayırmaların həcmini məhdudlaşdırır və dövlət strukturlarını risklərin qiymətləndirilməsi ilə bağlı əlavə işlərdən və məsuliyyətdən azad edərək, bu prosesdə özəl maliyyə təşkilatlarının, qurumlarının iştirakına üstünlük verilməsini şərtləndirir. Bu gün respublikamızda sahibkarlar tərəfindən manatla alınan kreditlərə təminat verilməsi üçün dövlətin nəzarətində olan Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondu fəaliyyət göstərir. Ancaq yaxşı olardı ki, dövlət təminatlı fondla yanaşı, həm dövlət-özəl təminat fondu, həm də özəl təminat fondu yaradılsın. Artıq bu təcrübə bir sıra dünya ölkələrində də uğurla tətbiq olunmaqdadır. [12]

Eyni zamanda, biznesə yeni başlayanlar üçün mikromaliyyələşmə institutunun formalaşdırılması, mikrokreditləşmənin tətbiq edilməsi daha aktual hesab oluna bilər. Hesab edirik ki, bu gün respublikamızda KOS sektorunun maliyyələşmə mexanziminin təkmilləşdirilməsi baxımından buna çox ehtiyac vardır.

Respublikamızda KOS-ların maliyyləşməsi mexanizmlərindən biri kimi onların ixrac və idxal əməliyyatlarına maliyyə dəstəyinin gücləndiriləsi baxımından ixrac və idxal banklarnın yaradılması da perspektiv üçün məqsədəuyğun olardı.

Kiçik və orta sahibkarlığın inkişafı ilə bağlı həyata keçirilən islahatların mühüm istiqamətlərindən biri institusional islahatlarıdır. Burada əsas məqsəd KOS-ların fəaliyyətinə dəstək göstərə biləcək müxtəlif təsisatların yaradılması, onların fəaliyyət mexanzimlərinin formalaşdırılmasıdır. Bunun üçün Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyində Kiçik və Orta Sahibkarlığın İnkişafı Agentliyi yaradılmışdır. [7] Bununla respublikamızda mikro, kiçik və orta sahibkarlığın inkişafına dövlət

dəstəyinin gücləndirilməsi, mikro, kiçik və orta sahibkarlığın tənzimlənməsi mexanizmlərinin təkmil fəaliyyətinin təmin edilməsi, bu sahibkarlıq subyektlərinin maraqlarının qorunması, problemlərinin həlli, onlara göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsi, çeşidinin və miqyasının genişləndirilməsi, eləcə də, dövlət qurumlarının və özəl qurumların bu sahədə xidmətlərinin əlaqələndirlməsi və fəaliyyətlərinin koordinasiyasının gücləndirilməsidir nəzərdə tutulmuşdur.

Yaxın perspektivdə respublikamizda mikro, kiçik və orta sahibkarlara müxtəlif xidmətlərin təşkili və həyata keçirilməsi ilə bağlı kiçik və orta biznes evləri, eləcə də kiçik və orta biznesin inkişafı mərkəzləri, Dövlət-Sahibkar Tərəfdaşlığının İnkişafı Mərkəzi, kiçik və orta biznesin inkişafı fondlarının yaradılması nəzərdə tutlmuşdur.

Biznes sektoru ilə dövlət strukturları arasında münasibətlərin qurulması və nizamlanmasında əhəmiyyət kəsb edən institusional təsisatlar sırasında sahibkarlıq subyektlərini təmsil edən qurumlar kimi biznes assosiasiyalarının, ticarət palatalarının, işəgötürən təşkilatlarının da xüsusi rolu vardır. Bu təşkilatlar özəl-dövlət əməkdaşlığının təmin edilməsində bir növ körpü rolu oynamaqla, sahibkarlıq, biznes sektoruun problemlərinin dövlət qurumlarının diqqətinə çatdırılmasında, assosiativ əlaqələrin, işgüzar münasibətlərin qurulmasında və onun inkişaf etdirilməsində yaxından iştirak edirlər. Onlar həm də işgüzar münasibətlərin gücləndirilməsi mexanizmi rolunu da oynayırlar. Təkcə 2017-2018-ci illərərzində respublikamızda 14 biznes assosiasiyası təsis eilmildir ki, bunların da əksəriyyəti istehsal və ixracın təşviqi yönümlü assosiasiyalardır. [13]

Ümumilikdə, bu gün respublikamızda 90-dan artıq biznes assosiasiyası mövcud olsa da, onların fəaliyyəti sahibkarlığın inkişafında bir o qədər də təsirli rol oynamır. Bununla yanaşı, Azərbaycanda həm Sənaye və Ticarət Palatası, həm də işəgötürənlər birliklərinin sahibkarlıq subyektləri ilə əməkdaşlıq səviyyələri də qənaətbəxş dərəcədə deyildir. Bu strukturların ölkədə sahibkarlığın inkişafında rolunun artırılması və imkanlarını genişləndirilməsi üçün onların daha da gücləndirilməsi, fəaliyyət miqyaslarının genişləndirilməsi istiqamətində tədbirlərin həyata keçirilməsi, qanunvericilik bazasının təkmilləşdirilməsi mühüm əhəmiyyət kəsb edir. [10]

Onu da qeyd edək ki, biznes assosiasiyalarının uğurlu fəaliyyəti KOS-ların xarici bazarlara çıxış imkanlarını genişləndirərək, onların rəqabətqabiliyyətli məhsul istehsal etmələrini stimullaşdıran və KOS-ların xarici iqtisadi fəaliyyət sferasında iştirakına dəstək mexanizminin elementlərindən biri kimi çıxış edir. Kiçik və orta müəssisələr əsasən maddi istehsal və xidmət sektorunda fəaliyyət göstərdikləri üçün ölkənin ixrac potensialının həm struktur, həm də keyfiyyət baxımından təkmilləşdirilməsində, qeyri-xammal yönümlü ixracın genişləndirilməsində fəal iştirak edə bilirlər. Bu baxımdan kiçik və orta müəssisələrin ixracının dövlət tərəfindən dəstəklənməsi ilə bağlı iqtisadi, ticarət, təşkilatı, maliyyə, informasiya və məsləhət xidmətləri elemenlərini özündə ehtiva edən daha təkmil, çevik mexanizmlərin yaradılması zərurəti ortaya çıxır. Bu məqsədlə qanunvericiliyin, normativ-hüquqi bazanın təkimilləşdirilməsi istiqamətində bir sıra tədbirlər həyata keçirilmişdir. İlk olaraq ölkədə qeyri-neft məhsullarının ixracının təşviqi ilə əlaqədar qəbul edilmiş qaydalara görə Azərbaycan Respublikasının ərazisində qeyri-neft məhsullarının ixracı ilə məşğul olan şəxslərə dövlət büdcəsinin vəsaiti hesabına ixrac təşviqinin ödənilməsi nəzərdə tutulmuşdur və ödəniləcək ixrac təşviqinin baza məbləği ixrac əməliyyatlarına görə faktiki ixrac olunmuş malın ixrac gömrük bəyannaməsində nəzərdə tutulan gömrük dəyərinin 3 faizi həddundə müəyyən edilmişdir. [5; 8]

Bunlarla yanaşı, xarici ticarət əməliyyatlarının sadələşdirilməsi, bu istiqamətdə inzibati maneələrin aradan qaldırılması, şəffaflığın artırılması və sahibkarlıq subyektlərinin ixrac imkanlarının genişləndirilməsi istiqamətində təkmil və çevik dövlət dəstəyi mexnizmlərinin tətbiq olunması məsədilə gömrük rəsmiləşdirilməsinin təkmilləşdirilməsi, bu sahədə daha çevik və şəffaf mexanizmlərin tətbiqi, idxal-ixrac prosedurları üzrə optimal gömrük nəzarəti formalarının tətbiqi, elektron informasiya sisteminin avtomatlaşdırılması hesabına imkanlarının genişləndirilməsi üçün yeni qaydalar təsdiq edilmiş və qüvvəyə minmişdir. [6]

Onu da qeyd edək ki, bu gün respublikamızda

KOS subyektlərinin beynəlxalq bazarlara çıxışının təmin edilməsində ixtisaslaşmış əsas qurum məhz Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu (AZPROMO) fəaliyyət göstərir. [14]

Fikrimizcə, sahibkarlıq subyektlərinin, o cümlədən, KOS-ların xarici bazarlara çıxışının təmin edilməsi, onların xarici iqtisadi sferada fəaliyyətinin gücləndirilməsi üçün proqram-məqsədli fəaliyyətin həyata keçirilməsi bu sahədə işlərin sistemliliyini şərtləndirən əsas addımlarda biri ola bilər. İlk növbədə kompleks tədbirlərin əsas prioritetlərinin müəyyən ediməsi vacibdir. Bu tədbirlər üç istiqamətdə sistemləşdirilməlidir.

1. Kiçik və orta müəssisələrin, eləcə də onların məhsul və xidmətlərinin rəqabətqabiliyyətliliyinin artırılması, bu istiqamətdə onlara dəstək göstərilməsi.

2. Kiçik və orta müəssisələrin xarici bazarlara çıxışının stimullaşdırılması.

3. Kiçik və orta müəssisələrin xarici bazarlarda dayanıqlılığının təmin ediməsi.

Bununla yanaşı, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun da bu məsələlərdə səlahiyyətlərinin artırılması, imkanlarının, funksiyalarının və fəaliyyət istiqamətlərinin genişləndirilməsi məqsədəuyğun olardı.
Bu struktur təkcə ixrac məsələləri ilə deyil, ümumilikdə, sahibkarlıq subyektlərinin xarici iqtisadi fəaliyyətləri ilə bağlı dövlət dəstəyi sistemi üzrə bütövlükdə fəaliyyətin əlaqələndirilməsi istiqamətində ixtisaslaşmış bir orqan kimi fəaliyyət göstərməlidir.

Kiçik və orta sahibkarlığın inkişafına dövlət dəstəyinin istiqamətləri sırasında onların müxtəlif resurslara, o cümlədən müxtəlif maddi, qeyri-maddi resurslarla çıxış imkanlarının təmin edilməsi də xüsusi yer tutur. Bu sırada KOS-ların inkişafında texnoparkların, biznes inkubatorlarının rolu xüsusilə qeyd edilməlidir. İnkişaf etmiş ölkələrin təcrübələri də bunu bir daha təsdiqləyir. Bu gün respublikamızda bununla əlaqədar bir sıra sənaye parkları, o cümlədən, Sumqayıt Kimya Sənaye Parkı, Mingəcevir Yuksək Texnologiyalar Parkı, Balaxanı Sənaye Parkı, Mingəçevir Sənaye Parkı, Qaradağ Sənaye Parkı, Pirallahı Sənaye Parkı yaradılmışdır. Bunlardan başqa, respublikamızda bu sahədəaparılan islahatların nəticəsi olaraq, Neftçala Sənaye Məhəlləsi, Masallı Sənaye Məhəlləsi, Hacıqabul Sənaye Məhəlləsi, Sabirabad Sənaye Məhəlləsi də yaradılmışdır.

Texnoparklar, sənaye məhəlləri, sənaye parkları, elmi-texniki parklar, biznes-inkubatorlar, texnopolislər ölkədə, ümumilikdə, dünyada sahibkarlığın, xüsusilə də, innovasiyalı sahibkarlığın, biznesin inkişafında təkmil bir infrasturktur rolunu oynamaqla, innovasiyalı iqtisadi inkişafın əsasını təşkil edir. Onlar yeni biliklər, kəşfləriin, ixtiraların texnologiyaya, texnologiyaların isə kommersiya məhsullarına çevrilməsinə, elmi tədqiqatların və işləmələrin nəticələrinin kommersiyalaşmasına əlverilşli şərait yaratmaqla, elm, təhsil və sənayenin, istehsalın uğurlu inteqrasiyasını təmin edir. Eyni zamanda, bu strukturların formalaşdırılması kiçik və orta sahibkarllıq sektorunda inkişafın stimullaşdırılması, innovasiyaların təşviqi, araşdırma, tədqiqat fəaliyyətlərini genişləndirilməsi, qabaqcıl təcrübənin tətbiqini də sürətləndirir. Bu baxımdan müasir dünya ölkələrində bu səviyyədə infrastrukturun yaradılması biznesin, o cümlədən kiçik və orta sahibkarlıq subyektlərinin inkişafına ən qabaqcıl dövlət dəstəyi mexanizmlərindən bir kimi qəbul edilmişdir.

Fikrimizcə, kiçik və orta sahibkarlıq sektorunun inkişafının potensial mənbələrindən biri də kiçik və orta müəssisələrlə iri müəssisələrin fəaliyyətinin inteqrasiya edilməsidir. İri şirkətlər tərəfindən onların ticarət markaları altında kiçik şirkətlərə, sahibkarlıq subyektlərinə müstəqil hüquqi şəxs kimi fəaliyyət göstərmək hüququnun verilməsi françayzinq adlanır. Françayzinqin tətbiqi kiçik sahibkarllıq subyektlərinə bazara daxil olmaq və reklam xərclərinə qənaət etməyə, onları azaltmağa imkan verir. Bu, əsasən ticarət, otel biznesi və məişət xidmətləri sferasında tətbiq edilir. Françayzinq kiçik və orta biznesin maraqları və üstünlüklərinin uğurlu inteqrasiyasını təmin etməklə, kiçik və orta sahibkarlığın inkişafını təmin edir. bu baxımdan respublikamızda da bu mexanizmin tətbiqi istiqamətində tədbirlərin həyata keçirilməsi KOS-ların inkişafına əlavə stimul verə bilər.

Ümumiyyətlə, KOS-lara dövlət dəstəyinin həyata keçirilməsi prosesi özlüyündə vahid bir sistemin yaradılmasını tələb edir. Bu sistem dövlət və qeyri-dövlət dəstəyi elementlərini özündə birləşdirməlidir, yəni burada, həm dövlət orqanları,

həm də müxtəlif vətəndaş cəmiyəti təşkilatları, ictimai təşkilatlar, o cümlədən sahibkarların müxtəlif ictimai birliklərini, o cümlədən, sahibkarlıq ittifaqları, assosiasiyaları, agentliklər, ticarət-sənaye palataları və c. əhatə edir. Bu sistemin fəaliyyətinin əsas məqsədi kiçik və orta sahibkarlıq subyektləri üçün əlverişli şərait yaratmaqla, onların milli iqtisadiyyatın inkişafında əhəmiyyətini təmin etməkdir.

**Açar sözlər:** *kiçik və orta sahibkarlığa dövlət dəstəyi, rəqabət mühiti, əlverişli biznes mühiti, dövlət-özəl tərəfdaşlığı, dövlət satınalmaları, ixrac potensialı.*

## ƏDƏBİYYAT SİYAHISI

*1. "Kiçik sahibkarlığa dövlət köməyi haqqında" Azərbaycan Respublikası Qanunu. Azərbaycan Respublikasının Qanunvericilik Toplusu. 1999, №06.*

*2. "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi barədə Azərbaycan Respublikasının Qanunu. Azərbaycan Respublikasının Qanunvericilik Toplusu. 2002, №12.*

*3. "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanunu. Azərbaycan Respublikasının Qanunvericilik Toplusu. 2013, №07.*

*4. "Tikinti və infrastruktur obyektləri ilə əlaqədar investisiya layihələrinin xüsusi maliyyələşmə əsasında həyata keçirilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu. Azərbaycan Respublikasının Qanunvericilik Toplusu. 2016, №03.*

*5. Qeyri-neft məhsullarının ixracının təşviqi ilə bağlı əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Azərbaycan Respublikasının Qanunvericilik Toplusu. 2016, №10.*

*6. "Malların və nəqliyyat vasitələrinin gömrük sərhədindən keçirilməsi üçün "Yaşıl dəhliz" və digər buraxılış sistemlərindən istifadə Qaydaları"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Azərbaycan Respublikasının Qanunvericilik Toplusu. 2016, №05.*

*7. Kiçik və orta sahibkarlıq sahəsində idarəetmənin daha da təkmilləşdirilməsi haqqında Azərbaycan Respublikasi Prezidentinin Fərmani. Azərbaycan Respublikasının Qanunvericilik Toplusu. 2017, №12.*

*8. "Qeyri-neft məhsullarının ixracı ilə məşğul olan şəxslərə ixrac təşviqinin ödənilməsi Qaydası"nın, "İxrac təşviqi şamil olunacaq qeyri-neft məhsullarının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası üzrə Siyahısı"nın və "Məhsulların növündən asılı olaraq ixrac təşviqinin baza məbləğinə tətbiq olunacaq Əmsallar"ın təsdiq edilməsi haqqında Azərbaycan Respublikasi Nazirlər Kabinetinin Qərarı. Azərbaycan Respublikasının Qanunvericilik Toplusu. 2016, №03.*

*9. Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi. Azərbaycan Respublikasının Qanunvericilik Toplusu. 2016, №12, s.102-104.*

*10. Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi. Azərbaycan Respublikasının Qanunvericilik Toplusu. 2016, №12.*

*11. Делмон Дж. Государственно-частное партнёрство в инфраструктуре: практическое руководство для органов государственной власти / Дж. Делмон. – АО «Казахстанский центр государственно-частного партнерства» при финансовой поддержке Консультативного офиса по участию частного сектора в инфраструктуре (PPIAF), 2010.*

*12. Киселева О.В., Карцев С.В. Использование финансово-кредитного механизма для активизации малого бизнеса и предпринимательства в России // Интернет-журнал «НАУКОВЕДЕНИЕ» 2016, Том 8, №1.*

*13. www.economy.gov.az*

*14. http://www.azpromo.az/export/our-services*

**Зарбалийева Айдан**
**Докторант Академии Государственного Управления при Президенте Азербайджанской Республики**

## Направления Совершенствования Механизмов Государственной Поддержки Развития Малого И Среднего Предпринимательства В Азербайджанской Республике

**РЕЗЮМЕ**

В статье рассматриваются возможности совершенствования механизмов государственной поддержки развития малого и среднего бизнеса в Азербайджане.С этой целью определены направления развития и было рассмотрено создание благоприятной деловой среды для развития МСП в стране, включая создание благоприятной законодательной базы, улучшение конкурентной среды, ограничение монополии в экономике, создание соответствующих институтов, укрепление государственно-частного партнерства, обеспечение участия частного сектора, особенно малого и среднего бизнеса, в выполнении государственных заказов и закупок,смягчение административных барьеров, устранение их и расширение доступа к финансовым и нематериальным ресурсам, обеспечение участия в этой области банковского сектора, частных финансовых учреждений, создание различных учреждений, укрепление экспортного потенциала МСП, расширение доступа к международным рынкам, изучение возможностей для интеграции деятельности малых и средних предприятий с крупными предприятиями.

**Ключевые слова:** *государственная поддержка малого и среднего бизнеса, конкурентная среда, благоприятная бизнес-среда, государственно-частное партнерство, государственные закупки, экспортный потенциал.*

**Zarbaliyeva Aydan**
**PhD student of the Academy of Public Administration under the President of the Republic of Azerbaijan**

## Directions For Improving The Mechanisms Of State Support For The Development Of Small And Medium Enterprises In The Republic Of Azerbaijan

**SUMMARY**

The article reviews the possibilities of improving the mechanisms of state support for the development of small and medium-sized businesses in Azerbaijan. To this end, directions for development were identified and the creation of a favorable business environment for the development of SMEs in the country was considered, including creating a favorable legal framework, improving the competitive environment, limiting the monopoly in the economy, creating relevant institutions, strengthening public-private partnerships, ensuring participation of small and medium businesses in fulfilling government orders and procurement,Reducing administrative barriers, eliminating them and expanding access to non-material resources, ensuring participation in this area of the banking sector, private financial institutions, creating various institutions, strengthening the export potential of SMEs, expanding access to international markets, exploring possibilities for integrating small and medium-sized enterprises with large enterprises.

**Keywords:** *government support for small and medium-sized businesses, competitive environment, favorable business environment, public-private partnership, government procurement, export potential.*

UOT 1(91)

# Fəlsəfə

**ФАИГ АЛИЕВ**
*Азербайджанский государственный университет нефти и промышленности, кафедра общественный наук, доктор философии по истории, доцент*
***Азербайджан***
*E-mail: faiq-aliyev@yahoo.com*

## МУЛЬТИКУЛЬТУРАЛИЗМ КАК ФАКТОР СТАНОВЛЕНИЯ СОВРЕМЕННОГО ДЕМОКРАТИЧЕСКОГО ОБЩЕСТВА

Современная действительность характеризуется всеобщей глобализацией и интеграцией мирового пространства и триумфом демократии, являющейся наиболее оптимальной и универсальной средой для обретения человеком истинной свободы.

В этих условиях возникает необходимость определить пределы процессов глобализации, за которыми могут следовать реальная опасность утраты собственной культурной идентичности и данная проблема приобретает новое содержание. Одновременно актуализируется проблема взаимодействия культур, а также ставятся вопросы о роли и месте отдельных культур в рамках мультикультурного общества, о степени и механизмах их влияния друг на друга. В связи с этим вопросы толерантности и мультикультурализма становится приоритетными(6, с.114).

В процессе становления современного демократического общества происходят значительные изменения в философско-культурологической концепции мультикультурализма. Очевидным является то, что проблема мультикультурализма связана с поисками практического и теоретического решения вопросов, стоящих сегодня перед всем мировым сообществом.

Теория и практика мультикультурализма, основу которой составляет идея интеграции различных культур, позволяющей сохранить эти культуры и обеспечить их взаимодействие и взаимообогащение, становится фактором, определяющим демократичности современного общества.

В высокоразвитых обществах проблема неравенства людей и социальных групп смягчена местными особенностями политической культуры и многовековыми усилиями по совершенствованию социальных институтов.

Демократия - основополагающая черта современных высокоразвитых обществ. Универсальным, для анализа в этом контексте, является американская действительность. На разных этапах американской истории соотношение разных властных моделей и начал было различным и поэтому в США существовали различные исторические типы демократии. Для их анализа история американской демократии разделена на шесть этапов:

Первый этап (1607–1776 гг.) — этап генезиса американской демократии, с начала которого сосуществовали большое количество недемократических установлений. Второй этап (последняя четверть XVIII в.) — этап первого радикального расширения и трансформации демократии. Третий этап (1800—1860е гг.) — этап второго радикального расширения и трансформации демократии. Четвертый этап (1870—1910е гг.) — этап консервации и ослаблении демократии в последнюю треть XIX в. и новое ее расширение в начале XX в. Пятый этап (период между двумя мировыми войнами), сопровождавшийся в 1920е гг. ослаблением демократии, а в 1930е гг. ее консолидацией и дополнением социальной демократией.Шестой этап (от окончания Второй мировой войны до наших дней) — современный этап, включивший разнообразные, в том числе качественные демократические нововведения(6, 117).

Особенности современных демократии проявляются в том, что они, наследуя многие традиции исторических демократий, основываясь на политических идеях

Возрождения, Реформации, Просвещения, приобретают новые сущностные и процедурные черты. Эпоха Нового времени характеризуется началом процесса модернизации, под которой понимаются политические, экономические и социальные изменения.

Демократия немыслима без внутренней и внешней свободы. Внутренняя свобода определяется ментальными свойствами субъекта, а свобода внешняя,- социальными обстоятельствами. Воля человека, выполняющего требования нравственного закона, свободна.

Идея свободы, в ареале европейской культуры, относится к числу фундаментальных проблем человеческого бытия. Человек – единственное существо на планете Земля, способное быть свободным. И человек – единственное существо, созидающее культуру. Человеческое бытие – бытие в культуре. Человек живет в культуре с самого начала, с момента возникновения человеческого рода. Именно культура формирует его человеческие качества, возвышает его над природой. Философию называют самосознанием культуры. Но к осознанию существа и смысла культуры, ее роли и места в жизни человека и общества философия подошла, в общем, совсем недавно. Лишь несколько столетий назад, в эпоху Просвещения вошло в обиход само понятие культуры. Философия, обогащенная идеями Возрождения, Реформации, мыслителей XVII в., все больше проникалась сознанием того, что созидательная творческая деятельность человека, направленная на формирование мира культуры, является выражением его родовой сущности (1).

Классическая философия признает две великих идеи в трактовке свободы.

Обосновывая одну из них, Кант исходил из того, что в природе все явления подчинены закону причинности, и человек, принадлежащий ей, как эмпирический индивид, включен в общую цепь причинных зависимостей(). Действия человека, даже если они основываются на законах природы, соответствуют им, также причинно обусловлены, воля индивида не свободна. При этом Кант и не думал отрицать свободу.

«Критической философией» Кант отвечает на вопрос: «Как же спасти свободу, если в эмпирической реальности свобода отсутствует?». Критика Канта направлена против прежней метафизики, признававшей познаваемость не только чувственно воспринимаемой реальности, но и сверхчувственных сущностей, находящихся за пределами опыта. Кант не следовал метафизической традиции и выработал систему взглядов, согласно которой природа тождественна миру опытного знания. Кант пришел к выводу о том, что чистыми априорными формами чувственного созерцания являются пространство и время, и человек способен познавать лишь то, что является в этих формах и пределах. Однако из чувственных данных невозможно вывести всеобщие и необходимые суждения. Эти качества присущи априорным формам рассудка и их соединение с эмпирическими данными вносит в опыт всеобщность и необходимость. Знание имеет опытное происхождение и человек познает явления посредством опыта(2, с.183). Теоретический разум, ставя вопрос об опыте в целом, впадает в противоречия, ибо одинаково доказуемыми оказываются и тезис и антитезис. Это указывает на предел познания, о чем свидетельствуют противоречия или антиномии теоретического разума.

Критическая философи Канта переступает границу познаваемого мира и переходит в область другого – непознаваемого мира, в котором царит уже не теоретический, а практический разум, основным назначением которого является не знание, а свобода. Кант утверждает: «Практическое есть все то, что возможно благодаря свободе». (2,с. 658)

Понятие свободы для философии Гегеля является столь же фундаментальным, как и понятие духа. Свобода – такое же свойство духа, разума, как тяжесть – свойство материи. «Свобода есть подлинная сущность духа и при том, как его действительность». (3, с.291-292)

Гегель относит волю к объективному духу, т.е. она существует в процессах деятельности. Эта идея Гегеля актуальна и сейчас, когда свободу смешивают с вольницей и на практике подменяют своеволием и произволом. Идущее от Гегеля и Канта различие в понимании свободы имеет свои основы. Истоки данного различия находятся на различных измерениях и

специфике самой культуры. Феномен свободы, как особый продукт культуры, наличие и параметры которого обусловлены внешними – культурно - регулятивными и внутренними - ментальными обстоятельствами, определяется, с одной стороны, способностью человека пластично маневрировать в жестких установках социализации, с другой, - типом его культурного сознания, тяготеющего к тому или иному варианту социальной самореализации.

Свобода есть предпосылка и основа морали. Человек как разумное существо, как носитель практического разума относится и к этому умопостигаемому миру вещей в себе. В нем действуют законы не природы, а морали. Становясь «субъективными мотивами» действий человека, они выступают в виде максим, выполнение предписаний которых является его долгом. Нравственный закон, единый для всего человечества, объединяющий и защищающий человеческий род, обязывает каждого поступать по отношению другого так, чтобы максима его воли могла служить принципом всеобщего законодательства. По отношению к субъекту этот закон выступает в виде категорического императива (4, с. 51).

Вторая половина XX - начало XXI в. стали периодом радикальных изменений в истории человеческой цивилизации. Этот период характеризуется приходом в высокоразвитых странах на смену прежнему индустриальному обществу нового – постиндустриального общества, которое является носителем культуры постмодерна.

Во второй половине XX века современные высокоразвитые страны столкнулись, так называемой «обратной колонизацией», сопровождаемой потоком иммигрантов, в качестве «дешевой рабочей силы».

Существенной особенностью этого явления была отказ этих людей от интеграции, что часто приводила к столкновению с местной национальной культурой и даже с законодательством. Подобные проблемы имело место и в традиционных странах, где миграционные процессы наиболее интенсивны, т.е. США, Канада, Австралия.

Типичными можно назвать условия, создающие сложности для современного демократического развития, обусловленные иммиграционными процессами, распространением международной преступности и терроризма, «размыванием» национальных культур и образов жизни. Возникающие на их основе конфликты не могут быть разрешены привычными демократическими методами. Активизация в странах западной демократии радикальных политических сил является ответом на демографические вызовы и не согласуется с традиционными демократическими институтами. Возрастание плюралистических демократий иммигрантских меньшинств является «долгосрочным вызовом, с которым сталкивается современная демократия (5, с.91).

Социально - классовые конфликты, характерные для XX века, сменяются этническими конфликтами, которые, по общему мнению, являются более трудноразрешимыми(6,с.118). Все это свидетельствует о том, что в условиях нынешнего размывания национальной гомогенности ряда стран Запада и обострения этнокультурных разногласий в западных обществах, демократия с ее принципами, обеспечивающими свободу слова, оказывается особенно уязвимой перед опасностью политической мобилизации, достигаемой путем разжигания конфликтов социокультурного характера.

В настоящее время проблема культурного многообразия характерна для абсолютного большинства современных государств, даже для тех, которые раньше были гомогенными.

Сегодня в Норвегии наблюдается едва ли не самый высокий уровень иммиграции во всей Европе, и большую часть иммигрантов составляют, выражаясь местным языком, fremmedkulturel — культурно чуждые. Иммигранты первого и второго поколения составляют до двадцати процентов населения столицы. На нижней ступени социальной лестницы отныне стоит не рабочий класс или бедняки, а изгои, идущие в прислугу — иммигранты, признаком которых, в известной мере служат национальность и раса.(7, с.23)

В 1990-е гг. интеграция иммигрантов в развитые общества приобрела вид упрощенной, зачастую поверхностной натурализации, продиктованной по большей части стремлением

иммигрантов приобщиться к преимуществам общества всеобщего благоденствия, а не к его национальной идентичности. Возникли практически не контролируемые национальными государствами и чреватые конфликтами одновременные процессы включения мигрантов в принимающее общество и их групповой консолидации на общинной и трансграничной основе. Использующие преимущества натурализации, но не отвергающие, а часто даже укрепляющие прежние привязанности, иммигрантские сообщества часто создают теперь новое пространство лояльностей, идентичностей, сетевых отношений. Это пространство не укладывается ни в представления о верховенстве национальной идентичности и доминантной роли основных культур, ни даже в привычное понятие "территориальность" (территориальный тип поселений, локализация этнических анклавов, территориальная мобильность преимущественно в пределах отдельной страны). (6, с. 132)

Реакция современного общества на многообразие может проявляться с одной стороны в отношениях власти к интеграции в общество различных народов, с другой стороны в официальной позиции по поводу возможности участия различных народов в жизни государства.

Этот новый вызов человечеству стал основанием возникновения коммунитаризма, а затем и мультикультурализма, впитавшего многие идеи коммунитаризма.

Согласно исследованиям ученых, словосочетание «мультикультурализм» впервые было использовано в Швейцарии в 1957 году (7,с. 22). К настоящему времени учеными мультикутуральному явлению в обществе даны разносторонние определения, а порой противоположные: «Мультикультурное общество - это социальный и политический термин, состоящий в том, что вследствие всеобщей миграции все больше людей с различными культурными мировоззрениями, индивидуальными представлениями о ценностях, вероисповеданием, этническим происхождением и языком общения живут одном обществе, где взаимное уважение, признание культурных различий является основополагающим принципом и политической задачей». (5, с.89)

«Мультикультурное общество - это лишь другое слово для многообразия и неоднородности современных обществ, которые хотят быть открытыми. Это означает так же, что мультикультурное общество есть и будет обществом конфликтным» (8,с.26)

«Мультикультурное общество - общество, в котором живут люди различного происхождения, национальностей, разных языков, религий, этний. В идеале стремятся не к ассимиляции, а к уважению и терпимости по отношению к другим культурам» (8,с. 34). Индивиды будут свободно действовать согласно нормам и ценностям своей этнической группы так долго, пока они не столкнуться с подавляющими национальными идеализированными ценностями, такими как справедливость, равенство, человеческое достоинство.

Несовместимость и несогласованность указанных определений, подмена в них критериев, а также их эмоциональность позволяет нам утверждать, что становление данного понятия не завершено.

Мультикультурным обществом, видимо, можно назвать только такое общество, ключевым принципом которого является требование параллельного существования культур в целях взаимного сохранения культур.

Отвечать на вызов мультикультурализма. Гомогенное общество осталось в прошлом. Население Европы испытывает изменение как этнического, так и религиозного состава. Новые меньшинства нуждаются в признании, доступе к власти и интеграции(7, с.24).

В этих условиях интенсифицируется международный диалог культур. Однако чем ближе становятся культуры в условиях глобализации, тем более явными оказываются различия между ними. В результате зачастую иная культура воспринимается как набор музейных этнографических экспонатов.

Современные демократии, во избежание нивелирования культурных различий сконструировали новую нормативную теорию - концепцию мультикультурализма, выдвинувшую требования защиты культурного многообразия на основе признания паритета прав меньшинств наряду с правами большинства данного социума, социальной интеграции общества на базе толерантности по отношению к другим,

освобождения от различных форм проявления шовинизма и ксенофобии.

Мультикультурализм, как фактор становления современной демократии, призывает индивидов выйти из жестких рамок своей идентичности, чтобы стать полноценными членами обществ и воспринять общечеловеческие ценности терпимости и уважения к всеобщим правам человека. Современную концепцию мультикультурализма можно рассматривать как продолжение попыток на качественно новом уровне разрешить проблему сосуществования сообществ с разными системами ценностей. Наиболее значимая идея мультикультурализма — это идея диалога (5, с.87). Мультикультурность – это отчетливо выраженное свойство социальной реальности на уровне повседневного существования значительной части, если не большинства из ныне живущих на Земле людей.

Социально - теоретическое обоснование современного мультикультурализма отображено в идеях веротерпимости, гражданской толерантности, признания равноценности всех культур, оформленных в философии Нового времени.

**Ключевые слова:** *свобода, культура, воля, мультикультурализм, толерантность, демократическое общество, мультикультуральное общество.*

## СПИСОК ЛИТЕРАТУРЫ

*1. Келле В.Ж. Культура и свобода Журнальный клуб Интелрос » Философский журнал» №1, 2008*

*2. Кант И. Критика чистого разума. Кант И. Соч. Т. 3. М., 1964.*

*3. Гегель Г.В.Ф. Энциклопедия философских наук. Ч. 3: Философия духа. Гегель Г.В.Ф. Соч. Т. 3. М., 1956.*

*4. Соловьев Э.Ю. Категорический императив нравственности и права. М., 2005.*

*5. Демократия: куда теперь? Опубликовано в журнале Логос, номер 2, 2004 . Перевод с английского Николая Эдельмана*

*6. Следзевский И.В. Мультикультурализм: хрупкий баланс между интеграцией и дезинтеграцией В статье анализируется трансформация Общественные науки и современность. 2013, № 2*

*7. Ваулина Л., Штоль Ф., Штрассер Г. Понятия и значения. - Кострома: Лаборатория межкультурных исследований, 2006.*

*8. Ушанова И.А. Глобализация и мультикультурализм: пути развития Вестник Новгородского гос. ун-та. 2004, №27.*

**Faig Aliyev**

**Multiculturalism as a factor in the formation of a modern democratic society**

### SUMMARY

The article considers multiculturalism as a factor in the formation of a modern democratic society. The author of the article, exploring the problems, concludes that multiculturalism is, of course, complex phenomenon that has its own logic and development dynamics. This development cannot be separated from global, really existing transformations of the modern world, reinforcing the significance of cultural differences and cultural identities. The issue of the prospects of multiculturalism remains one of the most important open problems of modern democratic society.

**Keywords:** *multiculturalism, democratic society, integration, immigration, freedom*

**Faiq Əliyev**

**Multikulturalizm müasir demokratik cəmiyyətin formalaşması amili kimi**

### XÜLASƏ

Məqalədə multikulturalizm müasir demokratik cəmiyyətin formalaşması amili kimi qiymətləndirilir. Problemləri araşdıraraq məqalə müəllifi bu fikrə gəlir ki, multikulturalizm özünəməxsus məntiqi və inkişaf dinamikasına sahib olan mürəkkəb bir fenomendir. Cəmiyyətdəki inkişaf mədəni fərqliliyin və mədəni kimliyin əhəmiyyətini gücləndirərək müasir dünyanın qlobal, həqiqətən mövcud dəyişikliklərindən ayrıla bilməz. Multikulturalizmin perspektivləri məsələsi müasir demokratik cəmiyyətin ən vacib açıq problemlərindən biri olaraq qalmaqdadır.

**Açar sözlər:** *multikulturalizm, demokratik cəmiyyət, inteqrasiya, immiqrasiya, azadlıq*

UOT 94(479.24)

# Tarix

# XIX ƏSRİN 90-CU İLLƏRİNDƏ CƏNUBİ AZƏRBAYCANDA YAŞAYAN ƏHALİNİN DEMOQRAFİK VƏZİYYƏTİ

**ŞƏFAYƏT FƏRƏCOV**
*BDU-nun Azərbaycan tarixi (təbiət fakültələri üzrə) kafedrası nəzdində "Dünya Azərbaycanlıları: tarixi-demoqrafiya" ETL-nin aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru*
***Azərbaycan***
*E-mail: shafayat.farajov@mail.ru*

**HİKMƏT ƏHMƏDOV**
*Tarix üzrə fəlsəfə doktoru*
***Azərbaycan***

Dünya qədər yaşı və dörd min ildən artıq mədəniyyət tarixinə malik olan Bütöv Azərbaycan tarixi haqda elmi araşdırma aparmaq, onun əhalisi haqda məlumat vermək üçün bəzi çətinliklər mövcuddur. Bunlar əsasən tarixi sənədlərin olmaması, Azərbaycanda kargüzarlığın zəif inkişafı və digər səbəblərdir ki, tarixşünaslığımızın tədqiqində çətinliklər yaradır. Bu səbəbdən də Cənubi Azərbaycan əhalisi haqda məlimatları əcnəbi tədqiqatçıların əsərlərindən alırıq. Xüsusilə də qədim dövrlərə aid hissələrdə. XIV əsrdən XX əsrin əvvələrinə qədərki dövrlərdə Azərbaycan əhalisi haqda mənumatları biz əsasən Avropa, Rusiya, Ərəb və digər mənbələrdən alırıq. Bu mənbələrin nə dərəcə səhih olmasını biz yalnız mənbələrin diqqətlə analizindən sonra bilirik. Əlbət ki, bu rəqəmlər tam həqiqəti əks etdirmir.

Azərbaycanın böyük ticarət yolu üzərində yerləşməsi Qəbələ, Bərdə, Gəncə, Bakı, Təbriz, Naxçıvan, Şamaxı və digər iri şəhərlərin, o cümlədən də yaşayış məskənlərin ərazisində əhalinin rifahı yüksək olduğuna görə onların sayı sürətlə artırdı.

Akademik Məmməd Arif yazırdı: " Qədimdə kim Azərbaycan torpağından keçməmişdir! Kim onun çaylarından, bulaqlarından su içməmişdir: parfiyalılar, romalılar, sasanilər, ərəblər, səlcuqlar, monqollar, türklər, iranlılar!...". Belə hücumlar nəticəsində ölkə qana boyanmış, qədim şəhərlər, qalalar, körpülər, yollar, suvarma sistemləri dağıdılıb xarabazara çevrilmişdir( 1.səh. 5).

Yuxarıda qeyd etdiyimiz kimi Azərbaycan əhalisi haqda ilkin məlumatları əcnəbi mülliflərin və səyyahların verdiyi məlumatlara əsasən araşdıracağıq. Bunlardan flamandiyalı Rubruk (Rubrukvis) 1253-1255; venetsiyalı Kontarini 1473; venetsiyalı Barbaro 1479; ingilis A.Cenkinson 1561-1563; Eduard Klark 1566; Artur Edvars 1565-1567; 1568-1579; 1580; alman alimi və səyyahı Adam Oleari 1637-1638; rus səyyahları Afanasi Nikitin 1467; N.N.Tixonov 1615; F.A.Kotov 1623; F.F.Volkonski 1637; E.F. Mışetcki 1642; A.Suxanov 1652; Semyon İvanoviç və Boris Andreyeviç Pazuxinlər 1672; akademik S.Q.Qmelin 1770; kapitan L.K. Artamonov 1889.

Cənubi Azərbaycan ərazisində olan Venesiyalılar Vətənimiz haqda geniş məlumatı"Venesiyalıların Şah I Təhmasibi Sarayında" əsərində vermişlər. (2). Digər bir mənbə olan "Səyyahlar, kəşflər, Azərbaycan" əsərində Azərbaycan haqda xarici səyyah və müəlliflərin verdiyi məlumatlar cəmləşmişdir.( 3).

Bizim əsas tədqiq etdiyimiz əsər Rusiya Baş Ştabının kapitanı L.K. Artamanovun 1890-cu ildə Tiflisdə çapdan çıxan və Cənubi Azərbaycanda yaşayan əhalinin demoqrafik vəziyyətinə dair tutarlı məlumat verən "Şimali Azərbaycan" hərbi-coğrafi kitabıdır. Kitab 2 hissədən ibarətdir. I hissə- ümumi, II hissə- istiqamətlər haqda. Kitabda verilən məlumata görə müəllif 6 aylıq hazırlıqdan sonra 2 ay müddətində Cənubi Azərbaycan ərazisini gəzərək qiymətli məlumatlar toplamışdır. 15 oktyabr 1889-cu ildə Culfa keçid məntəqəsindən Cənubi Azərbaycan ərazisinə daxil olmuş həmin ilin dekabr ayının 14-də isə Rusiya İmperiyasına tabe olan Şimali Azərbaycan ərazisindən keçərək geri qayıtmışdır. Onu səyahətdə 3 atlı kazak, 2 qulam və bir tərcüməçi müşayət edirdi.

L.K. Artamanovun verdiyi məlumata görə Cənubi Azərbaycanın ərazisi İran ərazisinin on altıda bir hissəsini, əhalisi isə ölkə əhalisinin dörddə bir hissəsini təikil edirdi. (1.səh.12). İlk dayanacağı Təbrizdə onu Rusiyanın Baş konsulu A.A. Petrov qəbul etmiş və ona köməklik göstərmişdir. Təbrizdə konsulun qonağı olan L.K.Artamanov şəhəri gəzib dolaşmış, şəhərin əhalisi, məşğuliyyəti, adət-ənənəsi və digər maraqlı məlumatlar toplamışdır. Təbrizdə olduğu müddətdə onu Vilayətin hakimi İran şahının II oğlu Müzəffər-Ətdin-Mirzə qəbul etmişdir. Müəllifin verdiyi məlumata görə Vəliəhd ən çox Rusiya və Qafqaz haqda maraqlanır. Vəliəhd Təbrizdə keçirilən ordunun təliminə qonağı L.K. Artamanovu da dəvət edir. Təbrizdən sonra səyyah Nabat-abad kəndində, Sarab, Ərdəbil şəhərlərində olmuş, Namin xanlığını, Əhər şəhərini və Kəlheybər qəsəbəsini gəzmişdir. Bundan sonra o, Urmiya gölü və Xoy ətraflarında, Evgül kəndində olmuşdur. Müəllifin qeyd etdiyinə görə Cənubi Azərbaycan ərazisində olduğu müddət ərzində 967 versdən çox yol qət etmişdir. İndiki ölçülərlə L.K. Artamanov Cənubi Azərbaycan ərazisində, bir verst 1066 m-ə bərabərdisə, 1308 km-ə yaxın məsafə qət etmişdir. Atla hərəkətdə olarkən o, hər şəhərdə, hər kənddə, hər yaşayış məskənində qalaraq ətraflı tədqiqatlar aparmış, əhalinin sayı, məşğuliyyəti, adət-ənənəsi, milliyəti və digər məlumatlar toplamışdır. Ona görə də onun şəxsən Cənubi Azərbaycan ərazisini qarış-qarış gəzib hərtərəfli məlumat verməsi Azərbaycan tarixşünaslığı üçün əsas mənbə sayıla bilər. Kitabda digər bir maraqlı faktda odur ki, müəllif Rusiya ərazisində istifadə olunan ölçü və çəki vahidlərini, dövriyyədə olan rus pullarının Cənubi Azərbaycanda istifadə olunan analoji vahidlərlə nisbətini vermişdir. Məsələn Cənubi Azərbaycanda ölçü vahidi olan fərsəh 6 rus verstinə bərabərdi. İranın Cənubi Fars əyalətində isə fərsəh 7 verstə bərabərdi. Pul vahidi olan tümən 3 gümüş rus rubluna, qran 30 rus qəpiyinə bərabərdi. Xalvar (taxılın ölçü vahidi) 100 batmana bərabərdi. Ərdəbil batmanı 14 rus funtuna, Təbriz batmanı isə 12 rus funtuna bərabərdi. Verilmiş məlumatlardan məlum olur ki, hətda İran ərazisində də ölçü vahidləri arasında fərqlər mövcud olmuşdur. Bunlardan əlavə müəllif Cənubi Azərbaycanın coğrafiyası, təbiəti, flora və faunası haqda da geniş məlumat vermişdir.

İran dövlətinin əhalisi haqda məlumat verən müəllif qeyd edir ki, ölkə əhalisinin sayı 8 000 0000 (səkkiz milyon) nəfərdi. Azərbaycan Vilayətində ( Cənubi Azərbaycanın ərazisi başa düşülməlidir) yaşayan əhalinin sayı isə 2 000 000(iki milyon) nəfərdi. Müəllif qeyd edir ki, verilən rəqəmlər mötəbər mənbələrdən alınmışdır. L.K. Artamanovun yazdığına görə Cənubi Azərbaycan ərazisində yaşayan əhalinin əksəriyyəti şəhərdə yaşayır. Məsələn: Təbriz şəhərində 300 000 minə yaxın, Ərdəbil şəhərində 50 000 yaxın, Xoy şəhərində 35 minə yaxın, Urmiya şəhərində 30 000 yaxın, Sarab şəhərində 18 000 yaxın, Əhər şəhərində 18 000, Marağada 20 000 nəfər, Mərənd şəhərində 12 000 minə yaxın əhali yaşayırdı. Ümumiyyətlə Cənubi Azərbaycan ərazisində olan şəhərlərdə yaşayan əhalini ümumi sayı 500 000 nəfərə bərabərdi. Əhalinin 500 000 nəfərinin köçəri olduğunuda qeyd edən müəllif onların məşğuliyyətləri barədə də geniş məlumatlar vermişdir.

L.K. Artamanov Cənubi Azərbaycan əhalisini 3 əsas millətlərdən(xalqlardan) ibarət olduğunu qeyd edir. I- Türk-tatarlar; onlar Cənubi Azərbaycan ərazisinin hər yerində yaşayır və ümum əhalinin əsas tərkibini təşkil edir.

II- Kürdlər; onlar əsasən Türkiyə ərazisi ilə həmsərhəd zonalardakı dağlıq ərazilərdə yaşayırlar.Onların hamısı köçəridirlər və qəbilələrə bölünmüşlər.

III- Farslar; əsasən şəhərlərdə və kiçik məntəqələrdə yaşayırlar.

II dərəcəli xalqlar arasında nisbətən say çoxluğuna mənsub olan əhali- ermənilər əsasən Təbriz və Ərdəbil şəhərlərində yaşayırlar. Çox cüzi hissəsi isə Qaradağ rayonu ərazisində məskunlaşmışlar.

Aysor və xaldenlər əsasən Urmiya və ona yaxın ərazilərdə yaşayırlar.

Yəhudilər çox az sayda mövcuddur və əsasən şəhərlərdə məskunlaşmışlar.

Avropalılar, bunlar əsasən Avropadan Cənubi Azərbaycan ərazisinə gəlib ticarətlə məşğul olan tacirlər, əsasən Təbrizdə və Urmiyada yaşayırlar.

Kitabda Cənubi Azərbaycan ərazisində yaşayan əhalinin dini mənsubiyyəti haqda da məlumat verilmişdir. Müəllif qeyd edir ki, Cənubi

Azərbaycan mütləq müsəlman ölkəsidir və dini baxımdan eynilik təşkil edir nəinki milli baxımdan. Əhalinin tam əksəriyyəti şiə təriqətinə mənsubdur. Sünnü təriqətinə əsasən kürdlər və Astara mahalında yaşayan talışların çox az hissəsi mənsub idi.

Xristianlara avropalılar, ermənilər, aysorlar, xaldenlər, Amerikadan gəlmiş missonerlər daxil idilər. Xristianların əsas hissəsi şəhərlərdə o cümlədəndə Təbriz şəhərində yaşayırlar.

Müəllifin qeyd etdiyinə görə bu dövrdə Cənubi Azərbaycan 16 əyalətə bölünmüşdür. Bunlar-Namin xanlığı, Ərdəbil vilayəti, Qaradağ vilayəti, Sarab vilayəti, Qarqar xanlığı, Mərənd vilayəti, Xoy vilayəti, Maku xanlığı, Təbriz vilayəti, Miyanə vilayəti, Xalxal dairəsi, Urmiya vilayəti, Marağa vilayəti, Şain-Qala dairəsi, Anquram dairəsi, Təxti-Süleyman dairəsi.

Yuxarıda sadalanan bölgələr İran şahı tərəfindən təyin olunan məmurlar tərəfindən idarə olunurdu. Müəllif qeyd edir ki, məlumatların toplanmasında ən çətin iş əhali haqda məlumatların toplanması olmuşdur.

1. Namin xanlığı 4 mahaldan ibarətdir: Astara, Vilkudjc, Arşa və Udjarud. Bu mahalların ərazisində 126 kənd yerləşir. Bundan başqa Astara mahalında 300 evdən ibarət köçəri tayfası yaşayır. Ümumiyyətlə xanlıq ərazisində yaşayan əhalinin sayı 30 000 nəfərdi. Xanlıq tərəfindən dövlət xəzinəsinə verilən verginin miqdarı 7000 tümən (21000 gümüş rus rublu) və 800 xalvar buğda və arpa.

2. Ərdəbil vilayəti əhəmiyyətinə və böyüklüyünə görə Cənubi Azərbaycan ərazisində birinci yerdədir. Ərdəbil vilayəti ərazisindən çıxan məmurların sayına görə də birinci yerdədir. Bu onunla izah olunur ki, Ərdəbil Şeyx Səfinin yurdu olduğuna görə və orada Azərbaycanın ən mötəbər şəxslərinin məzarları olduğuna görə ora bir növü müqəddəs yer kimi İranlılar tərəfindən sitayiş olunur. Vilayət 3 mahala bölünür: Ərdəbil, Yuxarı Meşkin və Aşağı Meşkin. Ərdəbil vilayətində 223 kənd var. Hər iki Meşkin mahalında isə 70 kənd, hər birisində orta hesabla 100 tüstü, yəni ev mövcud idi. Ümumilikdə Ərdəbil vilayətində 300 kənd olmaq etibarilə hesablasaq və hər evdə yaşayan ailə üzvlərini 6 nəfərdən götürsək onda bu nəticəyə gəlmək olar ki, kənd əhalisinin ümumi sayı 180 000 nəfər olmuşdur. Kənd əhalisinin üzərinə şəhərdə yaşayan 50 000 nəfəri əlavə etsək onda görərik ki, vilayətin ümumi əhalisinin sayı 230 000 nəfərdi. Vilayətdə oturaq əhalidən başqa köçəri həyat tərzi sürən şahsevənlər tayfası da yaşayır. Onların sayı 10 000 ev, hər evdə 6 nəfərdən ibarət ailə üzvü hesablasaq, şahsevən tayfasının sayının 60 000 nəfər olduğunu müəyyən edərik. Ərdəbil vilayətinin əhalisinin ümumi sayını cəmləşdirsək görərik ki, əhalinin ümumi sayı 300 000 nəfər olmuşdur. Ərdəbil vilayətinin mərkəzi sayılan Ərdəbil şəhərində 45-50 min nəfər əhali yaşayır. Ərdəbil şəhəri böyük olması ilə yanaşı həm də bütün şərqi Azərbaycanın ticarət, icra hakimiyyəti və hərbi mərkəzi sayılır. Şəhər dövlət xəzinəsinə hər il 3500 tümən vergi verir.

3. Qaradağ vilayəti böyüklüyünə görə Şərqi Azərbaycanda ikinci yerdədir. Vilayətin başında general-qubernator qədər səlahiyyəti olan hakim durur. Qaradağ vilayəti 18 mahala bölünür və hər mahal xan tərəfindən idarə olunur. Vilayət ərazisində 140 000 nəfər yaşayır. Onlardan 110 000 nəfəri oturaq, 30 000 nəfəri isə köçəri həyat sürür. Ən çox əhali vilayətin mərkəzi sayılan Əhər şəhərində yaşayır. Şəhər əhalisinin sayı 18 000 nəfərdi. Əhərdən sonra gələn ən böyük yaşayış məskəni Kəlheybər qəsəbəsində isə 300 ev, hər evdə 6 nəfər ailə üzvü hesablasaq, əhalinin sayının 1800 nəfər olduğu müəyyən edilir.

4. Qarqar xanlığı ərazisində 15 oturaq kənd əhalisi, əhalinin sayı 10 000 nəfərdi. Xanlıq xan tərəfindən idarə olunur və xanın iqamətgahı Livardjan kəndində yerləşir. Livardjan kəndində 350 ev yerləşir və hər evdə 6 nəfər ailə üzvü olarsa deməli kənddə yaşayan əhalinin sayı 2100 nəfər olmuşdur.

5. Mərənd vilayəti Ekyan və Mərənd mahalından ibarətdir. Ərazidə 60 kənd yerləşir. Kəndlərdə yaşayan əhalini sayı 40 000 nəfərdən yuxarıdı. Vilayətin mərkəzi sayılan Mərənd şəhərində 12 000 nəfər yaşayır.

6. Xoy vilayəti Çaypara mahalı, Xoy mahalı, Qotur dairəsi, Salmas dairəsinə bölünür. Vilayətin başında hakim dayanır. Hakimi Mahmud Vəli xan idi. Çay-Para hissəsinin mərkəzi sayılan Qaraziadin qəsəbəsi 500 evdən ibarət idi. Hər evdə 6 nəfər ailə üzvü olarsa deməli qəsəbədə 3000 əhali yaşayırdı. Vilayət ərazisində 50 oturaq kənd, kəndlərdə yaşayan əhalinin sayı isə 30 000 nəfərə

bərabər olmuşdur. Vilayətin ikinci mahalı olan Xoy mahalında oturaq 170 kənd qeydə alınmışdır. Kəndlərin ərazisində yaşayan əhalinin ümumi sayı 110 000 nəfərə bərabərdi. Xoy vilayətinin mərkəzi sayılan Xoy şəhərində 40 000 nəfər əhali yaşayırdı.

Vilayətin üçüncü mahalı olan Qotur dairəsində 20 oturaq kənd, bu kəndlərdə yaşayan əhalinin ümumi sayı 15 000 nəfərə bərabər idi. Mahalın mərkəzi sayılan Qotur kəndində xanın iqamətgahı yerləşir və kənddə 3600 nəfər əhali yaşayır.

Vilayətin dördüncü dairəsi olan Salmas dairəsində oturaq 1000 kənd, kəndlərdə isə 60 000 nəfər əhali yaşayır. Dairənin mərkəzi sayılan Dilmanda 1000 ev, 6000 nəfər əhali yaşayır.

Beləliklə Xoy vilayətində ümumilikdə oturaq əhalinin sayı təqribən 255 000 nəfər, köçərilərin sayı isə 3000 ev və yaxud 18 000 nəfər təşkil edir. Ümumilikdə Xoy vilayətində yaşayan əhalinin ümumi sayı 273 000 nəfərdi.

7. Maku xanlığı 35 oturaq kətdən ibarətdir. Kəndlər o qədər də böyük deyillər. Ən mühüm yaşayış məntəqəsi Maku şəhəridir. Şəhərdə 400 ev, 2400 nəfər əhali yaşayır. Xanlıq xan tərəfindən idarə olunur və iqamətgahı Maku şəhərində yerləşir. Əhalinin əksəriyyəti köçəri kürdlərdən ibarətdir. Onların sayı 3000 ev, 18000 nəfərə bərabərdi. Xanlıq ərazisində yaşayan əhalinin ümumi sayı 48 000 nəfərə bərabərdi.

8. Təbriz vilayəti ərazisində oturaq 350 kənd, 180 000 nəfər əhali yaşayır. Bunlardan əlavə vilayətin ərazisində yerləşən Təbriz şəhərində isə 50 000 ev, 300 000 nəfər əhali yaşayır. Beləliklə Təbriz vilayətində yaşayan əhalinin ümumi sayı 480 000 nəfərə bərabərdi. Vilayətin mərkəzi Təbriz şəhəridir. Təbriz şəhərinin özünün xüsusi hakimi var və o, İran şahı tərəfindən təyin olunur.

9. Sərab vilayəti xüsusi əhəmiyyətə malik olduğuna görə İran şahının ən yaxınlarından olan vəliəhdlər tərəfindən idarə olunur. Onun səlahiyyəti general-qubernator səlahiyyətləri qədərdi. Vilayətin əhalisi əsasən oturaq həyat tərzi sürür və 135 kəndi əhatə edir. Kəndlərdə yaşayan əhalinin sayı 60 000 nəfərdi. Bundan əlavə Sarab şəhərində yaşayan əhalinin sayı 18 000 nəfər, şaqqaqi tayfasından olan köçərilərin sayı 1500 ev və yaxud 9000 nəfərdi. Beləliklə Sarab vilayətinin ümumi əhalisinin sayı 87 000 nəfərdi.

10. Urmiya vilayəti Türkiyə və Urmiya gölü arasında yerləşir. Vilayətin ərazisinə Soyuq Bulaq dairəsi də daxildir. Soyuq Bulaq baş şəhər – qaladır və vilayətin mərkəzi hesab edilir. Vilayətin ərazisində oturaq 300 kənd və kəndlərdə yaşayan əhalinin sayı isə 90 000 nəfərə bərabərdi. Ən böyük yaşayış məskəni Urmiya şəhəridir. Urmiya şəhərində 30 000 nəfər yaşayır. Müsəlmanlarla yanaşı şəhərdə amerika missonerləridə yaşayır. Onların yaşadığı evlərin sayı 150-yaxındır. Beləliklə Urmiya vilayəti ərazisində oturaq əhalinin sayı 120 000 nəfərdi. Əhalinin əksər hissəsi kürdlərdən ibarətdir. Köçərilər haqda məlumat yoxdur.

11. Marağa vilayəti şimalda Təbriz vilayəti ilə, qərbdə Urmiya gölü, cənubda Sain-Qala dairəsi ilə həmsərhəddir. Vilayət ərazisində 300 kənd qeydə alınıb. Bu kəndlərdə 100 000 nəfər yaşayır. Mühüm yaşayış məskəni Marağa şəhəridir. Marağa şəhərində 20 000 nəfər əhali yaşayır. Bu şəhər həm də vilayətin idarə və ticarət mərkəzidir. Tufaraqan və yaxud Deykaraqan kəndində 1000 ev, 60 000 nəfər əhali yaşayır. Bunap yaşayış məskənində 2000 yaxın ev, 12 000 nəfər; Mamaqan kəndində 1000 ev, 6000 nəfər; Miyandab kəndində 1500 ev, 9000 nəfər; Xoşruvşada 1000 ev, 6000 nəfər əhali yaşayır. Vilayətin şərqində və cənubi-şərqində köçərilər yaşayırlar. Onlar haqda səhih məlumat yoxdur.

12. Miyanə vilayəti ərazisində 74 yaşayış məskəni qeydə alınmışdır. Bu məntəqələrdə oturaq əhalinin sayı 60 000 nəfərə bərabərdi. Mühüm yaşayış məskəni Miyanə və yaxud Miyanedcdir. Miyanədə 2500 ev, 15 000 əhali yaşayır.

13. Xalxal dairəsi ərazisində 5000 ev, 30 000 əhali yaşayır. Mühüm yaşayış yeri və mərkəzi Xerov şəhəridir.

Digər 3 vilayət haqda məlumat yoxdur.

Yuxarıda verilən məlumatları təhlil edərkən L.K.Artamonovun Cənubi Azərbaycan ərazisində yaşayan əhalinin sayının dəqiqliklə verməsinin şahidi oluruq. Müəllifin keçirdiyi sorğuya əsasən əhalinin ailə tərkibi 6 nəfər hesablanmışdır. Hesab edirik ki, ailə tərkibi 8 nəfər hesablansaydı daha doğru olardı. Çünki XX əsrin sonlarına qədər istər şimali Azərbaycanda istərsədə Cənubi Azərbaycanda ailələrin orta sayı 8 nəfərdən az

olmayıb. İki valideyin və 6 uşaq. Əgər müəllif azərbaycanlıların mentalitetini dərindən bilsəydi yəqin ki, bu hesabla hesablayardı və onda Cənubi Azərbaycan ərazisində yaşayan əhalinin sayı reallığa daha uyğun olardaı.

**Açar sözlər:** *cənub, məlumat, səyyah, tacir, hakim, əhali, inzibati-ərazi bölgüsü, milli, qəza, dairə, bələdiyyə, qəsəbə, kənd, kənd soveti, şəhər, şəhər soveti, inzibati mərkəz, əhalinin siyahıya alınması.*

### ƏDƏBİYYAT SİYAHISI

*1. Северный Азербайджань. Военно-географический очерк. Генерального Штаба Капитана Л.К. Артамонова. Тифлис. 1890. Типография канцелярии Главноначальствующаго гражданского частью на Кавказа.*

*2. Nurəddin Kərimov. Odlar Yurdunun Səyyah və coğrafiyaşünasları. Azərbaycan Dövlət Nəşriyyatı. Bakı-1985.*

*3. Venesiyalılar Şah I Təhmasibin Sarayında (Mikele Membre və Vinçenso Alessandri). –Bakı, "Təhsil", 2005.*

*4. Yaqub Mahmudlu. "Səyyahlar, kəşflər, Azərbaycan". Bakı, Təhsil, 2005.*

### Положение населении жвушим в Иране

### РЕЗЮМЕ

Исползуемый очеркь есть результать полугодычной подготовки, а затемь двухь месячного путешествия по Азербайджану. Л.К.Артамонов проехал 968 версть. Иногда записи велись верхом на лошадей. В статье впервые в азербайджанской историографии в комплексном виде исследованы историко-демографические проблемы Южного Азербайджане конце XIX века. Статья состоит из один глав и списка использованной литературы. Во введении обоснованы актуальность исследования, показаны степень изученности темы, дан анализ источниковой базы.

В статьи определенна общая численность населения, динамика численности, размещение и состав население, изучены демографические проблемы населения, исследованы миграции, а также изучены вопросы размещения населения, его демографический, этно-конфессиональный и социальный состав.

**Ключевые слова:** *восток, информасия, путешественник, купец, генерал-губернатор, административно-территориальное деление, национальный состав, уезд, округ, муниципалитет, поселка, село, сельский совет, город, городской совет, административный центр, перепись населения.*

### Demography place of population dwelled in Iran at XX century

### SUMMARY

In present article at the first time in Azerbaijan historiography in complexely there are researched historical-demography problems in Iran. Present article is consisit from one chapter and list of used literature. In introduction the are grounding its actuality of research, displayed comparatively study of this problem, research migration process and also studied the questions of settlement population and its demography, ethno-confessional social consist.

**Keywords:** *south, information, traveler, merchant, juge, administrative-territorial division, national, municipality, township, village, village council, the city, the city council, the administrative center, the census.*

UOT 94(479.24)

# XV ƏSRDƏ ŞİRVANŞAHLAR DÖVLƏTİNİN MƏDƏNİ İRSİ

**LEYLİ HƏMİDOVA**
*Azərbaycan Dövlət İqtisad Univeristetinin müəllimi, s.e.ü.f.d*
***Azərbaycan***
*E-mail: leyli.hemidova@mail.ru*

Əsası VI əsrdə qoyulmuş Şirvanşahlar dövləti Azərbaycanda dövlətçilik ənənələrinin inkişafında mühüm əhəmiyyətə malik olmuşdur. Şirvanın təbii cəhətdən zəngin, əlverişli coğrafi mühitdə yerləşməsi onun həm iqtisadi, həm siyasi, həm də mədəni cəhətdən inkişafına böyük töhvə vermişdi. XV əsrdə Şirvanşahlar siyasi cəhətdən Azərbaycanda əsas dövlətlərdən biri olmaqla yanaşı, özünün mədəni inkişafının da zirvə nöqtəsinə qədəm qoymuşdu.

Bu dövr memarlığının şah əsəri hesab olunan Şirvanşahlar saray kompleksi XV əsrin 10-cu ilində tikilmişdir. Şeyx İbrahimin oğlu Xəlilullahın Bakı şəhərini Şirvanşahların yeni mərkəzinə çevrilməsini planlayaraq Şirvanşahlar saray ansamblını ucaltmışdı. Güman edilir ki, saray Şirvanşahlar türbəsinin baş tağındakı medalyonda adı yazılmış Memar Əli tərəfindən inşa edilmişdir.

Kompleksin şah əsəri Fərrux Yasarın xatirə türbəsidir. Türbə dördgüşəli qapalı həyətdə yerləşir.Türbənin həyətinə küçədən və yuxarı həyətdən gələn iki giriş var. Dördgüşəli həyət üç tərəfdən yerdən bir qədər yuxarı qaldırılmış sütunlu və çatmatağlı eyvanla əhatə olunmuşdur. Həyətin mərkəzində, sütunlar üçün olan yüksək özülün - stilobatın üzərində, eyni orderli açıq tağ sırası ilə əhatə olunmuş səkkizguşəli rotonda durur. Rotondanın da iki giriş qapısı vardır. Əsas hesab edilən qərb girişi zəngin nəqşli təmtaraqlı portalla seçilir. Portalın səthi şərq xalçalarının ornomentlərini xatırladan ornomentlərlə, eləcə də dərinliyi 3-5 sm olan daş üzərində oyulmuş naxışlarla bəzədilmişdir. Portal divar oyuğunun qabırğalı yarımgüm bəzi 7 sıralı stalaktit kəmərə söykənib. Stalaktitlərin üzərində düz sahədə nəbati ornametlər həkk edilmişdir.(2,34)

İkimərtəbəli yaşayış binası kompleksin daha qədim tikilisidir. Bu asimmetrik formalı ikimərtəbəli binada mərtəbələr arasında əlaqə divar içində tikilmiş üç dar pilləkənlə saxlanılır. Sarayda vaxtilə 52 otaq olmuşdur. Onlardan 27-si birinci mərtəbədə, 25-i ikinci mərtəbədə idi. Mağzalşəkilli dar pəncərələri olan aşağı mərtəbə nökər - naib, təsərrüfat işləri və anbarlar üçün nəzərdə tutulmuşdur.

Dərviş türbəsi, Bayıl qəsrinin qalıqları, hal-hazırda mövcud olmayan Key Qubad məscidinin bünövrəsi və Şərq Portalı orta həyətdə yerləşirlər.

Şərq portalı kompleksin ən son tikilisidir. Murad darvazası adı ilə tanınan Şərq portalı kompleksin bütün abidələrindən xeyli sonra XVI əsrdə Bakı Osmanlı türklərinin işğalı altında olarkən inşa edilmişdir. Portalın yuxarı hissəsi ərəbcə yazılmış kitabə ilə bəzədilmişdir: "Bu nəcib imarəti tikməyi ən adil və müəzzəm sultan Murad xanın hakimiyyəti zamanında ulu Rəcəb baba Bakuvi 1585-1586-cı ildə əmr etmişdir".

Orta həyətdə üzərində kitabə və təsvirlər olan 699 daş piltələr nümayiş etdirilir. Onlar saray kompleksi tikililərinin qalıqları deyillər, lakin Şirvanşahlara aiddir. Bütün bu daş lövhələr Bakı körfəzinin dibindən tapılmışdır. Bu daşlar orta əsrin ən maraqlı memarlıq abidələrindən biri, uzun əsrlər boyu Bakı buxtasında su altında qalmış Bayıl qəsrinin qalıqlarıdır.

İbadət həyəti adlandırılan aşağı həyətdə Şirvanşahların ailəvi türbəsi və Saray məscidi vardır. Saray hamamı və Ovdan kompleksin ən aşağı hissəsində yerləşirlər. Kompleksin aşağı həyəti digərlərindən tağlı keçidi olan qapalı divarla ayrılır. Şirvanşahların türbəsi düzbucaqlı, üzəri altıtinli gümbəzlə örtülü binadır. Gümbəz xarici tərəfdən kəsmə, qabarıq çoxbucaqlı ulduzlarla bəzədilmişdir. Keçmişdə gümbəzin hamar səthlərindəki çökəkliklərə (ulduz şəkilli yarıqlara) mavi rəngli minalı kaşı doldurulmuşdur. Müasir dövrdə onlar gümbəzin üzərində saxlanılmamışdır,

lakin arxeoloji qazıntılar zamanı muzeyin ərazisindən tapılmışdır.(6,45)

Saray hamamı kompleksin ən aşağı hissəsində yerləşir. Şərqin başqa hamamları kimi bu hamam da temperatur rejimini - qışda istiliyi, yayda isə sərinliyi saxlamaq üçün yarıyeraltı tikilib. Hamam uzun müddət torpağın altında qalmış, yalnız 1939-cu ildə aşkar edilmişdir və 1961-ci ildə konservasiya edilmişdir.

Şirvanşahlar sarayı ayrı-ayrı hissələrdən ibarətdir. Bəzən buna görə qeyd edilir ki, saray vahid plan əsasında tikilməmişdir. Ən yüksək hissəsində sarayın iki mərtəbəli binası yerləşir. Onunla birgə eyni hündürlükdə divanxana yerləşir.

1863-cü ildə Bakıda olmuş alman alimi E. Kempfer saray kompleksindəki köşkü “Divanxana” adlandırmışdır. O, qeyd edir: “Divanxana xüsusi heyrət doğurur... Bu bina bir yandan özümlü formaları və memarlığı ilə seçilir, o biri yandan bütün saray ansamblı üçün əla bəzəkdir.” Rus şərqşünasları və səyyahları Şirvan memarlığının bu şah əsərini “Divanxana” adı ilə tanıtmışlar.

Son dərəcə açıq, sərbəst və fəzalı kompozisiyası olan Divanxana bütün görkəmi ilə dünyəvi xarakterli binadır. Bu xüsusiyyəti ilə o, qapalı quruluşlu, kütləsəl, dini və xatirə tikililərindən kəskin fərqlənir. Azərbaycanın orta əsr memarlığında sütunlu eyvanı olan yığcam quruluşlu saray binaları Elxanilər dövründən məlumdur. Cənubi Azərbaycanda Təxti Süleyman şəhərində tapılan bu tikili Arqun xanın zamanında inşa edilmişdir. Həmin saray dörd sütunlu və dərin eyvanlı idi. Əldə edilən qrafik materiallar Şənbi Qazan kompleksindəki Adiliyyə köşkü və Qazan xanın yay iqamətgahı olan Ucanda tikdirdiyi saray köşkündə ön fasadlarının da dörd sütunlu - üç tağlı quruluşunda olduqlarını göstərir. Divanxana binasının saray köşkü olduğunu təsdiqləyən özəlliklərdən biri onun eyvanında vaxtilə yaşayış evləri üçün səciyyəvi olan məhəccərlərin-qorxuluqların qurulması faktıdır. Mərkəzi səkkizbucaqlı salonu beş yandan dövrələyən incə sütunlu, şəbəkə məhəccərli və sivri sıratağlı eyvan Divanxana köşkünə saraylara xas təntənəli və fəzalı görünüş verir. (1,89)

Azərbaycanın da tərkibində olduğu Ön Asiya bölgəsinin saray memarlığında səkkibucaqlı salonu olan köşklər zaman və məkanca geniş yayılmışdır. Bakıdakı Şirvanşahlar sarayı binasının özəyi XII əsrdə tikilmiş səkkizbucaqlı salondur. Təxti Süleymanda tikintisi XIII əsrdə düşən iki səkkiz bucaqlı köşk iri saray kompleksinin tərkibində olmuşdur. Bu ənənənin Qacarlar dövrünəcən davam etməsinin ən parlaq örnəyi Tehranın Qacar sarayındakı yay köşküdür. Səkkizbucaqlı planı, açıq dövrləmə eyvanı və salonunun prizmatik kürsülük üzərinə qaldırılması baxımından həmin köşk Bakı Divanxana köşkünə ən yaxın olan abidədir. Belə böyük bənzərlik bölgədə saray köşkünün nə qədər davamlı olduğunun göstəricisidir.

Divanxana salonunda divarların alt bölümü yaxşı yonulmuş daş hörgü kütləsinə görə biraz batıq olub yarımyonulu daşlarla üzlənmişdir. Bu vəziyyət həmin səthlərin vaxtilə kaşı bəzəyi ilə örtüldüyünün parlaq göstəricisidir. Çox önəmli funksiya daşıdığından Divanxana köşkünün, özəlliklə onun salonunun interyerləri də çox təntənəli bəzədilmişdi və onların tərtibatında çoxrəngli kaşı mozaiki önəmli rol oynamışdır. Şirvanşahlar saray kompleksinin hər baxımdan zirvəsində olan Divanxana düzgün olaraq orta əsr Azərbaycan memarlığının şah əsərlərindən biri sayılır. Bədr Şirvani şah imarətini təsvir edərkən bu sənət möcüzəsini mükəmməl adlandırmışdır.(1,102)

Divanxananın həyətindəki təsərrüfat quyularından birini təmizləyərkən şirli qabın fraqmentləri tapılmışdır. A. Paxamov yazır: ”Aşağıda qara, yumşaq torpaqda nəinki şirli, həm də adi, əsasən ağ gildən hazırlanmış saxsı qab qırıntıları aşkar olundu. Toplanmış saxsı fraqmentlərindən bəzi əşyaları tam bərpa etmək mümkün oldu. Onlardan nazik divarlı, ayaqlı, çox incə formalı və çox zərif bişirilmiş gildən saxsı vaza; bir sıra kiçik dairəvi şirli, gözəl naxışlı boşqab; bəzi sadə küpələr və çıraqlar xüsusilə diqqəti cəlb edir”. I təbəqədən tapılmış qablardan biri XIV-XVI əsrlərə, o birisi isə XV əsrə aiddir. Oksidləşmiş pullar və adları çəkilən materiallar onları təqribən XV əsrə aid etməyə imkan verir.

Quyudan yuxarıda, yer səthinin müxtəlif səviyyələrində, mavi kaşılarla qarışmış tikinti qatından və materiküstü təbəqədən tapılmış, sadə şirsiz və şirli keramikanın fraqmentlərinin statiqrafik analizi göstərdi ki, alt qatın keramikası hələ

Divanxananın tikintisindən daha əvvəl, lakin XV əsrdən gec olmamaq şərti ilə buraya düşmüşdü. (7,67)

Tapıntılar içərisində anqoblanmış, əsasən oymalarla bəzədilmiş və şəffaf yaşıl mina ilə şirlənmiş qablar xüsusi seçilir. Quyunun beçinci metrədəki təbəqədən tapılan materiallar onları XV əsrə aid etmək olar. Onun diametri 40 sm, kənarları kələ-kötürdür, albalıya bənzəyən, lakin olduqca stilləşdirilmiş yarpaqları relyef meyveləri ilə bəzədilmişdi.

1944-cü ildə Şirvanşahlar saray kompleksində aparılan tədqiqatlar nəticəsində Dərviş türbəsinə yaxın III və IV sahələr üzrə 1938-1939-cu illərdə tədqiq olunmuş və buradan müxtəlif şirli və şirsiz keramikanın fraqmentləri tapılmışdır. Bu qonur rəngli, bişirilmiş, səthi xeyli hirslənmiş qazanların diametri 30 sm, böyük dairə hissəsində maksimal diametri 36 sm, üfüqi qatlanmış kənarlarının eni 2 sm, hündürlükləri isə 18 sm idi.

Osmanlı ordusu tərkibində bölgəyə gələn və müşahidələrini yazan tarixçi Asafinin qeydlərinə əsasən, şah İsmayılın Bakıya hücumu (XVI əsr) nəticəsində şəhərlə birlikdə saray və xanəgah da ciddi dağıntıya məruz qalmışdır. III Muradın hakimiyyəti dövründə Bakı Osmanlıların əlinə keçdikdən sonra Şirvan valisi Özdəmir oğlu Osman paşa tərəfindən yenidən abadlaşdırılır.

Şah məscidinin memarlığında bu günədək açıqlanmamış problemlərdən biri hər güşədə yer alan iki mərtəbəli kiçik hücrələrdir. Mehmet Rıhtımın fikrincə, bu bürclərdən balaca olanı xəlvətxana, digərləri isə dərs otaqları olmuşdur. Çünki, alim qeyd edir ki, kiçik bir məsciddə yeddi hücrənin olmasını başqa cür izah etmək olmaz. Çünki Misidəki Dəmirdaşilik xanəgahı, Kastamonudakı Seyid Əhməd Sünnəti və Amasiyadakı İlyas Amasi xanəgahı kimi abidələr eynilə bunun bənzəridir və burada da hücrələr məscidlə bir yerdədir. Bundan əlavə, bu hücrələrin Xəlilullah xanın ailəsinə mənsub qəbirlərin olduğu binada yerləşdirilməsi bir daha buranın xəlvətgah olduğunu təsdiqləyən xüsusiyyətlərdəndir. Xəlvət edilən məkanın qəbirlərlə bir yerdə olması da sufi ənənəsində görülən xüsuslarındandır.

Burada yer alan digər məkanlar isə yuxarıda qeyd etdiyimiz kimi, sarayın yaşayış binası və divanxanadır. Bu məkanın saray özəlliklərinə malik olduğunu qeyd etmək olar. Belə ki, tarixi mənbələrdən başqa I Xəlilullah xanın Bakıda yaşadığını göstərən əlamətlər də vardır. Onun dövründə burada tikilmiş abidə xarakterli memarlıq tikililəri, Xəlilullahın ailə üzvlərinin qəbirlərinin olduğu türbə, Seyid Yəhyanın I Xəlilullah xanla yaxın münasibətləri və hətta Xəlilullaha şərəfinə əsər yazması bu dövrdə Şirvanşahların Bakıda iqamət etdiklərini göstərir.

Qeyd etməliyik ki, Keyqubad və şah məscidləri, qəbirlər, məscid və qəbirlərdə yer alan hücrələr isə buranın xanəgah olduğunu təsdiqləyən tutarlı dəlillərdir. Mənbələrdə digər məkanların isə saray kompleksinə daxil olduğu bildirilir.

Şirvanşahlar sarayının abidələri içərisində qədim türk mədəniyyətinin, o cümlədən Oğuzların inancları ilə bağlı maraqlı faktlar mövcuddur. 1192-ci ildə baş vermiş zəlzələ zamanı inanclar üzərinə qurulmuş “Kimak” abidələrinin (pirlərin) xarakteri və gizli tərəfləri sonrakı dövrlərdə də Şirvanın digər yerlərində ucaldılan tikililərdə qorunmaqda davam edir. Elə Şamaxı adının da etimoloji olaraq, formalaşmasını “Kumak” tayfalarının adı ilə bağlı olduğunu zənn edən alimlərimiz mövcuddur.(5,345)

İ.Tağıyevin yazdığı “Şirvanşahlar sarayı, yaxud “Seyid Yəhya Bakuvinin Xanəgahı” adlı kitabının səhifələrində Şirvanşahlar sarayının mövcud olduğu yerdə daha qədimdən müxtəlif dərinliklərdə olan“quyu”lar barədə maraqlı fikirlər mövcuddur. Müəllif qeyd edir ki, burada: “Tikililər olmasa da quyular mövcud idi”. XV əsr coğrafiyaçısı Əbdürrəşid Bakuvinin məlumatında şəhərin təsviri zamanı burada qurumuş quyulardan ibarət daşlı təpələr üzərində dayandığını yazır. Əsər 1403-cü ildə, bizim xanəgahın tikilməsindən öncə yazılmışdır. Unutmayaq ki, xanəgahın birinci mərtəbəsində yerləşən 25 otağın az qala yarısında biz quyuların mövcudluğunu görürük. Bəzi otaqlarda hətta 2 quyu var. Əgər biz quyuların bu otaqlarda yerləşməsinə diqqət yetirsək, otaqlardan düzgün istifadə etməyə mane olan quyuların qaydasız yerləşdiyini görürük. Onların yerləşməsinə görə, başa düşmək olar ki, onlar ”sarayın” inşasından əvvəl mövcud olmuşlar və biz belə quyuları hələ ”divanxana”nın həyətində və həmçinin, yeraltı pir “Süd quyusunu ”görürük. Belə çıxır ki, bütün bu

tikililər elə qoyulmuşlar ki, bu quyular və yer altı pir doldurulmasın və dağıdılmasın.

Bildiyimiz kimi, quyu kultu digər xalqlarda da mövcuddur, lakin türklərin inanc rəmzləri sırasında daha fəqli özəllikləri ilə fərqlənir. Hətta bu fərqliliklər türklərin etnoqrafik sənət növlərində də yaşamaqdadır. Çünki,"quyu" bir neçə xüsusiyyəti Dekorativ Tətbiqi sənət növlərimizdə yer alır və müxtəlif memarlıq inciləri hesab etdiyimiz pirlərin və sarayların tikilməsinin ana ünvanına çevrilir.

Qeyd olunan elementlər bəzi xalçaların kompozisiya quruluşunda bəzən əsas, bəzən isə bağlayıcı element kimi istifadə olunur. Onların arasında ən məhşurları "Bakı göl" və "quyu haşiyə" adlı elementləridir ki, bizlərə qədim türklərin "quyu" kultuna bağlılıqlarını əks etdirir. Eyni zamanda çox maraqlıdır ki, altı bucaqlı göl elementinin istər,"Bakı" istərsə də Bakı ətrafı kəndlərə məxsus Novxanı, Görədil və digər xalçaçılıq ocaqlarında toxunması heç də təsadüfən deyildir. Çünki, altı bucaqlı "göl" elementləri özünəməxsus formada həll edilərək bir az uzadılmış olur ki, bu da təbiətdəki göldən fərqli olaraq ,"quyu"timsalında öz əksini tapır.

Şirvanşahlar saray kompleksinin tərkibində olan binaların memarlıq obrazının bədii ifadəliyində baştağlar əhəmiyyətli rol oynayır. Şah türbəsi (1435) və Divanxananın (XV əsr) baştağları, eləcə də Ulu Rəcəb qapısı (1585) Şirvan bölgəsində həcm-məkan kompozisiyası ümumi prinsiplərə dayanan özəl baştağ tipinin formalaşdığını göstərir. Düzbucaqlı çərçivəyə alınmış bu baştağların dərin tağçaları yuxarıda sivri və dilimli yarımgünbəzlə bağlanmışdır.Türbə və Divanxanın baştağlarının timpanları daşda böyük ustalıqla işlənmiş incə bitgisəl ornamentlərlə örtülmüşdür. Ulu Rəcəb qapısının üst bölümü biraz sadə işlənmişdir. (9,56)

Hər üç baştağın timpanında iki medalyon simmetrik yerləşdirilmişdir. Türbədəki medalyonlar damla şəklində-badamvari biçimdə olduğu halda Divanxanada səkkizbucaqlı, Ulu Rəcəb qapısında isə dairəvi biçimdədir. Səkkizbucaqlı medalyonlar həndəsi, dairəvi medalyonlar mərkəz simmetriyalı bikgisəl ornametlərlə doldurulmuşdur. Türbə timpanındakı medalyonlarda, onlardan fərqli olaraq epiqrafiq ornamentlər yerləşdirilmişdir.

Şah türbəsinin baştağının memarlıq bəzəyində epiqrafika-inşaat kitabələri önəmli yer tutur. Giriş qapısının çərçivəsinin sivri ucu içində kufi xətti ilə altı "Əli" yazılmış altıbucaqlıya çevrilir. Onu üst hissəsində iki sətirli iri düzbucaqlı kitabədə "... bu işıqlı türbəni öz anası və oğlu üçün tikməyi" hicri 839-cu, miladi 1435-ci ildə Şirvanşah I Xəlilullahın əmr etdiyi bildirilir. Baştağ kompozisiyasını yuxarıda tamamlayan dini mətnli kitabə daha iri ölçülü və daha təntənəlidir. Biçiminə və işlənmə tərzinə görə kitabədən daha çox zərgərlik əsərinə-şəbəkəli iri sırğaya bənzəyən iki medalyon bu böyük kitabədən asılmış kimi görünür. Badamvari biçimi olan bu kitabələrin hər ikisinin mətni eynidir. Ancaq onlardan cənubda olan şimaldakından daha az aşınıb pozulmuşdur. Bütövlükdə medalyonlar türbə baştağının ən gözəçarpan qalıntılarıdır.

Divanxanadan biraz aşağıda türbə və şah məscidi (1442-ci ildə) tikilmişdir. Bu abidələrin yanında məhşur alim Seyid Yəhya Bakuvinin məqbərəsi yerləşir. Güman olunur ki, Bakuvinin səkkizguşəli məqbərəsinin yanında ayrıca birdə məscid olmuşdur. Lakin həmin məscid sonradan məhv olmuşdur. Bütövlükdə, kompleks iki hissəyə ayrılır. Birincisi rəsmi işlər üçün, ikinci hissə isə şəxsi istifadə məqsədlər üçün tikilmişdir.

Memar Əbdülvahab Salamzadə Şirvanşahlar sarayının yerləşdiyi məkan ilə bağlı qeyd edirdi: "İçəri şəhər"də ən gözəl və əlverişli nöqtəni seçməklə, memarlar saray üçün dənizə açılan mənzərəli panoromanı təmin etmiş, sarayı o dövr Bakısının şəhərsalma dominantına çevirmişdilər.1683-cü ildə sarayda olmuş, Bakını ilk qrafik təsvirini latın dilində yazmış olduğu 2 cildli kitabında vermiş alman alimi Engelbert Kempfern təsviri də bu faktı təsdiqləyir: "Şəhərin buxta üzərində yüksələn ən hündür hissəsi şah möhtəşəmliyi və qeyri-adi əzəməti ilə gözəl yonulmuş, bir-birinə elə ustalıqla pərçim edilmiş daşlardan ucaldılıb ki, onların tikiş yerləri belə sezilmir". Lakin təəssüf ki, nə həmin bürclər, nə də ala qapılar günümüzə qədər gəlib çatmamışdır. Yalnız alman təbiətşünas alimi E.Kempfer kitabında qapıların təsvirini vermiş, hər 2 qapının üzərində qarşı-qarşıya durmuş iki şir və onların arasında başqa bir heyvanın, sanki dəvə başının yerləşdiyini, II qapının girişi üzərində də belə fiqurun olduğunu qeyd etmişdir. Qeyd etmək lazımdır ki, iki şir

və onların arasında bir öküz başının təsviri Şirvanşahlar dövlətinin gerbidir. Təsvirdəki şirlər Şirvanşahlar dövlətinin güc və qüdrətinin, öküz başı isə ölkədəki bolluğun rəmzi idi. İbn əl-Fəqih əl-Həmadaninin təqribən eramızın 903-cü ilində yazılmış "Kitab əl-buldən" (Ölkələr kitabı) əsərində yerli sakinlərin şirləri divarların talismanları hesab etdiklərini qeyd edir. (10,69)

Yuxarıda qeyd etdiyimiz kimi, XV əsr memarlıq abidələri içərisində müdafiə xarakterli tikililərin olması ilə səciyyələnir. Bu abidələrdən biri də Bakının qala divarlarıdır. Qala divarları bütün şəhəri əhatə edirdi. Həmin dövrdə Şamaxı şəhərinin divarları da yenidən qurulub bərpa edilmişdi.

Dini məqbərə və türbələrin tikilməsi bu dövrün xarakterik xüsusiyyətlərindəndi. Bunlar içərisində Şamaxı şəhərinin Mərəzə kəndində yerləşən "Diri Baba" türbəsi Şirvan tikililəri arasında özünə məxsus yer tutur. Türbə qayalıqda salınmışdır. İkimərtəbəli olan "Diri baba" türbəsinin memarının adı Ustad Hacının oğlu şəklində yazılmışdır. Türbə 1402-ci ildə inşa olunmuşdur.(8,204)

Bu dövrdə Şirvanşahların mərkəzi Şamaxı şəhəri olmasına baxmayaraq, digər Azərbaycan şəhərlərində də türbələr tikilmişdir. Qəbələ şəhərinin Həmzə kəndində Şeyx Bədrəddin türbəsi, 1446-cı ildə inşa edilmişdir. Həmçinin Şeyx Barikin məqbərəsi də diqqətəlayiq tikililərdəndir.

Ticarət əhəmiyyətli tikililər içərisində karvansaralar xüsusi yer tutur. Orta əsr karvansaraları iki yerə bölünür. Birinci şəhər karvansaraları adlanır. Bu karvansaralar daha böyük həcmdə tikilərək bir və ya iki mərtəbəli olurdu. İkinci növ karvansaralar isə ticarət qovşağında yerləşirdi. Onlar daha çox qonaq otaqları, yardımçı binalardan ibarət olurdu.

XV əsr Azərbaycanın mədəni həyatında xəttatlıq və miniatür rəssamlığı xüsusi diqqət çəkən sahələrdən olmuşdur. Həm Şirvanşahlar hökmdarlarının saraylarında kitabxanalar yaradılmış və yazılan elmi, fəlsəfi, dini və tarixi əsərlərin üzü köçürülür və miniatürlər çəkilirdi. O dövrün tanınmış xəttatları içərisində Süleyman Əli Yaqubi, Əzhər Təbrizi, Mirabdulla Təbrizi, Mirəli Təbrizini misal göstərmək olar. Xəttatlıqla miniatürçü rəssamlığın birgə fəaliyyəti bu dövrün yeniliklərindən sayıla bilər. Şirvanın və Təbrizin miniatür məktəbləri çox məşhurlaşmışdı. Nizaminin "Xosrov və Şirin" əsərinin miniatür rəsmləri yaradılmışdı.

Yuxarıda qeyd etdiyimiz kimi, Bakının Şirvanşahların ikinci paytaxtı olmasını Z. Bünyadov orta əsr mənbələrinə əsaslanaraq XII əsrə aid edir. Alim qeyd edir: "1186-cı ildə Şirvanşah I Axistan atabəy Cahan Pəhləvanın ölümündən sonra Qızıl Arslanın sultanlıqda vəziyyətinin qeyri-müəyyənliyindən istifadə edərək qoşunları ilə Azərbaycan ərazisinə soxuldu. Lakin Şirvanşah ağır məğlubiyyətə uğradı. Onun qoşunları isə Qızıl Arslanın təqibi altında Bakıya çəkildi. Bu vaxtdan etibarən Bakı Şirvanşahların ikinci paytaxtı oldu. Qızıl Arslan Şamaxını və Dərbəndə qədər olan torpaqları tutdu. Bu torpaqlar bir neçə il onun əlində qaldı".

XII əsrdə Bakının Şirvanşahlar paytaxtının olmasının vacibliyini təsdiq edən digər bir fakt Şamaxının seysmik ərazidə yerləşməsi və tez-tez aşınmaya məruz qalması idi. Ehtimala əsasən, Şirvanşah I Axistan zəlzələdən sonra Bakını paytaxta çevirmişdi. Paytaxt şəhəri dəyişən Şirvanşah I Axistanın atası III Mənuçöhr tərəfindən Bakının qala divarları artıq XII əsrin əvvəllərində bərpa etdirilib möhkəmləndirilmişdi. Bu faktı XX əsrin 50-ci illərində qala divarlarının yarımbürclərindən birinin uçması nəticəsində aşkar olunmuş kitabə də təsdiqləyir. Bu səbəbdən I Axistanın paytaxt kimi Bakı qalasını seçməsi təbii idi. Bundan əlavə, Bakı mühüm strateji və əlverişli limana malik idi. Oqtay Əfəndiyev qeyd edir ki, XV əsrdə Bakı Azərbaycanın iri ticarət - sənətkarlıq mərkəzi və Xəzər dənizindəki ən mühüm liman idi. Şamaxı ilə yanaşı Bakı da Şirvan hökmdarlarının iqamətgahı sayılırdı. Böyük sərvətləri ilə məşhur olan Şirvanşahlar sarayı burada yerləşirdi, qızılbaş rəhbərlərinin planlarında bu sərvətlərə sahib olmağa səy göstərilməsi əhəmiyyətli yer tuturdu.

İngilis səyyahı Cekinson qeyd edirdi ki, Şirvanın başlıca şəhərlərindən olan və XV əsrdə paytaxt Bakıya köçürülməsindən sonra belə öz əhəmiyyətini itirməyən Şamaxı "gözəl kral şəhəri"dir. Cekinson öz qeydlərində Şamaxıda ipək istehsalından bəhs edərək yazır ki: "Burada çoxlu ipək toxunur, oraya ipək almaq üçün hətta Genuya və Venesiya tacirləri də gəlirlər".(2,48)

Bu dövrdə Şirvan şəhərlərində - Şamaxıda,

Şəkidə, Bakıda, Ərəşdə əmtəə təsərrüfatını inkişafı həm ipəkçilik sahəsində, həm də bir çox sənətkarlıq məhsullarının istehasalı ilə bağlı daha da inkişaf edirdi. Bakının İçərişəhər hissəsində, Şamaxıda, Dərbənddə, Qəbələdə sənətkarlıq məhsullarının istehsalı ilə məşğul olan məhəllələr fəaliyyət göstərirdilər.

Sara Aşurbəyli qeyd edir ki, məşhur Şirvan xalçaları haqqında məlumatlar Avropa intibahı dövrünə aid olan italyan, flamand və holland məktəbinə məxsus şəkillərdən bizə gəlib çatmışdır. Həmin əsərlərdə şəkil və bəzəklərin Şirvan xalçalarına mənsub olduğu görülməkdədir. Hans Memlinqin (XVəsr) "Mariya körpəsi ilə" şəklində "Şirvan" tipli Azərbaycan xalçası təsvir edilmişdir. Xalçaların Avropalı rəssamların rəsmlərində təsvir edilməsi onların Azərbaycandan Avropaya aparılaraq orada geniş yayılmasının göstəricisidir. (1,106)

**Açar sözlər:** *Şirvanşahlar sarayı, Murad darvazası, Divanxana, Diri baba türbəsi.*

## ƏDƏBİYYAT SİYAHISI

*1.Aşurbəyli Sara. Şirvanşahlar dövləti.B. 1997*

*2.Alxasova Həcər. Əsrlərə dayanan Tarix, Şiran şahlarının əzəmətli məkanı- Şirvanşahlar sarayı. B. 2015*

*3.Hüseynov Məmmədhüseyn. Şirvanşahlar saray memarlığında kodlaşmış elementlər və "quyu" kultu.B. 2015*

*4.İbrahimov Kamil. Şirvanşahlar sarayı ərazisində aparılan arxeoloji tədqiqatlar tarixindən. B. 2016*

*5.Qasımov Xeyirbəy. Şirvanda memarlığın inkişafına dair(XV-XVI əsrlər).B. 2015*

*6.Hacıyev Yasir. Şirvanşahlar sarayı - Həqiqətlər və əfsanələr məkanı. B.2013*

*7.Qiyasi Cəfər. Şah türbələrinin medalyon kitabələri. B. 2015*

*8.Qiyasi Cəfər. Divanxana - Şirvanşahların saray köşkü.(Şirvanşahlar sarayı: Tarix, Həqiqətlər, mülahizələr) B. 2015*

*9.Miralay Fəxrəddin. Şirvanşahlar saray kompleksinin memarlığında humanizm elementləri B. 2015*

*10. Rzayeva Rəna. Şirvanşahların bayraqlarına dair araşdırmalar. B. 2014*

## Культурное наследие Ширваншахов в XV веке

## РЕЗЮМЕ

Государство Ширваншахов было одним из государств, сыгравших важную роль в средневековой истории Азербайджана. С 12-го века произошло возрождение в социальной, политической и культурной жизни Ширваншахов, и были построены типичные для восточной архитектуры общественные и религиозные здания-мечети, минареты, замки, дворцовые постройки, караван-сараи и т. д.

В статье приводятся подробные сведения о дворцовом комплексе Ширваншахов, Бакинской резиденции правителей Ширвана.

**Ключевые слово:** *Дворец Ширваншахов, Ворота Мурада,Мавзолей Дири баба, Диванхане.*

## Cultural heritage of Shirvanshahs in XVth century

## SUMMARY

The state of Shirvanshahs was one of the states that played an important role in the medieval history of Azerbaijan. Since the 12th century, there was a revival in the social, social, and cultural life of the Shirvanshakhov, and public and religious buildings typical of Eastern architecture - mosques, minarets, castles, palace buildings, caravanserais, etc. were built.

The article provides detailed information about the palace complex of Shirvanshahs, the Baku residence of the rulers of Shirvan.

**Key words:** *Shirvanshahs palace, Murad's gate, Diri Baba Mausoleum Divan xane.*

UOT 94 (479.24)

# ERMƏNİ TERRORU VƏ BU TERRORDA KİLSƏNİN ROLU

**EMA HƏSƏNOVA**
*ADPU-nun doktorantı*
***Azərbaycan***
*E-mail: xaliqova.gulshen@mail.ru*

***"Ermənilərin Qafqaza köçürülüb gətirilmələri, əslində Qafqaz xalqlarının kürəyinə sancılan xəyanət xəncəri idi"***

***Lev Nikolayeviç Tolstoy.***

Müasir dövrün ən böyük qlobal problemlərindən biri də terrorizmdir. Terrorizm bəşəriyyət üçün böyük təhlükə mənbəyi, dünya əhalisi üçün böyük faciə deməkdir. Dünyada silah sənayesinin, informasiya texnologiyalarının sürətlə inkişaf etməsi bu təhlükəni daha da artırmışdır. Hazırda dünyanın müxtəlif ərazilərində çoxsaylı terror təşkilatları fəaliyyət göstərirlər və onların sayı artmaqda davam edir. Bu səbəbdən müasir dünyamızda terrorizmə qarşı mübarizə böyük əhəmiyyət kəsb edir və dünya ölkələrinin birgə səyini tələb edir.

Müasir terrorizmin tərkib hissəsi olan erməni terroru da nəinki Cənubi Qafqaz və Şimali Azərbaycan, eləcə də bütün bəşəriyyət üçün olduqca böyük təhlükə mənbəyidir. Azərbaycan da tarix boyu öz ərazisində zaman–zaman erməni terroruna məruz qalmışdır. XIX və XX əsrlər boyu ermənilərin Cənubi Qafqaz və Şimali Azərbaycanda həyata keçirdiyi terrorçuluq fəaliyyəti terror anlayışını özündə tam ehtiva edir. Erməni terrorçu, separatçı, qisasçı qüvvələrinin Azərbaycan torpaqları ələ keçirmək üçün çoxşaxəli, mürəkkəb bir doktrina ortaya qoyduqlarının nəticəsində "erməni terrorizmi" adlı, bizim bu gün tanıdığımız, dünyanın da tanıdığı, amma çox zaman susduğu sistemli fəaliyyət ortaya çıxmışdır. Erməni terroru özündə həm separatizmi, həm dini və irqi ayrı seçkiliyi və millətçiliyi ehtiva edir. Erməni terroru fonunda deportasiya, əsir və girov götürmə, eləcə də mədəni və mənəvi azğınlıq özünü göstərmiş və hazırda da göstərməkdədir.

XIX və XX əsrin əvvəlində Cənubi Qafqazda, eləcə də Şimali Azərbaycanda xüsusən də indiki Ermənistan ərazisində Azərbaycan türklərinə qarşı törədilən qırğınların ssenarisi ermənilərin XIX əsrin sonunda Şərqi Anadoluda əldə etdikləri təcrübəyə əsaslanırdı. Beləki, ermənilərin Türkiyədə 1894-1896-cı illərdə törətdikləri iğtişaşlar yatırıldıqdan sonra həmin iğtişaşların iştirakçılarının əksəriyyəti Cənubi Qafqaza axışmışdı. Rus müəllif N.Şavrovun yazdığına görə, 1896-cı ildə Cənubi Qafqazda 900000, 1908-ci ildə 1301000 erməni yaşamışdır. Deməli, təkcə bu dövrdə Cənubi Qafqaza 401000 erməni gəlib yerləşmişdi. Həmin dövrdə Cənubi Qafqazda törədilən cinayətlərin 80 faizi Türkiyədən gəlmiş ermənilərin və muzdlu qatillərin payına düşürdü. 1897-ci ildə ədliyyə naziri N.V.Muravyovun hesabatı və 1894-97-cı illərdə rus imperiyasındakı hökümət əleyhinə hərəkatın qısa icmalından aydın olur ki, ermənilər dövlət cinayətlərində ittiham olunanlar arasında rus və polyaklardan sonra üçüncü yeri tuturdular (9, 217). Bu kimi faktlar erməni vəhşiliyinin bariz nümunələridirlər. Görkəmli rus jurnalisti və publisisti Veliçko özünün "Qafqaz. Rus işi və tayfalararası məsələlər" əsərində haqlı olaraq qeyd edir ki, erməni inqilabi hoqqabazlığının döyüşən ordusunu təşkil edən yarımvəhşi Türkiyə ermənilərinin quldur dəstələri bizim yaxşı qorunmayan Asiya sərhədlərini keçmişdilər. Ya yoxsullaşmış gürcü knyazlarından və tatar ağalarından müxtəlif nüfuzlu ermənilərin satın aldığı torpaqlarda yerləşdirilmişdilər, ya da özləri ilə bir çox muzdlu qatillər və hər cür cinayətkarlar götürərək Zaqafqaziyanın şəhər və kəndlərində dolaşırdılar. (7, 108)

Məhz yuxarıda qeyd olunan azğın ermənilər Cənubi Qafqazda eləcə də, Şimali Azərbaycanda həm yerli idarəçiləri, eləcə də yerli müsəlman türklərini öz cinayət əməllərinin qurbanına çevirirdilər. XIX əsrin ikinci yarısından etibarən Osmanlı imperiyasında baş qaldırmış hər erməni üsyanı və ya özbaşınalığından sonra həmin separatist ermənilər Osmanlı sərhəddindən Cənubi Qafqaza keçir və öz çirkin əməllərini burada davam etdirirdilər. Məhz Şərqi Anadolu ərazisindəki üsyanlardan sonra XIX əsrin 90-cı illərindən etibarən erməni şovinizmi Cənubi Qafqazda daha kəskin xarakter almışdır.

Aşağıda istinad edəcəyimiz bu sənəd də həmin dövrün aynası rolunu oyanır. Belə ki, Naxçıvan və Qarabağ ermənilərinə qarşı rusiya və iran hüdudu boyunca təhlükəsizlik tədbirlərinin artırılması adlı sənəddə deyilir: Naxçıvan və Qarabağ ermənilərinin İran sərhədindən Muş, Van və Bəyazidə hücum etmək üçün hazırlıq etməkdə olduqlan bildirildiyindən Rusiya və İran hüdudu boyunca təhlükəsizlik tədbirlərinin artırılması, sərhəddə səyyar dəstələr təşkil edilərək pasport məmurlarının vəzifələrindən sui-istifadə etmələrinin qarşının alınmasına dair Daxiliyə Nəzarəti tərəfindən Ərzurum, Trabzon və Van vilayətlərinə çəkilən teleqraf [2 aprel 1891]. (5, 212)

Tarix boyu erməni terrorunun ən yaxın təminatçısı və əlaltısı erməni kilsəsi olmuşdur. Erməni kilsələri sanki siyasi təşkilat rolunu oynayır, bir çox gizli və dövlətə zidd qaranlıq məqamları özündə ehtiva edirdi. Bunu aşağıdakı sübut edir. Ermənilərin əsas dini mərkəzi sayılan Eçmiədzin( Üçkilsədəki) erməni katalikosluğu idi. Erməni kilsəsi, məhz Eçmiədzin katalikosluğu Qafqazın istənilən nöqtəsində rus maraqlarını həyata keçirən alətə çevrilmişdir, haradaki erməni kilsəsi tapmaq və uydurmaq olardı. (8, 128 ).

Rusiyanın Cənubi Qafqaz siyasəti nəticəsində əsas erməni yepiarxiyalarının və kilsələrinin sayı qısa zaman kəsiyində artmağa başladı. Bütün imperyada mövcud olan 6 yepiarxiyadan dördü Cənubi Qafqazda idi. Ümumilikdə 1412 kilsədən 1301 kilsə məhz bu regionda yerləşirdi. Xüsusi çoxluq Azərbaycanın İrəvan-488, Yelizavetpol-402 və Bakı-40 ərazilərində idi. 279 kilsə isə Gürcüstan ərazisində yerləşirdi. (9, 101) Digər kilsələrlə müqayisədə erməni-qriqoryan kilsələri xüsusi imtiyazlara malik idilər. Eçmiədzin kilsə adlansa da, əslində siyasəti və millətçiliyi təbliğ edən mexanizm idi.

Erməni kilsəsinin dindən daha çox siyasi işlərlə məşğul olduğunu yaxşı bilən Çar I Aleksandr da 12 sentyabr 1801-ci il tarixində Qafqazdakı rus ordusunun baş komandanı General Knoriqə bir təlimatnamə yazmışdır. Təlimatnamədə rus çarı erməni liderleri ilə yaxşı münasibətlər quraraq, ermənilərin dini mərkəzi Eçmiədzini himayələri altına almasını, millətə, yəni ermənilərə qarşı diqqət və sevgi ilə davranaraq, onları öz tərəfinə çəkməsini istəmişdir. Zira Çarlıq höküməti, I Pyotrun miras qoyduğu Rusiyanı genişləndirmə siyasətini, Erməni kilsəsinin dəstəyi ilə tamamlamağı arzu edirdi. ( 6, 39)

Çar Rusiyası hər vasitə ilə erməni-qriqoriyan kilsəsinin fəaliyyətinin genişlənməsinə çalışmış və məhz 1836- ildə verilmiş əsasnamə ilə qriqoryan kilsəsinin yüksək hüquqi statusunu təsdiq etmişdir. Əvəzində isə Alban katalikosluğu ləğv edilmiş, onun bütün əmlakı erməni kilsəsinin əlinə keçmişdir. Bütün bunlara səbəb bütün alban mədəniyyətinin, maddi sübutlarının məhv edilməsi, silinməsi və erməniləşdirilməsi idi. Bunu həyata keçirən isə xristian ermənilər idi. Məşhur gürcü yazar İ. Çavçavadze “Erməni alimləri və ağlayan daşlar” adlı əsərində erməni intriqaları haqqında yazmışdır. Ermənilər təkcə Alban kilsəsinə müharibə elan etmədilər, eyni zamanda gürcü kilsəsinin müstəqilliyindən məhrum olmağı və Rus Pravoslav Kilsəsinə tabe olmağı bacardılar. Bununla da Erməni kilsəsi Qafqazda yeganə müstəqil kilsəyə çevrildi. (2, 164). Nəticədə alban və gürcü kilsələrinin yerində erməni-qriqoryan kilsələri geniş fəaliyyət göstərməyə başladılar.

Alban katalikosluğunun ləğvindən sonra alban tarixinə dair arxiv sənədləri ermənilər tərəfindən məhv edildi. Erməni kilsələrinə verilən məhz bu tip imtiyazlar erməni ruhanilərin daha da əl-qol açmasına, erməni milliətçi və terrorçularınının planlarının həyata keçirilməsində dəstək vermələrinə əlverişli şərait yaratdı. Əlavə olaraq onu da qeyd edək ki, müsəlman ruhanilərin idarəsi haqqında əsasnamə isə yalnız 1872-ci ilin aprelində qəbul edilmişdir. Məhz müsəlman ruhanilərin hüquqlarının məhdudlaşdırılmasına çalışan Rusiya imperiyası onların daim imperiyadan asılı vəziyyətdə qalmasına çalışmışdır. Bu isə mənəvi terrorun başlanğıcı, imperiyadakı qeyri-xristianlara

göstərilən ayrı-seçkiliyin bariz nümunəsi idi.

Artıq XIX əsrin sonlarından etibarən ruslar başa düşürdülər ki, ermənilər Qafqazda onların maraqlarına zidd siyasət yeritməyə çalışırlar. Hətta 1882-ci ilə Qafqazın baş hakimi A. M. Dondukov-Korsakov çar III Aleksandra ermənilər barəsində xəbərdarlıq edir. " bu element hakimiyyətə ölkənin digər yerli xristian xalqlarının təmin olunmuş etibarlılıq zəmanətini vermir. (9, 110). Vəziyyətin ağırlaşdığını və ermənilərin milliyətçi, terror fəaliyyətinin gücləndiyini görən çarizm erməni kilsələrinə və ümumilikdə ermənilərə qarşı sərt tədbirlər görməyə başlamışdı.

Ermənilər üçün Eçmiədzin kilsəsinin, ümümilikdə kilsənin oynadığı rolu nəzərə alan İngiltərə dövləti hətta İrana bu kilsəni yıxmağı məsləhət bilmişdir. İngiltərə anlayırdı ki, ruslara böyük dəstək olan bu kilsənin məhv olması Rusiya imperiyasının mühüm erməni dəstəyindən məhrum olması demək idi. Eçmədzin kilsəsi o qədər güclü idi ki, hətta onun özünün mülkləri də var idi. Geniş fəaliyyət azadlığına malik olan dini mərkəzlər banklardan kredit ala bilir, müxtəlif qanunsuz işlər ilə məşğul olurdular. Veliçko "Qafqaz. Rus işi və tayfalararası məsələlər" əsərində qeyd edir ki, kilsə hətta torpağı girov götürür. Qeyd olunan bütün bu faktlar kilsələrin qanunsuz fəaliyyətinə dair inkar olunmaz sübutlardılar.

Zamanla erməni-qriqoryan kilsələri erməni terror təşkilatlarının nəzarətinə keçir, kilsə xadimləri isə bu təşkilatların ən yaxın silahdaşlarına və əlaltılarına çevrilirdilər. Bunu aşağıdakı fakt bir daha sübut edir. DİN Polis departamentinin Xarici etiqadların ruhani işləri departamentinə 1891-cı il 8 fevral tarixli məxfi məktubunda Qafqazda yaradılan erməni hərəkatından danışılır, Qafqaz erməniləri içərisindən Türkiyəyə göndərilməsi üçün muzdluların toplandığı bildirilir. " İrəvan quberniyasının Jandarm idarəsində Qafqazda yaranmış erməni hərəkatı barəsində təhqiqat aparılır. Ermənilərin topladıqları pullara Türkiyədə hökümətə qarşı üsyana qalxmış erməni fədailərinin sıralarını artırmaq üçün könüllülər cəlb edilir. (3, 27)

Kilsənin və din xadimlərinin qanunsuz fəaliyyətləri o yerə çatmışdı ki, 1891-ci ildə 16 martda erməni-qriqoryan ruhanilərinə inzibati qaydada cəza tədbirlərinə dair qaydalar çar tərəfindən təsdiq olunmuşdur. Məhz bu sənəd bir daha kilsə xadimlərinin özbaşnalığını sübut edirdi. Hələ 1891-ci ildə erməni-qriyoryan kilsə xadimlərinin qeyri-qanuni fəaliyyətinin qarşısının alınması zərurəti yaranmış, Qafqazın baş mülki rəisinə onların müxtəlif yerlərə sürgün edilməsinə dair tapşırıq verilmişdir.( 3, 37)

Erməni kilsəsinin təhlükəli hal aldığını sübut edən faktlardan biri də aşağıdakıdır. Beləki, 1895-ci ilin yaz aylarında rast gəlinən Osmanlı Dövləti Xariciyə Nazirliyinin rəsmi yazışmalarından qısa məlumatda deyilir: "Ermənilər tərəfindən Eçmiədzin kilsəsində toplanan pulun böyük bir hissəsinin silah almaq üçün İngiltərəyə göndərildiyi və İran və ya Rusiya yolu ilə Tiflisə nəql ediləcəyi xəbər verilən bu silahlar Tiflisə gəldiyi zaman toplanılması baxımından Rus hökümət tərəfindən məmurlara əmir verildiyinə dair məlumat vardır." Bu yazışmada, Eçmiədzin kilsəsi tərəfindən toplanılan pulun 100 000 rubl olduğu, bu pulun sadəcə 1000 rublunun kilsəyə verildiyi, yerdə qalan 99 000 rublun isə erməni katalikosu Mıkırtıç Hrimyan Ayrik tərəfindən tərəfindən Osmanlı dövlətində fəaliyyət göstərən erməni komitələrinə silah almaq üçün İngiltərəyə göndərildiyi məlum olur. (6, 171)

Erməni kilsəsinin acgözlüklə topladığı ianələrin nə hesabına əldə edilməsinə dair Matenadaranda saxlanılan "Erməni xalqının tarixi" əsərində deyilir: "Bir tərəfdən kilsənin, erməni ruhanilərinin acgözlüklə topladığı ianələr və yığdığı vergilər Qərbdə yaşayan ermənilərin çiyninə düşən ağır yük olmuşdur. Burada erməni kəndlisininin var-dövlətini əlindən alan rəhmsiz türk ağaları və yaxud kürd bəyləri deyildi. Erməni rəiyyətinin cibini soyan kilsə xadimi, monastrda xidmət edən rahib atalar, katalikoslar və patriarxların peşəkar əlaltıları idilər". (1, 222 )

Artıq XIX əsrin ikinci yarısından etibarən Cənubi Qafqazda, eləcə də Şimali Azərbaycan da fəallaşan erməni separtaçıları buraya silah daşınmasını da həyata keçirirdilər. 1897-ci ildə Şuşa, 1898-ci ildə Yevlax, 1899-ci ildə Tiflis və Bakıya Moskvadan silah gətirilmiş, məhz bu silahlar ermənilər üçün nəzərdə tutulmuşdur. (9, 213) Daşınan bu silahların saxlandığı yer isə mənəvi ibadətgahlar olan kilsə anbarları idi.

Çarizm yerlərdə azğınlıq edən ermənilərə və din pərdəsi altında hər cür özbaşınalıq edən ruhanilərə qarşı mübarizəni gücləndirirdi. 1897-

ci ilin avqustunda jandarm polisi Eçmədzində erməni inqilabi təşkilatının üzvünü müəyyən edir və məhz o, şəxs inqilabçılarla yazışmalar həyata keçirirmişdi. O, patriarxın evində yaşayır və patriarx Mkrtıçın Sant-Peterburqa səfəri zamanı onu müşayət etmişdi. (9, 208) Məhz Eçmiədzin kilsəsi xətti ilə müxtəlif şəhərlərə mənəvi natiqlər göndərilirdi, onlar daha çox varlı, intelektual erməni darirəsində özlərinə tərəfdarlar və maliyyə dəstəyi qazanırdılar.

Vəziyyət getdikcə kəskinləşdikcə ermənilərin, eləcə də kilsə və onun xadimlərinin öz nüfuzlarından zərərli yöndə faydalanmaları çarizmi daha ciddi addımlar atmağa məruz qoydu. Ermənilərin şəhər özünü idarəsində üstünlüyünün məhdudlaşdırılması ilə birgə, erməni-qriqoryan kilsəsinin rolu nəzərdən keçirilməyə başlandı. 1903-cü il iyunun 12-də sənəd qəbul olundu. “Erməni-qriqoryan kilsələrinə, monastırlarına, dini idarələrə və dini tədris müəssisələrinə məxsus bütün daşınmaz əmlak, xüsusi təsdiqlənmiş qaydalar əsasında Din və dini işlər üzrə idarənin tabeçiliyindən alınaraq bu əmlak və maliyyə sahiblik hüququnun Erməni-qriqoryan kilsəsində saxlanılması şərti ilə Torpaq və Dövlət mülkiyyəti Nazirliyinin tabeçiliyinə verilsin, sözügedən müəssisələrə məxsus maliyyə isə Daxili İşlər Nazirliyinin tabeçiliyinə keçirilsin”. (3, 36)

Qəbul edilmiş bu qərar böyük etirazla qarşılandı. Məhz kilsə və onun ruhanilərin dəstəyi ilə müxtəlif yerlərdə etiraz dalğası başlandı. Bu etriaz dalğaları kilsə zənginin çalınması ilə hərəkətə keçirdilər. Kilsənin insanları ibadətə deyil, iğtişaşa çağırması onun tam mahiyyətini ortaya qoyur. Qiyam yuvasına, silah anbarına çevrilən ibadətgahlar müxtəlif qırğınlara və iğtişaşlara rəvac verdilər. Təsadufi deyildir ki, məhz bu iğtişaşlar nəticəsində saxlanılanların əksəriyyəti erməni qriqoryan kilsəsinin keşişləri idi.

Lakin bu qərar ermənilər tərəfindən böyük narazılıqlarla qarşılanır və terror və zorakılığı gücləndirdilər. Hətta Qafqazın baş hakimi Qolitsinə, eləcə də Qafqazdakı digər çar məmurlarına qarşı terrora əl atdılar. Nəticədə yuxarıda adı çəkilən qərar 1905-ci ildə dayandırıldı.

Erməni ruhanilərinin dini təbliğatdakı rolu sıfıra bərabər idi. Onlar dindən daha çox millətçilik, müsəlman türklərinə qarşı düşmənçilik təbliğatı ilə məşğul idilər. Məktəblər, tədris ocaqları da tədrisdən daha çox kilsə ilə eyni təbliğatı həyata keçirirdilər.

Qafqazın baş hakimi olmuş Dondukov-Korsakov Rusiya çarı III Aleksandra kilsə ilə bağlı aşağıdakıları yazırdı:“Erməni məsələsini” dünyadakı bütün ermənilərin siyasi birliyinin nümunəsi olan erməni katolikləri irəli sürdülər. Kilsə ermənilərin həm mənəvi, həm də maddi birliyini təmin edir . (4, 45-46) Bütün qeyd etdiyimiz faktlar ermənilərin iç üzünü açıb gəstərir və kilsənin müqəddəs dini mərkəz deyil, terror ocağı olduğunu ortaya qoyur.

Erməni terroru nəticəsində azərbaycanlıların say dinamikası aşağı düşmüş, sağalmaz xəstəliklərin, ölüm hallarının sayı artmış və azərbaycanlılar öz dogma yurdlarından didərgin düşmüşdülər. Erməni terrorunun əsasını həm də mənəvi və mədəni terror təşkil edir. Mədəni terrorun nəticəsi olaraq yüzlərlə mədəniyyət qəbir abidələri, məscidlər məhv edilmiş və erməniləşdirilmişdir. Onlar işğal etdikləri Azərbaycan ərazilərindən azərbaycan türklərinin izlərini silmək üçün hər şeyi etmişdilər. Bütün onların etdiklərinə baxmayaraq, xoşbəxtlikdən bütün tarixi arxiv materialları işğal olunmiş tarixi torpaqlarımızın Azərbaycana məxsus olduğunu sübut edir. İşğal olunmuş ərazilərinin adları belə Azərbaycan türklərinin aborigen xalq olduğunu sübut etmişdir. Dağlıq Qarabağ və işğal olunmuş digər Azərbaycan ərazilərində mövcud olan dövlət tarix və mədəniyyət qoruğundakı daşınmaz tarix və mədəniyyət abidələri və digər incəsənət nümunələri Azərbaycanın dövlət mülkiyyətində olan əmlakıdır: “Qanunla daşınmaz tarix və mədəniyyət abidələrinə ermənilər tərəfindən əmlak hüquqlarının əldə edilməsi, erməniləşdirilməsi yolverilməzdir. Azərbaycan dövlətinin mədəni irsi Ermənistanın dövlət vəsaiti hesabına erməniləşdirilir.

Bugün erməni terroru sadəcə Cənubi Qafqazın və ya onun əsas strateji vacib dövləti olan Azərbaycanın problemi deyil, bəşəriyyətin problemi hesab edilməli, erməni terroru ilə mübarizə beynəlxalq səylərin əsas məramına çevrilməlidir. Çünki bugün Ermənistan terroru öz dövlət siyasətinə, Azərbaycanı isə bu terrorun hədəfinə çevirib.

**Açar sözlər:** *Azərbaycan, Terror, erməni, kilsə, Eçmiədzin*

## ƏDƏBİYYAT SİYAHISI

*1. Israfil Məmmədov. Erməni kilsəsi və Türk-Azərbaycan torpaqlarını dolaşmaqda olan "Böyük Ermənistan"kabusu" Etnik təmizləmə, fiziki və mənəvi soyqırımı. Dünənin tarixi, bu günün gerçəyi. Bakı, " Nurlan", 2010. 240 s.*

*2. Kamran Imanov. Tall Armenian tales A guide to the "art" of the heritage thievery" Bakı, "İndigo" print house, 2010, 295 p.*

*3. Qafqazda emәni məsələsi" Rusiya arxiv sənədləri və nəşrləri üzrə. Üç cilddə.Birinci cild 1724-1904, Bakı, 2010, Elm nəşriyyatı, 716 s.*

*4. Musa Qasımlı "From the Armenian issue" to " The Armenian Genocide" in search of historical truth (1724-1920), Baku, "N print studiya" LLC, 20155 492 p*

*5. Osmanlı sənədlərində Qarabağ. Bakı, "Şərq-Qərb", 2011, 616 s.*

*6. Seyit Sertçelik " Rus ve ermeni kaynakları işığında erməni sorunun ortaya çıkış süreci (1678-1914). Ankara, 2009, 357 s.*

*7. V. L. Veliçko "Qafqaz" Rus işi və tayfalararası məsələlər, Bakı, 1995, "Azərbaycan" nəşriyyatı, 189 s.*

*8. Рамиз Мехтиев. НАГОРНЫЙ КАРАБАХ: история, прочитанная по источникам", Москва «Акнариус", 2014, 278 с*

*9. Джаббаров Ф. "Армянский экстремизм на ЮЖНЫЙ Кавказе вторая половина XIX- начало XX вв." Баку издательский дом ТЕАС ПРЕСС, 2018, 768 с.*

**Гасанова Эма Мехраб**

**Армянский террор и роль церкви в этом терроре**

## РЕЗЮМЕ

Сегодня Азербайджанская Республика как один из главных сторонников антитеррористической политики призывает все страны мира бороться с терроризмом, включая армянский терроризм.

Из того, что мы отметили, ясно, что церковь не всегда играла роль религиозного центра для армянского народа и стала местом великих бедствий и катастроф. В результате предательства и жестокости армянской церкви азербайджанский народ всегда пострадал и стал жертвой армянского терроризма.

**Ключевые слова:** *Азербайджан, террор, армянин, церковь, Эчмиадзин.*

**Hasanova Ema Mehrab**

**Armenian terror and the role of church in this terror**

## SUMMARY

Today, the Republic of Azerbaijan, as one of the main supporters of the anti-terrorism policy, calls on all countries of the world to struggle against terrorism, including the Armenian terrorism, and strengthen this struggle.

From what we have noted, it is clear that the church has not always played the role of the religious centre for the Armenian people and has become a place of great calamities and disasters. As a result of the betrayal and brutality of the Armenian church, the Azerbaijani people has always suffered and has been the victim of the Armenian terror.

**Keywords:** *Azerbaijan, terror, Armenian, church, Echmiadzin.*

UOT 94(479.24)

# XƏZƏR XAQANLIĞININ ETNİK MƏNŞƏYİ VƏ YARANMASI PROBLEMİ RUSİYA TARİXŞÜNASLIĞINDA

**MƏHƏRRƏM ƏHMƏDOV**
*AMEA Tarix İnstitutunun dissertantı*
***Azərbaycan***
*E-mail: maqerram@lenta.ru*

Xəzər xaqanlığının tarixi qədim zamanlardan Rusiya tarixçilərinin diqqətini özünə cəlb etmişdir. Qeyd edilməlidir ki, Xəzər xaqanlığı məsələlərinin araşdırılmasının bir neçə səbəbi vardır. Bunlardan birincisi, Rusiya dövləti tarixinin ilkin orta əsrlərinin Xəzər xaqanlığı ilə bağlı olmasıdır. Bu tarixi bağlılıq, təkcə Rusiya dövlətilə məhdudlaşmır, o cümlədən Ukrayna, Şimalı Qafqaz bölgəsi, Bolqarıstan, Macarıstan və Cənubi Qafqaz tarixinin önəmli 300 ilə yaxın tarixi mərhələsi, məhz Xəzər xaqanlığı tarixilə sıx və ya qismən bağlı olmuşdur. Rusiya tarixçiləri arasında Xəzər tarixinin tədqiqini təhlil edərsək, nisbi olaraq onu üç mərhələyə bölmək olar: a) Çar Rusiyası mərhələsi, b) Oktyabr çevrilişindən sonra SSRİ mərhələsi, c) SSRİ – nin çöküşündən sonra RF dövrü.

Rusiya tarixşünaslığında Xəzər xaqanlığı ilə bağlı məlumata ilk rus yazılı ədəbiyyat nümunəsi «Повест временных лет» (Qədim illərin povesti) əsərində təsadüf olunur. Qədim rus əlyazmalarından məlum olur ki, “əvvəllər xəzərlərin sahib olduğu bölgələrə indi rus knyazları sahibdir” [14, 223]. Müxtəlif əsərlərdə bir çox Slavyan tayfalarının xəzərlərə xərac verdiyindən bəhs olunur. Rus knyazlarının sonradan özlərini xaqan adlandırması, sübut edir ki, köklü dövlətçilik ənənələrinə dayanan Xəzər xaqanlığının yeni yaranmış Rus dövlətinə və dövlətçiliyinə dərin təsiri olmuşdur.

Xəzər xaqanlığının öyrənilməsi tarixini dövrlərə bölməkdə, əsas məqsədmiz həmin mərhələlərin özünəməxsus xarakterik xüsusiyyətlərini işıqlandıraraq, yuxarıda qeyd olunmuş dövürlərin mövzunun tədqiqinə siyasi- idieoloji, obyektiv - subyektiv təsirlərini ortaya qoymaqdır.

Yuxarıda qeyd edildiyi kimi, Xəzər xaqanlığının tarixinin öyrənilməsi dünyanın bir çox dövlətlərinin tədqiqatçılarının diqqət mərkəzində olmuşdur. Avropa tədqiqatçıları Xəzər xaqanlığının tarixini Rusiya tarixçilərindən əvvəl tədqiq etməyə başlamışlar. Bu mövzu, Avropa şərqşünasları və rusşünaslarının tədqiqat obyektləri olmuşdur [11, 45].

Mövzumuz Rus tarixşünaslığı ilə məhdudlaşdığı üçün Avropa xəzərşünaslarına toxunmaq istəmirik. Rusiya tarixşünaslığında Xəzər problemlərinə maraq təqribən XVIII əsrə təsadüf edir. İlk dəfə V.N. Tatışev qədim Rus və Bizans əlyazmalarına istinad edərək, xəzərlər haqqında məlumatları ortaya qoymuşdur [11, 45-46]. Çar Rusiyası tarixçilərindən B.Dorunun “Qədim rusların Təbəristana hücumu haqqında”, D.İlovayskinin “Rusların mənşəyi haqqında tədqiqat”, N.A. Aristovun “Türk sülaləsi və xalqlarının etnik tərkibi haqqında məlumatlar, Qolubovskinin “Vladimir Svyatoslav zamanında rusların Şərq qonşuları, bolqar və xəzərlər”, F.S.Uspenskinin “IX –X əsərlərdə Qara dəniz sahillərində Bizans torpaqları”, A.U. Qərkavinin “Yəhudi yazıçılarının Xəzərlər və Xəzər xaqanlığı haqqında dedikləri” , N.K. Kokevçevin “Xəzərlər, Xəzər – Rus – Bizans əlaqələri haqqında yeni yəhudi sənədləri”, D.A.Xvalsonun “İbn Dəstənin xəzər, burtas, bulqar, moldav, slavyan və ruslar haqqında xəbərləri”, E.İ. Kozubskinin “Dərbənd şəhərinin tarixi” və s. kimi əsərləri xəzərlərin tarixini birbaşa və ya dolayı yollarla əhatə edir. Həmin müəlliflər əsas etibarılə Çar Rusiyası zamanında yaşamışlar.

Bu əsərlərdə Xəzər Xaqanlığı, onun etnik tərkibi, dili, xarici və daxili siyasəti, dövlət idarəçilik sistemi, dini-ideoloj baxışı və dini mənsubiyyətləri haqqında məlumatlar verilmişdir. İdealoji-siyasi münasibətitlərin Xəzər xaqanlığının tarixini tədqiq edən Rusiya tarixçilərin tədqiqatlarına et-

diyi təsirə gəlincə, məşhur sovet tarixçi-arxeoloqu M.İ. Artomanovun "Xəzərlərin qədim tarixinin xülasəsi" əsərinə müraciət etməmiz kifayət edər. Müəllif Çar Rusiyasında xəzərlərin tarixinə qarşı mənfi münasibəti qeyd edərkən, aşağıdakıları bildirir: "Bizim tariximizdə Xəzərlərə münasibət XIX əsrdən qalma tarixi ənənələrə bağlıdır. XIX əsrdə Xəzərlərlə bağlı elmi fəaliyyətlər sonradan dayandırıldı. Xəzərlərlə bağlı tədqiqatların zəfliyini təkcə, yazılı mənbələrin azlığı ilə izah etmək, düzgün olmaz. Bu, həm də, rus burjua tarixçilərinin yüngül milliyyətçiliyi ilə bağlıdır. Rus şovinistləri tarix arenasında Bizansın vassalı rolundakı Rusiya ilə güc və siyasi nüfuz baxımından Bizans və Ərəb xilafətilə eyni səviyyədə olan xəzərlərin, siyasi və mədəni üstünlüklərini qəbul edə bilməmişlər" [4,136].

Ümumiyyətlə, sosialist inqlabına qədərki rusiya tədqiqatçılarının əsərlərilə tanış olduqdan sonra, şərti olaraq onları üc qurupa bölmək olar. Rus millətçi tarixçiləri, yəhudi mənşəli tarixçilər və liberal rus tarixçiləri. İlk dəfə xəzərlərə ədalətli qiyməti məşhur rus şərqşünası V.V. Qriqoriyev (1816-1881) vermişdir. O, Xəzər Xaqanlığına heyranlığını bildirərək, Qərbi və Şərqi Avropa ilə müqayisədə, onu hüquqi ədalət və dini dözümlülük baxımından "Avropanın səmasında" parlayan yanar metroidə bənzətmişdir. O, Xəzər dövlətinin çiçəklənməsi mərhələsini VIII əsrə aid edərək, dövlətin ərazisini Dnestir çayından Xəzər dənizinədək, Oka və Kama çayından Qara dənizinədək topaqları əhatə etdiyini bildirir [8, 57]. Rusiyada xəzərşünaslığın inkişafına təsir edən əsas amillərdən biri də, "Normançılar" və "Slavyançılar" arasındaki barışmaz elmi mübarizə olmuşdur. Rusiya tarixçiləri, dövlətlərinin yaranmasında hər hansı bir xarici təsirin rolunun olmadığını sübut etməyə çalışsalar da, inandırıcı və əsaslı dəlillər tapa bilməmişlər. Bu məsələdə normanların və xəzərlərin rolunun açıq şəkildə görsənməsi, onları seçim qarşısında qoymuşdu. Rusiya tarixçiləri normanların Rusiyanın dövlətçilik tarixinə təsirini qəbul etmək istəmədiklərinə görə, Xəzər xaqanlığı tarixinə diqqəti artırmağa məcbur olmuşlar. Burada Rusiya tarixçilərinin əsas hədəfi, Rus dövlətinin yaranmasında xəzərlərin rolunun olduğunu etraf etmək yox, Slavyan xalqalarının Xəzər xaqanlığı hakimiyyətindən xilas edilməsində, rusların rolunu vurğulamaq və Rus dövlətinin Xəzər xaqanlığının mövcud olduğu dövürdə Şərqi Avropada böyük nüfuz sahibi olmasını təlqin etmək olmuşdur.

Oktyabr çevrilişindən sonra Xəzərşünaslıq məsələsi diqqət mərkəzində olsa da, əsasən XX əsrin 50-ci illərində tədqiqatın inkişafı sürətlənmiş və arxeoloji qazıntılara böyük üstünlük verilmişdir" [ 11, 55 ]. Ancaq demək mümkün deyildir ki, Xəzərlərlə bağlı tədqiqatların yolu siyasi baxımdan hamar olmuşdur. M.İ.Artamanov xəzərlərin Rusiya tarixində oynadıqları mühüm rolla bağlı dediklərindən dolayaı, tənqidlərə məruz qalmışdır. Buna sübut kimi A.Kostlerin "On üçüncü qəbilə" əsərinə diqqət etmək kifayət edər" [ 17 ].

Buna cavab olaraq, "Pravda" qəzetində bu sözlərin tarixi həqiqətlərə dayanmadığı fikri önə sürülərək, Xəzər Krallığının bir çox qəbilələrin bir yerə yığışdığı vəhşi bir toplum olduğu, Şərqi Slavyanların qurduğu dövlətdə onların heç bir rolunun olmaması bildirilir. "Şərqi Slavyanlar xəzərlərdən çox əvvəllər dövlətlər qurmuşlar. Qədim mənbələr bunu təsdiq edir" [ 17]. Bütün bu yazılanlar bir daha onu göstərir ki, Sovet Rusiyası zamanında da, Rus dövlətçiliyinin yaranma tarixini qədimləşdirmək üçün, qeyri-slavyanların dövlətçilik tarixini və mədəniyyətini önəmsizləşdirilməsi ənənəsindən, təcrübəsindən əl çəkməmişlər.

Bütün qeyd edilənləri nəzərə alarsaq, aydın olur ki, ümumən rus tarixçilərinin Xəzər xaqanlığına baxışında, Rus şovinizminin izləri görünür. Bu, xüsusən, Yəhudi dininə və Türk etnogenizinə baxışda özünü qabarıq şəkildə göstərir. Təsadüfü deyildir ki, istənilən məqalədə "Xəzərlər üçün qırmızı xətt, onların yarım vəhşi, yırtıcı və çöl xalqı kimi tanıdılmasıdır" [ 15,131]. Qeyd etmək lazımdır ki, Sovet tarixçiləri də Xəzərlərlə bağlı az iş görməmişlər. Bunlardan M.İ.Artamonov, S.A.Pletneva, A.R.Novoselçev, M.Q.Maqamedov, L.Y.Qumilyov, A.Yakubovski, K.V. Kudryaşov, A.V.Qadlo, V.F.Minorski, A.R. Şıxsəidov və. s kimi tədqiqatçıların adlarını çəkmək olar.

Müstəqil Rusiya Federasiyası tarixçiləri arasında Xəzər probleminə maraq azalmamış, əksinə daha da artmışdır. Onların arasında mövzu

ilə bir başa bağlı olan monoqrafiya və məqalələrin müəllifləri İ. Semyonov, Aleksey Kreşçenko, Nikolay Koçanov, Oleq İvik, Vladimir Klyucnikov və.s. kimi tədqiqatçıların adlarını qeyd etmək olar. Rus tarixçilərinin Xəzər xaqanlığ tarixini araşdırmalarına diqqət edərkən, görmək olur ki, onlar Xəzər dövlətinin yaranması tarixinə və onu şərtləndirən səbəblərin öyrənilməsinə, xüsusi əhəmiyyət vermişlər. Çünki həmin məsələlərə baxışda, xəzərşünaslar arasında fərqli fikirlər mövcud olduğunu görürük.

Bilindiyi kimi, Xəzər Xaqanlığı VII əsrin ortalarında tam müstəqil bir subyekt kimi meydana çıxmışdır. Rusiya tarixçlərindən M.İ. Artamonov Xəzər dövlətinin 651-ci ildən başlayaraq müstəqil dövlət kimi tarix səhnəsinə çıxdığını bildirir [3, 240]. Onun bu fikrini, L.N. Qumilyov da özünün "Qədim türklər" əsərində təsdiqləyir" [10, 238]. Xəzərşünaslardan A.R. Novoselçev Xəzər Xaqanlığının 651- ci ildə yarandığını qeyd etsə də, onların ərəb hücumlarına qədər Qərbi Türk imperiyasına de-yure bağlı olsa da, əsl həqiqətdə müstəqil siyasət yürütdükləri qənaətindədir [11, 89]. A.V. Qadlo da, M.İ. Artamonovun fikrini təsdiqləyir. Ancaq o da , Xəzərlərin VII əsrin 20- ci illərindən Bizans-Sasani münasibətlərində Bizansın müttəfiqi kimi adlarının çəkildiyini bildirir [ 7, 136 ]. Tədqiqatçılar tərəfindən fərqli tarixlər ifadə edilsədə, Rus tarixçilərinin əksəriyyəti bu dövlətin VII əsrin ortalarında yarandığı fikri ilə razılaşır. Xəzər adına ilk dəfə harada rastlandığı məsələsinə gəlincə, V.V. Qroqoryev bildirir ki, Xəzərlər haqqında ilk məlumat Gürcü əlyazmasında qeyd olunmuşdur və bu təqribən dünyanın yaranışının 2307-ci ilinə təsadüf edir. Onlar, Gürcü və Ərməniyyə ərazisinə hücum etmişlər [ 8, 45 ]. O, həmçinin bildirir ki, Bizans səlnaməçiləri Xəzərlərlə bağlı ilk məlumatı 626- il hadisəsi ilə bağlı qeyd edirlər. İkinci fikir Rus tarixçiləri arasında daha geniş yayılmışdır. Bunun əsas səbəbi mənbələrdə bu tarixi hadisənin geniş şəkildə əks olunmasılə bağlıdır. Bizans və Sasani imperiyaları arasında 604-cü ildə 629-cu ilədək davam edən uzun müddətli müharibələrdə birinci tərəf məğlub olsa da, Bizansın Qərbi Türk Xaqanlığı ilə bağladığı ittifaq müharibədə dönüş nöqtəsi oldu. Bu döyüşlərdə Qərbi Türk Xaqanlığının tərkib hissəsi olan xəzərlər Sasani imperiyası üzərində qələbədə mühüm rol oynamışlar. Bu məlumat bir çox əlyazmalarda öz əksini tapmışdır. 630 cu ildə Qərbi Türk Xaqanı Ton-yabqu sui-qəsd nəticəsində öldürüldükdən sonra, dövlətdə yaranmış qarşıdurmada Dulo sülaləsini Bulqarlar, Nuşubi sülaləsini isə Xəzərlər müdafiə edirdilər [ 3, 239]. Xəzərlərin sonradan Qərbi Türk xaqanlığının varisliyinə olan iddəası, onların, sonuncunun tam süqutunadək birlikdə hərəkət etdiklərini deməyə əsas verir. Xəzər xaqanlığının yaranması tarixini Qərbi Türk xaqanlığının süqütü ilə götürülməsi daha məntiqli olar.

Xəzərlərin etnik tərkibinə gəlincə, onların Türk mənşəli olduqları, rus tarixçilərinin əksəriyyət tərəfindən qəbul edilmişdir. Doğrudur ki, bununla razılaşmayan xəzərşünaslar da vardır. Lakin, onlar çoxluq təşkil etmir. İlk Xəzərşünaslardan olan şərqşünas V.V. Qriqoryev xəzərlərin etnik tərkibini izah edərkən üç fikir üzərində durur;

a) Xəzərlər dil və görünüş baxımından Türklərə bənzəmir, b) Bizanslılar yeni müttəfiqlərini "türk" adlandırmışlar, c) xaqanlıq yaranarkən, onlardakı adət ənənələr və idari vəzifə adları Orta Asiya türklərinin adları ilə üst-üstə düşür [ 9, 74]. Bütün bunların təsadüfü olmadığını bildirən müəllif, xəzərlərin türk olmadığını, sadəcə olaraq, onlara başçılıq edən sülalənin türk mənşəli olduğunu bildirir. Şərqşünas tədqiqatçı verdiyi məsələlərdə nəyə əsaslandığını açiqlamır. Təbiidir ki, Xəzər xaqanlığı Qərbi Türk xaqanlığının varisidirsə, bu adların eyni olmasına təccüb etmək əsassızdır. Təccüblü olan bizanslıların qeyri türkləri Türk adlandırmasıdır. Nəzərdən qaçırılmamalıdır ki, Bizans imperiyası və Türk xaqanlığı arasında münasibətlərin tarixi daha qədimlərə gedir. Rusiya xəzərşünaslığında xüsusi yeri olan M.İ. Artamonov xəzərlərin etnik tərkibinə toxunarkən, bildirir ki, "VII əsrin ortasında ölkəmizin Avropa hissəsi çöllərində Xəzər və Bulqarlardan ibarət iki müstəqil siyasi qurum mövcud olmuşdur. Onların hər ikisi Qərbi Türk xaqanlığının qalığı və bir-birinə qohum etnik qruplar olmuşdur. Hər ikisini türk mənşəli sülalələr idarə etmişdir" [ 2, 171] .

M.İ. Artamonovda , V.V. Qriqoryevin fikrini təkrarlamış olur. S.A. Pletneva bu fikirlə şərik çıxsada, qeyd edir ki, İbn Hovqal və Əl- İstəxri

bulqarların dillərinin xəzərlərin dilinə bənzədiyini yazırlar. Artıq, türkoloqlar bulqar dilinin Qərbi Türk dilinə aid olduğunu təsdiq etmişlər [13, 14]. Bu fikir xəzərlərin türk xalqlarından biri olduğunu təsdiq edir. Xəzərlərin türk əsilli olduğunu tam şəkildə qəbul etməyən xəzərşünaslardan A.R. Novoselçev, İ.Q.Semyonovun adını çəkmək olar ki, birincisi bildirir ki, Xəzərlər bulqar və sabirilərə yaxın bir etnosdur. Lakin, Bulqar və Xəzərlərin türk dili ailəsinə aid olduğu bəzən şübhə doğurmuşdur [ 11, 77]. O, bildirir ki, xəzərlərin etnogenezində əsas rolu hunlar yox, sabirilər oynamışlar . Sabirilərin kökü fin-uqor olmuş, Türk axınlarının təsiri ilə sonradan türkləşmişlər [11, 81]. Rusiyanın tanınmış xəzərşünaslarının tədqiqatlarından yox, fikirlərindən bu nəticəyə gəlmək olur ki, Xəzər xaqanlığını idarə edən sülalə Türk olmuş, xəzər xalqının mənşəyi isə qaranlıqdır.

Xəzərlərin etnik mənşəyini araşdırarkən, bizə görə ən düzgün nəticəni əldə etmək üçün, Xəzər Xaqanı Yusifin Əndəlüs Əməvi xəlifəsinin baş məsləhətçisi Hasdai bin Şarputa yazdığı və kimlik sualına cavab verdiyi məktuba əsaslanmalıyıq. Mətnin məzmunundan aydın olur ki, o, Xəzər xalqı dedikdə, bütün xalqı və hakimiyyət mənsublarını nəzərdə tutur. O, xalq və hakimiyyət ayrimi etmir. Xəzərşünaslar digər yazılı abidələrə diqqətlə yanaşsalar da, Xaqan Yusifin tanıtımını əfsanəyə bağlayırlar. Nəzərdən qaçırmaq olmaz ki, əfsanələr də heçdən yaranmayıb, o da bir mənbədir. Çox güman ki, Xaqan öz kimliyini tədqiqatçılardan daha yaxşı və dərindən bilmişdir. Xəzər Xaqanı öz etnik kimliyini ifadə edərkən, bildirir ki, onun xalqının mənşəyi Yafəs oğlu Toqarmadan gəlir. Yusifin ifadə etdiyinə görə, Toqarmanın 10 oğlu olmuşdur. Uyur, Tirs, Avar, Uquz, Bizl, Tırna, Yanur, Blqr, Savir , yeddinci oğlunun adı isə Xəzər idi. Qədim Yəhudi ədəbiyyatında Toqarma bütün türk xalqlarının babası kimi anılır [ 13, 4]. Xaqan Yusif də özünü “Toqarma çarı” adlandıraraq, özünü bütün türklərin xaqanı kimi ifadə etmişdir. B.U.Vaynberq “Qədimdə Turanın etnoqrafiyası” əsərində bildirir ki, xəzərlər Türk xaqanlığının varisi kimi meydana çıxdılar [6, 286]. Müəllif onların dilinin müasir Çuvaş dilinə bənzədiyini bildirir. Görkəmli Rus dilçisi N.İ. Aşmarin “Çuvaş dilinin tədqiqi üçün” əsərində bildirir ki, “Çuvaş dili 27 hərfdən ibarətdir. Onlardan 9– u saitdir. Saitlərin isə 5 qalın , 4 incədir. Çuvaş dilində vurğu digər türk dillərində olduğu kimi sonuncu hecaya düşür. Sait səslərin ahəng qanunu digər Ural- Altay dil qruplarında olduğu kimi , Çuvaş dilində də mövcuddur”[ 5, 20]. Göründüyü kimi, Çuvaş dilindəki saitlərin sayı Azərbaycan dilindəki saitlərin sayı qədərdir. Rusiya dilçiləridə, xəzərlərin dilinin Türk dili olduğunu, təsdiqləmiş olurlar. N.A. Aristov özünün “Türk qəbilə və xalqlarının etnik tərkibi haqqında qeydlər və onların sayı haqqında məlumatlar” əsərində bildirir ki, “təqribən VII əsrdə Aşağı Volqa ərazisində müxtəlif türk xalqları Xəzər Xaqanlığını yaratdılar. Xəzərlər sonralar oturaq həyata keçdilər” [4 , 127].. V.Y.Petruxin bildirir ki, Xəzər adı tədqiqatçıların əksəriyyəti tərəfindən kazax tipli ənənəvi türk etnonimilə əlaqələndirilir. Bu sözün mənası isə köçəri deməkdir [12, 198]. Müəllif Xəzər Xaqanlığını formalaşdıran əhalinin əsasən türk-bolqarlardan və digər türk qəbilələrindən, İran dilli alanlardan ibarət olduğunu və macarların babaları olduğunu bildirir [ 12, 198]. Son nəticə olaraq, bildirmək olar ki, Xəzərlərin mənşəcə türk olduğunu təkcə rus alimləri deyil, həmçinin Xaqan Yusifin məktubu, Bizans və Ərəb müəllifləri də təsdiqləyirlər.

Xəzər Xaqanlığını idarə edən sülanənin kimliyidə, daima rusiya tədqiqatçılarının diqqətində olmuşdur. Qeyd etmək yerinə düşər ki, onlar bu məsələnin qabardılmasında maraqlı görünürlər. Xüsusilə, Aşina sülaləsinin türk olduğu, ancaq xəzərlərin türk olmadığı problemini qabartmağa çalışırlar. Bizcə bunun səbəbi rusların öz tarixində baş vermiş norman hadisəsilə paralellik yaratmaq istəyindən irəli gəlir. Rus tarixşünaslığında Xəzər Xaqanlığını idarə edən sülalənin Türk xaqanlığının aparıcı sülaləsindən biri olan Aşina sülaləsi olduğu haqqında ziddiyyətlər çox zəifdir. Bu sülalənin fəaliyyəti Qərbi Türk xaqanlığının tarixilə bağlı olduğu üçün Qərbi Türk xaqanlığının son zamanlarına diqqət yetirmək faydalı olardı. 630-cu ildə Ton-yabqu xaqanın qətlindən sonra dövlət tamamilə daxili ziddiyyətlər və müharibələrlə məşğul olmuşdur. Xaqanlıqda mübarizə aparan əsas sülalə isə Dulo və Nuşibi olmuşdur [ 10, 159-160]. Dulo sülaləsi Xelu Şabola Xan başçılığında

qalib gəldikdən sonra, Nuşubi sülaləsinin başçısı İbi- Şequy xanın aqibətinin necə olduğu və tərəfdarlarının hara qaçdığı məlum deyildir. M.İ. Artamonov bildirir ki, çox güman ki, onlar Nuşubi sülaləsinə sədaqətli olan xəzərlərin yanına sığınmış və Aşına sülaləsindən olan xaqanla müstəqil Xəzər Xaqanlığını yaratmışlar [2, 170]. Lakin V.F. Minorski bu baxışın əsassız olduğunu bildirmiş, onun bu görüşüilə A.P.Novoselçevdə razılaşmışdır. Sonuncunun fikrinə görə, digər əlyazmalarda bu haqda məlumat yoxdur [ 11, 134-138].

Xəzər xaqanlarının sülaləsi ilə bağlı ziddiyyətləri çözmək üçün, faktlara məntiqi yanaşmaqdan başqa yol qalmır. Burada belə bir sual doğur, əgər həqiqətən Xaqan Xəzər xalqının öz içindən çıxmışsa, Cənubi- Şərqi Avropada və Qafqazdakı xalqalar tərəfindən Xaqan sifətilə az bir zamanda necə qəbul olunmuşdur? Çünki, Xaqanın hakimiyyət bütün etnik quruplarin başçılarının fövqündə dayanan pisixaloji bir xarakter daşıyırdı. Buradan çıxış edərək demək mümkündür ki, Xəzər xaqanları, bütün xalqların qəbul edəcəyi bir sülalənin nümayəndəsi olmalı idi. Nəzərə alsaq ki, Xəzər xaqanlığı Qərbi Türk xaqanlığının daxilində qurulmuşdur və Aşına sülaləsi isə Göytürk xaqanlığında aparıcı bir sülalə olmuşdur, bu birəşdirici güc qısa bir zamanda ərəb hücumlarına cavab verməyə qadir və qüdrətli bir dövlət yarada bilərdi.

Bu sülaləni nüfuzlu edə biləcək əsas dəlillərdən biridə odur ki, onlar Türk xaqanlığının əsas qurucu tərəfi olmuşlar. 542 -c i ildə türklər Juan- jeuaney xaqanını məğlub etdikdən sonra, Aşina sülaləsinin başçısı Bumun, xaqan elan edilmişdir, bir neçə onillik ərzində türklər Cənub-Şərqi Avropayadək öz sərhədlərini genişləndirdilər. 521-ci ildə Qafqaz Dərbəndədək xaqanlığın tərkibinə qatıldı [ 2, 137-138; 10, 47-50]. Sonradan Türk xaqanlığı iki hissəyə parçalanmışdır. Qərbi Türk Xaqanı Yabqu Xaqan titulunu daşımış və formal olaraq, Şərqi Türk xaqanlığından asılı olmuşdur. Qərbi Türk xaqanlığı öz nüfuzunu itirdikdən sonra, müstəqil Xəzər xaqanlığı yaranmışdır. Qərbi Türk xaqanlığının dağılmasından sonra yaranmış Xəzər Xaqanlığını, onun varisi adlandırmaq daha düzgün olar. Xəzər xaqanlığı konfederativ dövlət sisteminə bənzəyən qurluşa sahib olmuşdur. Yuxarıda qeyd olunanlardan, bu nəticəyə gəlmək olar ki, Rusiya xəzərşünasları Xəzər xaqanlığının yaranması, inkişafı, mədəniyyətini öyrənmək üçün, kifayət qədər cidi işləsələrdə, xəzər xalqının mili kimliyini qəbul etməkdə, çətinlik çəkmişlər. Görünür, bu, onların dövlət maraqlarına uyğun gəlmir.

**Açar sözlər:** *Xəzərlər, xaqan, sülalə, tarix, xəzərşünaslıq.*

### ƏDƏBİYYAT SİYAHISI

*1.АристовН.А. Заметки об этническомь состав тюркских племен и народностей. С.Петербург, Типография С.Н.Худеков, 1897- 182с*

*2. Артамонов.М.И. История Хазар Ленинград, Государственные Эрмитажи, 1962, 522с.*

*3. Артамонов.М.И. История Хазар, СПб, «Лань» 2001, 688с.*

*4. Артамонов.М.И. Очерки древнейшей истории Хазар, Ленинград, Государственное Социально-Экономическое издательство Ленинградское отделение, 1936, 136.*

*5.Ашмарин Н.И. Для изследования чувашского языка. Часть первая- вторая, Казань, Типо-Литография император Университета Казань, 1898*

*6.Вайнберг.Б.И. Этнография Турана в древности VII в до н.э- VIII в н.э Москва, Фирма Восточная литература РАН. 1999*

*7. Гадло А.В. Этническая история Северного Каказа вв, Ленинград, ЛГУ,1979, 216с.*

*8. Григорьев В.В. Обзорь политической истории Хазаров (Россия и Азия) С-Петербург 1876, с 45-65.*

*9. Григорьев В.В. О двойственности верховной власти у Хазаров (Россия и Азия) С-Петербург 1876, с 66-78.*

*10.Гумилев Л.Н. Древние Тюрки, Москва, Наука, 1967, 501с.*

*11.Новосельцев А.П. Хазарское государство и его роль в истории Восточной Европы и Кавказа, Москва; Наука, 1990, 264с.*

*12.Петрухин В.Д., Раевский Д.С. Очерк истории народов России в древности и ранним средневековое, Москва; Языки русской культур*

*1998, 384с.*

*13. Плетнева С.А. Хазары. Москва; Наука, 1986, 96с.*

*14. Повести Древней Руси. Ленинград, 1983,571с.Составление Понырко.Н.В*

*15.Рыбаков Б.А. К вопросы о роли Хазарского Каганата в истории Руси //Советская археология TX VIII , 1953, с*

*16. Семйонов И.Г. О происхождении династии Хазарских каганов и времени образования Хазарского Каганата. Восток (ORIENS) №5, 2010, с 5-14.*

*17.Asur Kustler. İmbraturiyyeti əl-Xazar va mirasuhə, əl-Qabilətu əs-Səlisətə aşratə, Beyrut, Dəru əl-Yusuf, 2004, 287s.*

**Ахмедов М.**

**Проблемы возникновения Хазарского Хаганата и происхождения хазар в российской историографии**

**РЕЗЮМЕ**

В этой статье исследуется вопросы Хазарского Каганата- его формирование, этнический состав и изучение представителей этой династии в Русской историковедении. Автор этой статьи исследовал и рассуждал степень изучения данной темы в Русской научной литературе, основываясь на первоисточники.

Изучая материалы методом критического анализа автор, пришел к выводу, что изучения истории Хазарского Каганата является одной из приоритетных тем для Русских историков. Изучения Русской истории требует обширное изучение Хазарского Каганата. Несмотря на то, что Русские историки иногда пытались уменьшить роль хазаров, нельзя отрицать их огромную работу в изучении истории Хазарского Каганата.

**Ключевые слова:** *Хазары, каган, династии, история, хазароведение.*

**Ahmedov M.**

**The problem of the emergence of the Khazar Khaganate and its ethnic origin in Russian historiography**

**SUMMARY**

The history of Khazar Khaganate, its creation, formation, ethnical structure and research of members of this dynasty in Russian history. The author of this article investigated study level of this topic in Russian scientific literature, based on the initial sources.

Studying the materials by critical analysis, the author came to the conclusion that studying the history of the Khazar Kaganate is one of the priority topics for Russian historians. The study of Russian history requires an extensive study of the Khazar Kaganate. Despite the fact that Russian historians sometimes tried to reduce the role of the Khazars, their huge work in research the history of the Khazar Kaganate cannot be denied.

**Keywords:** *Khazars, khakan, relations, history, caspian studies.*

# MÜNDƏRİCAT

## BEYNƏLXALQ MÜNASİBƏTLƏR

АЛИ ГАСАНОВ: «КОНТРАКТ ВЕКА» - ПРОЕКТ, ПРЕВРАТИВШИЙ АЗЕРБАЙДЖАН В НЕОТЪЕМЛЕМУЮ ЧАСТЬ ГЛОБАЛЬНОЙ МИРОВОЙ ЭКОНОМИКИ........................................ 5

АРИФ ГУЛИЕВ: ГЛОБАЛИЗАЦИИ И СТЕПЕНИ ПОРОЖДАЮЩЕЙ ПРЕСТУПНОЕ ЯВЛЕНИЕ КАК ТЕРРОРИЗМ В СОВРЕМЕННОМ МИРЕ................................................................ 11

BERK CAN KOZAN: GEOSTRATEGIC VALUE OF TURKEY........................................................... 18

ELDAR ƏMİROV: İRAN İSLAM RESPUBLİKASININ SURİYA BÖHRANININ TƏNZİMLƏNMƏSİNDƏ ROLU: SİYASİ-İDEOLOJİ VƏ GEOSİYASI ASPEKTLƏR........................ 23

НИГЯР БАЙРАМОВА: МОДЕРНИЗАЦИЯ ФАКТОРОВ ГЕОПОЛИТИЧЕСКОГО ПОЗИЦИОНИРОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ.................................................. 29

RAHU ŞİRİNOVA: AZƏRBAYCAN RESPUBLİKASININ GEOSİYASİ İNKİŞAF STRATEGİYASI 34

АББАС АЛИЕВ: МЕСТО И РОЛЬ ГАЗОВОГО ВЕКТОРА В ОБЕСПЕЧЕНИИ ЭНЕРГЕТИЧЕСКОЙ БЕЗОПАСНОСТИ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ И ЕВРОПЕЙСКОГО СОЮЗА........................................................................................................... 40

MEHDİ İSMAYILOV: AZƏRBAYCAN-YUNANISTAN SİYASİ MÜNASİBƏTLƏRİ....................... 45

GÜNEL MƏLİKLİ: AZƏRBAYCANIN BEYNƏLXALQ ALƏMDƏ TANINMASI VƏ BEYNƏLXALQ STRUKTURLARA İNTEQRASİYASI........................................................................ 51

GÜLŞƏN HÜSEYNOVA: MÜASİR DÖVRDƏ TƏHSİL VƏ ELM SAHƏSİNDƏ AZƏRBAYCAN-QIRĞIZISTAN ƏMƏKDAŞLIĞI.................................................................................. 61

АЙГЮЛЬ ЭФЕНДИЕВА: ПОЛИТИЧЕСКИЕ АСПЕКТЫ АЗЕРБАЙДЖАНО-УКРАИНСКИХ ГУМАНИТАРНЫХ СВЯЗЕЙ.............................................. 69

NƏRMİN QƏDİROVA: YUNESKO VƏ AZƏRBAYCAN HUMANİTAR SİYASƏTİ................... 75

ŞAİQ ƏLİYEV: TRACECA LAYİHƏSİNİN REGİONAL VƏ BEYNƏLXALQ ƏHƏMİYYƏTİ VƏ AZƏRBAYCAN RESPUBLİKASININ FƏALLIĞI...................................................................... 80

НАФИЛЯ РАГИМОВА: ВЛИЯНИЕ КОНСТИТУЦИОННОЙ РЕФОРМЫ 2017 ГОДА В ТУРЦИИ НА ПРОЦЕСС ПРИНЯТИЯ ВНЕШНЕПОЛИТИЧЕСКИХ РЕШЕНИЙ................ 87

VÜSAL QULİYEV: AZƏRBAYCANDA DÖVLƏT XİDMƏTLƏRİ SEKTORUNDA İSLAHATLAR 92

SEVDA KƏRİMOVA: UŞAQ HÜQUQLARININTƏDRİSİ PROBLEMLƏRİ..................................... 98

## SİYASİ ELMLƏR

MURTƏZA HƏSƏNOV: AZƏRBAYCAN RESPUBLİKASINDA DÖVLƏT İDARƏÇİLİYİ SİSTEMİNDƏ İSLAHATLAR.............................................................................................................. 102

## PEDAQOGİKA

MÜSLÜM NƏZƏROV: MÜASİR ALİ TƏHSİL SİSTEMİNİN İNKİŞAFININ ƏSAS İSTİQAMƏTLƏRİ........ 113

## SOSİOLOGİYA

CEYRAN RƏHMƏTULLAYEVA: İNKİŞAF ETMİŞ XARİCİ ÖLKƏLƏRİN TƏCRÜBƏSİ BAXIMINDAN SOSİAL XİDMƏTƏ YENİ YANAŞMALAR........ 119

## İQTİSADİYYAT

ŞƏFA ƏLİYEV: SUMQAYITIN SOSİAL-İQTİSADİ İNKİŞAFININ DÜNYA SƏVİYYƏSİNƏ QALDIRILMASINDA İLHAM ƏLİYEV MODELİ........ 127

LOĞMAN ABDULLAYEV: AZƏRBAYCANDA İNSAN KAPİTALINDAN İSTİFADƏNİN SƏMƏRƏLİ TƏŞKİLİNİN STRATEJİ MƏSƏLƏLƏRİ........ 134

VAHİD ƏLİYEV: AZƏRBAYCANIN MALİYYƏ XİDMƏTLƏRİ BAZARINDA SİSTEM ƏHƏMİYYƏTLİ BANKLARIN MULTİPLİKATİV XÜSUSİYYƏTLƏRİNİN MÜHÜM ASPEKTLƏRİ........ 140

ƏLİHEYDƏR MAHMUDOV: AZƏRBAYCANDA TEXNOPARK İNSTİTUTUNUN SƏMƏRƏLİLİYİNİN YÜKSƏLDİLMƏSİNİN MÜASİR PROBLEMLƏRİ VƏ HƏLLİ YOLLARI........ 145

MƏTLƏB MƏHƏRRƏMOV: SƏNAYE MÜƏSSİSƏLƏRİNİN MALİYYƏ MEXANİZMLƏRİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ........ 150

MURAD SALMANOV: AZƏRBAYCANDA NEFTKİMYA MÜƏSSİSƏLƏRİNİN İXRAC POTENSİALININ ARTIRILMASI İSTİQAMƏTLƏRİ VƏ PERSPEKTİVLƏRİ........ 155

AYDAN ZƏRBƏLİYEVA: AZƏRBAYCAN RESPUBLİKASINDA KİÇİK VƏ ORTA SAHİBKARLIĞIN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ MEXANİZMLƏRİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ........ 160

## FƏLSƏFƏ

ФАИГ АЛИЕВ: МУЛЬТИКУЛЬТУРАЛИЗМ КАК ФАКТОР СТАНОВЛЕНИЯ СОВРЕМЕННОГО ДЕМОКРАТИЧЕСКОГО ОБЩЕСТВА........ 170

## TARİX

ŞƏFAYƏT FƏRƏCOV, HİKMƏT ƏHMƏDOV: XIX ƏSRİN 90-CU İLLƏRİNDƏ CƏNUBİ AZƏRBAYCANDA YAŞAYAN ƏHALİNİN DEMOQRAFİK VƏZİYYƏTİ........ 175

LEYLİ HƏMİDOVA: XV ƏSRDƏ ŞİRVANŞAHLAR DÖVLƏTİNİN MƏDƏNİ İRSİ........ 180

EMA HƏSƏNOVA: ERMƏNİ TERRORU VƏ BU TERRORDA KİLSƏNİN ROLU........ 186

MƏHƏRRƏM ƏHMƏDOV: XƏZƏR XAQANLIĞININ ETNİK MƏNŞƏYİ VƏ YARANMASI PROBLEMİRUSİYA TARİXŞÜNASLIĞINDA........ 191

**Korrektor:**
**Leyla Binyatova**

**Dizayner:**
**İman Hüseynov**

**Redaksiyanın ünvanı:**
**Mətbuat pr. 23M. Beynəlxalq Mətbuat Mərkəzi**
**Tel: (+994 12) 537 16 05**
**Faks: (+994 12) 537 16 05**
**E-poçt:**
**strategiya.az@mail.ru**

**Tiraj: 1000**
**Sifariş №**

**"Zərdabi LTD" 2019**

**Corrector:**
**Leyla Binyatova**

**Designer:**
**Iman Huseynov**

**Address of the editorial office:**
**Matbuat ave. 23M. International Press Centre**

**Tel: (+994 12) 537 16 05**
**Fax: (+994 12) 537 16 05**
**E-mail:**
**strategiya.az@mail.ru**

**Number of copies printed: 1000**
**Order №**

**“Zardabi LTD” 2019**